AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

**MƏMMƏD SADIQOV**

# GÜRCÜSTAN RESPUBLİKASINDA AZƏRBAYCANLILARIN SOSİAL-İQTİSADİ VƏ İCTİMAİ-SİYASİ VƏZİYYƏTİ

**(tarixi-coğrafi aspektdə)**

-14841-

Azərbaycan Respublikası Prezidentinin
İşlər idarəsi
PREZİDENT KİTABXANASI

**Bakı – 2010**

*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur.*

**Elmi redaktor:** Ramiz Məmmədov
*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, texniki elmlər doktoru, professor*

**Rəyçilər:** M.Seyidbəyli
K.Şükürov

S15 **Sadıqov M.O.**
**Gürcüstan Respublikasında azərbaycanlıların sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti.**
Bakı, «Təhsil», 2010, 168 səh.

S $\frac{4306020600}{053}$ 2010

© «Təhsil», 2010

# GİRİŞ

*«Əgər siz ata-babalarınızın müqəddəs yerlərini Vətən sanırsınızsa, onların əsl sahibi olmalısınız...»*
*Nəriman Nərimanov*

Hər bir xalqın, millətin müstəqillik və demokratik dövlətçilik şəraitində öz milli varlığını dərindən dərk etməsi, uzaq-yaxın tarixi keçmişini çağdaş təfəkkür süzgəcindən keçirmək səviyyəsinə malik olması, özünəməxsus maddi və mənəvi dəyərləri qoruyub saxlaması taleyüklü məsələlərin ən vacibidir.

Aydın məsələdir ki, uzun və keşməkeşli təkamül yolu keçmiş Azərbaycan türklərinin tarixi-etnoqrafik, irsi kökləri yalnız indiki müstəqil Azərbaycan Respublikasının mövcud coğrafi ərazisində deyil, onun hüdudlarından kənar məkanlarda da mövcuddur. Biz vaxtilə Azərbaycanın dədə-baba torpaqları olmuş, lakin zaman-zaman tarixi, ictimai-siyasi səbəblər ucbatından başqa məmləkətlərin ərazilərinə «qatılmış», ilhaq olunmuş yurd yerlərimizi, bölgələrimizi nəzərdə tuturuq.

Ayrı-ayrı tarixi mərhələlərdə təzyiqlər, bəhanələr, əsassız iddialarla, bəzənsə zorakı yollarla Ermənistan, Gürcüstan, Dağıstan və digər qonşuların ərazilərinə «birləşdirilən» həmin torpaqların qanuni sahibləri olan Azərbaycan türkləri olmazın müsibətlərə tuş gəlmiş, ağrı-acılarla üzləşmişlər. Bununla belə, onlar zamanın amansız qasırğalarına, təlatümlərinə mətanətlə, əzmlə, qeyrətlə sinə gərərək öz müqəddəs ana dilini, ulu əcdadlarının yüksək əxlaqlı keyfiyyətlərini, bütöv azərbaycanlı təbiətini, vətən torpağına sonsuz məhəbbətini, soy-kökə bağlılığını, əsrlər boyu iftixarla, vüqarla qoruyub saxlamış, bu əvəzsiz mənəvi dəyərləri müqəddəs miras kimi gələcək nəsillərə ötürmüşlər.

Hiyləgər, acgöz, məkrli qonşular xalqımızın mənəvi keyfiyyətinin əsasını təşkil edən qonaqpərvərlik, alicənablıq, ürəyiaçıqlıq, səmimilik kimi dəruni hislərindən sui-istifadə edərək, fürsət düşdükcə qılığa girib, onun sadəlövh, səbatsız başçılarını aldatmış və bu arxalı köpəklər minlərlə soydaşımızı dədə-baba yurdlarından elliklə qovmağa müyəssər olmuşlar.

Nə edəsən indi?! Çox təəssüflər olsun ki, «kirvə-kirvə» deyərək məclislərimizin yuxarı başına çəkdiyimiz, yağlı tikəmizi yedizdirdiyimiz bu əzazil əqrəblərin törətdiyi vəhşiliklərdən, xəyanətlərdən vaxtında lazımi nəticə çıxarmayaraq xalqın sinəsinə çəkilən dağları tez unutmuşuq.

Belə olmasaydı 1990-cı ilin 20 yanvar qanlı faciəsi, Xocalı soyqırımı baş verməzdi; qondarma «Qarabağ problemi» yaranmazdı; «vicdanı sönük», başsız başçılarımızın əfəlliyi üzündən müqəddəs torpaqlarımız, şərəfimiz yad ayaqlar altında tapdalanmazdı. Gözümüz görə-görə, ağlımız kəsəkəsə bu haqsızlığa hələ dözürük biz. Olan olub, keçən-keçib. Aqillərin təbirincə desək, «Ocağı söndürüb, külü ilə oynamaq» vaxtı deyil.

Qədim Odlar yurdumuzun azadlığı, istiqlaliyyəti uğrunda yadelli işğalçılara qarşı savaşlarda zəfərlər qazanmış mübariz ruhlu Azərbaycan xalqı bu gün susub qala bilməz. Bu əyilməz, yenilməz xalq öz tarixi qəhrəmanlıq ənənələrini yaşatmış, yaşadır, yaşadacadır. Planetimizin hansı guşəsində məskunlaşmasından asılı olmayaraq, hər bir qeyrətli Azərbaycan türkü, azərbaycanlı soydaşımız eyni qayə ilə nəfəs alır, onun ağzında dili eyni söz üstə titrəyir: Azərbaycan!!!

Bəli, elə olmağına elədir. Amma orası da var ki, «halva-halva deməklə, ağız şirin olmaz».

Yetmiş il ömür etmiş SSRİ dağıldıqdan sonra onun keçmiş tərkib hissələrindən biri – Quzey Azərbaycana da müstəqillik səadəti nəsib oldu. Birləşmiş Millətlər Təşkilatında öz üçrəngli bayrağını ucaldan müstəqil Azərbaycan dövlətinin taleyində yeni dövr başlandı. XXI əsrin astanasında yeni inkişaf yoluna qədəm qoyan Gənc Azərbaycan Respublikası



çox ağır, təxirəsalınmaz, vacib iqtisadi-sosial problemlərin həll edilməsi ilə üzləşdi. Hava kimi, su kimi həyat əhəmiyyətli problemlərdən biri də respublika hüdudlarından kənarda mövcud olan Azərbaycan diasporu, icmaları məsələsidir.

Son illərin mürəkkəb siyasi-iqtisadi hadisələri müstəqillik qazandıqdan sonra Azərbaycanın, müəyyən mənada, təklənməsi göstərir ki, dövlətimizin hüdudlarından kənarda yaşayan soydaşlarımızla bu vaxtadək mövcud olan əlaqələr kifayət qədər sıx, möhkəm, səmərəli əsaslara malik deyildir. Elə buna görə də xaricdəki azərbaycanlıların bir diaspor kimi təşkilatlanması, onların fəaliyyətinin mərkəz, cəmiyyət, ocaq və s. formalarda təşkil edilməsi zamanın hökmündən doğan zərurətdir. Bunu həm Azərbaycan dövlətinin, həm də başqa ölkələrdə yaşayan azərbaycanlıların həyatı, varlığı, müqəddəratı tələb edir.

Əlbəttə, son illərin təcrübəsi, Azərbaycan dövlətinin, Ümummilli lider Heydər Əliyevin daxili və xarici siyasəti, xüsusən dövlət başçımızın xaricə səfərləri zamanı oradakı soydaşlarımızla görüşləri, söhbətləri, tövsiyələri icma və diasporumuzun formalaşmasına, fəaliyyətinin canlanmasına güclü təkan vermişdir.

Hazırda soydaşlarımızın təxminən 400–500 min nəfəri Borçalıda və Gürcüstanın digər bölgələrində – Qardabani (Qarayazı), Salka (Barmaqsız), Qaraçöp, Saqareco, Laqodexi, Msxeta, Telavi, Kareli, Kaspi, Tbilisi, Rustavi və s. məntəqələrində yaşayır, dədə-baba ocaqlarını sönməyə qoymur, adət-ənənələrimizi yaşadıb davam etdirir, Azərbaycan türklərinin şöhrətli adına layiq övladlar böyüdüb ərsəyə çatdırırlar. Başı – Başkeçid, ayağı – Sınıq körpü, Xram-Kür sahillərindən Türkiyə civarlarınadək uzanıb gedən aranlı-yaylaqlı «Borçalı dəhlizi», ağır salğarlı, batman gəlişli, sazlı-sözlü qədim, cəngavər Borçalı elləri...

Ermənistan-Azərbaycan-Qarabağ münaqişəsi ilə 80-ci illərin axırlarından etibarən Borçalı ilə yanaşı, Gürcüstanın digər bölgələrində yaşayan Azərbaycan türkləri, sözün tam mənasında, «olum, ya ölüm» problemi ilə üzləşdi.

Bu doğma torpaqdan 165 minə yaxın Azərbaycan türkü müstəqil Azərbaycana (85–90%) və keçmiş SSR-nin müxtəlif rayonlarına qaçqın-köçkün düşmüşdur. Bu qeyri-bəşəri hadisələrin gələcəkdə də təkrarlanmaması üçün həmin regionlarda soydaşlarımızın tarixi keçmişini, onların müxtəlif bölgələrdə məskunlaşması, əhalinin əmək məşğuliyyəti, peşəsi, adət-ənənələri, maarif-mədəniyyəti, təhsil səviyyəsi, sosial-iqtisadi vəziyyəti, digər xalqlarla dostluq, həmrəylik və qardaşlıq əlaqələrini elmi araşdırmalar vasitəsilə tədqiq etmək günün aktual problemlərindəndir. Odur ki, bu vacib və təxirəsalınmaz məsələləri elmi əsaslarla öyrənmək üçün Azərbaycan MEA-nın Tarix İnstitutu rəhbərliyinin təşəbbüsü ilə 2003–2006-cı illərdə «Gürcüstanda Azərbaycanlıların sosial-iqtisadi vəziyyəti» adlı monoqrafiyanın yazılması qərara alındı. Monoqrafiyada Gürcüstanda yaşayan azərbaycanlıların tarixi, ictimai-siyasi və sosial-mədəni həyat tərzindən söhbət açılır. Monoqrafiya üç fəsil, 12 paraqraf, giriş, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Burada hər biri 50–100 ildən bir müəllif tərəfindən tərtib edilmiş 4 əhali xəritə-sxemi verilir. Birinci fəsil «Gürcüstanda yaşayan Azərbaycan türklərinin tarixinə bir nəzər» adlanır. Bu fəsildə onların məskunlaşmasının tarixi, məşğuliyyətlərinin inkişaf istiqamətləri, bölgələrin təbii-coğrafi şəraiti və digər əhəmiyyətli məsələləri işıqlandırılır. İnzibati bölgələr üzrə əhalinin demoqrafik quruluşu, mexaniki və təbii hərəkəti, doğum-ölüm əmsalları, onların digər xalqlarla (azsaylı) müqayisəsi elmi dəlillər əsasında açıqlanır.

«Azərbaycanlıların sosial-mədəni həyat tərzi və onların adət-ənənələri» adlanan ikinci fəsildə əhalinin sosial zəminləri, mədəni həyat tərzi öz əksini tapır. Bütün iqtisadi göstəricilər 250 illik tarixi faktların məlumatlarına istinad olunaraq araşdırılır. Mahalda son yüzilliyin 50 ilində inzibati rayon çərçivəsində və V əsrdən isə ümumi olaraq təhsil və maarifin inkişaf istiqamətləri tam dolğunluğu ilə araşdırılır.

Ən nüfuzlu təhsil ocaqları, onların təsir dairələri elmi əsaslarla, arxiv və cari mətbuat materiallarının köməyi ilə dəqiqləşdirilmiş, araşdırılıb ümumiləşdirilmişdir.



Gürcüstan bölgələrində məskunlaşan azərbaycanlıların yaşatdıqları adət-ənənələri, bayram şənlikləri, mərasimləri, ən qədim dövrlərdən XX əsrin son illərinə kimi arxiv sənədləri, mətbuat materialları və mövcud faktlardan səmərəli istifadə edilərək işıqlandırılmışdır.

Monoqrafiyanın üçüncü fəslində iki bənddən ibarət yığcam tövsiyə – təklif verilmişdir.

Tədqiqatın «Nəticə» hissəsində nəzərdə tutulmuş məzmun–mətləbə əsasən hər paraqrafa müxtəlif xülasə verilir, əməli təkliflər irəli sürülür. Monoqrafiyanın ərsəyə çatıb tamamlanmasında müəllifin şəxsi tədqiqatlarından, elmi məzuniyyətlərdən, tarixi arxiv materiallarından, qədim əlyazmalarından, arxeoloji material toplularından bəhrələnməsi ilə yanaşı, yerli əhali arasında aparılan sorğu, anket metodu və tarixi-coğrafi xəritə-sxem materiallarından, arxeoloji material toplularından da geniş istifadə olunmuşdur.

# FƏSİL I

## GÜRCÜSTAN RESPUBLİKASINDA AZƏRBAYCANLILARIN SOSİAL-İCTİMAİ VƏZİYYƏTİ VƏ İQTİSADİ DURUMU HAQQINDA

### § 1. Azərbaycanlılar yaşayan bölgələrin təbii-coğrafi şəraiti

Ərazinin bir neçə dəfə «dəyişdirilməsinə» baxmayaraq, ulu Borçalının sahəsi, 1880-ci ilin məlumatına görə, 5.940 km$^2$, 1905-ci ildə 6.870 km$^2$, 1917–1921-ci illərdə 4.360 km$^2$, 1922–1929-cu illərdə (qəza 1929-cu ildə dörd inzibati rayona bölünür) isə cəmi 2.655 km$^2$ olub. Yəni bölünməz Borçalı zaman-zaman Dardanel boğazı kimi «daralıb», Şura hökumətinin gəlişi ilə isə, demək olar, ikiyə bölünüb: yarısı Gürcüstan Respublikasına, yarısı isə zor gücünə Ermənistana qatılıb. Beləliklə, bütöv ərazi üç coğrafi əyalətə: dağlıq Borçalıya, düzən və ya aran Borçalıya və ovalıq-bağ Borçalısına ayrılmışdır.

Sultanlıq ləğv olunandan (1880) sonra Borçalı mahalı Tiflis quberniyasının tərkibindən çıxıb, üç hissədən – Borçalı, Loru və Trialet əyalətindən ibarət müstəqil bir inzibati bölgü kimi fəaliyyət göstərməyə başlayıb.

Mahal şimaldan Qori və Tiflis qəzası, şərqdən Tiflis qəzasının bir hissəsilə, cənub-şərqdən Yelzavetpol Quberniyasının Qazax nahiyəsi, cənub-qərbdən İrəvan Quberniyasının Aleksandropol qəzası, Qərbdən Ahılkələk qəzası ilə həmsərhəddir. Mahalın ümumi sərhəd xəttinin uzunluğu 485 kilometr olub, özünəməxsus landşaft qatına malikdir.

Ərazinin 2/3 hissəsi dağlıq (500-dən yuxarı olan ərazi), 1/3 hissəsi isə düzən və maili düzənlikdən ibarətdir. Mahalın ən böyük və geniş düzənliyi Borçalı düzənliyidir. Bu düzənlik



Gürcüstanın Azərbaycanla sərhəd bölgəsi ilə Ermənistanın Gürcüstanla həmsərhəd ərazisi arasında geniş sahəni əhatə edir. Bu düzənlikdə mahalın 100-dən artıq yaşayış məntəqəsi cəmləşmişdir. Borçalı mahalının şimal-şərq hissəsində yerləşən bu düzənlik dəniz səviyyəsindən 1100 fut (34 metr) yüksəklikdədir. Mahal şimaldan Yağılca alçaq dağlıq massivinin təpələri, Qərbdən Somxet tirəsinin meşə zolağı, cənubdan Babakər dağ silsiləsi ilə əhatə olunur. Şərqdən isə Kür çayı ilə Qarayazı çöllərindən ayrılır. Düzənliyin uzunluğu 35,4, eni 26,6 km, sahəsi isə 392,5 kv.km-ə bərabərdir. Düzənliyin səthi hamardır, bəzi sahələrdə təpəliklər diqqəti cəlb edir. Buranın təbii şəraitinin rəngarəng olmasında suvarma şəbəkəsinin inkişafı və ərazidən axan çayların təsiri çox böyükdür. Lakin onu da qeyd etmək lazımdır ki, bol və sıx su şəbəkəsinə malik olan Borçalı mahalında 100–150 il bundan öncə suların ətraf sahələri basması (yaz, payız) ərazidə yüz hektarlarla əkinə yararlı torpaq sahələrini sıradan çıxartmış, geniş bataqlıq sahələrin əmələ gəlməsinə səbəb olmuş və nəticədə ağır və uzun sürən yoluxucu malyariya (qızdırma), ağ ciyər və sarılıq xəstəliklərinin inkişafına zəmin yaratmışdır. Nəticədə kütləvi insan (1–8 yaşlı uşaqlar) tələfatına səbəb olmuşdur. Təbii artım, bir qayda olaraq mexaniki hərəkətin hesabına olmuşdur.

Borçalının iqlimi çox müxtəlif, rəngarəngdir. Belə ki, Dağlıq Borçalının (Trialeti nümayəndəliyi, Başkeçid-Qomaret və Loru nümayəndəliyinin dağlıq ərazisi) qışı əsasən soyuq, yazı mülayim, yağmurlu, payızı yağmurlu və soyuq, yayı isə dumanlı və mülayim, bəzən isə qızmar keçir.

Aran Borçalı (Lorunun bir hissəsi daxil olmaqla), Borçalı və Zəlyə düzənliyinin iqlimi isə, demək olar ki, il boyu kənd təsərrüfatı üçün tam yararlıdır, qış aylarında şaxtalı günlərin sayı təxminən 5–10 günə çatır. Yay ayları quraq və isti keçir, yaz ayları bəzən isti və əsasən yumşaq-mülayim hava axını ilə zəngin olur, payız ayı isə nisbətən yağmurlu olması ilə fərqlənir.

Mahalda ərazi üzrə iqlim ünsürlərinin qeyri-bərabər paylanması ərazinin torpaq-bitki örtüyünə öz təsirini (düzən və dağətəyi sahələrdə) göstərmiş, dağlıq ərazilərdə ilboyu yağmurun, qış aylarında isə lazımi qar qatının olması sıx meşə sahələrinin əmələ gəlməsində böyük rol oynamışdır.

Qeyd etməliyik ki, XII əsrdən başlamış XVIII əsrin əvvəlinə kimi Şərqi Gürcüstan ərazisinin bütövlükdə iqlimi haqqında heç bir tədqiqat materiallarına rast gəlinmir. Yalnız eramızın XVIII əsrində müxtəlif səpkidə (tarixi etnoqrafik oçerk) iqlim mövzusuna aid çox primitiv materiallara rast gəlinir. Bütün yazılı mənbələrdə bu sahələrə aid materiallar sorğu şəklində aparılmışdır. Bu baxımdan Gürcüstanın Azərbaycan türkləri yaşayan ərazisinin coğrafi mövqeyini təbii şəraitini və təbii komponentlərini biz yalnız əsrin əvvəllərində işıq üzü görmüş kitablar, digər materiallar, müasir dövrdə isə çöl-praktiki öyrənmələr zamanı əldə olunan nəticələrlə müqayisəli şəkildə araşdırıb dəqiqləşdirdik. Müşahi-dələrə, elmi təhlil ümumiləşdirmələrə əsaslanaraq deyə bilərik: təbii şəraiti, torpaq-bitki örtüyü, səfalı ab-havasına, təmiz, sağlam iqliminə, bol su ehtiyatlarına və günəş enerjisinin (sutka ərzində) faydalı olmasına görə bu ərazilər əvəz olunmazdır. Onu da qeyd etmək lazımdır ki, Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrinin coğrafi mövqeyi digər mahal və bölgələrə nisbətən yaşayış üçün çox əlverişli olub, buradan Zaqafqaziyaya, Yaxın və Orta Şərqə, eləcə də Avro-paya birbaşa çıxış yolu vardır.

Zəngin təbiətli Borçalı mahalı özünün axar-baxarlı meşələri, çəmən və otlaqları, çağlayan, gur axan çayları və göz yaşı kimi dumduru təbii bulaqlarının zənginliyi, səfalı və sərin yaylaqları ilə orta əsrlərdən üzü bu yana Azərbaycan türklərinin əzəli vətəni olmuş və inanaq ki, əbədi Vətən olaraq da qalacaqdır.



## § 2. Gürcüstanda azərbaycanlıların məskunlaşma tarixinə dair

Qədim Azərbaycan torpağının ayrılmaz parçası olan Borçalı, ona bitişik bölgələr, eləcə də daimi sakinləri olan yerli türklər, onların tarixi keçmişi haqqında elmə məlum olmayan qaranlıq səhifələr var.

Son illər apardığımız araşdırmalar əsl həqiqəti əks etdirən belə bir nəticəni ortaya qoymuşdur ki, yeni eradan əvvəlki minilliklərdə Azərbaycanın şimal-qərb regionlarında türk mənşəli etnoslar yaşamışdır. Daha doğrusu, bu ərazilərdə müxtəlif dövrlərdə gəlmə türk qövmləri ilə yerli türklər arasında qaynayıb-qarışma prosesi baş vermişdir. Və bunun nəticəsi olaraq təkcə Borçalı (diasporaya aid olmayan) bölgəsində təxminən 60-dan çox türk mənşəli qövmlərin (tayfaların) izləri, nişanələri indi də yaşamaqdadır.

Azərbaycanlıların qədim türk mənşəli olması haqqında tarixdə çox mülahizələr söylənmiş, yazılmışdır. Ona görə elə bu gün də azərbaycanlıların etnosu, onların qədimliyi, hansı qollardan və soylardan yaranıb formalaşması ilə bağlı elm aləmində çoxlu dolaşıq fikirlərə rast gəlinir.

Son illərin araşdırmaları sübut edir ki, doğrudan da, albanları da azərbaycanlıların ulu əcdadlarından hesab etmək olar. Həmin ulu qədimlik eramızdan çox-çox əvvələrə – III minilliyə aparıb çıxarır və bu barədə aşağıda ətraflı məlumat verilir. Bilavasitə əcdadlarımız olan atropatenlilərin və albanların türk mənşəli olmalarını ilk dəfə sübuta yetirən türk mənbələri və Q.Qeybullayevin əsərləri olmuşdur. Əsaslı mülahizələr, araşdırmalar nəticəsində məlum olmuşdur ki, Azərbaycandan kənar düşsə də, Borçalı və onun ətraf məntəqələrində məskunlaşan əhalinin keçmişi milli mənsubiyyət baxımından orada yaşayan əhali ilə həmahəng formalaşmışdır.

Antik ədəbiyyatlarda indiki Gürcüstan (Borçalısız) ərazisi ilə bağlı, az da olsa, müəyyən materiallara rast gəlmək olur, lakin ən geniş məlumatlar qədim türk, ərəb, fars, yunan və alban

mənbələrindədir. Həqiqət naminə qeyd etmək lazımdır ki, qədim gürcü mənbələrində də belə materiallara rast gəlinir.

Ən qədim gürcü mənbələrində Movakan (indiki Balakən-Saqareco əraziləri) adlanmış, regionda əsasən din xadimləri Mannada, Midiyada, sonra da Əhəmənilər dövlətinin tərkibindəki maqlardan olmuşlar.

Mannaların türkdilli olması haqqında gətirdiyimiz faktlar kutillərin və zulubilərin Altay-türk mənşəli olması ehtimalını təsdiqləyir![1]

E.ə. VIII əsrin əvvəllərində antik müəlliflərin əsərlərində «Skif» adlandırılan bir böyük tayfa şərq çöllərində yaşayan və «Kimmer» adlanan tayfanın üstünə yeriyərək, ərazisini zəbt edir. Skiflərin təzyiqi altında Kimmerlər, onların ardınca Skiflər Cənubi Qafqaza, o cümlədən Azərbaycan ərazisinə (əsasən Qazax-Borçalı-Calaloğlu istiqamətində) hücum etmişlər.

Antik dövrlərin yazılı mənbələrində adı «Skif» kimi yazılan tayfa «Sak», yaxud «Saka», «Kimmer» kimi yazılan tayfa isə «Kəmər» adlarını daşıyırdılar. Bu iki tayfanın gəlişi türk mənşəli qövmlərin Azərbaycan (şimal-qərb) ərazisinə ilk böyük axını oldu. Bu axın nəticəsində Azərbaycan xalqının etnik tarixində köklü dəyişikliklər prosesi başladı.

Şimaldan gəlmiş «Kəmər» tayfaları Gürcüstanın Azərbaycanla həmsərhəd (Qori, Sığnax, Tiflis, Başkeçid, Sadaxlı, Ulaşlı, Baydar Təkəli, Muğanlı, Qarayazı) bölgələrini və Azərbaycanın Kür çayından cənubdakı bölgələrini tutdular. Lakin burada çox qalmadılar, çünki onların ardınca çoxsaylı döyüşkən sak tayfaları gəlirdilər. Kəmərlərin az hissəsi Azərbaycan-Gürcüstan sərhəd zonasında məskunlaşmış, çox hissəsi isə Urartu ərazisinə daxil olmuşdur. Eramızdan əvvəl 715-ci ildə Urartu ordusu ilə kəmərlərin[2] qanlı vuruşmasında urartulular məğlub olmuşlar. Kəmərlər Kiçik Asiyaya girib, e.ə. 675-

[1] Q.Qeybullayev. Azərbaycanlıların etnik tarixinə dair. Bakı, «Elm», səh. 34-36.
[2] Yenə orada.



ci ildə Frigiya dövlətini süquta yetirmişlər. Gürcüstan ərazisində və eləcə də Borçalıda yerli əhalinin əsasını təşkil edən saklar Qara dənizin şimalındakı çöllük ərazilərdə kəmərləri ərazicə sıxışdırmış, sonradan isə kəmərlərlə birlikdə Cənubi Qafqaza istiqamət götürmüşlər. Həm kəmərlər, həm də saklar suvari etnoslar idilər; onlar atdan qoşqu, minik vasitəsi kimi, həm də südündən və ətindən ərzaq kimi istifadə edirdilər. Ona görə də antik müəlliflər hər iki xalqı «at südü içənlər» adlandırırdılar. Bu hal bütün qədim türk xalqları üçün səciyyəvi olmuşdur. Saklar Gürcüstanın şərqini (Borçalı, Pənbəy) bütünlüklə şimali Azərbaycan ərazisini tutmuş və e. ə. 680-ci ildə Araz sahillərinə çatmışlar.[3]

Kəmərlərin bir qismi Kiçik Asiyada (Türkiyədə), digər qismi isə Azərbaycanın cənubunda bərqərar oldular; digərləri də gəlmə kəmərlərə qoşulub, Azərbaycan-Gürcüstan bölgələrinin yerli sakinləri ilə qaynayıb qarışmışlar. Kəmərli və yerli Borçalı əhalisi arasında bu bölgələrdə «Qəmərli» adı ilə hələ də onlarla kənd yaşayış məntəqəsi qalmaqda davam edir.

E. ə. 652-ci ildə yuxarıda adları çəkilən bölgələrdə müxtəlif etnik dillərdə danışan (yerli türklər, gəlmə türkmənlərin **fars dilli** tayfaları) xalqların qaynayıb qarışması, assimilyasiyaya uğraması nəticəsində əhalinin bəzən köçürülməsi, əsir halında digər bölgələrə sürgün edilib məskunlaşdırılması prosesi başlanmışdır. Bu hadisələr Azərbaycan ərazisində çoxsaylı türk mənşəli tayfaların etnik prosesinin yeni mərhələsinin əsasını qoydu. Manna və maday etnosları ilə kəmər və sak tayfalarının qaynayıb qarışması əsasında Atropaten Midiyası əhalisinin təşəkkül tapmasını təmin etmiş, etnik prosesə gəlmə türk mənşəli komponentlərin daxil olmasını sürətləndirmişdir.

Bu dövrlərdə Kür-Araz çayları boyunca (Qafqaz bölgəsində) müxtəlif türk mənşəli tayfa birləşmələrinin yerli sakinlərlə **konsolidasiya** olunması prosesində Azərbaycanın şima-

[3] Чубинашвили Т.Н. Древнейшая культура, двуречье Куры и Аракса. Тбилиси, 1955, стр.111.

lında, əsasən, Borçalı-Qazax, Qarayazı-Qaraçöp və Kaxet-Sığnax qollarında olan yaşayış məntəqələrinin tərkibində həddən çox «şın», «şən», «şin» və «li», «lu» şəkilçiləri olan adlar işlədilmişdir. Təxminən iki min ildən artıq vaxt keçməyinə baxmayaraq, Cavaxet dağlıq bölgəsində Qəmərli, Şindilər, Ormaşən, Ormeşen, Saja, Qarayazı-Muğanlı-Qaraçöp kimi yaşayış məntəqələri öz keçmiş adlarını hələ də saxlamışdır.

I əsr müəllifi Strabon əsərlərinin birində antik dövrlərdən başlamış ta erkən orta əsrlərə qədər Azərbaycanda, Cənubi Qafqazda və Borçalı düzənliyində çox geniş təşəkkül tapmış türk mənşəli tayfalarla yanaşı, Ermənistanda Qoqarena adlı əyalətin adını çəkir. Qədim mənbələrin verdiyi məlumata görə, Qoqarena (quqar tayfasının adından və Strabonun əlavə etdiyi «ena» şəkilçisindən) indi Ermənistandakı Quqark, Lorunun bir hissəsi, Pənbək, Gürcüstanda Ahılkələk, Dmanis, Axalsix və Borçalı ərazilərini əhatə edirdi. K.V.Trever belə hesab edirdi ki, «quqar»lar Albaniya və İberiyanın (Gürcüstanın) həmsərhəd bölgələrində məskunlaşıb yaşayırdılar.[4]

Bəzi gürcü tarixçiləri «quqar»ları iber (gürcü) dilli tayfa hesab edirlər. Əlbəttə, biz nə Strobonun, nə də gürcü mənbələrinin verdiyi məlumatlara inana bilmərik. Çünki elə eramızın əvvəllərində Qarayazı, Calaloğlu-Çoruk Qəmərli əyalətlərində yaşayan tayfalar artıq məlum idi. Qoraden deyil, quqar tayfası isə Gürcüstanda artıq məskunlaşmışdır. O ki qaldı gürcü mənbələrinə – bunlar isə tamam uydurmadır: birincisi, **V əsr erməni** müəllifi Favstos Buzand Albaniyanın şimal-şərqində «quqar» adlı tayfanın adını çəkir. Dağıstan ərazisində indi də Quqarlı adlı azərbaycanlı kəndi vardır. Belə misalları çox çəkmək olar.

V–VII əsrlərdə Albaniyanın (Azərbaycan da daxil olmaqla) şimal-qərbində, daha doğrusu, Gürcüstanın cənub-

[4] Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. М.-Л., 1959.



şərqində bir əyalətin adı Qardman, Girdman kimi qeyd edilirdi. Əvvələn, Qardman (V–VI əsr), sonra isə (VII əsr) Girdman adlanan bu bölgə indiki Ağstafa-Qazax-Balakən-Borçalı regionlarının ərazisini əhatə edirdi. Təxminən 1300 ildən artıqdır ki, Qardman və ya Girdman kimi adlandırılmış bir yaşayış ərazisi (məntəqə kimi) bu gün də Azərbaycan və Gürcüstan arasında körpü sayılan Qardaban (Qarayazı) yaşayış məntəqəsi kimi mühüm əhəmiyyəti kəsb edir və haqqında danışdığımız bölgənin adını tarixdə yaşadır. Daha dolğunluğu ilə desək, «Girdman» adı mənbələrdə eramızdan əvvəl baş vermiş hadisələrdə çəkilir və əhalisi «Qardman» adlanırdı. Lakin «Qardman» adlı nə tayfa, nə də ki xalq olub. Sadəcə olaraq, etnik mənbələrdə «qardmanlar» sözünə rast gəldikdə, o məntəqədə yaşayanlar nəzərdə tutulur. Bu bölgənin e. ə. VIII–VII əsrlərə qədər yerli əhalisinin milli tərkibi hələlik dəqiqləşdirilməyib. Lakin çox ehtimal, bizim araşdırmalarımızdan bu nəticəyə gəlmək olur ki, kəmərlər, saklar, bunların tərkibində isə utilər, quqarlar və sadaklar həmin əsrdə buraya gəlib məskunlaşmışlar. Güman etmək olar ki, (bəzən bunu bir sıra şərq mənbələri də təsdiq edir), Qardman adını da bu məmləkətə o dövrdə Orta Asiyadan gəlmiş saklar gətirmişlər. Çünki Orta Asiyada sıx məskunlaşmış sak tayfaları ilə əlaqədar (erkən orta əsrdə) Qardman əyalətinin (mahalının) adı çəkilir. Bu bölgədə kəmər tayfasının adı ilə Kəmərli (Qardaban r-nda), 110 km dağlıq ərazidə (Başkeçid) Qəmərli, sadak tayfasının adı ilə Borçalı nümayəndəliyinin Sadaxlı kəndini və ya Sadaqlı və s. kimi yaşayış məntəqələrinin adlarının yaranmasını qeyd etmək olar.

Girdman adlı digər bir əyalət Dağlıq Şirvanda yerləşirdi. Maraqlı burasıdır ki, Dağlıq Şirvanda bir çay Girdmançay adlandığı kimi, Şəmkirçay da qədimdə Girdmançay adlanırdı. Mənbələrdən məlum olur ki, Dağlıq Şirvanda Girdman mahalının adı ilk dəfə XVII əsrdə Fələki Şirvaninin şeirlərində çəkilir. Ümumiyyətlə, IV–V əsrlər Qardman bölgəsində xristian dini hakim idi. Lakin bu o demək deyildir ki, əsrlər boyu bu bölgənin əhalisi xristian olmuşdur. Çünki an-

tik müəlliflərin verdiyi məlumata görə, e. ə. III–II minil-liklərdə bu ərazilərə müxtəlif vaxtlarda müxtəlif soyda türk mənşəli tayfalar gəlib məskunlaşmışdır. Qeyd etmək lazımdır ki, bu tayfaların əksəriyyəti bir müddət sonra qonşu ərazilərə maraq göstərmişdir. Bir faktı qeyd etməliyik ki, eramızın VI əsrində bu bölgələrə farslar da gəlib məskunlaşmışlar. Beləliklə, onu nəzərə çatdırmaq lazımdır ki, Azərbaycan xalqının təşəkkülü prosesinin əhatə etdiyi arealın sərhədlərinin təyini çox mürəkkəb bir problem olub, xüsusi tədqiqat obyektinə çevrilmişdir. Nəticə etibarilə, onu qeyd etməliyik ki, Azərbaycandan kənarda hər üç böyük region və mahalda məskunlaşmış əhalinin soykökünü qədim türk mənşəli tayfalar təşkil etmişdir. Bu tayfalar Ermənistanın Göyçə gölü ətrafı, İrəvan şəhəri və onun ətrafı, Loru, Pəmbək, Borçalı (həm Ermənistan, həm də Gürcüstan Borçalısı) Qara dənizin şimal-qərb bölgəsi, Ahısxa obaları, Qardaban (Qarayazı)-Muxran, Sığnax-Qaraçöp ərazisi və Gürcüstanın Duxoborlar (Pərvanə) gölü ətrafı, Boqdanovka, Barmağsız (Zəlyə) düzənliyi və s., yəni indiki Ermənistan, Gürcüstan və Dağıstan ərazilərində yaşamışlar.

Gürcü tacirləri Borçalı mahalında türkdilli əhalinin mənşəyini orta əsrə aid edirlər. Lakin son illərdə antik və erkən orta əsrlər müəlliflərinin materiallarını araşdırıb saf-çürük etdikdə bu nəticəyə gəlmək olur ki, qədimdə Qazax-Ağstafa mahalının, sonradan isə Borçalı bölgəsinin bilavasitə onun davamı olan bu ərazisində e. ə. VIII–VII əsrlərdən başla-yaraq türk mənşəli «kəmər», «sadak», «quqar», «qıpçaq», «oğuz», «kəngər», «cinli», tayfalarının adlarını əks etdirən toponimlər də diqqəti cəlb edir.

Eranın ilk əsrində, hər halda, VI əsrdən gec olmayaraq, Albaniyaya qıpcaq tayfaları gəldilər. Gəlmə qıpçaqlar, əsasən, Qazax-Boroçalı bölgəsində qərar tutub məskunlaşdılar. Azərbaycanın gəlmə tayfalarının məskunlaşması ilə əlaqədar olaraq, bir neçə yeni türk mənşəli qövmlər formalaşdı. Bu tayfalar aşağıdakılardır: kəbirli, ulaşlı, qaraçorlu, bozallar. Onlar Azərbaycanın şimal hissəsində – Ağstafa-Qazax-Borçalı bölgəsində məskən saldılar. Uzun tarixi bir dövr keç-



məsinə baxmayaraq, yuxarıda adları çəkilən toponimlər bu gün də Gürcüstan azərbaycanlılarının kənd adlarında da yaşayır. İndiki Marneuli rayonunda Ulaşlı kəndi, Saqareçoda Qaraçöp və b., «Alban tarixi» kitabında qeyd olunduğu kimi, III–VII əsrlərdə Çul Dərbənd «qapısından» türk tayfaları axınla Azərbaycana gəlmişdir.[5] Qafqaz, Vizantiya, Suriya və digər erkən orta əsr mənbələri də IV–V əsrlərdə Zaqafqaziyaya (əsasən Azərbaycan, Gürcüstan) türkdilli tayfaların kütləvi halda axını haqqında məlumat verir.[6] Təbərinin fikrincə isə, VI əsrin ortalarında şah (I Xosrov) 10 min nəfərə qədər xəzəriləri əsir götürərək onları... Azərbaycanda və qonşu regionlarda yerləşdirmişdir.[7] Azərbaycana qonşu regionlar dedikdə şübhəsiz ki, Borçalı və Göyçə mahalları, yəni indiki Gürcüstan və Ermənistan əraziləri nəzərdə tutulmuşdur. «Kitabi-Dədə Qorqud» dastanında da həm Gürcüstan, həm də Tumanisi ayrılıqda Oğuz elinə yaxın qonşu kimi xatırlanır.[8] Həmin yerlərin coğrafi mövqeyi də bu fikri təsdiq edir.

14842

Ən qədim gürcü mənbələrindən biri olan «Moksevai Kartlisa»da (VII əsr) yazılır ki, e.ə. IV əsrin 30-cu illərində Makedoniyalı İsgəndərin İrana və Cənubi Zaqafqaziyaya yürüşləri zamanı indiki Gürcüstan ərazisində, Kür çayı sahilində buntürklər yaşayırmış.[9]

Ermənistan tarixinin atası sayılan Movses Xorenats eramızın ilk əsrlərindən etibarən Zaqafqaziyada çoxlu türk mənşəli qəbilənin oturaq həyat sürməsini söyləyir.[10]

---

[5] Г.А.Ворошил. Тюркизмы в албанских источниках.
[6] З.И.Будагова, В.Л.Гукасян. Об азербайджанских и армянских языковых контактах. «Советская тюркология», Баку, 1979, № IV, стр. 10.
[7] Azərbaycan tarixi, I cild, Bakı, 1959. səh. 10.
[8] Ə.M.Dəmirçizadə. «Kitabi-Dədə-Qorqud». Bakı,1959, səh.10.
[9] Вах: Источники грузинских летописей. «Сб. материалов для описания местностей и племен Кавказа», вып.28. Тбилиси, 1950, стр. 1-2.
[10] Г.Халаян. Армянские аршакиды в «Истории Армении Моисея Хоренского». Москва, 1903, стр.32.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Alban tarixçisi Moisey Kağan Ğatlı yazır ki, təxminən 442–445-ci illərdə Hun padşahı 11 alayla Kür çayını keçib Ermənistanı və Gürcüstanı fəth edir. Onun əsas dayanacağı məhz hunlar tərəfindən tikilmiş Hunan (Xunan və Xalxal) şəhərləri idi.[11] (Həmin şəhərlər indiki Qazax-Ağstafa ərazilərində yerləşmişdir.)

Xalxal-Xunan istiqaməti ilə Gürcüstana hücum edən onoğurlar 447–448-ci illərdə Kolxidanı tuturlar. Onların bu hərbi yürüşü V əsr Bizans tarixçisi Panili Priskin əsərində təsvir edilir. VI əsr Bizans tarixçisi Aqafi (532–582-ci illər) həmin hadisəni Priskin məlumatı əsasında daha geniş şərh edərək yazırdı ki, Kolxidadakı «Onoqris» yaşayış yerinin adı çox qədimdir; o, onoqur adlanmış hun tayfalarının bu ərazidə kolxidlərlə vuruşmasının bir növ yadigarıdır[12].

Yuxarıda qeyd olunan faktlar başqa tarixi mənbələrdə də sənədləşdirilmişdir. VII–IX əsrlərin gürcü mənbələrində, o cümlədən «Mokstevai Kartlisa» da qeyd olunduğu kimi, buntürklər Şərqi Gürcüstanda VI əsrdən yaşayırlar. Həmçinin mənbələrdə VI əsrdən Bolnisi rayonunun tabeliyində olan Kəpənəkçi kəndi və həmin adda kəpənəkçi tayfasının adı ilə bağlı Bolnis-Kəpənəkçi çayının adı çəkilir. Bu da, şübhəsiz ki, kəpənəkçi tayfasının həmin çayın vadisində qədim dövrlərdən məskunlaşdığını söyləməyə haqq qazandırır. Beləliklə, aydın olur ki, kəpənəkçi tayfası hələ qədim zamanlarda həmin ərazidə məskunlaşmış və öz adını da ərazisindən axan çaya vermişdir.

XII–XIII əsrlərə aid gürcü mənbələrində qeyd olunur ki, naqiqivçakara (qədim qıpçaqlar) adlanan qıpçaqlar buraya VIII əsrdən gəlmişlər.

Tarixdən məlumdur ki, 853-cü ildə Böyük Buqun (türkdür) rəhbərliyi ilə ərəb qoşunu Kartliyə hücum edir. O dövrdə Böyük Buqun fəaliyyəti haqqında gürcü salnaməsində nəzərdiqqəti cəlb edən məlumatlar verilir: «Dərbənd darvazasını

[11] Вах: История Агван Моисея Каганкатваци. СПб., 1901, стр.73.

[12] Картлис цховреба, т. L, стр. 15-XVII. Г.А.Меликишвили. К истории древней Грузии. Тбилиси, 1959, стр.125.



açır və 300 xəzər ailəsini çıxardaraq, onları Dmanisidə (Başkeçiddə) yerləşdirir».[13] XII əsrdə isə Gürcüstana 225 min Şimali Qafqaz qıpçaqlarının köçürüldüyü qeyd olunur.[14] Həmin mənbələrdə yeni köçürülmüş qıpçaqlar axaliqivçakara *(yeni qıpçaqlar)* adlanır.

Türkdilli tayfaların Gürcüstanın cənub-şərq ərazisinə, o cümlədən Qarayazı-Sığnax-Kaspi bölgələrinə erkən orta əsrlərdən köçüb (IX–XII əsrlər) məskunlaşması da tarixi sənədlərdə qeyd olunmuşdur.

Bəzi mülahizələrə görə, XI əsrdə oğuz-səlcuq türkləri kütləvi şəkildə Zaqafqaziyaya gəlib qısa vaxtda, demək olar ki, bütün azəri türkləri yaşayan regionlarda, o cümlədən Şərqi Gürcüstanda məskunlaşmışdır.

Türk tayfalarının ən qədim zamanlardan etibarən Zaqafqaziyaya, o cümlədən indiki Gürcüstan ərazisində (əsasən Borçalı qəzasının ətraf bölgəsində) və ona qonşu dağətəyi bölgələrdə məskunlaşıb yaşamalarına dair müxtəlif tarixi yazılı mənbələrdə kifayət qədər əsaslı faktlar və məlumatlar vardır. Məsələn, eramızdan əvvəl, ən azı miladdan öncə, VII əsrdə bir neçə türk tayfalarının bu ərazilərdə aborigen tayfa kimi yaşamaları haqqında çoxlu dəlillər vardır. Hazırda bu tayfaların sayı Borçalıda 60-a çatır (Bu məsələ əsərin «əhali» bölməsində geniş şərh olunur.)

Eramızın lap əvvəllərində Aspindza, Adıgün, Axalsıx (və ya Axısxa) və Batum, Suxum ərazilərində, türk tayfaların yaşamalarını əks etdirən əsaslı məlumatlar vardır. («Derevyannoe zodçestvo Qruzii » kitabı.)

...Bəli, Güney Qafqaz ən qədim insan məskunlaşan ərazilərdən biridir. Bu torpağın ilk sakinlərindən biri hər birimizin ulu dədələrimiz, babalarımız və əcdadlarımız olub... Qarapapaqlar miladdan öncə bu torpaqlara həyat gətirmiş,

[13] Мусхелишвили. Болниси (отдельный вырезок). Вестник Грузинского филиала АН СССР, т.III. Тбилиси, 1938, стр.377.

[14] З.В.Анчабадзе. Кипчаки Сев.Кавказа по данным груз.летописей XI-XIV вв. в книге: «О происхождении балкарцев и карачаевцев». Нальчик, 1960, стр.118.

tarixdə oğuz, qıpçaq, adlarıyla Doğu Anadolunun da ilk sahibləri olaraq tarixə düşmüşlər.

Qədim dövrlərdən üzü bəri öz varlığını və özəlliyini qoruyub saxlayan igid qarapapaqlar yurdu Borçalı mahalı XVIII əsrin əvvəllərində Gəncə bəylərbəyliyinin tərkibində idi.

Bəylərbəyi Ziyadoğlu 1736-cı ildə Muğanda Nadirin İran şahı elan olunması əleyhinə çıxdığı üçün Tiflisi zəbt edən Nadir şah (1735–1736) Borçalını Qazax mahalı ilə birlikdə Gəncə bəylərbəyliyindən alıb, həmin əyalətlərin də idarə olunmasını Karli-Kaxeti çarı Teymuraza həvalə etmiş, əvəzində onun oğlu İraklini girov götürmüşdü.

Güney Qafqazın Rusiyaya birləşdirilməsidən sonra, yəni XIX əsrin əvvəllərində Borçalıya əlahiddə «tatar distansiyası» statusu verilmiş, 1877-ci il martın 25-də Borçalı distansiyasının bütün torpaqları ilə Tiflis quberniyasının Trialet və Loru nümayəndəlikləri birləşdirilərək müstəqil inzibati-ərazi vahidi – Şüləver inzibati bölgəsi yaradılmış, 1880-ci il mayın 6-da həmin bölgə əsasında Borçalı nümayəndəliyi təşkil edilmişdir.

Borçalının sonrakı aqibəti isə belə olmuşdur. 1918-1920-ci illərdə, yəni milli Azərbaycan Respublikası dövründə Borçalı Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları arasında mübahisəli ərazi kimi sayılıb. Milli, etnik, tarixi-etnoqrafik prinsiplərə əsasən Azərbaycan Borçalının orta zonasını (indiki Marneuli, Bolnisi, Dmanisi rayonlarının əraziləri) özününkü sayırdı. Bu barədə Azərbaycan və Gürcüstan Xarici İşlər Nazirlikləri arasında müqavilə də bağlandı. 1918-ci ilin axırlarında Borçalı torpaqları üstündə Ermənistan-Gürcüstan müharibəsi baş vermiş, sonra münaqişə danışıqlar əsasında dayandırılmış və barışıq elan olunmuşdur. Barışığın şəraitinə uyğun olaraq, Borçalının dörd nahiyəsindən (nümayəndəliyindən) (Borçalı, Yekaterinenfeld, Loru, Zəlyə) biri və həm də ən böyüyü Loru nayihəsi neytral zona elan edilmişdir. 1921-ci ildə şura hökumətinin gəlişi ilə «beynəlmiləlçilik» siyasətinə əsasən həmin zona, yəni indiki Noyemberyan, Tumanyan, Stepanovan, Kalinino inzibati bölgələri və Allahverdi şəhəri əraziləri Ermənistan respublikasına verildi. Elə bu illərdən də Gürcüstanın (Borçalıdan kənar) bölgələrində diaspora və icma formasında azərbaycanlılar fəaliyyət göstərməyə başladılar.



Yerdə qalan 3 min kvadrat kilometr əraziyə malik Borçalı: Zəlyə, Başkeçid və Yekaterinenfeld nümayəndəlikləri-nin sonrakı aqibəti heç də sevindirici olmadı. Belə ki, 1929–1932-ci illərdən başlamış 1956-cı ilə kimi bu üç nümayəndəliyin istər adları, istərsə də əraziləri dəfələrlə təhrif edilmiş, dəyişdirilmiş, kiçildilmişdir. **Guya bu barbarlıq, bu saxtakarlıq belə də** olmalı imiş?..

Təəcüblü burasıdır ki, adı heç vaxt rəsmən (dövlət tərəfindən) çəkilməyən, müstəqilliyi danılan şan-şöhrətli Qarayazı bölgəsi əhalisinin, soykökünün, soyadının, milli mənsubiyyətinin, tarixi keçmişinin etik-mənəvi sərvətlərinin, dəyərlərinin, dininin, dilinin, sazlı-sözlü folklor örnəklərinin, adət-ənənələrinin Borçalı mahalındakı qan qardaşları ilə tam mənada eyni olmasına baxmayaraq, qəsd-qərəzliklə çıxtac edilmişdir. Geniş oxucu kütləsinin nəzərinə çatdırmaq istərdik ki, Borçalı parçalandıqdan sonra (1921) 70 ildən çox dövr ərzində tariximizi unutdurmaq üçün bədnam qonşular 250-yə yaxın yaşayış məntəqəsinin 200-dən artıq adını, on minə yaxın dağ-dərə, yamac, çay, göl, arx, qala, körpü, süayrıcı, aşırım adlarının 6500-ə qədəri qeyri-qanuni olaraq dəyişdirmişdir (lakin xalq arasında hələ də keçmiş adlar işlədilir).

Ermənistan ərazisində isə qədim Azərbaycan-türk adları daşnakların qara əlləriylə tarixi-coğrafi xəritələrdən büsbütün silinmişdir.

Ümumi vəziyyət Gürcüstan ərazisində də acınacaqlıdır. Onlar da el-obamızın, yurd yerlərimizin ulu adlarını heç bir coğrafi və tarixi-etnoqrafik uyarları olmayan sözlərlə əvəz etmişlər.

Şübhəsiz, ulu yurd yerlərinin tarixi aqibətinə elmi baxımdan nəzər salmaq heç də bu sənəd materialları ilə bitmir. Çox güman ki, gələcək elmi axtarışların bir qolunu da Borçalı soydaşlarımızın daş, paleolit və neolit dövrlərinə həsr edib,

tariximizi daha dərin və dolğun sənəd inciləri və geniş materiallar əsasında tədqiq edib öyrənəcəyik. Çünki neçə-neçə dilsiz-ağızsız Borçalı qəbiristanlıqlarındakı baş daşları, su quyuları, heyvanların suvarılması üçün istifadə edilən su noyları (kəhrizlər), qədim qala, mağara, keçid və körpülər bu türk ellərinin tarixini, sirrlər xəzinəsi kimi, xəlvətdə saxlayır. Bunların harayına, köməyinə, səssiz çağırışına bizim nəsil çatmalıdır...

## § 3. İnzibati rayonlar üzrə əhalinin demoqrafik quruluşu

Bütöv Gürcüstan ərazisində yaşayan azərbaycanlı əhalisinin sayı 111 min nəfərə yaxın olub, 284 yaşayış məntəqəsində və ya 54 cəmiyyətdə (sovetlik–M.S.) (1870) məskunlaşmışdır. Orta hesabla hər bir cəmiyətə 5,5 kənd yaşayış məntəqəsi və ya 235 nəfər əhali düşür. Hər bir kənd məntəqəsində orta hesabla 400 nəfərə yaxın əhali yaşayır. Bu əhalinin təxminən 49–50%-i əmək qabiliyyətli olub, ərazinin əsas işlək əhalisini təşkil edir (1870).

1870-ci ilin məlumatına görə, Sarvan, Privolni, Şaxnazar məntəqələri yeganə cəmiyyətlərdir ki, tərkibində başqa kəndlər olmayıb. Elə cəmiyyətlər də vardır ki, tərkibində 21–22 məntəqəni birləşdirib. Kəmərli, Hamamlı kəndlərini misal göstərmək olar (cədvəl, № 1).

Mövcud olan bu kəndlərin əhalinin sayı baxımından ən irisi Böyük Şüləver (Şaumyan), Sarvan, Yeketerinenfeld, Voronsovka (Kalinodur). Ən kiçik kəndlərin əhalisinin sayı 20 nəfərdən yuxarı qalxmır. Bu kəndlər aşağıdakılardır: Mahmudlu, Ciris, Kipircik, Xocorni, erməni Darvaz və s.

Cəmi 111 min əhalinin 60 min nəfəri kişi, 51 min nəfəri isə qadın idi. Bölgələrin 50 min nəfərdən çox əmək qabiliyyətli əhalisinin 12,8 faizi və ya 6,4 min nəfəri təsərrüfatın bu və ya digər sahələrində çalışırdı.



Tərtib etdiyimiz cədvəldən müəyyən etmək olur ki, bölgələrdə olan 50 mindən yuxarı qadının hər bir nəfərinə orta hesabla 1,2 nəfər kişi düşür. Əlbəttə, bu rəqəm qadınların say balansının aşağı olmasını göstərir.

Lakin qeyd etməliyik ki, Gürcüstanın müxtəlif ərazilərində məskunlaşan kişilərin milliyyətindən asılı olaraq (milli mənsubiyyət baxımından) bu balans yalnız qəzada mənfi olmamışdır. Misal üçün, ruslarda bu rəqəm təxminən hər bir kişiyə 1 nəfər qadın, qalan xalqlarda isə qadınların sayı mənfi olmuşdur. Almanlarda 0,9 nəfər, ermənilərdə 0,8, azəri türklərində 0,7, gürcülərdə isə 0,9 nəfər olmuşdur.

Ərazinin əhalisindən bəhs edərkən, onu da qeyd etməliyik ki, iki yüz əlli il bundan əvvəl burada 15-ə yaxın xalqın nümayəndəsi yaşayırdı. Ərazinin ən qədim aborigen əhalisi türklər və türkdilli tayfalar olmuşdur. Sonralar, yəni eramızın XVII–XVIII əsrlərindən başlayaraq XX əsrin 20–30-cu illərinə qədər erməni, yunan, gürcü və rus tayfaları, müxtəlif yollarla fəaliyyət göstərən erməni cəmiyyətləri, dövlət və kilsə nümayəndələri tərəfindən bu məmləkətə qəsdən yerləşdirilmişdir.

Ümumiyyətlə, Gürcüstanın azərbaycanlılar yaşayan ərazilərində əhalinin əksəriyyəti çoxuşaqlılığı sevir. Lakin qəzada əhaliyə göstərilən tibbi xidmətin kifayət səviyyədə olmaması, düzən və aran bölgələrdə içməli su ehtiyatının qıtlığı suyun keyfiyyətsiz olması, ailə başçılarının (kişilərin) köçəri həyat tərzi sürmələri və (işlə əlaqədar ilin 4–5 ayını uzaq yerlərdə keçirmələri) əhalinin müntəzəm artmasına (təbii artıma) mənfi təsir göstərmişdir. Nəzərə almaq lazımdır ki, bu bölgələrdə azərbaycanlıların sayəsində artım digər millətlərə nisbətən həmişə üstün olmuşdur.

Bölgələrdə təbii artım, əsasən, Azərbaycan türkləri və ruslara məxsusdur. Lakin Azərbaycan türklərinin məskunlaşdığı kəndlərdə, əhalinin sağlamlığına və uzunömürlülüyünə mənfi təsir edən qeyri-normal təbii-coğrafi mühit, iqlimin həddən artıq isti keçməsi, məişət şəraitinin aşağı olması, 0–10 yaş qrupunda olan uşaqlar və yaşlı nəsil (kişilər) arasında

malyariya (qızdırma) ağ ciyər və nəfəs yolu xəstəliklərinin yayılmasına təkan verməsi nəticədə insan tələfatının artmasına gətirib çıxarmışdır. Erməni, gürcü, yunan və s. xalqlar isə, bir qayda olaraq mahalın səfalı dağlıq və dağətəyi çəmənli zonalarında, meşə və çay kənarlarında yaşadıqları üçün onlarda ölüm əmsalı xeyli aşağı, mexaniki hərəkət isə, qeyd etdiyimiz kimi, yuxarı olmuşdur. Ona görə də XVIII əsrin axırları və XIX əsrin birinci yarısında ərazilərdə Azərbaycan türkləri sayca çox, yaşayış məntəqələrinin ölçüsü isə daha iri olmuşdur.

Kəndlərin milli tərkibinə gəldikdə isə, hər dörd nümayəndəlikdə istər kənd məntəqələrinin sayı, istərsə də orada yaşayan əhalinin milli tərkibinə və onların sayına görə göstəricilər də olduqca müxtəlif olmuşdur.

A.Borçalı nümayəndəliyində (rayonunda) – 58 kənd;

B.Loru nümayəndəliyində – 65 kənd;

V.Trialet (Zəliyə rayonunda) nümayəndəliyində – 120 kənd;

Q.Yekaterinenfeld nümayəndəliyində – 41 kənd.

Əhalinin milli tərkibinə gəldikdə isə Azərbaycan türklərinin yaşadıqları kəndlərin sayı – 134, erməni kəndləri – 69, yunan kəndləri – 36, rus kəndləri – 14, gürcü kəndləri – 18 alman kəndləri – 2 və qaraçı kəndləri – 2 olmuşdur. Bir kənd isə kürdlərə məxsusdur. Bu baxımdan ölkənin azsaylı xalqları haqqında qısa məlumat vermək, əlbəttə, yerinə düşərdi.

**Ruslar** bu qəzaya Rusiyanın mərkəzi Qaratorpaq, Orenburq, Pavlodar, Həştərxan, Stavropol və Krasnodarın bir sıra mənqətələrindən planlı şəkildə köçürülmüşdür. Ruslar yerli knyazlar, menşevik ünsürlü qolçomaq və mülkədarlar tərəfindən mahala dəvət olunmuş, Rusiyanın iqlim-torpaq şəraitinə uyğun ərazilərdə məskunlaşdırılmışlar. Buna misal olaraq, Voronsovka, Novo-Mixayılovski, Rus Gergeri, Ormeşen, Başkeçid, Qarakilsə və s. məntəqələri göstərə bilərik. Ruslar (molokanlar, duxabor, sektantlar və s.), bir qayda olaraq məskunlaşdıqları gündən iri məntəqələrdə yaşamağı üstün tutmuşlar (hər kənddə 70–280 ailə). Məsələn, Voronsovka



kəndində 280 ailə məskunlaşmışdı. Adları çəkilən bu rus kəndlərindən başqa, 1889-cu ildən Gürcüstanın Cavaxeti yaylasında təməl daşı qoyulmuş Novaya Boqdanovka (Yeni Boqdanovka) kəndini də qeyd etmək olar.

Rusların yaşadıqları kəndlərin küçələri plan-sxem üzrə tərtib edilib, düz, geniş və uzun küçələrdən ibarətdir. Onlar hər iki tərəfi aynabəndli otaqlarda, divarları səliqə ilə rənglənmiş, həyət-bacası geniş olan yaşayış binalarında yaşamağı üstün tutmuşlar. Evlərinin damları keramika, çox az hallarda isə saman-torpaq qarışığı ilə örtülmüşdür. Otaqların içərisi əhənglə rənglənər, bəzilərinə isə rəngli kağız çəkərlərmiş. Ruslar, adətən, çox zəhmətkeş olub, təsərrüfatlarında özlərinin tələbatlarına uyğun tərəvəz-bostan bitkiləri və meyvə, bəzən dekorativ gül də becərirdilər. Onlar özləri ilə doğma ellərindən Gürcüstana kələm, kartof toxumu gətirmiş, arı və donuz saxlamağı üstün tutmuşlar.

Maraq üçün qeyd olunmalıdır ki, ruslar özləri ilə Privolni vilayətindən kələm, Kamenskidən kartof, Nikolayevskidən və Odessadan isə Gilanar (albalı) toxumu və tingi gətirmişlər. Ruslar əkib-becərdikləri bu məhsulları birbaşa Tiflis bazarlarına aparırdılar. Rusların milli mənsubiyyət baxımından bir qolu olan malokanlar tarlada işləmək qabiliyyətinə, kənd təsərrüfatı bitkilərini becərməyi bacarmaq və nisbətən savadlı olmaq baxımından digər rus qadınlarından fərqlənirdilər. Bunlarla yanaşı, əsas peşələri ikitəkərli araba düzəldib işlətmək idi. Ümumiyyətlə, onlar Borçalı mahalında və digər ərazilərdə özlərini təmiz, əməksevər, işlək, heç bir xainlik və paxıllıq etməyən bir xalqın nümayəndəsi kimi tanıtmışdılar.

**Almanlar** Borçalı qəzasına gürcü knyazları tərəfindən Almaniyadan dəvət olunmuşlar. Məqsəd – ərazidə yüksək mədəni təsərrüfat sistemini yaradıb inkişaf etdirmək, yeni təsərrüfat sahələrini qurmaq, nəqliyyat yolları salmaq və təmir etmək, şərabçılıq və arıçılığı inkişaf etdirmək idi. Almaniyadan gələnlər birbaşa qəzanın baş məntəqəsində (Yekaterinenfeld və Aleksandrsqilf) yerləşdirildi.

O zaman ümumi sayı 1690 nəfər olan almanların 896 nəfəri kişi, 794 nəfəri isə qadın idi və 345 ailədə birləşmişdilər. Hər 100 nəfər kişiyə 88 qadın düşürdü. Almanlar 1817-ci ildə Virtemberqdən (Almaniyadan) Odessaya gəldilər. Oradan isə hər ailəyə araba-at almaq üçün 500 rubl məbləğində pul verildi. Bunlar həmin il hazırlıqlı şəkildə adları çəkilən məntəqələrə gəlib, yerli əhali ilə ünsiyyət yaradıb torpaqdan əlverişli istifadə etməyə başladılar. Bunun əsasında bölgələrdə alman icması yaranmağa başladı. Və həmin dövrlərdən də Gürcüstanda Borçalıdan kənar ərazilərdə formalaşmış Azərbaycan icması ilə alman icması sıx əməkdaşlıq etməyə başladı. İran-Gürcüstan müharibəsi qurtardıqdan sonra knyazlar hər ailə başçısına əlavə olaraq 172 rubl pul (ssuda) verdilər. Almanların birinci koloniyası 1818-ci ildə Yekaterinenfeldə, ikincisi isə 38 ildən sonra, yəni 1857-ci ildə Aleksandrsqilfdə yerləşdirildi. Almanlar yerli torpaq – iqlim şəraitinə əvvəllər bir neçə il uyğunlaşa bilmədilər. Yerli hakim dairələrdən general-mayor Kolubyakin 1865-ci ildə almanlar üçün İsveçrədən gətirilmiş pendir zavodu avadanlığını təşkil etmiş və onları bu sənətə meyillƏndirmişdir. Almanların istehsal etdikləri pendir sonradan onlara həqiqətən dünya şöhrəti qazandırdı.

Beləliklə, dövlət tərəfindən almanlara xüsusi qayğı və tərəfkeşlik göstərilməyə başlandı. Dövlət vergilərindən azad edildilər, müxtəlif hüquqi imtiyazlar qazandılar. Almanlar 1898-ci ilə qədər (80 il) Borçalı ərazisində çox qiymətli və xeyirxah işlər görmüş, yerli sakinlər bu işlərdən əvvəllər çox az faydalanmış, sonradan geniş istifadə etməyə başlamışlar (əsasən, şərabçılıq, donuzçuluq və araba-fayton istehsalı– sənətkarlıq baxımından). Lakin onlarla bir ərəfədə köçkün sifəti ilə Borçalıya gəlmiş ermənilər daha gör-götürlü, bic və tədbirli olmuşlar.

Maraqlıdır, Yekaterinenfelddə yaşayan almanlar başlıca olaraq üzümçülük-şərabçılıq və əkinçiklik, Aleksandrsqilfdə yaşayanlar isə tamam başqa istiqamətdə – heyvandarlıq üzrə ixtisaslaşdılar. Yerli camaatın söylədiklərinə görə almanlar çox mədəni, təmiz iş görən, zəhmətkeş, az oxumağı sevən, heç bir mətbuatla maraqlanmayan, sakit bir qurum kimi azəri türkləri, qismən də yunan və gürcülərlə qaynayıb qarışıb, mədəni həyat tərzi keçirmişlər. Alman ailələri çox səliqəli, təmizkar, ikimərtəbəli, hər iki tərəfdə eyvanı olan binalarda yaşamağı sevirdilər.

XIX əsrin axırları, XX əsrin əvvəllərində alman icması təkcə Almaniya ilə deyil, eyni zamanda Qafqazda, o cümlədən Azərbaycanın və Şimali Qafqazın bir sıra məntəqələrində məskunlaşmış almanlarla əlaqə saxlayırdılar. Onlar yaşadıqları ərazilərdə üzümçülüyün və şərabçılığın yayılması və inkişafı üçün böyük işlər görürdülər.

**Ermənilər**. Mexaniki hərəkət (digər ölkələrdən qaçan və planlı köçürmələr nəticəsində gələnlər) hesabına saylarını durmadan artıran ermənilər XIX əsrin əvvəllərində Borçalı mahalında yurd-yuva saldıqdan sonra həndəsi silsilə ilə artmış və tarix boyu pərakəndə həyat tərzi sürməyi üstün tutmuşlar. Lakin qeyd etməliyik ki, gəlmə ermənilər, bir qayda olaraq Borçalı ərazisində məskunlaşmağı üstün tutmuşlar. Gürcüstan ərazisinin icma baxımından formalaşmış bölgələrində isə, demək olar ki, yox dərəcəsində olmuşlar. Borçalıda yerli azəri türklərinə qarşı aparılan haqsızlıqlardan sonra onlar iri məntəqələrdə yığcam yaşamağı daha əlverişli saymışlar.

Bu illərdə erməni yaşayış məntəqələrinin sayı azərbaycanlı türklərinin məskunlaşdığı məntəqələrin sayından 3 dəfə az idi (bax: cədvəl № 1).

*Cədvəl № 1*

***Gürcüstan ərazisində yaşayış məntəqələrinin əhalisinin və təsərrüfatlarının miqdarını əks etdirən cədvəl (cədvəl 1870-ci ilin yanvarına qədər olan məlumatlara əsasən tərtib edilmişdir)***

| Sıra №-si | Cəmiyyət və kəndlərin adları | Milli mənsub göst., kənd | Əhalinin ümumi sayı ailə kişi, qadın | | | Hər kənd üzrə əhalinin sayı, nəfərlə |
|---|---|---|---|---|---|---|
| | **I. Heydərbəy Cəmiyyəti:** | **erməni** | **314** | **1419** | **1386** | **2805** |
| 1. | Heydərbəy | «---------» | 61 | 346 | 342 | 688 |
| 2. | Əkərək | «---------» | 76 | 318 | 305 | 623 |
| 3. | Ledjen | «----------» | 81 | 322 | 318 | 640 |
| 4. | Loru | «----------» | 25 | 100 | 90 | 190 |
| 5. | Urut | «----------» | 71 | 333 | 331 | 670 |
| | **II. Allahverdi Cəmiyyəti:** | **(qarışıq)** | **476** | **1287** | **1101** | **2388** |
| 6. | Allahverdi | yunan | 245 | 617 | 554 | 1171 |
| 7. | Vəndik | yunan (erm.) | 32 | 107 | 90 | 197 |
| 8. | Qoğos | yunan | 96 | 210 | 140 | 350 |
| 9. | Şamlıq | yunan | 34 | 89 | 90 | 179 |
| 10. | Yağdan | yunan | 69 | 264 | 227 | 491 |
| | **III.Aleksandrsqilf Cəmiyyəti** | **alman** | **74** | **195** | **186** | **381** |
| 11. | Aleksandrsqilf | alman | 74 | 195 | 186 | 381 |
| | **IV. Hamamlı** | **azəri türk.** | **309** | **1419** | **947** | **2366** |
| 12. | Hamamlı | az. türk. | 47 | 222 | 187 | 409 |
| 13. | Əngervan | az.türk. | 7 | 27 | 21 | 48 |
| 14. | Bəzəkli | «-------» | 19 | 90 | 69 | 159 |
| 15. | Cahanbaxça (Molla-Eyyub) | «-------» | 42 | 157 | 116 | 273 |
| 16. | Cərəyer | «-------» | 11 | 55 | 50 | 105 |
| 17. | Qədirqulu | «-------» | 7 | 57 | 32 | 89 |
| 18. | Qoşqa-qala | yunan | 18 | 94 | 95 | 189 |



| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 19. | Məmişli | azərb. | 20 | 117 | 107 | 124 |
| 20. | Mahmudlu | azərb. | 5 | 23 | 20 | 43 |
| 21. | Yux. Orzuman | azərb. | 33 | 156 | 123 | 279 |
| 22. | Aş. Orzuman | azərb. | 10 | 73 | 38 | 111 |
| 23. | Səfərli | azərb. | 17 | 82 | 15 | 97 |
| | **V. Arıxlı Cəmiy.** | **azərb.** | **198** | **773** | **554** | **1327** |
| 24. | Arıxlı | azərb. | 137 | 534 | 384 | 918 |
| 25. | Həsən Xocalı | azərb. | 21 | 82 | 59 | 141 |
| 26. | Əsmələr | azərb. | 6 | 24 | 16 | 40 |
| 27. | Sali-oğlu Tsitskala | azərb. | 9 | 35 | 25 | 60 |
| 28. | Daşdı Qullar | azərb. | 25 | 98 | 70 | 168 |
| | **VI. Axpat** | **erməni** | **207** | **1013** | **863** | **1876** |
| 29. | Axpat | erməni | 77 | 377 | 291 | 668 |
| 30. | Akori | erməni | 56 | 274 | 230 | 504 |
| 31. | Vornak | erməni | 26 | 127 | 207 | 234 |
| 32. | Sənain | erməni | 48 | 235 | 235 | 470 |
| | **VII. Baydar C.** | **azərb.** | **35** | **397** | **1013** | **1413** |
| 33. | Baydar | azərb. | 61 | 238 | 171 | 409 |
| 34. | Böyük Bəylər | azərb. | 20 | 78 | 56 | 134 |
| 35. | Kiçik Bəylər | azərb. | 17 | 66 | 48 | 114 |
| 36. | Gültəpəli | azərb. | 25 | 98 | 70 | 168 |
| 37. | Kürtlər | azərb. | 93 | 363 | 250 | 613 |
| 38. | Lejbədin | azərb. | 60 | 234 | 188 | 422 |
| 39. | Böyük Muğanlı | azərb. | 72 | 281 | 202 | 483 |
| 40 | Kiracə Muğanlı | azərb. | 10 | 39 | 28 | 67 |
| | **VIII. Barmaqsız C.** | **er. yun. gür.** | **336** | **1369** | **1292** | **2661** |
| 41. | Ağalıq | yunan | 38 | 200 | 235 | 435 |
| 42. | Barmaqsız | yunan | 140 | 405 | 355 | 760 |
| 43. | Qldeis | gürcü | 19 | 76 | 80 | 156 |
| 44. | Daşbaş | erməni | 72 | 332 | 298 | 630 |
| 45. | Hədik | yunan | 36 | 206 | 187 | 393 |
| 46. | Xaraba Yenqigöy | yunan | 31 | 150 | 137 | 287 |
| | **IX. Başkeçid C.** | **rus (duxobor)** | **87** | **422** | **387** | **809** |
| 47. | Armoxeşen | rus | 28 | 134 | 121 | 255 |
| 48. | Başkeçid | rus | 41 | 224 | 182 | 406 |
| 49. | Rus Qarakilsəsi | rus | 18 | 64 | 84 | 148 |
| | **X. Bolnis-kəpənəkçi** | **azərb.** | **38** | **120** | **96** | **216** |
| 50. | Abdallı | azərb. | 38 | 120 | 96 | 216 |
| 51. | Bolnis-kəpənəkçi | azərb. | 169 | 833 | 570 | 1403 |
| 52. | Cəfərli | azərb. | 7 | 28 | 19 | 47 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 53. | Qışlaq | azərb. | 12 | 47 | 34 | 81 |
| 54. | Mığırlı | azərb. | 18 | 70 | 50 | 120 |
| 55. | Muşevan | azərb. | 7 | 28 | 19 | 47 |
| 56. | Şiblyar | azərb. | 9 | 35 | 25 | 60 |
| | **XI. Voronsovka (Kalinono)** | **rus (molokan)** | **272** | **1086** | **1049** | **2135** |
| 57. | Voronsovka (Kalinono) | rus (molokan) | 272 | 1086 | 1049 | 2135 |
| 58. | Gorarxı | azərb. | 270 | 1010 | 760 | 1770 |
| 59. | İvan-Bəyli | azərb. | 70 | 280 | 190 | 470 |
| | **XII. Güləkər Cəmiyyəti** | **erməni** | **4051** | **1958** | **1705** | **3663** |
| 60. | Vortablur | erməni | 118 | 513 | 460 | 973 |
| 61. | Erməni gergeri | erməni | 130 | 640 | 564 | 1204 |
| 62. | Güləkər | erməni | 111 | 585 | 496 | 1081 |
| 63. | Opartsı | erməni | 46 | 220 | 185 | 405 |
| | **XIII. Darvaz C.** | **azər., gür., erməni.** | **166** | **652** | **471** | **1123** |
| 64. | Akaurt Ayorta | azər., gür., erməni | 22 | 88 | 69 | 157 |
| 65. | Arakel | azərb. | 6 | 24 | 16 | 40 |
| 66. | Bəytək | azərb. | 8 | 32 | 22 | 54 |
| 67. | Yux.Güləvər | azərb. | 7 | 28 | 19 | 47 |
| 68. | Aş.Güləvər | azərb. | 7 | 28 | 19 | 47 |
| 69. | Darvaz | azərb. | 72 | 281 | 202 | 483 |
| 70. | Ciris | azərb. | 2 | 8 | 6 | 14 |
| 71. | Zol-Güvəşli | azərb. | 21 | 82 | 59 | 141 |
| 72. | Kibirirçik | azərb. | 2 | 8 | 6 | 14 |
| 73. | Musapryon | azərb. | 5 | 20 | 14 | 34 |
| 74. | Azərb. Ormeşeni | azərb. | 14 | 53 | 39 | 92 |
| | **XIV. Dəmirçi-Həsənli** | **azərb.** | **276** | **1077** | **773** | **1850** |
| 75. | Ambarovka | azərb. | 14 | 55 | 39 | 94 |
| 76. | Kəpənəkçi-Dəmirçi-Həsənli | azərb. | 61 | 238 | 171 | 409 |
| 77. | İlməzli | azərb. | 18 | 70 | 50 | 120 |
| 78. | Qara keşəli | azərb. | 11 | 43 | 31 | 74 |
| 79. | Kosalı | azərb. | 95 | 371 | 266 | 637 |
| 80. | Keşəli | azərb. | 77 | 300 | 216 | 516 |
| | **XV. Cəlaloğlu Erməni C.** | **erməni** | **263** | **920** | **795** | **1715** |
| 81. | Armanis | erməni | 15 | 110 | 100 | 210 |



| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 82. | Erməni-Cəlaloğlu | erməni | 248 | 810 | 695 | 1505 |
| | **XVI. Rus Cəlaloğlu** | **rus** | **154** | **552** | **556** | **1108** |
| 83. | Rus gergeri | rus | 75 | 293 | 293 | 586 |
| 84. | Rus Cəlaloğlu | rus | 42 | 156 | 158 | 314 |
| 85. | Novaya Aleksandrovka | rus | 37 | 103 | 105 | 208 |
| | **XVII. Cixski C.** | **erməni** | **355** | **1740** | **1456** | **3196** |
| 86. | Atan | erməni | 18 | 88 | 74 | 162 |
| 87. | Ahnazar | erməni | 10 | 49 | 41 | 90 |
| 88. | Cix | erməni | 100 | 491 | 410 | 901 |
| 89. | Kerinc | erməni | 43 | 211 | 176 | 387 |
| 90. | Lorut | erməni | 48 | 235 | 197 | 432 |
| 91. | Marts | erməni | 46 | 225 | 189 | 414 |
| 92. | Seyidbağda | erməni | 22 | 108 | 90 | 198 |
| 93. | Xaçı kek | erməni | 17 | 230 | 193 | 423 |
| 94. | Teater | erməni | 21 | 203 | 86 | 189 |
| | **XVIII. Dumanis C.** | **er.gür.** | **310** | **1297** | **1123** | **2420** |
| 95. | Baliç | er.gür. | 31 | 135 | 117 | 252 |
| 96. | Boslebi | er.gür. | 45 | 198 | 171 | 369 |
| 97. | Vardis Ubani | er.gür. | 22 | 79 | 63 | 143 |
| 98. | Gölincik | erməni | 30 | 147 | 123 | 270 |
| 99. | Böyük Dmanis | erm.gür. | 40 | 183 | 156 | 339 |
| 100. | Balaca Dmanis | gürcü | 8 | 29 | 26 | 55 |
| 101. | Kazret | er.gür. | 25 | 103 | 91 | 194 |
| 102. | Kelamşa | gür. | 42 | 149 | 134 | 283 |
| 103. | Kioneti | erməni | 25 | 123 | 103 | 326 |
| 104. | Mica | gürcü | 35 | 126 | 116 | 242 |
| 105. | Tanziya | gürcü | 7 | 25 | 22 | 47 |
| | **XIX. İlməzli C.** | **azerb.** | **243** | **948** | **681** | **1629** |
| 106. | Cücə kənd | azerb. | 31 | 120 | 87 | 207 |
| 107. | İlməzli | azerb. | 59 | 195 | 140 | 335 |
| 108. | Yırğancay | azerb. | 80 | 312 | 224 | 536 |
| 109. | Qaraqala | azerb. | 31 | 121 | 87 | 208 |
| 110. | Soyuq Bulaq | azerb. | 25 | 98 | 79 | 177 |
| 111. | Təzə kənd | azerb. | 26 | 102 | 73 | 175 |
| | **XX. Yekaterinenfeld C.** | **alman** | **316** | **779** | **838** | **1617** |
| 112. | Yekaterinenfeld C. | alman | 316 | 779 | 838 | 1609 |
| | **XXI. Kəmərli C.** | **azərb.** | **329** | **1291** | **916** | **2207** |
| 113. | Bağçalar | azərb. | 4 | 16 | 11 | 27 |
| 114. | Busuqalası | azərb. | 25 | 98 | 70 | 168 |
| 115. | Gödəkdağ-yuxarı | azərb. | 16 | 64 | 44 | 108 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 116. | Gödəkli-aşağı | azərb. | 17 | 66 | 48 | 114 |
| 117. | Dunus | azərb. | 8 | 32 | 22 | 54 |
| 118. | Böyük kəmərli | azərb. | 43 | 168 | 120 | 286 |
| 119. | Kəkliyan | azerb. | 23 | 90 | 64 | 154 |
| 120. | Böyük Qarabulaq | azerb. | 9 | 35 | 25 | 60 |
| 121. | İki qapılı Qarabu-laq | azerb. | 8 | 32 | 22 | 54 |
| 122. | Kiçik Qarabulaq | azerb. | 8 | 32 | 22 | 54 |
| 123. | Qılzıl Kilsə | azərb. | 23 | 90 | 61 | 151 |
| 124. | Məryəmli | azərb. | 23 | 90 | 64 | 154 |
| 125. | Saja | azərb. | 20 | 78 | 56 | 134 |
| 126. | Ağma-Sakaresi | azərb. | 10 | 39 | 28 | 67 |
| 127. | Salamməliy | azərb. | 8 | 32 | 22 | 54 |
| 128. | Təhməz-Qulu Qı-zıl Hacılı | azərb. | 25 | 98 | 70 | 168 |
| 129. | Tanziya | azərb. | 8 | 32 | 22 | 54 |
| 130. | Şindillər | azərb. | 19 | 74 | 53 | 128 |
| 131. | Şerşoleti | azərb. | 3 | 12 | 8 | 20 |
| 132. | Başkeçid-Şüləveri | azərb. | 9 | 35 | 25 | 60 |
| 133. | Yaqublu | azərb. | 20 | 78 | 56 | 134 |
| | **XXII. Qaçağan C.** | **azərb.** | **362** | **1414** | **1013** | **2427** |
| 134. | Ağammədli | azərb. | 53 | 207 | 148 | 155 |
| 135. | Baytallı | azərb. | 11 | 43 | 71 | 74 |
| 136. | Baraxlı | azərb. | 18 | 70 | 50 | 120 |
| 137. | Bəytərəfçi | azərb. | 21 | 82 | 59 | 141 |
| 138. | Can əhmədli | azərb. | 4 | 16 | 11 | 27 |
| 139. | Qasımlı | azərb. | 64 | 246 | 176 | 422 |
| 140. | Qaçağan | azərb. | 117 | 436 | 328 | 764 |
| 141. | Quşçu | azərb. | 8 | 32 | 22 | 54 |
| 142. | Təkəli | azərb. | 13 | 51 | 36 | 87 |
| 143. | Ulaşlı | azərb. | 22 | 86 | 62 | 148 |
| 144. | Xançığazlı | azərb. | 15 | 59 | 42 | 101 |
| 145. | Çələbli Yadigarov | azərb. | 17 | 66 | 48 | 114 |
| | **XXIII. Kıveşi C.** | **er.gür.** | **214** | **708** | **693** | **1401** |
| 146. | Bolnis-Xaçınlısı | erməni | 126 | 399 | 412 | 811 |
| 147. | Kveşi | gürcü. | 28 | 101 | 92 | 193 |
| 148. | Ratevan | gür.er. | 30 | 102 | 92 | 194 |
| 149. | Xatis Sopeli | gür.er. | 30 | 106 | 97 | 203 |
| | **XXIV. Körpülü C.** | **azərb.** | **125** | **402** | **258** | **660** |
| 150. | Körpülü | azərb. | 58 | 216 | 145 | 361 |
| 151. | Ləmbəli | azərb. | 57 | 126 | 113 | 299 |
| | **XXV. Qızılhacılı C.** | **azərb.** | **378** | **1471** | **1058** | **2529** |



| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 152. | Hallavar | azərb. | 20 | 78 | 56 | 134 |
| 153. | Candar | azərb. | 27 | 101 | 76 | 177 |
| 154. | Kolagir | azərb. | 28 | 109 | 78 | 187 |
| 155. | Qızılhacılı | azərb. | 274 | 1069 | 767 | 1836 |
| 156. | Gülavan | azərb. | 4 | 16 | 11 | 1836 |
| 157. | Kiçik Muğanlı | azərb. | 25 | 98 | 70 | 168 |
| | **XXVI. Qırıxlı C.** | **azərb.** | **142** | **555** | **398** | **953** |
| 158. | Qırıxlı | azərb. | 43 | 168 | 120 | 288 |
| 159. | Qullar | azərb. | 55 | 215 | 154 | 369 |
| 160. | Şamalı | azərb. | 12 | 47 | 34 | 81 |
| 161. | Əmir (imir) | azərb. | 32 | 125 | 90 | 215 |
| | **XXVII. Qurtan C.** | **erməni** | **297** | **1478** | **1214** | **2692** |
| 162. | Dərəkənd | erməni | 42 | 206 | 172 | 378 |
| 163. | Kolagirən | erməni | 24 | 134 | 112 | 246 |
| 164. | Qamışqut | erməni | 33 | 160 | 133 | 199 |
| 165. | Qurtan | erməni | 125 | 627 | 501 | 1128 |
| 166. | Şağalı | erməni | 73 | 351 | 296 | 647 |
| | **XXVIII. Mqart C.** | **erməni** | **158** | **790** | **664** | **1454** |
| 167. | Aqvi | erməni | 20 | 98 | 84 | 182 |
| 168. | Amoç | erməni | 11 | 54 | 45 | 99 |
| 169. | Ardvi | erməni | 17 | 83 | 70 | 153 |
| 170. | İkoqat | erməni | 17 | 83 | 70 | 153 |
| 171. | Mqart | erməni | 33 | 162 | 135 | 297 |
| 172. | Yeni Uzunlar | erməni | 36 | 176 | 148 | 324 |
| 173. | Ovəndərə | erməni | 24 | 134 | 112 | 246 |
| | **XXIX. Nikolay-evsk C.** | **rus** | **47** | **207** | **186** | **393** |
| 174. | Nikolayev | rus | 47 | 207 | 186 | 393 |
| | **XXX. Novo-Mixailov. (Yeni Mix)** | **rus (mol).** | **40** | **144** | **140** | **284** |
| 175. | Yeni Mixaylovka | rus (mol). | 40 | 144 | 140 | 284 |
| | **XXXI. Yeni Pok-rovka C.** | **rus** | **60** | **225** | **210** | **435** |
| 176. | Yeni Pokrovka | rus | 60 | 225 | 210 | 435 |
| | **XXXII. Opret C.** | **er.,yun., gür** | **235** | **891** | **769** | **1660** |
| 177. | Ağkörpü | erməni | 68 | 236 | 205 | 441 |
| 178. | Kudr | erməni | 3 | 15 | 12 | 27 |
| 179. | Opret | yunan | 105 | 416 | 356 | 779 |
| 180. | Xocorni | erməni | 31 | 116 | 103 | 319 |
| 181. | Xoxmeli | erməni | 16 | 61 | 53 | 114 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 182. | Tserakvi | gürcü | 18 | 17 | 40 | 57 |
| | **XXXIII. Privolni C.** | **rus** | **185** | **709** | **713** | **1422** |
| 183. | Privolni | rus | 185 | 709 | 713 | 1422 |
| | **XXXIV. Sadaxlı** | **azərb., yunan** | **242** | **930** | **670** | **1600** |
| 184. | Ağtala Monastrı | yunan | 9 | 24 | 19 | 43 |
| 185. | Köhnə Ağtala | yun.azərb. | 7 | 24 | 18 | 42 |
| 186. | Mamey | azərb. | 13 | 51 | 36 | 87 |
| 187. | Sadaxlı | azərb. | 191 | 745 | 535 | 1280 |
| 188. | Xocorni | azərb. | 2 | 8 | 6 | 14 |
| 189. | Çoçqon-Aryum | azərb. | 20 | 78 | 56 | 134 |
| | **XXXV. Saraclı C.** | **azərb.** | **284** | **1089** | **796** | **1885** |
| 190. | İmirhəsən | azərb. | 50 | 175 | 140 | 315 |
| 191. | Böyük Qoşakilsə | azərb. | 46 | 180 | 129 | 309 |
| 192. | Kiçik Qoşakilsə | azərb. | 12 | 47 | 34 | 81 |
| 193. | Mollaəhmədli | azərb. | 5 | 20 | 14 | 34 |
| 194. | Saraclı | azərb. | 161 | 628 | 4512 | 1079 |
| 195. | Şalbuzlu | azərb | 10 | 39 | 28 | 67 |
| | **XXXVI. Saral C.** | **azərb.** | **287** | **924** | **664** | **1588** |
| 196. | Araplı (Ərəbli) | azərb. | 64 | 250 | 179 | 429 |
| 197. | Axıl-yalyalı | azərb. | 14 | 55 | 39 | 94 |
| 198. | Axıl-Mahmudlu | azərb. | 26 | 101 | 73 | 174 |
| 199. | Dəmyə-Görarxı | azərb. | 17 | 66 | 48 | 114 |
| 200. | Qaya Qocalı | azərb. | 9 | 35 | 25 | 60 |
| 201. | Yux. Saral | azərb. | 27 | 105 | 76 | 181 |
| 202. | Aş. Saral | azərb. | 71 | 277 | 199 | 476 |
| 203. | Seyid Xocalı | azərb. | 9 | 35 | 25 | 60 |
| | **XXXVII. Sarvan C.** | **azərb.** | **329** | **1283** | **921** | **2201** |
| 204. | Sarvan | azərb. | 329 | 1283 | 921 | 2201 |
| | **XXXVIII. Sarçapet C.** | **azərb.erm.** | **333** | **2621** | **2274** | **4895** |
| 205. | Dağ Qızıl kilsə | azərb. | 25 | 210 | 156 | 366 |
| 206. | Qamışlı | azərb. | 30 | 268 | 240 | 508 |
| 207. | Böyük Qarakilsə | erm. | 91 | 864 | 773 | 1637 |
| 208. | Kiçik Qarakilsə | erm. | 60 | 400 | 350 | 750 |
| 209. | Lök Candar | azərb. | 20 | 200 | 180 | 380 |
| 210. | Sarçapet | erm. | 61 | 440 | 341 | 771 |
| 211. | Şiştəpə | erm. | 46 | 239 | 234 | 473 |
| | **XXXIX. Faxralı C.** | **azərb.** | **200** | **780** | **560** | **1340** |
| 212. | Qoçulu | azərb. | 30 | 117 | 84 | 201 |
| 213. | Faxralı | azərb. | 170 | 663 | 476 | 1139 |
| | **XL. Çoçqan C.** | **erməni** | **115** | **558** | **445** | **4003** |



| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 214. | Berdazor | erməni | 5 | 25 | 20 | 45 |
| 215. | Dəmyə Çanaxçı | erməni | 38 | 186 | 156 | 342 |
| 216. | Güllübağ | erməni | 11 | 54 | 45 | 99 |
| 217. | Çoçkan | erməni | 61 | 293 | 224 | 517 |
| | **XLI. Şaxnəzər** | **erməni** | **214** | **913** | **1010** | **1923** |
| 218. | Şaxnəzər | erməni | 214 | 913 | 1010 | 1923 |
| | **XLII. Şınıx C.** | **erməni** | **290** | **400** | **1190** | **2590** |
| 219. | Arçis | erməni | 56 | 258 | 230 | 488 |
| 220. | Lecgedzor | erməni | 11 | 70 | 45 | 115 |
| 221. | Şınıx | erməni | 223 | 1072 | 915 | 1987 |
| | **XLIII.Uzunlar C.** | **erməni** | **308** | **1536** | **1259** | **2795** |
| 222. | Uzunlar | erməni | 308 | 1536 | 1259 | 2796 |
| | **XLIV. Şülvər C.** | **er.gür. az.** | **1315** | **3913** | **2070** | **5983** |
| 223. | Erməni Darvazı | erməni | 3 | 9 | 7 | 16 |
| 224. | Böyük Şüləvər (Şaumyan) | erməni (gürcü) | 1287 | 3844 | 3023 | 5867 |
| 225. | Kiçik Şülever | erm.azərb | 25 | 60 | 40 | 100 |
| | Trialet nümayəndəliyi. | | | | | |
| 226. | Əvrənli | yunan | 97 | 447 | 421 | 868 |
| 227. | Əmberli | yunan | 38 | 246 | 211 | 457 |
| 228. | Ərçivan-Sarvan | azərb. | 89 | 421 | 328 | 849 |
| 229. | Axa | gürcü | 22 | 144 | 120 | 264 |
| 230. | Ayazma | erməni | 27 | 146 | 128 | 276 |
| 231. | Aşqala | erməni | 105 | 436 | 500 | 936 |
| 232. | Baş göy | yunan | 77 | 346 | 300 | 643 |
| 233. | Beştaşen | yunan. gür. | 175 | 658 | 630 | 5581 |
| 234. | Bulqasan-Geyven | yun.gür. | 53 | 195 | 176 | 371 |
| 235. | Burnaşet | erməni | 24 | 138 | 100 | 238 |
| 236. | Qalank | yunan | 51 | 229 | 295 | 464 |
| 237. | Böyük Qomoret | gürcü | 124 | 425 | 422 | 847 |
| 238. | Kiçik Qomoret | gürcü | 18 | 108 | 92 | 200 |
| 239. | Günnü-Qala | yunan | 74 | 398 | 355 | 753 |
| 240. | Dərəgöy | erməni | 64 | 260 | 240 | 500 |
| 241. | Dəmir Bulaq | yunan | 61 | 257 | 232 | 3862 |
| 242. | Yux. Cins | erməni | 22 | 110 | 96 | 206 |
| 243. | Aş. Cins. | yunan | 56 | 230 | 243 | 473 |
| 244. | Yeddi kilsə | yunan | 78 | 347 | 324 | 671 |
| 245. | İmera | yunan | 52 | 195 | 182 | 377 |
| 246. | Kabur | erməni | 40 | 199 | 171 | 370 |
| 247. | Qarqan | yunan | 33 | 100 | 105 | 205 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 248. | Gərək | yun.erm. | 68 | 390 | 348 | 738 |
| 249. | Qızılhacılı | azərb. | 36 | 113 | 99 | 212 |
| 250. | Qızıl Kilsə | erməni | 52 | 309 | 279 | 6340 |
| 251. | Gödəklər | azərb. | 25 | 107 | 92 | 199 |
| 252. | Koplyani | gürcü | 14 | 42 | 36 | 78 |
| 253. | Qumbet | yunan | 8 | 320 | 28 | 348 |
| 254. | Quşi | erməni | 33 | 169 | 186 | 355 |
| 255. | Livati | yunan | 33 | 151 | 157 | 308 |
| 256. | Mamuka-sonet | gürcü | 19 | 58 | 51 | 109 |
| 257. | Nərdivan | erməni | 56 | 279 | 245 | 524 |
| 258. | Ozni | erməni | 35 | 186 | 170 | 356 |
| 259. | Rexa | yunan | 80 | 388 | 324 | 712 |
| 260. | Sanamer | yunan | 53 | 264 | 242 | 476 |
| 261. | Santa | yunan | 56 | 201 | 198 | 399 |
| 262. | Səfər-xaraba | yunan | 33 | 112 | 105 | 217 |
| 263. | Təkkilsə | yunan | 52 | 222 | 226 | 448 |
| 264. | Tamala-xaraba | qaraçı, | 11 | 30 | 45 | 75 |
| 265. | Tarson | yunan | 17 | 100 | 75 | 175 |
| 266. | Tecis | azərb. | 42 | 174 | 173 | 347 |
| 267. | Xatis-sopeli | gür.erm. | 19 | 74 | 62 | 136 |
| 268. | Xaç-göy | erm. | 42 | 209 | 206 | 415 |
| 269. | Tsin-tskaro | yunan | 63 | 375 | 454 | 22462 |
| 270. | Şipey (Ağbulaq) | yunan | 21 | 91 | 82 | 2598 |

*Cədvəl № 2*

***Gürcüstanın Azərbaycan nümayəndəlikləri üzrə əhalinin və yaşayış məntəqələrin sayını göstərən cədvəl (rəqəmlər 1890-cı ildir)***

| Sıra № | Nümayəndəliyin adları | Cəmiyyətlərin (sovetlik) sayı | Yaşayış mən. miq. | Təsərrü. (ailən) sayı | Cəmi əhali, nəfərlə | Cəmi əhaliyə görə, %-lə |
|---|---|---|---|---|---|---|
| 1. | Borçalı | 11 | 58 | 3022 | 24109 | 21,7 |
| 2. | Yekaterinenfeld | 9 | 14 | 2136 | 15973 | 14,4 |
| 3. | Loru | 17 | 65 | 3723 | 33776 | 30,4 |
| 4. | Trialet | 16 | 120 | 4648 | 36989 | 33,5 |
| cəmi | 4 | 53 | 284 | 13529 | 110847 | 100,0 |



Cədvəldən göründüyü kimi, qəzada olan 4 nümayəndəlikdən ən böyüyü Trialetidir. Bu nümayəndəliyin hər bir kəndinə 300 nəfər əhali düşdüyü halda, hər bir cəmiyyətə 2249 nəfər düşmüşdür. Ən kiçik nümayəndəlik isə Yekaterinenfelddir. **Burpanın** hər kəndinə 340, hər cəmiyyətə isə 1552 nəfər əhali düşür. Borçalı nümayəndəliyində hər kənddə orta rəqəm 329 nəfər olduğu halda, hər cəmiyyətə 1928 nəfər adam düşür. Ümumiyyətlə, Yekaterinenfeld nümayəndəliyinin əhalisi qəzanın ümumi əhalisinin 14,4, Borçalı 21,7, Loru 30,4, Trialet nümayəndəliyi isə 33,5 faizini təşkil edir.

Maraqlıdır, həmin illərdə ermənilərin yaşadığı məntəqələrin bəziləri heç də erməni adı daşımamışdır.

Arqutinski – Dolqorukovun 1893-cü ildə çap etdirdiyi «Borçalınskiy uezd» tarixi-etnoqrafik oçerk kitabında dəfələrlə qeyd edilir ki, tatarlar (azəri türkləri – M.S.) bu ərazinin aborigen əhalisi deyildir. Guya onlar buraya XVIII əsrin əvvəllərində İranın bir sıra vilayətlərindən köçmüşlər.

Arqutinski-Dolqorukov artıq çoxdandır ki, aramızda yoxdur. Əgər olsaydı, onun məntiqsiz, əsassız, elmi əsasdan uzaq fikirlərinə qarşı çox tutarlı arqumentlərlə çıxış etmək olardı. Əgər bu beləditsə, nəyə görə istər türk mənbələrində, istərsə də gürcü, rus, yunan və hətta Arqutyanın doğma dilində olan erməni mənbələrində və statistik materiallarda, hələ XVI–XVIII əsrlərdə nəşr olunmuş bir sıra xəritə (qədimdən ən dolğun sənəd kimi qəbul olunmuşdur) və tarixi kitablarda istər Ermənistanda, istərsə də Gürcüstanda «erməni tarixi-coğrafi və yer adlarının 70–80 faizinin adları türk və türk mənşəlidir. Buna yüzlərlə misal göstərmək olar: 1) Aydereq (Heydərbəy), Şamluq (Şamlıq), Xadik (Hədik), Axalık (Ağalıq), Taşbaş (Daşbaş), Qyulakarak (Güləkərək), Djalal-oqlı (Cəlaloğlu), Seyidbaqda (Seyidbağda), Axalikalak (Ağcaqala), Ahılkələk, Darakənd (Dərə kənd), Kolaqirən (Kola girən), Uzunlar, Axkerpu (Ağ körpü), Şiştapa (Şiştəpə), Qyullyuboq (Güllübağ), Darbaz

(Darvaz), Korpulu (Körpülü) və s. kimi kənd, dağ, dərə, yaylaq toponimlərindən də onlarca və yüzlərcə adlar qeyd etmək olar.

Məlumat üçün bildirməliyik ki, ərazidə olan (1870) 284 məntəqənin 196-sı türk adı ilə bağlıdır və bunlarda azəri türkləri məskunlaşmışlar. Bu, bölgələrdə olan məntəqələrin 76,0 faizidir. Türk mənşəli kəndlərin adları, tikintidə işlətdikləri materialların tərkibi, milli ornament və s. amillərə görə bizə IX–X əsrlərdən xəbər verir. (Bəytərəfçi, Lejvədinli, Quşçu, Arıxlı, Faxralı, Kəpənəkçi, B.Muğanlı, Saral, D.Gorarxı, Qızıl-hacılı, Darvaz, Ormeşən, Hamamlı, Qarabulaq və s.). Bəzi kəndlər, hətta bundan da öncəyə, yəni V əsr (Saraclı, Baydar) tarixinə şahidlik edir. Belə kəndlərin adları qədim türk tayfalarının – Tərəkəmə, Borcoğolu, Səlcuq, Qarapapaq qollarından – Uçalı, Çaxırlı, Araplı, Arıxlı, Saral, Şamlı, Qaraqoyunlu, Afşar, yerli aborigen tayfalarından isə **tərkəvun** (Qaragözlü, Müqəddimə, Bayat, Salar, Sığnax, Kaspi, Şaxsevən, Qacar və Rumlu) kimi ən qədim türk tayfalarının adları ilə bağlı olan onlarca kəndləri misal göstərmək olar.

XV–XVI əsrlərdə qara buludlar Gəncə, Dərbəndlə yanaşı, Borçalı əhalisinin də başının üstünü aldı. Qədim məskənlərindən didərgin düşmüş 190 min nəfərə yaxın Borçalı əhalisi həmişəlik İrana, Türkiyəyə, Ərəb dövlətlərinə (İraqa) pənah apardılar. Məlumdur ki, boşalan bu ərazilərdə (Loru, Pəmbək) ermənilər və yunanlar yerləşdirildi.

Loru çölündə məskunlaşan əhalinin bir hissəsi ermənilər idi. Onlar Cəlaloğlu ətrafına 1860–1880-ci illərdə İrəvan xanlığının Pəmbək, Barana və s. məntəqələrindən köçmüşlər. Zəlyəyə isə əsrin 30-cu illərində Türkiyənin Ərzurum bölgəsindən gəlmişlər. Bolnis, B.Şüləver və sair məntəqələrin erməniləri, bir qayda olaraq Qarabağ vilayətindən XVIII əsrin axırları və XIX əsrin əvvəllərində Azərbaycan türklərinin torpaqlarını qarət etmək niyyəti ilə gəlmişdilər. Erməni lobbisinin əli ilə əvvəlcə Qafqaza göndərilən bu tayfalar sonradan gürcü çarları İrakli və Georgi tərəfindən indiki Maşaver (Çağala) və Debed (Borçalı) çayının vadilərində yerləşdirildilər. Buradan aydın olur ki, ermənilərlə təkcə Rusiya, onun rəhbərliyi I Pyotr, Yekaterina və s. yox, eyni zamanda gürcü dövləti, onun knyazları da çox maraqlanmış və erməniləri mərhələ-mərhələ Qafqazın müsəlmanlar yaşayan məntəqələrinə dəvət etmişlər. Bu illərdə ermənilərin azlıq təşkil etdiyi qonşu Qazax, Ağstafa və s. rayonlarından yüzlərlə ailə Bolnisi və Başkeçidə köçmüşdür. Nəticədə ərazidə əhalinin (ermənilərin) artımı nəzərə çarpmağa başladı. 1873-cü ildə Cəlaloğlu, Maki, Bolnisdəki erməni məntəqələrinin hər birində orta hesabla 100–105 ailə və ya 880 nəfər əhali yaşayırdısa, 10–15 ildən sonra, yəni 1885–1886-cı illərdə ermənilərin mexaniki hərəkəti nəticəsində onların sayı 230 ailə və ya 1600–1700 nəfərə qədər artmışdı. Erməni ailələri kənd yerlərində torpaq, həyətyanı sahə ilə tam təmin olunurdular. Ermənilər tam köçüb gəldikləri üçün onların iştahası da çox böyük idi. Ona görə də dövlət onların imtiyazlarını təmin edə bilmirdi. Onda məsələnin həlli yerli hakimiyyətin öhdəsinə düşürdü. Bu halda onlar yerli türklərin torpaq və əmlakına göz tikirdi.

1822–1830-cu illərdə Zaqafqaziyaya xarici dövlətlərdən, o cümlədən İrandan 40 min erməni köçürüldü. İrandan gələn ermənilərin 9000 nəfəri, Türkiyədən gələn 84 min nəfərin isə 20 min nəfərə qədəri Borçalı bölgəsinə, qalanı isə başqa bölgələrə köçürüldü.

Bilərəkdən və məqsədyönlü köçürmələr ermənilər üçün göydən düşmə idi və müsəlman əhalisinin ta qədimdən sıx məskunlaşdığı ərazilərə yönəldilmişdi. Ermənilərin ikinci və üçüncü vətəni hesab olunan bu torpaqlar Yelizavetpol və İrəvan quberniyalarının, Tiflis, Borçalı, Axalsix, Ahılkələk qəzalarının əraziləri idi. Ən maraqlı cəhət odur ki, ermənilər bu ərazilərə köçürülməzdən əvvəl onlar üçün 20 min desyatin dövlət torpaqları və 2 mln. manat məbləğində pul ayrılmış, bu vəsaiti də azəri türklərinin münbit, yararlı torpaq sahələrini məcburi almağa sərf etmişdir. Əldə olan statistik məlumata görə son 250 ildə Türkiyə və İrandan Zaqafqaziyaya 1,3 mln. nəfər köçkün gəlmişdir ki, bunun da 1 mln. nəfəri

erməni, 3 yüz min nəfərə qədəri türk, yunan, kürd və qaraçı olmuşdur. Ermənilərin Zaqafqaziyaya, Borçalıya köçürülməsi, onların sayı, təbii və mexaniki hərəkəti, məşğuliyyətləri haqqında çoxlu saxta rəqəm və materiallar vardır. Bu materialların müəlliflərinin çoxu milliyyətcə ya erməni, ya da ermənipərəstlərdir. Oxucularımızı belə müəlliflərdən bir neçəsi ilə tanış etməyi özümüzə borc hesab edirik: Arqutinskiy-Dolqorukov, Yertsova və b.

Rus-türk və Rus-İran müharibələrinin iştirakçısı, sonralar isə tarixi əsərləri ilə məşhur olan rus tarixçisi V.Pottonun 1880–1890-cı illərdə yazdığı və 1904-cü ildə Parisdə erməni dilində nəşr etdirdiyi «Ermənistanın dirçəlişi» kitabında erməni lobbisinin təşəbbüsü ilə erməni ailələrini İranın Gilan, Müqəddəs Xaç qalası, Təbriz, Mazandaran və s. bölgələrindən Azərbaycanın Qarabağ, Borçalı mahallarına və Gürcüstanın azəri türkləri yaşayan ərazilərinə köçürülməsi, bir müddətdən sonra isə Rusiyanın müxtəlif bölgə-lərində erməni icmalarının təşkil olunması barədə verilmiş çox maraqlı sənədlər və faktlar yuxarıda söylədiklərimizi bir daha təsdiqləyir. Digər bir faktı da qeyd etmək yerinə düşərdi. XVIII əsrin əvvəllərində I Pyotr ermənilərin xeyrinə bir çox əmrlər və imtiyazlar vermişdi. Vəd etmişdi ki, öz qayğısını heç vaxt ermənilərdən əsirgə-məyəcəkdir. O yazırdı: «Biz erməni millətini hökmdarlığın xüsusi mərhəmət və himayəsi altına aldıq». Onun digər bir «müqəddəs» andı da maraqlıdır. Pyotr öz sərkərdəsi Matiyuşkinə deyir ki, hər vasitə ilə erməniləri dəvət etməyə çalışın, gizli yollarla müsəlmanların sayını mümkün qədər elə azaldın ki, gələcəkdə onlar bunu başa düşə bilməsinlər...

1870-ci ilə görə ermənilərin sayı 39922 nəfər təşkil edib. Bunun 21476 nəfəri kişi, 18446 nəfəri isə qadın olub. Onlar 4877 ailədə cəmlənmişdi. Hər 100 kişiyə 86 nəfər qadın düşürdü. Yuxarıda qeyd etdiyimiz kimi, ermənilər nisbətən iri kəndlərdə məskunlaşmışdılar. Gürcüstanın bölgələrində yaşayan ermənilər iri məntəqələrdə yaşamalarına baxmayaraq, məntəqələr çox perspektivsiz, qara damlardan və heç bir səliqə-sahmanı olmayan torpaq evlərdən ibarət idi. Kəndlərin



küçələri əyri-üyrü, darısqal, tikililər plansız və primitiv idi. Lakin elə məntəqələr də vardır ki, bəzi binalar lap şəhər tikililərinə bənzəyirdi. Belə kəndlərdən Şülaver, Cəlaloğu və s. məntəqələri göstərmək olar.

Erməni xalqı nə qədər zəhmətkeşdirsə, bir o qədər də xain-xofludur. Tarix boyu başqalarının, o cümlədən qonşu xalqların mədəniyyətindən, incəsənətindən istifadə etmiş, onların torpağına, əmlakına göz tikib, bəhrələnmişdir. Əlbəttə, belə bir xalqın övladları köçəri və pərakəndə yaşamağı, harda qazanc var ora getməyi üstün tutardı. Bu baxımdan Borçalı erməniləri də ilin 6–7 ayını mahalın və ölkənin müxtəlif şəhər və bölgələrinə qazanc arxasınca gedərdilər. Aydındır ki, belə bir şəraitdə onların ev işləri və ailə ilə məşğul olmalarına çox az vaxtları qalırdı.

XVIII–XIX əsrlərdə ermənilər, əsasən, Batum, Çiyatura şəhərlərinə gedib işləyirdilər. Sonradan daha sərfəli qazanc üçün Tiflis, Gəncə, Bakı və hətta Orta Asiya ölkələrinə də yol tapdılar.

Ermənilərin əmək qabiliyyətli əhalisini üç qrupa bölmək olar: birinci qrupa daxil olan əhali mahalda və ölkədə kommersiya işləri və qismən alverlə, ikinci qrup əhali əkinçilik və sənətkarlıqla, üçüncü qrup əhali isə sırf həyətyanı təsərrüfatla, xüsusən də donuzçuluqla məşğul olurdu. Bu xalqın ən yadda qalan və onları digər xalqlardan fərqləndirən cəhətlərindən biri budur ki, erməni qadınları, şərq qadınlarından tam fərqli olaraq, məclis və mərəkələrdə üzləri açıq oturar, ucadan danışıb-gülər, milliyyətindən və dinindən asılı olmayaraq, bütün kişilərlə sıx təmasda və əlaqədə olmağı üstün tuturlar. Ümumiyyətlə, erməni qadınlarının gün ərzində boş, asudə vaxtları gürcü, yunan, rus və azəri türklərinin qadınlarından müqayisəyə gəlməz dərəcədə çox qalırdı. Erməni xalqında savad, təhsil almaq, bir qayda olaraq kişilərə xasdır. Qadınlara savad vermək qayğısına qalmazdılar. Gənc nəslin düzgün təlim-tərbiyəsi ilə yetərincə məşğul olmaq əvəzinə, türklərin erməni xalqının ən qəddar

düşməni olması fikrini hər vəchlə övladlarının beyninə yeritmiş və indi də yeridirlər.

**Gürcülər.** Gürcülər bu mahala vaxtilə planlı şəkildə kaloniyalar axışan vaxtlarda digər bölgələrdən köçüb gəlmiş, yeni ərazilərə isinişərək burada da qalmışlar. XIX əsrin axırlarında ərazidə cəmi 329 gürcü ailəsi, o cümlədən 1086 kişi, 980 nəfər qadın yaşayırdı ki, bunların da ümumi sayı 2066 nəfər olmuşdur. Hər ailəyə 3,3 nəfər kişi, 2,9 qadın və ya 6,2 nəfər, hər 100 kişiyə 90 nəfər qadın düşürdü. Gürcülər ermənilərə nisbətən həddən artıq zəhmətkeşdirlər və s. Onlar əsasən əkinçilik və üzümçülük-bağçılıqla məşğul olurdular. Qəzada üzüm və şərabçılığın əsasının qoyulması bu xalqın adı ilə bağlıdır. Gürcülər tarix boyu torpaq azlığından şikayət ediblər. Buna görə də onlar kasıb yaşamışlar. Ermənilər kimi pul, mal-dövlət, qazanc dalınca kənara qaçmağı özlərinə layiq bilməyiblər. Gürcü və ermənilərin bu məmləkətə gəlmə olduqlarını son 250–300 illik təsərrüfat həyatı, maarif, mədəniyyət və məskunlaşma tarixi də bu fikirləri bir daha sübut edir.

Əhalinin əsas diqqət mərkəzində üzümçülüyün və bağçılığın inkişafı dururdu. Bir də ərazidə müvəqqəti həyat tərzinin üstünlüyü idi. Gürcülər tamamilə yeraltı zirzəmilərdə, qara damlarda yaşayıdılar.

Ümumiyyətlə, istər ermənilərin və istərsə də gürcülərin ətraf bölgələrlə yanaşı, tarixi məskunlaşması haqqında elmi və praktik araşdırmalar aparılmamışdır. Cəmi 250–300 illik nisbətən qısa tarixi bir dövr ərzində gürcülərin sayca azlıq təşkil etməsi bu məsələni ziyalı və dövlət rəhbərlərinin diqqət mərkəzindən kənarda qoymuşdur. O cəhət də xarakterikdir ki, gürcülərin mahalda az olmalarına baxmayaraq, azəri türkləri onlarla bir yerdə mehriban və əmin-amanlıq şəraitində yaşamağı daha üstün tutmuşlar. Ona görə də bu millətin nümayəndələri azərbaycanlılarla Duşet (Düşget), Siğnağ, Sərtiçala və s. Məntəqələrdə mehriban yaşayırlar.

**Yunanlar.** Yunanlar ərazinin, demək olar ki, əsasən dağlıq yerlərində məskunlaşmışlar. Onlar buraya Türkiyənin Gümüşxana adlanan bölgəsindən köçmüşlər, 1829–1831-ci illərdə Ərzurum ətrafından köçüb-gələn yunanlar Zəlyə düzənliyində və Qomoret kəndində məskunlaşmışlar. Digər məntəqələrdən gələn yunanlar isə ərazinin alçaq dağlıq və dağətəyi ərazilərinə üstünlük vermişlər. Yunanlara Borçalıda «berzen» də deyirlər. Din baxımından erməni-Qriqoryan qrupuna daxil olmalarına baxmayaraq, Gürcüstanda onlar azəri türk dilinin Anadolu ləhcəsində danışırlar. Lakin orta və ali məktəblərdə, əsasən, rus və qismən də gürcü dilində təhsil alırlar. Ərzurum, Trabzon və Qars vilayətlərindən gəlmiş yunanlar həmişə çalışırdılar ki, geriyə – Qarsa qayıtsınlar. Onların bu arzusu yalnız XX əsrin ortalarından həyata keçməyə başladı. Əsasən, Yunanıstana qayıtdılar. Zaman keçdikcə ərazidəki yunanların çoxu ermənilərin təsiri altına düşdü. Hətta əksəriyyəti özlərini erməni kimi qələmə verdilər. Ermənilər kimi yunanların da əmək qabiliyyətli əhalisi qruplara ayrılır.

Birinci qrupa Alaverdi və Axtala filiz mədənlərinin açılışı və istismarı ilə əlaqədar bu sahədə ixtisaslaşanlar; ikinci qrupa yol, ev, anbarlar tikmək üzrə ixtisaslaşan sənətkarlar (daş karxanalarında işləyənlər); üçüncü qrupa əkinçilik (kartof, kələm) və quşçuluq üzrə; dördüncü – keçid qrupuna isə əsasən XX əsrin ortalarında radio-texnika və maşınqayırma ixtisası üzrə çalışanlar daxildir. Yuxarıda qeyd etdiyimiz kimi, yunanlar, əsasən, Trabzon əyalətindən – Gümüşxana zavodundan və Türkiyənin yunanlar yaşayan bir sıra məntəqələrindən köçüb gəlmişlər. Yunanlar bu əraziyə gələn gündən dağ-mədən və filizçıxarma, əritmə istehsalı ilə ciddi məşğul olmuş və bu sahədə böyük nailiyyətlər əldə etmişlər. Onlar qazancdan özlərinə Borçalı ağalarından və knyazlarından örüş, biçənək sahələri almış, yardımçı heyvandarlıq təsərrüfatı ilə də məşğul olmağa başlamışlar.

Yunanlar olduqca zəhmətkeş və əməksevərdirlər. Onlar mahalda nəinki özlərinin əməksevərliyi ilə, hətta yaxşı ev-eşik tikməklə, təmizliyə böyük fikir verməklə də yerli əhalinin rəğbətini qazanmışlar.

Yunanların əsas hissəsi dağlıq Zəlyə nümayəndəliyində və Dmanis-Qomaret bölgəsində məskunlaşmışlar. Burada

yaşayan yunanlar özlərinin səliqə-sahmanı, təmizliyi, işgüzarlığı və ailədaxili münasibətləri baxımından Loru və Borçalıdakı yunanlardan tamamilə fərqlənirlər. Erməni və ruslara nisbətən yunan qadınlarının asudə vaxtı çox azdır. Onlar kənd təsərrüfatı ilə yanaşı, evdə də gərgin işləyirlər. Lifdən, yundan və kətandan uşaq və qadınlar üçün müxtəlif paltar-geyim toxuyurlar. Yunanlar son vaxtlar ailədə savad məsələsinə də ciddi fikir verirlər. Zəlyə bölgəsinin bir neçə yaşayış məntəqəsinin sakinləri (yunanlar nəzərdə tutulur) Tiflis şəhərində pedaqoji təhsil aldıqdan sonra kənd məktəblərində öz ana (yunan) dili fənnini tədris edirlər. Yunanlar Türkiyədən Borçalıya və Gürcüstanın şərq hissəsinə köçdükdən sonra, əsasən, Azərbaycan türkləri məskunlaşan ərazilərin qonşuluğunda sığınacaq tapmışlar. Onlar, bir qayda olaraq, əsasən, türklərlə yaxınlıq edib, özlərinin ailə qurma məsələlərini də türklərə yaxınlaşdırmışlar. Evdə də, başqa yerlərdə də türklərlə Anadolu ləhcəsində danışır, yavaş-yavaş onların adət və ənənələrini qəbul etmişlər. Yunanları Azərbaycan türklərindən, demək olar ki, yalnız təhsil və din məsələsi ayırır.

**Qaraçılar.** Borçalı qəzası ilə birlikdə bütün Gürcüstanda ən az saylı millət nümayəndələri qaraçılardır. Qaraçılar 11 ailə və ya 75 nəfər, buraya 1850–1860-cı illərdə Türkiyənin Ərzurum vilayətindən gəlmiş və Zəlyə nümayəndəliyinin Tamala-xaraba kəndində məskunlaşmışlar. Əlimizdə olan məlumata görə, 75 nəfər qaraçının 30 nəfəri kişi, 45 nəfəri isə qadın olmuşdur. Başqa sözlə, hər kişiyə 1,5 qadın düşürdü.

Qaraçılar tarixən köçəri həyat sürmüşlər. Lakin bu bölgələrin qaraçıları ənənəvi atçılıqla, maldarlıqla yanaşı, öz dədə-baba sənətləri olan nalbəndlik, xırda məişət avadanlıqları, kənd təsərrüfatı (torpaqda işləmək üçün) alətləri istehsal etməklə məşğul olurdular. Buna görə də Borçalı qaraçıları, bir qayda olaraq nisbətən oturaq həyat tərzi sürməyi üstün tutmuşlar. Tayfanın orta əmək qabiliyyətli əhalisi qazanc üçün «erməni qohumları» kimi, 3–4 ay müddətinə Tiflis, Batum, Şüləver, Sarvan, Yekaterinenfeld, Qarayazı, Arıxlı və hətta Başkeçid bölgələrinə gedərdilər. Qaraçılar bu göstərilən peşələrlə yanaşı, onların ən ulu «peşəsi» sayılan at oğurluğunu da unutmamışlar. Müxtəlif mənbələrin verdiyi məlumatlara görə XIX əsr və eləcə də XX əsrin ortalarına kimi bölgə-lərdə kiminsə atı yoxa çıxırmışsa, hamı bilirmiş ki, bu əməliy-yatda qaraçıların əli var.



Qaraçıların özlərinə məxsus elə adət-ənənələri vardır ki, bunlar heç bir xalqa mənsub deyildir. Misal üçün, ən qədimdən (Şimali Pakistanda, Ərəbistanın şimal bölgələrində və Borçalıda) qaraçılar ailə qurarkən qızlar, bir qayda olaraq yalnız qaraçı millətindən olan oğlanlara ərə gedə bilərlər. Qaraçı oğlanları isə təsadüfən başqa millətin nümayəndəsilə evlənə bilər. Belə hallar çox az olur, lakin qadınlarda belə hallar, demək olar ki, heç vaxt baş vermir. Bu, tayfanın ailə məsələsində qohumluq əlamətlərini hər şeydən üstün tutmasını göstərir.

**Kürdlər.** Bölgələrdə vaxtilə yaşayıb-yaratmış, sonradan müxtəlif səbəblər nəticəsində bir qismi öz məskənlərindən köçmüş və bir qismi isə assimilyasiyaya uğrayaraq az saylı xalqlardan birinə çevrilmişdir.

Burada kürdlərin yaşamaları və onların haradan gəlmələri haqqında dəqiq məlumat yoxdur. Lakin apardığımız tədqiqat bizə belə bir qənaətə gəlməyə əsas verir ki, kürdlər bu əraziyə təxminən 300–350 il bundan öncə İraqdan və Türkiyənin cənub-qərb bölgələrindən gəlmişlər. 1870–1871-ci ilin məlumatına görə mahalda cəmi 25 ailə və ya 192 nəfər kürd yaşayırdı.[15] Kürdlər Gürcüstanın Zəlyə bölgəsinin qərb hissəsində iqlim şəraitinin kəskin soyuq, yağmurlu yerlərində məskunlaşmışlar. Əhalinin bir hissəsi iqlim şəraitinə uyğunlaşmayıb, 1873–1875-ci illərdə könüllü olaraq Türkiyənin Qars vilayətinə pənah aparmışlar. Qeyd etməliyik ki, bu bölgədə onların daimi yaşadıqları Sabitahcı adlı kənd var idi. Hazırda bu kənddə kürdlərlə bərabər ermənilər, yunanlar da yaşayırlar.

---

[15] Bax: Материалы для изучения экономического быта государ. крестьян Закавказского края, том. II, 4. 2-8, стр. 43-60, 394-401.

**Azərbaycan türkləri.** Şərqi Gürcüstanın və qəzanın ən qədim və yerli sakinləridir. Bu xalqın Gürcüstanın şərq, qərb bölgələrində və Borçalıda yurd-yuva salıb məskunlaşmasının 3 min ildən yuxarı tarixi vardır. Bu haqda məlumat tədqiqat işinin tarix bölməsində qısa da olsa verilib və yazılı mənbələr əsasında təhlil olunub, araşdırılıb. Azərbaycan türklərinin bölgələrdəki ən qədim və ulu yerləri Maşaver çayının yuxarı axarını, subasar sahələri, Loru, Pəmbək, Zəlyə bölgəsinin dağlıq alp-subalp çəmənliyini və Borçalı nümayəndəliyi və Borçalı düzənliyinin 2/3 hissəsini əhatə edir. Biz bu bölmədə azəri türklərinin məskunlaşması, onların təsərrüfat fəaliyyəti, əmək vərdişləri haqqında (XV–XX əsrdən) məlumat verməyi qarşımıza məqsəd qoymuşuq.

Məlumat üçün qeyd edək ki, Borçalı qəza, mahal, sultanlıq və xanlıqlar olan dövrlərdə və hətta ondan öncə, yəni XIII əsrin axırlarından XVII əsrin ortalarına qədərki dövrlər haqqında olan yazılı mənbələrdə ərazilərin əhalisi haqqında dolğun statistik rəqəm və materiallara rast gəlinmir. Odur ki, XVII əsrin sonunda və o dövr üçün maraq doğuran sorğu nəticəsində müəyyən edilmiş rəqəmlərdən və oçerk materiallarından bu əsərin yazılmasında və xəritə-sxemlərin tərtibində ilkin mənbə kimi istifadə edilmişdir. Əhalinin dəqiq siyahıyaalınma prosesinə yalnız 1850-ci illərdən başlanmışdır. Tədqiq etdiyimiz mənbələrdəki materiallardan görünür ki, bölgələrdə yaşayan ermənilərin sayı müxtəlif erməni və ermənipərəst tədqiqatçılar tərəfindən ağlagəlməz dərəcədə şişirdilmişdir (bax: cədvəl № 1).

1870–1871-ci illərin məlumatına görə, azərbaycanlıların sayı 33770 nəfər və ya 19443 nəfər kişi, 14327 nəfər isə qadın olmuşdur. 4870 ailə təşkil edən azərbaycanlıların hər bir ailəsinin orta hesabla 7 nəfərə yaxın üzvü olmuşdur. Hər 100 kişiyə 73 qadın düşmüş, uzunömürlülük isə 55–60 ilə bərabər olmuşdur. Əhalinin məşğuliyyəti, əsasən, maldarlıq və əkinçilik idi. Maldarlıq azəri türklərinin yaşadığı bölgələrin əlverişli təbii şəraiti və coğrafi mövqeyi baxımından inkişaf etdirilirdi. Yəni Başkeçid bölgəsində iribuynuzlu mal-qara və



qismən qoyunçuluq, aran və düzəngah Borçalıda isə qoyunçuluq və südçülük yönümlü maldarlıq inkişaf etmişdir. Ərazinin iqlim şəraitinin 5–6 ay isti keçməsi ilə əlaqədar olaraq arançılar **(M.S.)** apreldən-sentyabr ayının 20–25-nə kimi yaylaqda, payız aylarından mart ayına kimi isə aran qışlaqlarında olurdular. Kənd təsərrüfatının əkinçilik sahəsində taxılçılıq, bostançılıq, son zamanlar qismən bağçılıq və pambıqçılıq, yemçilik inkişaf etdirilirdi. Mahalda azəri türkləri yeganə xalqdır ki, əgər qışlaq, yaylaq mövsümü ilə əlaqədar yerdəyişməni nəzərə almasaq, oturaq həyat tərzi sürür. Yəni ermənilər, yunanlar, qaraçılar kimi əlavə, yüngül qazanc dalınca digər bölgələrə getmirlər. Qadınlar, adətən, heyvandarlıqda süd, yağ, pendir istehsalında iştirak edir, həyətyanı təsərrüfatda xırda-para işləri yerinə yetirir, evdə isə uşaqlara baxır, məişət işləri ilə məşğul olurdular. 1870-ci ilin məlumatına əsasən bölgələrdə yaşayan azəri türklərinin əkinə yararlı torpaq sahələri, demək olar ki, yox dərəcəsində idi. Onlar əsasən icarəçilərin torpağında, qolçomaq, bəy və digər millətlərin nümayəndələrinin təsərrüfatında çalışmış, əməklərinin dəyərinin müəyyən bir qismi onlara çatmışdır. Bölgə əhalisinin 80–85 faizi bəy və xanların şəxsi torpaq sahələrində, 15–20 faizi isə dövlət torpaqlarında çalışırdılar. Kəndli-şəxsi mülkiyyətçiliyində yalnız ərazinin Əngrevan (90 ailə), Məmişli (20), Xancığazlı (15), dövlət mülkiyyətiçiliyində isə Beytərəfçi (21 ev), Quşçu (8) və Kolagir (28) kəndlərinin əhalisi çalışırdı. Bölgə əhalisinin 17 faizinin və ya ailələrin 12,5 faizinin torpağı olmamışdır.

Azərbaycan türklərinin çoxlu mal-qarası, qoyun-keçisi və atları olub. Onların əsas məşğuliyyətini heyvandarlıq təşkil edib. Lakin mal-qaradan gələn gəlir onlara, demək olar ki, kifayət etmirdi. Çünki icralar, bəylər və xanlar onlara o qədər çox vergi qoyurdular ki, kəndlilər ilin axırında sahibkarlara, hətta borclu da qalırdılar. Azərbaycan türkləri bu ərazilərdəki qeyri-millət və xalqlara nisbətən çox qonaqpərəst, sözlərinə düz, riyakarlıqdan uzaq, sakit təbiətli, alicənab insanlar idi. Azərbaycan ailələrinə çoxuşaqlılıq xarakterik

idi. Lakin təbii şəraitin uşaq orqanizminə mənfi təsiri nəticəsində uşaqlar arasında (yeni doğulmuş) ölüm əmsalı bəzi illərdə doğulanlardan çox olmuşdur. Ona görə də təbii artım aşağı olmuşdur.

Borçalı qəzasının Borçalı nümayəndəliyində (düzən və Qaraçöp bölgəsində və Zəlyəsiz) yaşayan Azərbaycan türklərinin heyvandarlıqdan ayrılıb taxılçılıqla məşğul olmağa, demək olar ki, vaxtları qalmırdı. Odur ki, dağlıq ərazilərdən erməni, yunan və başqa millətlərin nümayəndələrini mövsümü olaraq 1–2, bəzən isə 3–4 aylığa dəvət edib, muzdlu fəhlə kimi təsərrüfatın bu sahələrində işlədirdilər. Çox vaxtlar, hətta İranın bir çox mahallarından gəlmiş tat və aysor millətinin nümayəndələrinin qüvvəsindən də istifadə edirdilər. Buna görə də həmin millətlərin sayı istər qəzada və istərsə də onun ətraf bölgələrində ildən-ilə artırdı. Onlar Qaraçöpün, Borçalının susuz, isti, ilanlı-həşəratlı müxtəlif gəmiricilərlə bol olan şəraitinə, ab-havasına dözürdülər. Demək olar ki, ilboyu bir dəfə də olsun xəstələnmirdilər. Tat və aysor tayfalarına Gürcüstanın Sarvan, Sadaxlı, Muğanlı, Yekaterinenfeld, Qarayazı, Qaçağan, Araplı, Ləmbəli və s. yaşayış məntəqələrində rast gəlmək olur.

Onu qeyd etməliyik ki, əlimizdə olan rəsmi dövlət sənədlərinin, bir sıra tədqiqatçı mütəxəssislərin material və elmi işlərinin araşdırmalarından aydın olduğu kimi, Borçalı və digər ərazilərdə 1873–1875-ci illərdə əhali üzrə aparılmış elmi tədqiqatlar, etnoqrafik məcmuələrdəki nəticələr sübuta yetirir ki, burada yüz mindən artıq əhali qeydə alınmışdır. Əhali özündə 7 millətin nümayəndəliyini birləşdirmişdir. Eyni zamanda mövcud faktlar, dəlillər vasitəsilə müəyyən etmək olur ki, ərazinin qədim yerli əhalisi tarixən Azərbaycan türkləri olmuşlar. Statistik materiallardan aydın olur ki, müsəlmanlar arasında həm təbii artımın, həm də ölüm (uşaqlar arasında) əmsalının yüksək olması, mexaniki hərəkətin isə ermənilərə, ruslara və gürcülərə nisbətən aşağı olması bölgələrdə XV əsrin əvvəllərinə qədər sabit artım fərqini az nəzərə çarpdırır. Halbuki azəri türklərinə, ümumiyyətlə, onların yaşadıqları ərazilərə dövlətin heç bir qayğısı olmamış, əhali kor-təbii həyat tərzi keçirərək yerli istismarçı qüvvələr tərəfindən var-yoxdan çıxarılıb istismar olunmuşdur. Onu da qeyd etməliyik ki, Azərbaycan türkləri yaşayan məntəqələrdə sosial-iqtisadi təminat, bəlkə də, yox dərəcəsində idi. Lakin Şüləver, Yekaterinenfeld, Rus-Gergeri və s. məntəqələrdə yaşayanlara tamam başqa imtiyazlar verilmişdi. Yüz min nəfərdən artıq əhalisi olan bir ərazidə heç bir şəhər və qəsəbə salınmamışdır. Mahalın ən qədim və iri, coğrafi mövqeyi baxımından əlverişli, Tiflis kimi iri inkişaf etmiş şəhərə yaxın olması və eləcə də ərazisində magistral yollar qovşağında yerləşən Sarvan mətəqəsinin olmasına baxmayaraq, onun nə Tiflislə, nə də ətraf məntəqələrlə telefon-teleqraf əlaqəsi, bələdiyyə, səhə polis idarəsi belə yox idi.

Şüləver kəndi isə regionun sosial-iqtisadi baza mərkəzi olmaqla yanaşı, həm də ərazinin mərkəzi məntəqəsi sayılırdı. Buradan aydın olur ki, o regionda yerli türklərə qarşı ögeylik hələ də davam edir. Tarix boyu öz murdar əməlləri ilə məşhur olan erməni millətçiləri çar hökumətinin Qafqazdakı səlahiyyətli nümayəndəliyində işləyən rüşvətxor məmurlarla əlbir olub, mahalın bütün təsərrüfat sahələrində lazımi vəzifələrə gəlmə erməniləri seçmiş, işgüzar, təmizqəlbli azəri türklər isə, bir qayda olaraq rəhbərlik tərəfindən təhqirə, istismara məruz qalmışlar. Bu faktı, eyni olaraq, Borçalı mahalına da şamil etmək olar. Belə münasibəti təkcə iqtisadi və sosial həyatda deyil, hətta yerli əhalinin adi insan hüquqlarının tapdalanmasında da açıq-aydın görmək mümkündür. Hiyləgər və məkrli ermənilər indinin özündə də bədnam əməllərindən əl çəkmirlər. Lakin dözümlü və həmişə öz nəslini halal zəhmətlə artırıb yaşadan xalqımız əsrlər boyu erməni və digər millətlərin bizə qarşı etdikləri xəyanətkar hərəkətlərinə dözümlü yanaşmış ən ağır şəraitdə belə, düşmən qarşısında özünü ləyaqətələ aparmağa çalışmışdır. Bu dediklərimizi regionların son statistik rəqəmləri də sübuta yetirir.

## § 4. Bölgələr üzrə diasporun sosial-ictimai vəziyyəti və tarixi fəaliyyəti

Hər hansı bir ərazidə əhalinin məskunlaşması çoxcəhətli tarixi-coğrafi prosesdir və təbii ki, bu prosesin ləng, yaxud intensiv getməsi daha çox elmi-texniki tərəqqinin inkişaf səviyyəsindən asılı olmuşdur.

İnsanların əqli tərəqqisi və buna müvafiq olaraq, bəşəri təkamülün səviyyəsi nə qədər yüksək olursa, əhalinin məskunlaşması da bir o qədər sürətlə pərvəriş tapır və müxtəlif formalarda təzahür edir. Başqa sözlə, yaşayış məntəqələrinin kəndlərin, qəsəbələrin, şəhərlərin salınması məhz həmin səviyyədən asılıdır.

Ümumiyyətlə, məskunlaşma dedikdə, insanların yaşayıb yaratması üçün ən lazımlı şərait və şərtlərin məcmusu nəzərdə tutulur. Təbiidir ki, bu prosesin mərkəzində onun ilkin bazası, zəruri şərti sayılan yaşayış yeri – alaçıq, qalaçıq, koma, daxma və nəhayət, müasirtipli mənzil, ev durur.

Ev insan yaşayışının və güzaranının çox mühüm maddi vasitələrindən biridir. Yaşayış binaları, evlərin, insanların təbiətə qarşı apardığı mübarizənin, onların şüurlu fəaliyyətinin məqsədyönlü əməyinin ilkin məhsullarındandır. Ev-eşik yaratmağın inkişaf yolu uzun və mürəkkəb olub, özü də bu yol müxtəlif mərhələlərdən keçib. Bu xüsusiyyət Borçalı və ətraf bölgələrdəki evlərə də aiddir. Evlər, tikililər zaman-zaman dəyişikliklərə uğramış, təkmilləşmişdir. Lap qədim zamanlarda bu ellərin Azərbaycan türkləri primitiv yerdən qazma torpaq evlərdə, qara damlarda, tövlə yataqlarda, alaçıqlarda yaşamışlar. Sovet hakimiyyəti illərində bəzi şəhər, qəsəbə və kəndlərdə evtikmə işləri əvvəlcədən tərtib edilmiş baş planlar, layihələr əsasında, sənaye üsulu ilə aparılmışdır.

Ümumiyyətlə, əhalinin məskunlaşması problemi öyrənilərkən hər yerdə, o cümlədən bütün cəmiyyətlərdə başlıca olaraq dörd amil əsas götürülür. Borçalı da, biz də bu məsələni tədqiq edərkən, həmin amillərə istinad etmişik. Bunlar aşağıdakılardır:



Birinci amil məskunlaşmanın sosioloji baxımdan daha geniş tədqiqinə əsaslanaraq cəmiyyətin məkanca təşkili formasını nəzərdə tutur. İkinci amil işçi qüvvəsinin kəmiyyət və keyfiyyətcə formalaşmasına iqtisadi şəraitin təsirini əhatə edir. Üçüncü amil coğrafi səciyyəlidir. Məhsuldar qüvvələrin məqsədyönlü sahmanlaşması məqsədilə əhalinin ərazi üzrə inkişafı və yerləşdirilməsinin rolunu nəzərə almağı zəruri edir. Nəhayət, dördüncü-demoqrafik amil əhalinin təbii hərəkətinə təsir edən sosial-psixoloji səbəblərin yaranması şəraitini öyrənir.

Gürcüstan Azərbaycan türklərinin məskunlaşdığı regionlar, demək olar ki, öz təbii-coğrafi şəraitinə, torpaq, bitki örtüyünün zənginliyinə, su (suvarmaq üçün) və nəqliyyat iqtisadi bazasına, magistral şose və dəmiryolları ətrafındakı mövqeyinə, əhalisinin sayına, əmək ehtiyatlarının bolluğuna görə Zaqafqaziyanın digər bölgələrindən xeyli fərqli olub, özünəməxsus potensial imkanlara və inkişaf perspektivinə malikdir. Bu baxımdan Gürcüstanın ayrı-ayrı rayon və bölgələrində məskunlaşmış azərbaycanlıların müstəqil Azərbaycan dövləti ilə sıx əlaqələrinin tənzimlənməsi və inkişaf etdirilməsi yönümündə icmaların rolu və fəaliyyəti danılmazdır. Və bu səbəbdən də digər bölgələrdə icma və diasporanın formalaşması meydana gəlmişdir.

Tarixdən məlumdur ki, Borçalı ta qədimdən oğuz qövmlərinin (tayfa), hələ miladdan öncə VII əsrdə bu yerdə yurd-yuva salıb yaşamaları haqqında məlumatlar bir sıra ərəb, fars, yunan, türk, alman, gürcü səyyahlarının, sərkərdələrinin gündəliklərində və etnoqrafik oçerk materiallarında öz əksini tapmışdır. Bu deyilənlər əsrimizin əvvəllərində Sankt-Peterburqda nəşr olunmuş «Деревянное зодчество Грузии»[16] kitabında da bir daha öz təsdiqini tapır.

Əlbəttə, üç min il bundan öncə bu yerlərdə türklərin məskunlaşması haqqındakı məlumatlar milli tariximizin ən qədim səhifələrini öyrənməyə kömək edir. VI–VIII əsrlərdən

[16] M.O.Sadıqov. Telefon bilgi kitabçası; Borçalı maarif və mədəniyyət cəmiyyəti, Bakı, 1992. səh. 4.

X–XV əsrlərə qədər uzun bir tarixi dövr ərzində ərəb, fars, yunan, alman, gürcü tacir və səyyahları, qoşun sərkərdələri tərəfindən hazırlanmış hərbi, tarixi-coğrafi xəritələrdə təhrif olunmuş şəkildə olsa da, türk adlarının tez-tez çəkilməsi bu məkanlarda qədim türklərin olduğunu bir daha təsdiqləyir.

Borçalı bir mahal, qəza və sultanlıq kimi XVII–XVIII əsrlərdə rəsmi status alıb (bax: xəritə-sxem № I). XX əsrin əvvəlində müəyyən səbəblər üzündən parçalanmaya məruz qalmış və 1921–1952-ci illərdə isə hazırkı inzibati rayonlara ayrılmışdır[17] (bax: xəritə-sxem № 2).

Gürcüstanda Azərbaycan türkləri yaşayan bölgələri (Saqareco, Laqodexi, Telavi, Msxeta, Kareli, Kaspi, Tetri-Tskaro (Ağbulaq), Zəlyə əhalisi 50-dən çox türk tayfasından təşəkkül tapmışdır. Bunlardan ən geniş yayılmış və hazırda öz qədim irsini, adət-ənənəsini qoruyub saxlamış borcoğlular, Oğuzlar, qarapapaqlar, tərəkəmələr, qıpçaqlar, iskit və xəzərlər, hunlar, səlcuq və barsillərdir. Özlüyündə bunların hamısı bizim soy kökümüzdür.

Gürcüstandakı Azərbaycan turklərinin qədimliyini sübuta yetirməkdə bizə kömək göstərən «canlı şahid» rolunu oynayan, toxunulmaz, müqəddəs saydığımız tarixi abidələr və etnoqrafik materiallardır. Ulu tariximizin şahidləri olan bu müqəddəs abidə və sənət inciləri körpülərdə, qəbirlərin sinə və başdaşlarında, türk, ərəb, fars, dillərində həkk olunmuş yazılar, onların qədimliyi haqqında qeyd etdiklərimizi təsdiqləyir. Belə tarixi incilərdən indiki Marneuli rayonunun Ərəbli, Təkəli, Quşçu, Sadaxlı, Qaçağan kəndlərindəki yeraltı şəhərciklər, su quyuları, qoç abidələri, gümbəz və təndir abidələrini, Başkeçiddə üçmərtəbəli qədim türk qəbiristanlığını, Lök Candarda ermənilər tərəfindən saxtalaşdırılmış Alban kilsələrini (əslində, səkkizləpirli qədim türk günbəzləridir), Bolnisi rayonunun Arıxlı, Qoçulu kəndlərindəki bir sıra tarixi abidələri, Qoçulu qalasını, Cənnət meydanını və s. göstərmək olar.[18] Müxtəlif dövrlərdə hərbi istilalara məruz qalmış Borçalı əhalisi, sıx-kompakt həyat sürmək əvəzində, vaxtaşırı pərakəndə yaşamağa məruz qalırdı. Azərbaycan türkləri Borçalının ən münbit və məskunlaşma baxımından yaxşı mənimsənilmiş bölgələrindəki qədim, daimi yaşayış yerlərini tərk edərək Gürcüstanın 150–200 km cənubşərqindəki Saqareco, Laqodexi, Karel, Kaspi bölgələrinə pənah aparmışdılar. Bundan bir müddət sonra Azərbaycanda xanlıqlar yarandı. Borçalıda isə sultanlıq elan olundu (bax: xəritə-sxem № 3). Lakin çox keçmədi ki, Borçalıda qanlı çəkişmələr və istilalar nəticəsində sultanlıq da ləğv olundu.

XI yüzillikdə yaşamış soydaşımız Hübeyş Tiflisinin dahilik şöhrəti onu yetirən Tiflis müsəlman mühitinin dərin və qədim kökləri olduğunun tutarlı təsdiqidir. Türk alimi və mütəfəkkiri F.Kırzıoğlu «Qarapapaq (Gürcüstanda yaşayanları nəzərdə tutur–müəllif) **uruğunun** Kür-Araz boyalarındakı 1800 ilinə bir baxış» (1971) əsərində bu məlumatları çox həssaslıqla açıqlayır. «Borçalı və Qazax» adlı iki qola ayrılan bu xalq Qıpçaq (Kuman-Xəzər), Oğuz uruğunda sayılır... Bu iki igid, atlı-köçəri qəbilənin XI yüzilliyin axırlarında Borçalı–Qazax çayları ətrafındakı ərazidə yerləşdikləri və 1064-cü ildə Səlcuq sultanı Alp-Aslanın qarşısında bütünlüklə islam dinini qəbul etdikləri, «Türküstandakı Qaraqalpaq Qazax ləhcəsində qonuşduqları son dərəcə inandırıcıdır». Həqiqət naminə demək lazımdır ki, o vaxtlar türk tayfalarının Şərqi Gürcüstana gəlişi (bu axın türklərin tarixində ikinci axını idi, belə axınlar cəmi üç dəfə olmuşdur) yalnız və yalnız soydaşlarına arxa durmaq (əsasən Gürcüstanın Adıgün, Aspinza, Axalsix və Ahılkələk-Boqdanovka nahiyələrinin Sağamoy, Duxobor məntəqələri) Pərvanə (Pərvanə həm də göldür), Gənzə; Zəlyə-Barmaqsız bölgəsinin isə Dağ Sar-van, Culuxlu və s. məntə-

[17] Ş.Məmmədli. Parçalanmış Borçalı, Azərbaycan dövlət nəşriyyatı, Bakı, 1991.

[18] В.Ш. Джаошвили. «Население Грузии». Тбилиси, изд. «Метсниерба», 1968.

qələri məqsədilə olmuşdur. Lakin qeyd olunmalıdır ki, X–XII əsrlərdə Səlcuqlar, o cümlədən bu məmləkətdə artıq yerli aborigen Azərbaycan türkləri (Ərəblərin bu mahala gəlişlərinə qədər) yaşayıb-yaradırdılar.

Bol suyu, münbit torpaqlı əkin sahələri və əlverişli coğrafi mövqeyi olsa da, gürcüstanlı Azərbaycan türklərinin belə pərakəndə dağılmasının ən əsas şərtlərindən biri, hər 100–150 ildən bir İran, Türkiyə dövlətlərinin və daxildə xanlıqların öz ərazilərini genişləndirmək məqsədilə apardıqları müharibələr olmuşdur. Hər dəfə müharibədə iştirak etmiş minlərlə adam bu ərazidə məskunlaşdırılmış (məcburi və könüllü), yerli əhali isə qismən ətraflara (Maşaver, Alget, Təvədöy, Nehrəm, Xram), Borçalı (Debed) çaylarının ətraflarına və meşəlik sahələrə çəkilməyə məcbur edilmişdir. Buna görə də Borçalı mahalının mərkəzi bölgələrində kənd yaşayış məntəqələri daha iri (hər kənddə 100–150 ailə və ya 1000–1500 nəfər rəqəmlər XVIII əsrin sonu – XX əsrin 40-cı illərinə olan məlumat), kəndlərin forma və quruluşuna görə isə topa şəkilli, çay dərələri boyunca isə zəncirvari, bəzi halda isə pilləkənvari (amfiteatr) görkəmi almışdır.

XVI əsrin axırları və XVII əsrin əvvəllərində belə müharibələrin birində Gürcüstanın Azərbaycan türkləri yaşayan ərazilərinə türk və türk mənşəli tayfaların miqrasiyası (köçməsi) güclənmişdir. Nəticə etibarilə Kaxetiyanın bəzi ərazilərinə Sefid yürüşü – axını olmuşdur. Qarabağ mahalından bu ərazilərə Azərbaycan ailələri (Mesxeta, Telavi, Sığnağın bir sıra Azərbaycan kəndləri və Saqareconun Yormuğanlı-Qaraçöp kompleks kəndləri başqa iyirmi dörd Qacar[19] və Peykar xan olmaqla) köçürülmüşdür.

Tarix göstərir ki, Borçalı daim faciələr içində yaşamışdır. Onun yerli əhalisi (Ucalı, Çaxarlı, Ərəbli, Saral, Tərkəvin, Təkəli, Qaçağan, Borçalı qarapapaqlıları, Qaragözlü, Şaxsevən, Boyandur və buraya sonradan köçürülmüş kiçik

[19] А.А.Рахмани «Тарихи алам арай-ы Аббаси» как источник по истории Азербайджана. Баку, 1960, с. 126.



tayfalar XVII–XVIII əsrlərdə olmazın məşəqqətlərə məruz qalıb, öz məskunlaşmış areallarını tərk etməyə başlamışlar. Bu dövrlərdə Şərqi və Mərkəzi-Şərqi Gürcüstan tez-tez **xarici və daxili düşmənlərin** əsarəti altına düşmüş, ərazisi və iqtisadiyyatı talan olunub dağıdılmışdır. Bu illərdə Qubada (1770–1775-ci illərdə) hakimiyyətdə olan Fətəli xan vahid Azərbaycan dövləti yaratmaq haqqında geniş plan hazırlamışdır. Lakin Türkiyə, İran qonşularının iradəsini qıra bilməyən Fətəli xan Rusiyanın vastəçiliyi nəticəsində II İrakli ilə münasibətləri nizama salmış, bütün Azərbaycan türkləri yaşayan Borçalı və sair regionları parçalanmadan xilas etmişdir. Fətəli xanın ölümündən (1789) sonra onun çətinliklə də olsa yaratdığı dövlət parçalanmaya məruz qaldı. Bu parçalanma Borçalının da başına bəlalar gətirdi. Bundan sonra İran taxt-tacına sahib olan Nadir şah Gəncə bəylərbəyliyinə, Qazax və digər nahiyələrə amansızcasına divan tutdu.

Nadir şahın zülmü nəticəsində Gəncə-Qazax bəylərbəyliyindən yerli əhali Şərqi Gürcüstanın Azərbaycanla həmsərhəd (Kür, Alget, Borçalı, Xram çayları ətrafı) bölgələrindən əhalinin bir hissəsi Xorasana Sulduz Nağadej (İran), bir qismi isə, zorla Türkiyəyə köçürüldü (tarixdə buna sürgün adı verilmişdir). Bunlarla kifayətlənməyən Nadir şah üstəlik fərman verib, Qazax, Gəncə, Şəmkir və Şəmşəddili Kartli çarı Teymurazın sərəncamına verdi. Borçalı da daxil olmaqla mərkəzi və şərqi Gürcüstanın ikinci böyük tarixi faciəsi elə bu dövrlərdən başladı. Bir müddətdən sonra II İraklinin köməyindən istifadə edən Şahverdi xan İran qoşunlarını Gəncədən çıxartdı, özünü bu vilayətin qanuni xanı elan etdi. Həmin vaxtlardan etibarən istər Gəncə-Qazax bölgəsində və istərsə də Gürcüstanın digər nahiyələrində torpaqların bir qismi yerli əhaliyə verildi. Sürgün olunmuş əhalinin bir hissəsi yenidən Borçalıya və Axısxa, Muxran-Kaxet bölgələrinə qayıtdı. Görünür, daxili düşmənlərin (ermənilərin) bölgələrin parçalanmasına olan iştahası müvəqqəti olsa da azalmışdı.

Gürcüstan ərazisində əhalinin məskunlaşmasına tarix boyu müharibələr ciddi təsir göstərmişdir. Ən böyük çətin-

liklər XIX əsrdə meydana gəlmişdir. Bunlardan Borçalı əhalisinin Qazax və Şəmsəddil atlıları ilə birlikdə Ağa Məhəmməd şah Qacara və Abbas Mirzəyə qarşı döyüşləri qeyd etmək olar. Məhz bu döyüşlərdən sonra, Borçalı sultanlığı ləğv edilərək birdəfəlik, yəni 1801-ci ildə Rusiyanın tərkibinə daxil olur. 1880-ci ildə Borçalı bir mahal kimi ərazi baxımından ayrıca inzibati bölgəyə çevrilir, əhalisi ətrafdakı türk tayfaları ilə qaynayıb-qarışır. XX əsrin 29-30-cu illərində Borçalı mahalında üç inzibati rayon yaradılır: Lüksenburq, Başkeçid, və Borçalı. Buradan görünür ki, o qədər də geniş əraziyə malik olmayan Borçalı mahalı son üç əsrdə bir neçə dəfə böyük və kiçik müharibələr ilə üzləşmiş, onun yaşayış məntəqələri və təsərrüfatı tam dağıdılmış, 1918–1920-ci illərdən sonra isə burada qarazirzəmili torpaq evlər əvəzinə sadə, bişmiş və çiy kərpicdən (Sarvan, Qaçağan, Görarxı, Faxralı, Saraclı, Ağ Təhlə, Qara Təhlə, Soğanlıq, Arıxlı, Sadaxlı və s.) tikilmiş birmərtəbli işıqlı evlər inşa edildi. Əhali yaşamaq üçün münbit torpaqlarla yanaşı, bir çox dağətəyi və çayətrafı sahələri əkin altına aldı. Müharibələrin hədsiz dərəcədə insan tələfatına səbəb olmasına baxmayaraq, XIX əsrin axırlarında Borçalıda (1880) 102 minə yaxın[20], ətraf bölgələrdə isə Tiflis də daxil olmaqla 50 min nəfər əhali qeydə alınmışdır.

XX əsrin əvvəllərinə olan məlumata görə, 60 minə yaxın əhali 44 məntəqədə cəmləşərək, hər bir $km^2$-ə 1,7 nəfər, hər 100 $km^2$ sahəyə isə 3,4 məntəqə düşürdü.[21] Hər bir kəndin əhalisi orta hesabla 300–310 nəfər təşkil edirdi ki, bu da ümumi Gürcüstan kəndlərinin orta sıxlığından xeyli üstün idi. Kənd əhalisinin orta sıxlığına görə Gürcüstandakı Azərbaycan kəndləri bir neçə qəza və mahalların kəndlərinin orta sıxlığından və sayından 0,5% üstünlük təşkil edirdi.

Ərazidə əhalinin belə böyük kəndlərdə (1890) məskunlaşması bu bölgələrdə təsərrüfatın inkişaf sürətindən və əkinə

[20] Statistik rəqəmlər «Кавказский календарь» bülletenindən götürülmüşdür. Tiflis, 1909–1914.

[21] Yenə orada.



yararlı torpaqlardan lazımi səviyyədə istifadə olunmasından irəli gəlirdi. Əlbəttə, ərazinin əlverişli coğrafi mövqeyi, təbii şəraitin rəngarəngliyi, iqlim ünsürlərinin müxtəlifliyi və suvarma şəbəkəsinin üstün olması əhalinin burada geniş məskunlaşmasına səbəb olmuşdu. Gürcüstandakı Azərbaycan kənd məntəqələri, bir qayda olaraq çay vadilərində (Kür, Alqet, Xram (Təvədöy), Borçalı, Cağala (Maşoveri) dağ çaylarının düzən və hamar sahələrə çıxdığı ərazilərdə (müqayisə üçün tam eyniliyi ilə Azərbaycanın Şəki-Zaqatala rayonlarında) və dərələrdə salınmışdır.

İstər əhalinin əraziyə görə sıxlığı baxımından, istərsə də məntəqələrin ərazi üzrə və funksional tipinə görə XX əsrin 50-ci illərinə qədər məskunlaşmış əhalinin yaşayış məntəqələri Gürcüstanın digər mahallarının və bölgələrinin məskənlərinin əhalisinin sıxlığından fərqlənirdi. Əgər 1926-cı ildə Acarıstan bölgəsində 132,0 min, Abxaziyada 210,5 min, daxili Kartilidə 225,0 min, cənubi Osetiyada 87,7 min nəfər əhali olduğu halda, Şərqi Gürcüstanla bir yerdə 101,4 min nəfər əhali olmuşdursa,[22] bu rəqəmlər 40 ildən sonra, yəni 1966-cı ildə müvafiq olaraq, 294,0 min, 462,0 min, 353,0 min, 101,5 min, bütün Gürcüstan respublikası üzrə azərbaycanlılar ətrafla birlikdə Borçalıda 565,7 min nəfərə çatmışdır. Buradan görünür ki, 40 il müddətində əhalinin təbii artımı mexaniki hərəkətə və ölümə nisbətən mahalda daha yüksək olmuş, digər regionlara nisbətən Borçalıda isə fərqli olaraq təxminən 2 dəfə üstünlük təşkil etmişdir. Əsas fərqlərdən biri odur ki, XX əsrin kənd məntəqələri öz forma və quruluşuna, iriölçülü olmasına, funksional tiplərinə və morfogenetik quruluşuna görə müasirdir. Abadlıq və sosial şəraiti etibarilə, habelə tikinti materiallarının keyfiyyətinə görə müasir kənd məntəqələri keçmişdə olduğundan daha əsaslı şəkildə fərqlənir. Regionda məskunlaşmanı ərazinin landşaft qurşaqları üzrə və inzibati rayon daxilində araşdırsaq, görərik ki, düzən, dağətəyi və dağlıq ərazilərdə daha çox rəngarənglik nəzərə

[22] «Кавказский календарь», Tiflis, 1911.

çarpır. Təsərrüfat cəhətdən yaxşı mənimsənilmiş ərazilərdə (Marneuli, Qardabani rayonları) əhali daha sıx, məntəqələr isə daha böyükdür.

Məntəqələr zəncirvari düz xətt istiqamətində yerləşərək aran şəraitinə uyğun (iqlim nəzərə alınmaqla) olması ilə fərqlənir. Dağlıq və dağüstü düzənlik sahələrdə isə əhali ümumi əraziyə görə seyrək, əksinə, yararlı torpaqlara görə isə daha yığcam və sıx məskunlaşmışdır.

Kəndlər topa halında terrasvari və amfiteatr formalı görünüş kəsb etməklə, pərakəndə şəkildə yerləşməsi ilə fərqlənir. Misal üçün: Qaraçöp, Adıgün, Aspinza və Axalsıx-Axısxa bölgələrində və s. Məlumdur ki, dağlıq ərazilərdə, əksinə, yararlı sahələr çox yığcamdır və geniş sahələri əhatə etmir, ona görə də kənd təsərrüfatının başlıca sahəsi iribuynuzlu mal-qara və xırdabuynuzlu qoyun-keçilərdən ibarət olub, südlük-ətlik və ətlik-yunluq istiqamətlidir. Əkinçilik baxımından isə dənli bitkilər-payızlıq taxıl və arpa, əsasən, kələm becərilir, kartofçuluq və çox cüzi olaraq bağçılıq inkişaf etmişdir. Bölgənin sırf dağlıq olmasına baxmayaraq, ərazinin təxminən 60–65%-ni meşə örtüyü təşkil edir. Meşələr dövlət tərəfindən qorunur. Belə sıx meşə zolağının çala-çuxur və hamar boş sahələrində kiçik kəndlər salınmışdır. Məskunlaşma bu yerlərdə çox ləng inkişaf edir. Əsasən əkinə yararlı torpaqların və mal-qara üçün örüş sahələrinin məhdudluğu işləri çətinləşdirmişdir. Nəticə etibarilə XX əsrin əvvəllərində məskunlaşmış ərazilərdən əhali sürətlə aran və dağətəyi zonalara miqrasiya edir.



## § 5. Bölgələrdə azərbaycanlıların məskunlaşması baxımından məntəqələrin sosial vəziyyətinin iqtisadi cəhətdən qiymətləndirilməsi

Sahəsinin təxminən 80–90% dağ massivlərindən ibarət olan Dmanisi (Başkeçid) rayonunun ərazisi məskunlaşma baxımından çox qədim olub, məntəqələr pərakəndə şəkildə bütün ərazi boyu səpələnmişdir. Evlər, əsasən, ikimərtəbəli olub, torpaq və daş binalardan ibarətdir. Birinci mərtəbəsi tövlə kimi, ikinci mərtəbəsi isə əsasən, yaşayış mənzili kimi istifadə edilirdi (1870).

Bunların tikintisində daha çox döşəmə daşdan, çay ətraflarında salınmış kəndlərdə isə çaylaq daşlarından və çiy kərpicdən istifadə olunmuşdur. Bu rayonun məntəqələrinin zahiri forması və daxili quruluşu əski türk kəndlərini xatırladır. Çünki əhalinin əksər hissəsi həmişə (XX əsrin əvvəllərində) Türkiyə ilə təmasda olmuş və sonradan Türkiyəyə miqrasiya etmişdir.

Dmanisi rayonunun xalq təsərrüfatı yuxarıda qeyd etdiyimiz kimi heyvandarlıq, dəmyə əkinçiliyi, sənayesi isə bir neçə kiçik daş karxanasını çıxmaq şərti ilə əsasən yeyinti və yüngül sənaye sahələrindən ibarətdir. Meşəçilik və arıçılıq üstünlük təşkil edir.

Nəqliyyatı texniki baxımdan çox zəif inkişaf edib, qoşqu qüvvəsi kimi, əsasən, eşşək və öküzlərdən istifadə olunub (XVIII–XX əsr). Əlbəttə, nəqliyyatın bu növləri ilə qısa məsafələrə, kəndarası, bəzi hallarda qonşu rayonlara da yük daşınır. Yolların 50%-i torpaq yollarıdır. Bəzi yollar rayon mərkəzi ilə iri məntəqələri və qonşu rayonların mərkəzi məntəqələrini inkişaf etmiş Tiflis, Borçalı, Çorux-Qəmərli (indiki Bolnisi şəhəri) xətlərini birləşdirir. Döşəmə daşlardan və xırda çınqıllı materialdan salınmış bu növ yollar respublika dövlət əhəmiyyətli olmaqla bərabər, Türkiyə, İran, Gürcüstan və Azərbaycan dövlətləri ilə siyasi-iqtisadi, poçt-rabitə əlaqələri saxlamaq baxımından da faydalıdır. Qeyd etməliyik ki, magistral yollar rayonun bütün guşələrini sırf azərbaycanlılar yaşayan rayonların mərkəzi məntəqələri ilə birbaşa iqtisadi və ticarət əlaqələrini tənzim edir. Bütün ərazilərdə olduğu kimi, Şərqi, Cənub-Qərbi Gürcüstan və Axısxa bölgələrində nəqliyyatın məskunlaşmaya çox böyük təsiri

olmuşdur. Elə bunun nəticəsidir ki, Dmanisidən başlamış Sarvan məntəqəsinə qədər (90 km) əsas magistral yol ətrafında zəncirvari şəkildə kəndlər uzanır. Ümumiyyətlə, Borçalının məntəqələrinin 60%-i bu yolun ətrafında, 25%-i ikinci dərəcəli, rayon tabeliyində olan rayon mərkəzləri ilə cəmiyyətlər (sovetliklər) arası, 15%-i isə üçüncü dərəcəli olub, kəndarası və təsərrüfatlararası yollardır. Bütün respublika ərazisində olan Azərbaycan kəndlərinin 60–65 %-i magistral şose və dəmir yolları boyunca, 35–40 % isə talalar şəkilində meşə, çay və s. ətraflarında cəmlənmişdir. Hər üç kateqoriyaya daxil olan yollar rayonla vahid məskunlaşma sistemi yaratmışdır. Əlbəttə, bunlar XIX–XX əsrlərin ortalarına olan məlumatlardır. Son 40 ildə bu yollar və vahid məskunlaşma sisteminin kökündən dəyişmiş, yeni, müasir, insanın zövqünü oxşayan abad yollar, onun da nəticəsində yeni kənd məskunlaşması sistemi yaranmışdır.

Borçalının ikinci dağlıq bölgəsi Çoruk-Qəmərli (Yekaterinenfeld)[23] (Bolnisi) inzibati rayonudur. Bu rayon Dmanisiyə nis-bətən iqtisadi və təbii ehtiyat baxımından daha çox inkişaf imkanlarına malikdir. Belə ki, burada əkin altında olan və əkinə yararlı geniş torpaq sahələri vardır. Bu imkanlar bölgədə məskunlaşmaya və onun inkişafına təsir edə bilən nəqliyyat yollarının sa-lınmasına təsir göstərmişdir. Çoruk-Qəmərli bölgəsində kənd yaşayış məntəqələri, bir qayda olaraq xırda dağ çayları və dərələr boyunca salınaraq meşə zolağında, bəzi hallarda isə meşənin seyrək çala-çuxur ərazilərinin əkin üçün yararlı torpaq sahələrində salınmışdır. Kənd əhalisi meşələrin otlaq sahələrində heyvandarlıqla və bağçılıq-üzümçülüklə məşğuldur. Belə kəndlərdən Saraclı, Faxralı, Dəllər, İmir Həsənli, Mığırlı, Qoçulu və s. Göstərmək olar.

Bolnisi rayonunda bir qrup kəndlər də vardır ki, onlar meşə zolağı ilə magistral yolun ayrıcında salınıb – Abdallı, Həsənxocalı, Daşlıqullar, Kolagir, Kiçik Muğanlı və s. Bu kəndlərin əhalisi əsasən tərəvəz və bağçılıq-bostançılıqla məşğuldur. Tam meşə zolağında məskunlaşan kəndlərdən Darvaz, Kəpənəkçi və s. göstərmək olar. Çoruk-Qəmərli bölgəsində, 1886-cı ilin məlumatına görə, 33 yaşayış məntəqəsi olub. Bu kəndlərin 12-i Maşaveri və Xram çaylarının sağ və sol sahilində, 15-20 km məsafədə məskunlaşmışdır. 7 məntəqəsi Borçalı-Başkeçid magistral yolu ətrafında (90 km.), yerdə qalan məntəqələri isə dağətəyi zona və meşə, nisbətən meşə-çöl zonada yerləşmişdir.

XIX əsrin axırlarında bu bölgədə cəmi 7250 nəfər əhali yaşamışdır ki, onun da 486 nəfəri gürcü, 772 nəfəri erməni, 1209 nəfəri alman, 8 nəfəri rus, 4735 nəfəri isə azərbaycanlı olmuşdur.[24]

Çoruk-Qəmərli rayonunun kənd yaşayış məntəqələrinin tikintisində, əsasən, bölgənin təbii ehtiyatlarından (daş karxanaları, çay daşları, gəç, qum və s.) geniş istifadə olunmuş, yaşayış mənzilləri adları çəkilən tikinti materiallarından inşa edilmişdir. Ərazidə məskunlaşma təbii-iqlim şəraitinin əlverişliliyi və kənd təsərrüfatına yararlı torpaq sahələrinin inkişafı istiqamətində getmişdir.

Mahalın ən böyük və nisbətən inkişaf etmiş bölgəsi Borçalı (indiki Marneuli) rayonudur. Bu rayonun mərkəz məntəqəsi Sarvandır. Sarvan bölgənin ən böyük və inkişaf etmiş məntəqəsi olmaqla yanaşı, Zaqafqaziyanın şose və dəmir yolları qovşağı sayılır. Borçalı bölgəsi cənub-şərqdən Qarayazı, şimaldan Ermənistan, şimal-şərqdən Coruk-Qəmərli bölgələri, cənub-qərbdən isə Qazax-Ağstafa qolu ilə həmsərhəddir. Əlverişli torpaq-iqlim şəraitinə malik olan bölgə münbit torpaqları, bol suyu, geniş suvarma kanalı və arxları olması, hər üç dövlətin dəmir və şose yolları ayrıcında yerləşməsi ilə fərqlənir. Rayon ərazisinin 2/3 hissəsi fiziki-coğrafi baxımdan düzənlikdən (Borçalı düzənliyi), yerdə qalan hissəsi isə Yağılca təpəliyindən və dağətəyi (500–700 metr dəniz səviyyəsi) sahələrdən ibarətdir. Bölgə əhalisinin sayı, 1886-cı ilin məlumatına görə, 15700 nəfər olmuşdur ki, onun da 98 %-ni Azərbaycan türkləri təşkil etmişdir. Ərazinin Yağılca təpəlik

[23] Çoruk-Qəmərli indiki Bolnisi şəhərinin və rayonunun erkən adı olub. XIX əsrin 70-80-ci illərinə qədər rəsmi adını daşımış, XIX əsrin 80-ci illərindən Yekaterinenfeld adı ilə əvəz olunmuşdur. Təxminən XX əsrin əvvəllərindən Bolnisi adını daşıyır.

[24] Свод стат. данных о населении Закавказского края, извлечённых из посемейных списков 1886. Издан по распоряжению Главноначальствующего гражданской части по Кавказу, Закавказским статистич. комитетом. Тифлис, 1898.

massivi, demək olar ki, başdan-başa qışlaq üçün örüş sahəsindən ibarətdir. Əsas yaşayış məntəqələri bol suvarma əhəmiyyətinə malik olan çaylar (Alget, Borçalı, Cağala, Debed, Kür və Təvədöy) sahilində yerləşmişdir. XVII əsrin axırları və XVIII əsrin ortalarında inşa edilmiş kəndlərdəki evlər bir qayda üzrə qara damlardan, qazma tövlələrindən ibarət olmuşdur. XIX əsrin axırları və XX əsrin əvvəllərində salınmış məntəqələrin tikintisində isə əhali, əsasən, çiy kərpicdən və qismən də çay daşlarından istifadə etmişdir. Kəndlərin konfiqurasiyası xarici görünüşü və morfo-genetik quruluşu topa – şar şəkilli olub, bir əsas küçədən və xırda küçə-lərdən ibarət idi.

Maraqlıdır ki, dağlıq zona olan Başkeçid, Çoruk-Qəmərli bölgələrinidə əhalinin yaşayışı və mal-qaranın saxlanması eyni binada olduğu halda, Borçalıda (Sarvan) bunlar ayrı-ayrı yerlər və binalarda yerləşmişdir. Təsərrüfatı dənli bitkilər (taxıl, buğda, arpa), texniki pambıq bitkisindən, son vaxtlarda qarğıdalı, çuğundur becərməkdən, dağətəyi zonalarda arıçılıq və heyvandarlıqdan ibarət idi. Burada əkinə yararlı geniş torpaq sahələri vardır ki, bu da öz növbəsində ərazidə məskunlaşmanın genişlənməsinə təkan vermişdir.

Sadaladığımız amillər ərazidə müxtəlif yaşayış ocaqlarının yaranmasına gətirib çıxarmışdır. Ən qədim yaşayış məntəqələrinə dağ ətəklərində və düzənliklərdə rast gəlinir. Rayonun kəndlərinin tipologiyası (yəni kənd əhalisinin məşğulluq dərəcəsi, əmək vərdişləri) əsasən iki istiqamətə meyillənmişdir. Birinci tip kəndlər qrupu təsərrüfat ixtisasına görə üzümçülük-bağçılıq, ikinci tip kəndlər qrupu isə taxılçılıq-heyvandarlıqla məşğul olanlardır. Sonralardan üçüncü tip – zəif inkişaf etmiş, keçid mərhələdə tərəvəzçilik, arıçılıq və quşçuluq təsərrüfatı ilə məşğul olan kəndlər qrupu da meydana çıxmağa başladı. Ümumiyyətlə, Gürcüstanın hər yerində olduğu kimi, onun ayrı-ayrı bölgələrində də kəndlərin funksional tiplərə bölünməsi, məskunlaşmış ərazilərin əkinə yararlı torpaq sahəsi, təsərrüfatların suya olan ehtiyacı, nəqliyyat yolları, əhalinin əmək vərdişləri, əməkdə ixtisaslaşması və s. kimi amilləri müəyyən etməyə imkan verir. Bunları nəzərə alsaq, demək olar ki, mahalın kəndləri, əsasən, kənd təsərrüfatı tiplidir. Onu da qeyd edək ki, əkinə yararlı geniş torpaq sahələri ərazidə məskunlaşmanın gedişinə müsbət təsir göstərmişdir.

Dördüncü Qarayazı bölgəsi və ya rayonudur. Sahəsində və sərhədlərində edilmiş müəyyən dəyişiklikləri nəzərə almasaq, bu rayon yarandığı vaxtdan bu günə kimi öz sabit ərazisini qoruyub saxlamışdır.

Qarayazı bölgəsi (indiki Qardabani) Gürcüstan dövlətinin tərkibində inzibati rayondur. Öz təbii şəraiti, coğrafi mövqeyi və təsərrüfatının eyniliyi baxımından Borçalı mahalı ilə uyarlıdır. Lakin nədənsə bu ərazi inzibati baxımdan heç bir vaxt Borçalı zonasına daxil edilməmişdir. Müxtəlif araşdırmalardan sonra, yəni əhalinin milli mənsubiyyətinə, əmək vərdişlərinə, adət-ənənələrinə, qan qohumluğu əlamətlərinə və eyni ərazi baxımına görə biz Qarayazını Borçalının üzvi hissəsi, bölünməz Borçalı eli kimi tədqiq etdik. Bu bölgə, yuxarıda göstərdiyimiz kimi, əlverişli coğrafi ərazidə yerləşir, Gürcüstanla Azərbaycanı birləşdirən nəqliyyat yolları buradan keçir. Respublikanın paytaxtı Tbilisi şəhərinə yaxınlığının böyük iqtisadi-strateji üstünlükləri vardır.

Qarayazının təbii şəraiti olduqca əlverişlidir, Kür çökəkliyinin münbit torpaq sahələri suvarıldıqdan sonra yüksək keyfiyyətli məhsul götürülür. Qara düzün boz və gillicə torpaqları qış otlaqları üçün yararlıdır. Son illər bu ərazilərdə Azərbaycan türklərini sıxışdırmaq məqsədilə çoxlu Gürcüstan kəndləri salınmışdır.

Stalin-Beriya siyasəti nəticəsində coğrafi baxımından yeri düzgün seçilməyən, Azərbaycanın Daşkəsən dəmir filizi əsasında işləyən Rustavi iri sənaye mərkəzinin Qarayazı ərazisində yerləşdirilməsi əhalinin işlə təmin olunmasında müsbət rol oynasa da, rayonun ekoloji tarazlığının pozulmasında mənfi rol oynamışdır. Belə ki, şəhərdə yerləşdirilən metallurgiya kombinatının qaynar şlakının və külünün Kür çayı boyu tökülməsi, buranın geniş sahədə qiymətli tuğay meşələrinin

(xalq arasında buna cala da deyilir) birdəfəlik məhv edilməsinə səbəb oldu. Kənd təsərrüfatına yararlı torpaq sahəsini də dövriyyədən çıxartdı. Kür çökəyi boyu daimi əsən küləklər (el arasında bu hava axınına «Ağ yel» deyirlər) bu şəhərdəki sement zavodunun, kimya kombinatının zəhərli qazlarını bölgənin sıx yaşayış məntəqələri üzərinə yayaraq kənd təsərrüfatı bitkilərinə, həyatyanı meyvə və tərəvəz əkin sahələrinə böyük ziyan vurdu. Ən başlıcası isə kəndlərdə yaşayan əhalinin sağlamlığına güclü təsir göstərdi və müxtəlif uşaq xəstəliklərinin yaranmasına səbəb oldu.

Külək əsəndə Rustavidən cənubda yerləşən məntəqələrdə nəfəs almaq çətinləşir, atmosferə atılan zəhərli qazların və tozların təsiri çox-çox uzaqlara yayılır, şəhərin çirkab suları rayon ərazisindən çəkilən borularla Kür çayına axıdılır. Qafqazda ən böyük həyat mənbəyi olan bu çayın suyunu zəhərləyir. Nəticədə ərazinin fauna və florasını məhv edir. Qarayazı rayonunda cəmi 70 min nəfərə yaxın əhali yaşayır. Əhalinin milli tərkibinin dəyişməsi əsasən 1960-cı illərdən başlamışdır. Gürcüstan hökuməti bütün azərbaycanlılar yaşayan ərazilərdə, o cümlədən də Qarayazı kimi bölgələrdə Azərbaycan türklərinin məskunlaşdığı Ağ Təhlə kəndinin yaxınlığında qış otlaqlarında köçürmə gürcü kəndləri salmağa başladılar. Getdikcə belə «müasir tipli» kəndlərin Qarayazı düzündəki sayı xeyli artdı. Hər cür sosial şərait və təminatı olan, dövlət tərəfindən salınan belə kəndlərə müxtəlif təbii fəlakət adı altında svan və gürcü etnik qrupları yerləşdirildi. Daha sonra onları işlə təmin etmək üçün Qarayazı ərazisində irimiqyaslı sənaye obyektləri salındı. Bu müəssisələrin əsas işçi qüvvəsi rayonun Azərbaycan türkləri olduğu halda, rəhbər vəzifələrdə, bir qayda olaraq gürcülər təyin olundu. Elə buradan da iki qonşu, dost xalq arasında ayrı-seçkilik, ögeylik münasibətləri cücərməyə başladı.

Keçən əsrin 60-cı illərindən başlayaraq kolxozların sovxozlarla əvəz olunub birləşdirilməsi, iri təsərrüfatların yaradılması Azərbaycan kəndlərinin mədəni-sosial şəraitinə müsbət formada heç nə vermədi. Sovxozların xalis tərəvəzçilik üzrə ixtisaslaşması maldarlıq təsərrüfatına güclü ziyan vurdu. Tarixən isə rayon ərazisində həm heyvandarlıq, həm də əkinçilik biri-biri ilə bağlı şəkildə inkişaf edirdi. Buna rayon ərazisinin təbii şəraiti də geniş imkan yaratdı. Rayon kəndlərinin Kür vadisində və Kürdən başlayıb, Çandar gölünə tökülən suvarma kanalının alt tərəfindəki münbit torpaqlarında əkinçilik, Qarayazı düzündə isə qış otlaqları yerləşirdi. Sonralar bu otlaq sahələr hesabatdan birdəfəlik silindi. Qoyun sürüləri, naxırlar və ilxılar əvəzi ödənilmədən dövlət tərəfindən alındı. İllər uzunu qoyunçuluqla məşğul olmuş, adamlardan isə tərəvəzçi və bostançı alınmadı...

Qarayazı kəndlərinin çal-çağırlı, qaynar həyatı sönməyə başladı. Gənclər fərqinə baxmadan kütləvi şəkildə başqa respublika və regionlara, o cümlədən Azərbaycana axışdılar. Uzun illərdən bəri davam edən bu proses kənddə ancaq qocaların qalmasına, yerli əhalinin seyrəkləşməsinə səbəb oldu. Son illərdə isə keçmiş SSRİ-nin dağılması, Gürcüstanda millətçi qrupun müvəqqəti də olsa hakimiyyətə gəlməsi onsuz da ağır olan Azərbaycan kəndlərinin sosial-mədəni həyat tərzini xeyli pisləşdirib aşağı saldı və bu kəndlərdən əhalinin Azərbaycana miqrasiyasına təkan verdi.

Məlumat üçün qeyd edək ki, keçən əsrin 90-cı illərində baş vermiş milli ayrı-seçkiliklə əlaqədar olaraq, təkcə bölgənin sənaye mərkəzi Rustavi şəhərindən 18 min azərbaycanlıdan 16 mini həmişəlik olaraq öz doğma yurdlarından köçüb getmişlər. Belə misalları Şərqi Gürcüstanın və Borçalı mahalının bir sıra məntəqələrinə də şamil etmək olar.

Rayon cənub-şərqdən Azərbaycanla, şərqdən Saqareco, şimal-qərbdən Msxet, qərbdən Borçalı rayonları, şimaldan isə Tiflis quberniyası ilə həmsərhəddir.

Qarayazı bölgəsinin ərazisinin təxminən 2/3 payını Qarayazı çölləri təşkil edir, bölgənin yalnız şimal və qərb səmtləri təpəliklərdən ibarətdir. Ərazinin Kür çayı sahilləri kənd təsərrüfatına yararlı əkin sahələridir. Kəndlər çay və kanallar boyunca məskunlaşmış, XIX əsrin axırı və XX əsrin əvvəllərində isə magistral dəmir və şose yolların ətrafında salınmışdır.

Evlərin tikintisində əsas inşaat materialları kimi ta qədimdən gil, qum və samandan istifadə olunub, evlər bir qayda olaraq qara tövlə şəraitli damlar kimi tikilmişdi.

Kəndlər formaca (xarici görnüşü) zəncirvari, bir-iki əsas küçədən ibarətdir. Qarayazı bölgəsində də Borçalı kimi bol sulu kanal və çaylar vardır. İçməli su məsələsinə gəldikdə isə yalnız bu çayların suyundan istifadə edilir. Rayonun ərazisində Qarayazı adlı meşə massivi yerləşir. Əlbəttə XVII–XVIII əsrlərdə bu meşə çox sıx, sərvətlərinə görə zəngin olmuşdur. XIX əsrin axırları, XX əsrin əvvəllərindən isə insanların kortəbii istifadəsi nəticəsində (yanacaq və əkin üçün) meşə seyrəkləşmiş və talalar şəklində kolluqlara çevrilmişdir. Əlbəttə, meşənin belə hala düşməsində Kür çayının da rolu az olmamışdır. O vaxtlar Kür çayının sahillərində qoruyucu bəndlərin çəkilməməsi, yaz və payız aylarında çayın və kanalların daşması nəticəsində ətraf sahələri su basmış, bataq-lıq sahələrə çevrilmişdir. Ərazidə salınmış kəndlər nisbətən iridir, əhalisi ərazi üzrə pərakəndə məskunlaşmışdır. Əhali qədimdən və elə indi də qoyunçuluq, tərəvəzçiliklə məşğul olur. İqtisadi və təbii iqlim şəraiti əhalinin yaxşı yaşaması, yaşayış məntəqələrinin abad olması, məskunlaşmanın inkişaf etməsi üçün zəmin yaratmışdır.

Qarayazı bölgəsinin özünəməxsus məskunlaşma meyilliyi vardır. Əhali əsasən çöl ərazilərinə, kanal və kollektor ətraflarına daha çox meyil göstərir. Çünki bu ərazilərdə münbit torpaqlar vardır. Qarayazının Azərbaycan türkləri ilə qədimdən məskunlaşmış ərazisi özündə on minlərlə yerli əhalini cəmləşdirmişdir.

Gürcüstanda Azərbaycan türklərinin tarixən məskunlaşdıqları və indinin özündə yaşadıqları yerlər təkcə Borçalı ilə məhdudlaşmır. Azərbaycan türkləri Borçalının ətraf bölgələrində – artıq diaspor xarakteri daşıyan Saqareco, Laqodexi, Telavi, Msxet, Karel, Kaspi, Ağbulaq, Zəlyə, Adıgün, Aspinza, Axalsix, Tiflis, Muxranla yanaşı; indiki Ermənistanın – Calaloğlu, Noyenberyan (Barana), Loru və ümumilikdə Pəmbək nahiyələrində[25] və İrəvan ətrafında məskunlaşmışlar. Saqareco bölgəsində cəmi 7 məntəqə vardır ki, bunların əhalisi Qarabağ mahalından, Gəncə-Qazax bölgəsindən, qismən Şəkidən və Çoruk-Qəmərlidən köçüb gəlmişlər. Rayonda Ləmbəli, Yor Muğanlı, Keşəli və s. kəndlər tarixi məskunlaşma baxımından Borçalının tərkibində olan həmin eyniadlı məntəqələrin davamıdır. Tarixən bu ərazilərə köç etmiş əhali ilk dəfə məskunlaşdıqları obaların adlarını ikinci dəfə yaşadıqları məntəqələrə vermişlər.

Belə hallara mahalın bir sıra bölgələrində rast gəlinir. Əhalinin məşğuliyyəti, adət-ənənələri, təsərrüfatın oxşarlıq əlamətlərinə görə bunlar tamamilə üst-üstə düşür.

Bir sıra doğma, oxşar əlamətlərə görə bu zona əhalisinin özünəməxsus ortaq inkişaf yolları və meyarları vardır.

Rayon özünün məskunlaşma arealında, qeyd etdiyimiz kimi, 7 məntəqəni və ya 25 minə yaxın əhalini (Azərbaycan türkləri) cəmləşdirmişdir.

Gürcüstanın digər bölgələrindəki (Laqodexi, Telavi, Msxet, Kaspi, Axalsix (nisbətən Ahılkələk və s.), ərazilərdə azəri türkləri yalnız əkinə yararlı torpaq sahələrinin ətraflarında yığcam şəkildə məskunlaşmışlar. Bunların, belə sıx məskunlaşmanın ən başlıca səbəbi onların qeyri-xalqlar arasında yaşamaları və onlarla heç bir qohumluq əlaqəsinin olmamasıdır. XX əsrin əvvəllərindən başlayaraq 50-ci illərə qədər kəndlərdə mədəni inkişaf nəticəsində bu xalqlar arasında ögeylik münasibətləri zəifləmiş, əhali yerli Azərbaycan türkləri ilə bir yerdə yeni yaşayış binaları tikərək öz məskunlaşma areallarını xeyli genişləndirmişdir. Bu bölgələrdən fərqli olaraq Aspinza, Adıgün, Axalsix, Zəlyə bölgələrində əhalinin tarixən məskunlaşması və inkişafı çox acınacaqlı olmuşdur. Belə ki, XVIII əsrdən başlamış XX əsrin əvvəllərinə

[25] Ermənistanın ərazisinə daxil edilmiş (1918–1921) Allahverdi, Calaloğlu, Spitak, Noyemberyan və s.bölgələrinin əhalisi, tarixi və iqtisadiyyatı haqqında material qıtlığı və əldə olunan faktların saxta olduğunu nəzərə alaraq biz bu materiallardan istifadə etmədik. Lakin yeri düşdükcə əsərdə bəzi məlumatları verməyi özümüzə borc hesab etdik.

kimi bu yerlərdə məskunlaşmış Azərbaycan türkü və Axısxa türk tayfaları dəfələrlə əsarət altına düşmüş, gürcü, erməni və İran qoşunlarının zülmünə öz milli təsərrüfat sistemini qoruyub saxlamış, özlərinə məxsus olan həyətyanı təsərrüfatı ilə məşğul olub, türkəsayaq yaşamışlar. Lakin belə həyat tərzi heç də çox uzun sürmür. Borçalıda olduğu kimi, bu regionlarda da islahatlar xalqı öz doğma dədə-baba yurdlarından sürgünə gətirib çıxarır.

Bir sıra tarixi və etnoqrafik mənbələrin verdiyi məlumatlara görə, Borçalıdan (Gürcüstanın şərq, qərb, mərkəz hissəsində və Cavaxetidən) kənarda məskunlaşmış Azərbaycan türklərinin bu zonaya axını hələ eramızın əvvəllərində, əsasən, Qarabağ zonasından, Gəncə-Qazax bölgəsindən, Türkiyə, İrandan və Şəki-Şirvan zonasından olmuşdur. Azərbaycan türkləri bu bölgələrdə (Adıgün, Aspinza, Zəlyə), əsasən, kartofçuluq, yemçilik, və heyvandarlıqla məşğul olmuşlar. Torpaq islahatı zamanı dövlət tərəfindən onlara xüsusi sahələr verilmişdir. Bundan sonra bölgələrdə həyətyanı təsərrüfatlar güclü inkişaf tapmağa başlamışdı. Bunun nəticəsidir ki, XX əsrdən başlayaraq əhali yeni ərazilərdə yeni məntəqələr salmış öz məskunlaşma areallarını daha da genişləndirmişdir. Bu sayaq inkişaf XX əsrin 80-ci illərinə qədər davam etmiş, son 20 ildə isə Azərbaycan türkləri adları çəkilən bölgə və məntəqələrdən yerli hakim dairələr (svan, gürcü, erməni) tərəfindən son dərəcə incidilib sıxışdırılmış və hədə-qorxular nəticəsində onların bir qismi doğma yerlərdən didərgin düşüb, Azərbaycana pənah gətirmişlər. Yüz illərlə çala-çuxur, boz və şoran torpaqlarda, bəzi bölgələrin isə qayalıq və daşlı-çınqıllı sahələrində zəhmətlə ev-eşik salıb, yüksək təsərrüfat sistemi yaratmış əməksevər Azərbaycan türkləri əsrin ən qəddar repressiyasının qurbanına çevrilmiş, şərq memarlıq üslubunda salınmış əzəmətli yaşayış binalarını və şəxsi həyət-bacalarını erməni və svan millətçilərinə verərək baş götürüb qaçmışlar.

Bir-sıra məntəqələrdə isə yüksək zövqlə tikilmiş müasir tipli şəxsi binalar, yaraşıqlı küçələr, heykəl və abidələr müxənnət qonşuların əli ilə vəhşicəsinə dağıdılmış el-obalarımız xarabazara çevrilmişdir.



Qeyd etmək lazımdır ki, Cavaxeti yaylasının Zəlyə-Barmaqsız, bölgəsində tarixi 500 ilə yaxın olan 6 para Azərbaycan kəndinin əhalisinin 80%-i və onların qonşuluqlarında olan – onlarla yunan, qaraçı və Ahısxa türk kəndlərinin əhalisinin 90%-i, bəzilərində isə hətta əhalinin hamısı həmişəlik Yunanıstana və Türkiyəyə köç etmişlər.

# FƏSİL II

# AZƏRBAYCANLILARIN SOSİAL-MƏDƏNİ HƏYAT TƏRZİ VƏ ONLARIN ADƏT-ƏNƏNƏLƏRİ

## § 1. Bölgələrin sosial-mədəni həyatı

Gürcüstan Rusiyanın tərkibinə daxil olana qədər feodal şəraitində yaşayan Azərbaycan türklərinin sonrakı aqibəti, yəni Çar Rusiyası dövründə həyatı heç də sevindirici olmamışdır. Əgər inkişafda olan Tiflisin Batum, Suxum, Qori və Kutaisi şəhərlərinin əhalisini nəzərə almasaq, Borçalı mahalı ətraf bölgələrlə birlikdə yalnız mərkəz Şuləver, Sarvan, Qarayazı, Ç.Qəmərli, Cəlaloğlu və s. məntəqələrdə yaşayan soydaşlarımızın həyat tərzi nisbətən yaxşı vəziyyətdə idi. Qeyd etmək lazımdır ki, 1880-ci ilə qədər bütün yaşayış yerlərinin hamısı qara damlardan, yeraltı qazmalardan, zirzəmilərdən ibarət idi. Mövcud sosial-iqtisadi vəziyyət əhalinin kortəbii inkişaf etməsinə, adamların dünyagörüşünün dar çərçivə daxilində formalaşmasına gətirib çıxarırdı. Əlbəttə, Azərbaycan türklərinin belə acınacaqlı həyat tərzi, mədəni mühiti əhalinin təbii və mexaniki hərəkətinə də təsir göstərməyə bilməzdi. Bu baxımdan mahalın əmək qabiliyyətli əhalisi təsərrüfatın yalnız iki sahəsi üzrə ixtisaslaşmışdı. Düzən ərazilərdə, əsasın Sarvan, Qarayazı, Ç.Qəmərlinin çay vadilərində bitkiçilik, bağçılıq, bostançılıqla, dağlıq və dağətəyi məskənlərdə isə dədə-babadan heyvandarlıq, dəmyə əkinçiliyi və arıçılıqla; Saqarscio, Laqodexi, Telavi və Msxeta rayonlarında isə zərifyunlu qoyunçuluq və atçılıqla məşğul olurdular.

Ümumiyyətlə, inqilaba qədər bu bölgələr tam aqrar regiona çevrilmişdi.

Bununla paralel bölgələrdə şəxsi evlərdə xırda kustar təsərrüfat da fəaliyyət göstərirdi.

Xanlıq və sultanlıq dövründə əmək qabiliyyətli əhalinin 2/3 hissəsi xırda burjua mülkədar-fermer təsərrüfatında çalışardı, qalan 1/3 hissəsi isə öz şəxsi həyətyanı təsərrüfatında və muzdlu – digər fermerlərin təsərrüfatlarında işləyirdi. Adamlar bəzən 5–7 ay öz evlərindən uzaqlarda çörək pulu qazanırdılar. Belə məcburi əmək fəaliyyəti, şübhəsiz ki, əhalinin ictimai-mədəni həyatına da təsir etməyə bilməzdi. Bu baxımdan Başkeçid, Saqareco, Kaspi, Karel istisna olmamış, əksinə, digər, nisbətən inkişaf etmiş bölgələrin əhalisindən kəskin surətdə fərqlənmişdir. Lakin onu da qeyd etməliyik ki, haqqında söhbət gedən bölgələrdə əhalinin mədəni səviyyəsinin nisbətən aşağı olmasına baxmayaraq, bu fərq Gürcüstanın digər dağlıq regionlarının əhalisinin iqtisadi-mədəni və sosial sahələrinin inkişaf səviyyəsindən yuxarı olmuşdur. Belə bölgələrdən Svaneti, Quriya, Cavaxeti və s. göstərmək olar. Yalnız bir fakt qeyd olunmalıdır ki, 1940–1950-ci illərə qədər adları qeyd olunan ərazilərdə yerli (Svan, Quriya, Cava və yunanlar) əhali elektrik işığı, dəmiryolu, bir sıra texniki maşınları nə görmüş, nə də ki, işlətmişdilər.

Əhalinin sosial səviyyəsinin aşağı olması əmək qabiliyyətli əhalinin 83,9 faizi (1939-cu il) kolxozçulardan ibarət olduğu halda, Borçalı regionunda, bu göstərici 1959-cu ildə 69,7 faiz olmuşdur.

Borçalı və onun ətraf (Saqareco, Laqodexi, Telavi, Msxeta, Kaspi, Kareli, Tbilisi, sonralardan isə Rustavi) bölgələrində əmək qabiliyyətli Azərbaycan türkləri, bir qayda olaraq, əsasən, iki sosial qrupa bölünmüşdür. Birinci sosial qrupa, qeyd etdiyimiz kimi, kolxozçular, ikinci qrupa isə fəhlə və qulluqçular daxildirlər. Cəmi əhalinin 0,4 faizini isə üçüncü qrup – xırda kustar və kənd fermerləri təşkil edirdi. Sonralar bu ərazilərdə həyat səviyyəsi nisbətən yaxşılaşdı, son 50 ildə kəndlər, şəhərlər salındı və sosial təyinatlı binalar, körpülər, dəmir və şose yolları kimi obyektlər tikildi.

Əhalinin iqtisadi cəhətdən təminatı və inkişafı, şübhəsiz, onun sosial sahələrinin quruluşundan çox asılıdır. Digər bölgə və ərazilərdə olduğu kimi, Borçalı və onun ətraf bölgələrində əhalinin sosial vəziyyəti başlıca olaraq onun iş qabiliyyətli əhalisinin ictimai əmək bölgüsündə tutduğu yerdən,

yaşayış səviyyəsinin inkişafından və real gəlirindən, daha sonra isə sosial infrastrukturundan asılı olmuşdur. Bütün bu üç blokun birgə yaranması və inkişafı bölgələrin sosial-vəziyyətinin inkişafını təşkil edir

Gürcüstan Nazirlər Kabinetinin verdiyi məlumata görə, respublikada Marneuli, Bolnisi, Qarayazı, Başkeçid, Laqodexi, Saqareco, Telavi rayonlarının əhalisi ən çox işlə təmin olunmuşdur (78 faizi – 1985-ci ildə)[26]. Əhalinin 78–80 faizi məşğul olmasına baxmayaraq, real gəlir respublikanın digər bölgələrində yaşayıb-çalışan qeyri-azərbaycan millətlərinin real gəlirindən təxminən 2–2,5 dəfə aşağı olmuşdur.

Qeyd etməliyik ki, 1970-ci ildə işləyən azərbaycanlıların orta əmək haqqı 104,1 rub. olduğu halda, 1985-ci ildə 179 rub. təşkil edirdi. Bu rəqəmlər Gürcüstanın qərb rayonlarında təxminən 2 dəfədən yuxarı olmuşdur[27].

Marneuli və Qarayazıda əhalinin əsas gəlir mənbəyi şəxsi təsərrüfatdan, təsərrüfatların Başkeçid, Bolnisi bölgələrində isə, bir qayda olaraq sovxoz-kolxoz və s. idarələrdən, şəxsi heyvandarlıqdan olurdu.

Qeyd olunmalıdır ki, indiki Aşağı Kartlidə əhalinin sosial məsələləri son 70 ildə 40–50 faiz (şəhər və qəsəbələrdə), kənd məntəqələrində və dağlıq bölgələrdə isə cəmi 10 faiz öz həllini tapmışdır. Dağlıq Başkeçid rayonunda hər 5 kənd yaşayış məntəqəsinə 1 nəfər həkim, 2 nəfər həkim bacısı, hər 10 məntəqəyə isə 1 nəfər cərrah düşürdü. Məlumat 1989-cu ilə aiddir. Hazırda isə bu rəqəmlər 5 dəfə aşağı enmişdir. Əhalinin sosial problemlərinin əsasını xidmət sahələri, onun il boyu ərzaq və s. məhsullarla təminatı və s. təşkil edir. Maraqlıdır, 40–50 il bundan əvvəl bütün rayon mərkəzlərində və iri kənd məntəqələrində qonaq evləri, mehmanxana, hamam tikililəri və onların təmiri, çörək zavodları, bazar və s. Obyektlər olduğu (qismən) halda, XX əsrin lap axır çağlarında

[26] Постановление ЦК КП и Совета Министров Груз. ССР (15), Тбилиси, 1985.

[27] Нагиев С.К. Пути развития сельского населения и расселения Марнеульского района Груз.ССР. Канд.дисс., Ленинград.



bu sosial obyektlərdən (bəzi məntəqələri çıxmaq şərtilə) əsər-əlamət yoxdur. Misal üçün, azərbaycanlılar məskunlaşan ərazinin ən inkişaf etmiş rayonu və şəhəri olan Marneulidir. Bu şəhərdə indinin özündə belə nə qonaq evi, nə də mehmanxana vardır. Buradan aydın olur ki, mahalda sosial məsələlər tamamilə diqqətdən kənarda qalır. Əhalinin içməli suya, yanacağa, təbii qaza, dağlıq ərazilərdə və kəndlərdə doldurma balon maye qaza hələ də böyük ehtiyac var.

Əhali üçün ən zəruri sosial məsələlərdən biri də onun ev, mənzil məsələsidir. Qeyd etməliyik ki, Borçalı ətraf bölgələrlə birlikdə burada olan 200-ə yaxın yaşayış məntəqəsinin yalnız 25–30 faizində, şəhər yerlərində hər nəfərə 12–13 kv.m. mənzil düşdüyü halda, kənd yerlərində 9–11kv.m. mənzil sahəsi düşürdü. Bununla yanaşı, bütün yerdə qalan məntəqələrdə kənd yerlərində 5–6 m², şəhər yerlərində isə 8–10 m² düşürdü. Əlbəttə, əhalinin bu vacib sosial təminatını çox yararsız hesab etmək olar. Bölgələrin kənd məntəqələrində hər ailəyə təxminən 5–6, şəhərlərdə 2–3 nəfər, uşaq düşdüyünü qeyd etsək, onda aydın olar ki, onların istirahəti, əylənməsi və normal yaşaması barədə söhbət belə açmaq olmaz.

Maraqlıdır ki, bütün yaşayış məntəqələrin cəmi 2–2,1 faizi kanalizasiya, içməli su xətləri və qızdırıcı qurğularla təmin olunmuşdur. Bu rəqəm dağlıq Başkeçid, Bolnis və qismən Marneuli rayonlarının məntəqələrinin 50–60 faizində 0,8 – 1,0 faiz təşkil edir.[28]

Kareli, Kaspi, Saqareco, Laqodexi və s. bölgələrin Azərbaycan məntəqələrində də vəziyyət belədir.

Bu bölgələrdə əhalinin sağlamlığı, dövrü müalicəsi və maarif-təhsil ocaqları günün tələbləri səviyyəsindən aşağıdır.

1989–1991-ci illərə qədər bölgələrdə cəmi 103 orta, 46 natamam orta, 27 səkkizillik və ibtidai məktəb fəaliyyət göstərirdi. Bu məktəblərdə cəmi 7194 nəfər müəllim çalışırdı.

[28] Rəqəmlər inzibati rayonların kommunal-təmir idarələrinin hesabatlarından götürülmüşdür (1981–1982).

Məktəb binaları son 25–30 ildə əsaslı fundamenti olan binalarda (şəhər və iri kəndlərdə), dağlıq ərazilərin heç bir sosial-iqtisadi bazası olmayan məntəqələrində isə birmərtəbəli, şagirdlər üçün lazımi şəraiti olmayan binalarda yerləşmişdir. Aşağı Kartlinin bu sosial obyektləri və maarif-təhsil ocaqları haqqında tədqiqat işinin digər bölməsində məlumat verildiyinə görə, biz bununla kifayətlənməyi lazım bildik.

Ərazinin tibbi-müalicə müəssisələri və onların inkişafı digər sosial sahələr kimi, zəif inkişaf etmişdir. Düzdür, son 5–6 ildə müasir tibbi avadanlıqla və yüksək ixtisaslı mütəxəssislərlə təmin olunmuş Marneuli şəhər xəstəxanası fəaliyyətə başlıyıb. Lakin mahalın ən ucqar dağ kəndlərindən bu xəstəxanaya gəlmək indiki nəqliyyat imkanları baxımından çətin problem olmuşdur. Faktiki olaraq, nisbətən yaxşı təşkil olunmuş və təchizat sahəsində digər bölgələrə görə Marneuli rayonunda əhalinin bu sosial təminatı üçün norma baxımından hər 1000 nəfərə 14 çarpayı əvəzinə cəmi 4,8 çarpayı düşdüyü halda, bütün bölgələr üzrə 2,3 çarpayı düşür. Aş. Kartlidə qeydiyyatdan keçmiş 38 əczaxana və 25-ə yaxın sahə xəstəxanası, poliklinika və ambulatoriya fəaliyyət göstərir (1995–2000). Şübhəsiz, təchizatı aşağı səviyyədə olan bu tibb ocaqların sayı əhalinin 1/3 hissəsini də təmin etmir. Bu baxımdan azərbaycanlıların təxminən 20–25 faizi Bakıya, 18–20 faizi Gəncəyə və 1987-ci ilə qədər 50 faizə qədəri isə Tbilisi xəstəxanalarına müraciət edirdilər. Son 5–6 ildə Tbilisiyə üz tutan azərbaycanlıların 70–80 faizi bu xidmətdən imtina etmişlər. Bunun səbəbi son illərdə baş verən milli münaqişələr, bölgələrdə kriminogen hadisələr və əhalinin imkansızlığından irəli gəlir. Qeyd etməliyik ki, əhalinin sosial həyatında onun bir millət, xalq kimi yaşamasında və inkişafında mədəni həyat tərzinin də rolu çox böyükdür. Bölgələrdə əhalinin mədəni həyat tərzi bilavasitə onun tarixi keçmişindən, iqtisadi imkanlarından və sosial şəraitindən asılıdır.

Bu baxımdan ərazilərdə əhalinin mədəni həyat tərzi digər sosial sahələrə nisbətən daha acınacaqlıdır. Düzdür, əhalinin bir qismi (daxili və şəxsi imkanlar) bölgələrdə mədəni həyat tərzi sürməkdədir. Lakin çox faizi isə insanlara gərək sayılan bu əyləncə guşələri və istirahət ocaqlarından tam kənardadır. Yalnız iri kənd məntəqələrində mədəniyyət sahələri kino-teatrlar, xırda salonlu klublar və kitabxanalar fəaliyyət göstərir. Xalqımız yüksək mədəniyyət sahibidir. Onun dünya şöhrətli sənətçilərinin sorağı uzaq keçmişdə mədəni inkişaf səviyyəsindən xəbər verir. Borçalıda və ətraf bölgələrdə oğuz-qıpçaq tayfalarını təsdiqləyən tarixi faktlarla yanaşı, bu günümüzə qədər öz memarlıq incilərini və şərq aləminin zəngin xəzinəsini qoruyub saxlayan onlarca məscid, türbə, körpü, su quyuları, dərin kəhrizlər, qala və divarlar, qoç, at, qoyun və s. kimi müxtəlif simvolik formalı heykəl və abidələr diqqəti cəlb edir.[29] Bu abidələrə Sarvan (Marneuli), Araplı, Təkəli, Sadaxlı, Quşçu, Qızılhacılı, Görarxı, Baydar, Kürtlər, Çorukl-Qəmərlinin (Bolnisi), Arıxlı, Saraclı, Faxralı, Kəpənəkçi, Başkeçiddin (Dmanisi), Yırğançaq, Ormeşən, Səfərli, Hamamlı, Qəmərli, Qızılkilsə, Lök-Candar, Qaraçöp, Muğanlı və s. məntəqələrdə rast gəlmək olur.

Azərbaycan feodal dövlətlərindən Ağqoyunlu, Səfəvi dövlətlərinin ərazisinə daxil olmuş Tiflis və yuxarıda adlarını çəkdiyimiz Oğuz-Qıpçaq ellərində müxtəlif növ abidələr salınmış, sonrakı nəslə yadigar saxlanılmışdır. Səfəvi şahlığı dövründə (1502–1737) Tiflis, İrəvan, Dağıstan Azərbaycanın tərkibində idi. Şah İsmayılın hakimiyyəti illərində (1501–1524) Azərbaycan ərazisinin ümumi sahəsi 2 milyon 800 min km$^2$ idi. Səfəvi şahlığı dövründə Tiflis və onun ətraf ərazilərində bir neçə məscid və türbə inşa edilmiş, abidələr ucaldılmışdır.

Azərbaycan Demokratik Cümhuriyyəti (1918–1920) dövründə Borçalı, Tiflis, Sığnağ inzibati rayonlarının bəzi əraziləri və İrəvan mahalı bütövlükdə Azərbaycanın tərkibinə daxil idi.[30] Bu vaxtı Azərbaycanın ümumi sahəsi 114 min km$^2$

---

[29] M.Sadıqovun bölgələrə elmi ezamiyyətə (1993) getdiyi vaxt əldə etdiyi arxeoloji tapıntılar.

[30] Ş.Məmmədli. "Paralanmış Borçalı". Azərb. Dövlət Nəşriyyatı, Bakı, 1991.

(Cənubi Azərbaycan daxil deyil) idi. Beləliklə, Azərbaycan hökuməti fəaliyyətə başlayandan sonra Tiflisdə, İrəvanda, Borçalıda və s. ərazilərdə olan müsəlman abidələrinin bir qismini təmir etdirdi. Gürcüstanda sovet hakimiyyəti qurulduqdan (25 fevral 1920-ci il) sonra müsəlman abidələrinə ögey münasibət bəslənildi.

Onu demək kifayətdir ki, müsəlman tarixi abidələrinin heç biri dövlət və mədəniyyət mərkəzləri tərəfindən rəsmi qeydiyyata alınmadı. Elə o illərdən başlayaraq (1930–1960) qədim tarixə malik olan bir sıra abidə, o cümlədən Tiflis şəhərinin mərkəzi küçə və rayonlarında yerləşmiş Şah Abbas məscidləri və camaşırxanaları yerlə-yeksan edilib, yerində körpülər, gürcü milli ornamentli inzibati və yaşayış binaları ucaldıldı. Sovet dövləti tərəfindən uçurulmayan binalar isə baxımsızlıq və qayğısızlıq üzündən dağılmış, bəzilərindən isə tədarük məntəqəsi (zirzəmi, anbar) kimi istifadə edildi. Belə məscidlərdən Cameni misal göstərmək olar. Bu məscid Tiflisdə ilk məscid olub, 730-cu ildə tikilmişdir. 644-cü ildə ərəb qoşunları şəhəri zəbt edir və 1222-ci ilə qədər onların əlində qalır. VII əsrin axırları və VIII əsrin əvvəllərində inşa olunmuş məscid ilk dəfə 842-ci ildə Tiflisli Yezid oğlu Xəlil, XI əsrdə türk sərkərdəsi Alp Arslan tərəfindən bərpa edilmişdir. Doqquz yüz il keçdikdən sonra məscid üçüncü dəfə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin müftisi Hüseyn Əfəndi Qayıbzadənin (1917) təşəbbüsü ilə bərpa və əsaslı təmir olunur. Hal-hazırda bu məscid axund Rasim Mehdi oğlunun başçılığı altında fəaliyyət göstərir.

Qədim abidələrdən biri də Bəktaşiyyə məscididir. Ağqoyunlular sülaləsinin sərkərdəsi Xəlil bəy Bəktaşi (1453–1478) Uzun Həsənin əmri ilə Gürcüstana hücum edib, Tiflisi, Qorini ələ keçirib, nəticədə qələbə münasibətilə Xəlil bəy Bəktaşinin şərəfinə həmin məscid ucaldılıb.

Hal-hazırda o məsciddən heç bir əsər-əlamət qalmayıb. Öz memarlıq inciləriIə fərqlənən iki müxtəlif ölkədə (1522-1524) inşa edilmiş Əli məscidlərini qeyd etmək olar. Onların birincisi (1523) Tiflis, ikincisi isə bir il sonra İranın İsfahan şəhərində ucaldılmışdır. Hər iki məscidin memarı və ustası vəzir Mirzə Şah Hüseyn olmuşdur. Tiflisdə məscidin aqibəti aşağıdakı kimi olmuşdur.

Səfəvi qoşunları Şah İsmayılın (1501–1524) hakimiyyəti illərində Tiflisi üç dəfə yadelli işğalçılardan təmizləmişdir. Üçüncü dəfə qızılbaşlar (1522–1523) Gürcüstana qoşun yeritmişdir. Bu, əsasən, Kaxetiya çarı Levanın Şəki üzərinə etdiyi yürüşə cavab olmuşdur. O zaman Şah İsmayıl Naxçıvanda dincəlməkdə idi. Fürsəti əldən verməyən Şəki xanı Həsən bəy yardım üçün ona müraciət edir. Qısa bir vaxt ərzində Qızılbaş sərkərdəsi Div Sultan Rumlu Zəyli və Karem qalalarını alır. Nəticədə Levon təslim olur, ondan möhlət istəyir. Bunun ardınca imperiya çarı Mənuçəhr, Msxet çarı IV Kvar-Kvas Şah İsmayıla bac-xərac verməyi təklif edir. Əvəzində Şah İsmayıl I İmam Əli İbn Əbu-Talib (ə) şərəfinə bir məscidin tikilməsini tələb edir. 1522-ci ildə Tiflisin ən mənzərəli yerində əzəmətli bir məscid tikilir, özü də Əli məscidi adlanır[31].

Yeri gəlmişkən, qeyd olunmalıdır ki, sonralar Tiflis şəhərində çox zəngin, abad və qədim üslubda tikilmiş camaşırxanalar, türbə və karvansaralar, şərq mədəniyyətini özündə əks etdirən ticarət mərkəzi, bazar və çayxanalar diqqəti cəlb edir. Adları çəkilən bu memarlıq incilərinin bir qismi fəaliyyətini dayandırmış, bir qismi isə hazırda fəaliyyət göstərir. Lakin son illərdə (1940–1950) bu obyektlərin bir neçəsi yerli hakim dairələrin səhlənkarlığı, biganəliyi üzündən xarabazara çevrilmişdir.

Bu proses indinin özündə də davam edir. Bu məscidlərlə yanaşı, Borçalının digər bölgələrində və ətraf ərazilərdə də bir sıra tarixi abidələr və məscidlər tikilmişdir.

Bunlara misal olaraq, Sadaxlı, Sarvan, Qaraçöp, Gorarxı, Arıxlı, Araplı, Ç.Qəmərlinin kəndlərindəki tikililəri göstərmək olar.

Gorarxı məscidi – eyniadlı kəndin ortasında tikilmişdir. Bu məscid 1590-cı ildə Şah Abbasın fərmanı ilə tikilib,

[31] Кавказский календарь на 1847. Тифлис, 1846, стр.150.

Allah Evi kimi yerli camaatın öhdəsinə verilmişdir. Məscid uzun illər təmirsiz qalmış, nəhayət, birinci dəfə 1882-ci ildə Hacı Əllamə Hacı oğlu öz xərcinə təmir etdirmişdir. Hazırda həmin məscid kənd əhalisinin təşəbbüsü ilə üçüncü dəfə təmir edilib, həyata qaytarılmışdır. Bu məscid beş ildir ki, fəaliyyət göstərir.

Sadaxlı məscidi eyniadlı kənddə fəaliyyət göstərdikdən sonra bir müddət fəaliyyəti dayandırılmışdır. Başlıca səbəbi məscidin dövlət tərəfindən qeydiyyatdan keçməməsi və 400 ilə yaxın bir müddətdə əsaslı təmir olunmamasıdır.

Qaraçöp məscidi XIX əsrin axırları, XX əsrin əvvəllərində inşa edilmişdir[32]. Bu məscid fundamental əsaslı tikinti deyildir. Hazırda məscid yerli əhali tərəfindən təmir edilib və fəaliyyət göstərir.

Sarvanın bütün mahalın digər məntəqələri arasında öz coğrafi mövqeyinə, nəqliyyat-iqtisadi əlaqələri baxımından inkişaf etməsinə baxmayaraq, hələ də müsəlman dünyasının zənginliyi və əzəmətini təcəssüm etdirən bir məscidi yoxdur. Düzdür, Sarvanda XX əsrin əvvəllərinə qədər fəaliyyət göstərən üç məscid olmuşdur. Lakin bu məscidlərin ikisi müharibəyə qədər müəyyən səbəblər üzündən ləğv olunmuş, biri isə yararsız vəziyyətdə fəaliyyət göstərir. Lakin onu da demək xoşdur ki, Bakıda yaşayan bir qrup Sarvan ziyalılarının təşəbbüsü ilə 2000-ci ildə vəsait toplanmış, yerli soydaşlarımızın rəhbərliyi və qayğısı sayəsində yeni məscid tikilib sarvanlılarnı istifadəsinə verilmişdir.

Sarvan ta qədimdən Borçalı mahalının mərkəzi olmuşdur və Zaqafqaziya nəqliyyat yolları qovşağında yerləşir, hər üç dövlət arasında dəhliz rolunu oynayır[33]. Bununla belə, məntəqədə yalnız qədim türk qəbiristanlığından başqa, digər tarixi memarlıq abidəsi yox dərəcəsindədir.

Hazırda Borçalı mahalının bir çox yaşayış məntəqələrində əhalinin sosial-iqtisadi vəziyyəti acınacaqlı durumdadır.

[32] Qədim mədəni abidələr. "Azərbaycan" qəzeti, №23, 1992.
[33] Кавказский календарь. Тифлис,1911–1913.



Və get-gedə bu vəziyyət daha da dərinləşir. 90-cı illərdə istər Borçalıda və istərsə də ətraf bölgələrdə 130-a yaxın (70 min) kənd əhalisi tibbi, sosial və iqtisadi cəhətdən tam mənada kənarda qalmışdır. İnsanlar, demək olar ki, dövlətin bu xidmət sahələrindən məhrumdurlar. Əhalinin hər bir nəfərinə il ərzində təminat və təchizat məsələsinin dəyəri orta hesabla 1 200 000 kupona (1990) bərabərdir. Bu o deməkdir ki, əhali bu xidmət sahələrilə təmin olunmur.

Ümumiyyətlə, son 20–25 ildə soydaşlarımızın yaşadığı istər kənd, istərsə də şəhər məntəqələrində əhalinin sosial-iqtisadi təminatı ancaq kənd təsərrüfatı məhsullarının hesabına olmuşdur. 1940–1950-ci illərdən bu günə kimi Borçalı və ətraf bölgələrin sənaye obyektləri, bir qayda olaraq rayon mərkəzlərində – Marneuli, Bolnisi, Qardabani, Dmanisi, dəmiryolu nəqliyyatının və yeraltı sərvətlərinin mənimsənilməsi ilə əlaqədar inkişaf etməkdə olan Kazret, Şüləver, Tsop, Qızıl-hacılı, Qaraçöp, Qabal, Birlik, Qardaban, Soğanlıq (Qarayazı bölgəsində) və s. kimi məntəqələrdə fəaliyyət göstərmişdir. Marneuli şəhəri respublika əhəmiyyətli iri sənaye mərkəzinə, Qardabani, Bolnisi şəhərləri isə aqrar-kənd təsərrüfatı məhsulları emal edən mərkəzlərə çevrilmişdir.

Dmanisi şəhəri isə rayon tabeliyində inkişaf edən emaledici kənd təsərrüfatı mərkəzi sayılır. Bölgələrin sənayesinin əsasını aqrar-sənaye kompleksləri təşkil edir.

Yuxarıda adları çəkilən şəhərlərdə 1981–1986-cı illərə qədər genişölçülü iri sənaye tikintiləri aparıldı. Aşağı Kartlının istər xammal, istərsə də hazır kənd təsərrüfatı məhsulları 50-yə yaxın xarici ölkəyə ixrac olunurdu. Son zamanlar əsas təsərrüfat sahələri, demək olar ki, tam dağıdılmış, heç bir rəsmi orqan tərəfindən mühafizə olunmur.

Əhalinin sosial-iqtisadi şəraitinə təsir göstərən amillərdən biri də xalq təsərrüfatının aparıcı sahəsi olan nəqliyyat yolu, şose və boru-kəmər xətlərindən ibarətdir. Nəqliyyatın inkişafı başlıca olaraq son 20–25 ildə tikinti və təmirdən ibarətdir. Tbilisi-Marneuli-İrəvan, Tbilisi-Marneuli-Kazret, Tbilisi-Marneuli-Marabda-Ahılkələk dəmiryolları və onların

müasir tikintisini qeyd etmək olar. Avtomobil (şose) yolları və onların təmiri başlıca olaraq bölgələrin rayon mərkəzlərilə Tbilisi şəhəri arasında əlaqə, beynəlxalq magistral şose yolu, rayon və kənd məntəqələri arası yerli əhəmiyyətli yolları qeyd etmək olar.

Hazırda bərk örtüklü şose yollarının uzunluğu təxminən 1500 km-ə bərabərdir

Əhalinin sosial şəraitinin yaxşılaşmasında tikintinin çox böyük əhəmiyyəti vardır. Bu baxımdan təməli 1994-cü ildə qoyulmuş beynəlxalq səviyyəli Bakı-Tbilis-Ceyhan neftboru kəməri misal ola bilər. Çətinliklə əldə etdiyimiz son məlumata görə, bütün bölgələr üzrə 1990-cı ildə tikintiyə ayrılan kapital qoyuluşu 1550 mln. rubl olmuşdur. Bunun 280 mln. rublu tək Marneuli inzibati rayonunun payına düşmüşdür.

## § 2. İcmanın fəaliyyət dairəsinin təsərrüfat sistemindəki rolu

Gürcüstanın azərbaycanlılar məskunlaşan ərazilərinin təsərrüfatı iki istiqamətdə inkişaf etmişdir: zəngin yeraltı sərvətlərinin bolluğu nəticəsində dağ-mədən sənayesi, bol suya və münbit əkinə yararlı torpaq sahələrində isə kənd təsərrüfatının bütün sahələrinin inkişafı.

A.Borçalıda sənaye və onun müxtəlif sahələri təbii-coğrafi şəraitə uyğun olaraq inkişaf etmişdir. Əlbəttə, ərazi spesifik landşaft quruluşuna və təbii-xammal ehtiyatlarına görə özünəməxsus inkişaf səviyyəsinə malikdir. Regionlarda sənaye sahələri təxminən 1800-cü illərdən inkişaf etməyə başlamışdır. Bu illərdə Zaqafqaziyanın bir sıra mahal və bölgələrində olduğu kimi, bu mahalda da dövrün bir neçə imkanlı, ziyalı adamları və dövlət adamları ərazinin xammal ehtiyatlarından istifadə məsələsindən kənarda qalmamışlar. Onlar öz kapitallarını daha da artırmaq və xarici bazarlara çıxmaq üçün fəaliyyət göstərmişlər. Belə adamlardan knyaz Mamuki Orbelianini, G.G.Sulkidzeni, qvardiya-polkovniki Maslovu, alman biznesmeni Kuçenbaxı, Melikovu və s. qeyd etmək olar. Bu sahədə knyaz Orbelianinin əməyi çox böyük olmuşdur. Onun təşəbbüskarlığı nəticəsində regionun Loru, Pəmbək və Borçalı nümayəndəliyinin ərazisində genişmiqyaslı geoloji-kəşfiyyat işləri aparılmış və yüksək bəhrə əldə edilmişdir. 1800-cü illərdən başlayaraq 1815–1820-ci illərə qədər yuxarıda adları qeyd olunan adamların səyi nəticəsində onlarla zəngin mis, qızıl, gümüş qarışıq və əlvan metal yataqları kəşf olundu. Bu illərdə fəaliyyət göstərən yataqların yaxınlığında xırda zavodlar quraşdırılaraq istifadəyə verildi. Belə zavodların gəlirindən kifayətlənməyən knyazlar və onların himayədarları öz axtarış və kəşfiyyat işlərini dayandırmadan davam etdirirdilər. Bir qayda olaraq bu zəngin yataqlar ərazisində olan Pəmbək, Borçalı (Debed), Maşaver, Alget çaylarının ətraflarında və Çatax, Ləlvər dağlıq massivinin ərazisində tapılmışdır. Beləliklə, bütün region boyu və o cümlədən Borçalı mahalında və onun ətrafında çox zəngin Allahverdi mis yataqlarını (zavod) qeyd etmək olar. Düzdür, bu zavod regionda heç də ən qədimi sayılmır, o işə düşənə qədər (1880) ətrafda bir neçə xırda mədən artıq 1804–1815-ci illərdən fəaliyyət göstərirdi. Allahverdi zavodu Ləlvər dağının cənub hissəsində eyniadlı yaşayış məntəqəsinin ətrafında salınmışdı. 1884-cü ilin məlumatına görə zavodun 92 fəhləsi ildə 11235 pud mis istehsal edib, Tiflis və Bakı quberniyalarına göndərmişlər. Zavoddan gələn gəlirin əks-sədası və ümumiyyətlə, Allahverdi misinin şöhrəti regiondan çox-çox uzaq ellərə yayıldı. Buna görə də istər Türkiyə və istərsə də digər ölkələrdən bura mütəxəssislərin gəlişi başlandı. Bir müddətdən sonra Türkiyədən yunan mütəxəssisləri gəldilər və tezliklə torpaq və zavod sahibkarlarına çevrildilər. Elə bu dövrdən də Borçalının ətraf bölgələrindən azərbaycanlı fəhlə və mütəxəssisləri bu zavodlarda işləməyə başladılar.

Allahverdi zavodu fəaliyyətə başladıqdan cəmi iki il sonra daha bir mədən-zavod fəaliyyətə başladı. Bu Şamluq və ya Şamlıq zavodudur. Bu zavod Allahverdi zavodundan 8 km aralı, Ləlvər dağının cənub-şərq ətəklərində açılmışdır.

1884–1885-ci illərdə zavodun cəmi 17 nəfər fəhləsi olmuşdur. İldə 1200 pud filiz istehsal edilib, mərkəzi şəhərlərə göndərmişdi. Maraqlıdır ki, hər iki zavoda 1800-cü illərin əvvəlində Türkiyədən gəlmiş, böyük iqtisadi imkanlara malik olan yunan əsilli sərmayədarlar rəhbərlik edirdilər (əsasən iki qardaş).

Regionda haqqında söhbət gedən zavodlardan başqa, çox uzaqda olmayan Axtala mis mədəni də fəaliyyətə başladı. Təzə zavodun sahibi knyaz Məlikov olmuşdur (1869). Öz dövrünə görə zavod çox qiymətli hesab olunurdu. Gürcüstan dövləti üçün zavodda gümüş və qızıl pul istehsal edilirdi. Zavod öz fəaliyyətinə 1866–1867-ci illərdən başlamışdır. 2–3 il fəaliyyət göstərən zavodun cəmi 14 nəfər işçisi olmuşdur ki, bunlar da iki il müddətində 18.000 pud filiz çıxarmış, ondan isə 240 pud xalis mis istehsal olunmuşdur. Ərazilərdə qazıntı sərvətlərinin istehsalı yuxarıda qeyd etdiyimiz mədən və zavodlarla bitmir. 1870–1875-ci illərdən başlayaraq 1890–1895-ci illərə qədər 10-a yaxın zəngin ehtiyata malik olan qızıl, gümüş, mis, dəmir və s. nadir və əlvan metal yataqları aşkar edilmiş və müəyyən quruculuq işləri aparıldıqdan sonra fəaliyyətə başlamışdı. Belə yataqlardan Borçalı çayının sağ sahilində İnəkli dərəsinin Kərinc kəndi ilə Xaçıgöy kəndi yanında, Pəmbək çayının sol sahilində fəaliyyət göstərən Zamanlını və zəngin Damblutu göstərmək olar. Yataqlar məşhur Çatax zavodundan təxminən 11–12 km. aralı məsafədə yerləşmiş və knyaz Orbelianiyə məxsus olmuşdu. Bu yataqlardan istifadə zamanı gürcü çar və knyazları özləri üçün qızıl, gümüş pul istehsalında istifadə etmişlər. Bundan başqa, Mamuki Orbelianiyə məxsus[34] Cambaxça yataqları baron Kuçenbaxın Başkeçid bölgəsindəki şüşə zavodunun yaxınlığında yerləşirdi. Bu yataqdan ildə 600 pud filiz çıxarılmış, 25 pud saflaşdırılıb xalis mis alınmışdır. Əmbülmülk kəndi yaxınlığında, Maşaveri (Cağala-çay) sol sahilində Orbeliani adına «Əmbülmülk» zavodundan 1830-cu illərdə istifadə

[34] Мат. экономич. быт госуд. крестьян Закавказского края, т. VII. Тифлис, 1887, стр. 369–375.



olunmağa başlanmışdır. Qeyd etməliyik ki, bəzi arxiv materialların verdiyi məlumata görə, bu zavod hələ 1800–1804-cü illərdə tərkibi qızıl-gümüş və qiymətli metallarla zəngin olan yataqlardan istifadə etmişdir. İstifadə vaxtı xeyli qızıl tozu alınmışdır. Tərkibində qızıl, gümüş qarşılıqlı metal hissəciklərinin və tozunun geniş yayıldığı yataqlardan Allahverdi, Axtala, Əmbülmülk kimi zəngin gümüş mədənlərini qeyd etmək olar. Bu tipli yataqlar, bir qayda olaraq, yuxarıda qeyd etdiyimiz kimi, Borçalı, Xram çaylarının hesabını meydana gəlmişdir. Məlumdur ki, çaylar əsasən gur axan dağ çaylarıdır. Yataqlar 1875-ci ildən knyaz Sulkidze və qvardiya polkovniki Maslov tərəfindən açıldı və onların rəhbərliyi altında fəaliyyətə başladı.

Maslovun qəfildən ölümü geniş perspektivə malik olan bir sıra yataqların istismarını ləngitmiş, yarımçıq qalmış işləri sonradan knyaz Sulukidze davam etdirmişdir. Knyaz Sulukidze bundan başqa, 1885-ci ildən etibarən onlarca (Maşaver çayının orta axarında, Kazret və Baliç kəndləri arasında, Dəmir dağdan başlayan Kazret çayının Maşaverə birləşən yerində, Binazor kəndi ətrafında) yataqlara və mədənlərə də rəhbərlik etməyə başladı.

Azərbaycanlılar yaşayan regionların sənayesi heç də bunlarla tamamlanmır. Region qiymətli metal və mis mədənləri ilə yanaşı, həm də zəngin və çox qiymətli tikinti materialları xammalı (qum, gil, əhəng, çaydaşları və yer altından çıxarılan qara və ağ rəngli sal daşlar), dünya şöhrəti qazanmış qara mərmər və piltə-psamit yataqları ilə də zəngindir. Bu zəngin yataqlar Borçalı çayının dərəsi, Uzunlar kəndi yaxınlığında cəmləşmişdir. Bu barədə akademik Abix özünün əsərlərinin birində belə yazmışdır « Yaxşı olar ki, Tiflis aləmi bu zəngin və qiymətli, sahibsiz xəzinəyə meyil göstərsin», çünki çox böyük iqtisadi imkanlara malik olan təbii sərvətlər xalq üçün həm gəlirli və həm də yararlı sahədir.[35] Yataqlar Tiflisdən cəmi 60–70 km aralıda yerləşmişdir.

[35] Экономический быт госуд. крестьян Борчалинского уезда Тифлисской губернии. Исследовование А.Д. Ерицова, стр. 377.

Xalq təsərrüfatı əhəmiyyətli psamit yataqları daha sonra Maşaver çayı mənsəbində, Yekaterinenfeld (Bolnisi şəhəri) yaxınlığında aşkarlandı. Sonralar bu tikinti materialı Tiflisdə «Bolnis» adı ilə şöhrət qazandı. Məlumat üçün qeyd etməliyik ki, bu ərazilər sənaye və tikinti əhəmiyyətli materiallarla yanaşı, yeraltı mineral suları ilə də nəzər-diqqəti cəlb etmişdir. Lakin o günə qədər bu sərvətdən nə fermerlər və nə də yerli əhali istifadə etdi. Onu da qeyd edək ki, regionun belə tikinti materiallarına ehtiyacı daha yüksək idi.

Ümumiyyətlə, ərazidə əhalinin içməli suya tələbatı gündən-günə pisləşirdi. Daha doğrusu, əhali içməli suyu bir qayda olaraq axar çaylardan, gölməçələrdən götürərdilər. (Dağlıq ərazilər bura daxil olunmur, çünki onlar təbii bulaqlardan və kəhrizlərdən istifadə edirdilər.) Mahalın bir sıra dağlıq, dağətəyi bölgələrində və bəzən meşəətrafı sahələrdə keyfiyyətli içməli suyu olan bulaq və kəhrizlər də fəaliyyət göstərirdi. Belə sulardan (bulaq) regionun Trialet (indiki Cavaxeti) nümayəndəliyinin dövlət tabeliyində olan Ayazma dövlət kilsəsinin içərisindən qaynayıb-coşan bulağı (1950-ci illərdən bulağa xüsusi qayğı göstərilir, kəhriz formasında salınıb), Loru nümayəndəliyinin tabeliyində olan bir neçə bulağı və Arduvi kəndində fəaliyyət göstərən kəhriz quyunu misal göstərmək olar. Bu suların tərkibi yod-brom, dəmir, mis və s. mineral birləşmələri zəngin olub, insan və heyvanat aləminin dəri-zöhrəvi və bir sıra xəstəliklərinə müalicəvi təsiri vardır. Borçalı nümayəndəliyinin Opret kəndindəki bulağın suyundan təkcə yerli əhali deyil, hətta 10–20 km-likdə yerləşən kəndlərin əhalisi də istifadə edirdi. Suyun tərkibində qaz, yod, brom, dəmir və s. mineral birləşmələr vardır. Arxiv materiallarının məlumatına görə, Opret bulağının suyu öz keyfiyyətinə görə dövrünün çox məşhur–Almaniyanın «Zelter» mineral suyundan da üstün tutulurdu.

Borçalı mahalının Borçalı nümayəndəliyinin mərkəzi Sarvan, ona qonşu Hallavar kəndlərindəki məşhur quyular və kəhrizlər öz suyunun sərinliyi, tamı, şirinliyi və büllur kimi saflığına görə heç də dağ sularından belə fərqlənmirdi. Bu quyular Sarvan kəndinin mərkəzində «Ağalıq»-«Şeyx» nəslinin həyatında, Hallavar kəndində isə kəndin tən ortasında, İsrafil kişiyə məxsus həyətdə fəaliyyət göstərir. Hal-hazırda bu quyulardan yalnız biri fəaliyyət göstərir.



Ümumiyyətlə, belə bulaqlara Borçalının onlarca kəndlərində rast gəlmək olurdu. Lakin elə kəndlər də vardı ki, son 200–250 ildə onların ərazisində bir dənə də olsun içməli su quyusu və ya kəhriz olmamışdır. Belə kəndlərdən Alget çayının aşağı axarı istiqamətində məskunlaşmış Gorarxı, Muğanlı, Candar, Sarvanın bir hissəsi, Kürtlər (Qurdlar), Təkəli, Xancığazlı, Quşçu və s. misal göstərmək olar.

Bu illərdə mahalın bütün aran kəndlərində içməli su bir nömrəli problemə çevrilmişdi. Mahalın, Qızılhacılı, Candar, Korarxı və s. kəndlərinin əhalisi uzunqulaq və ataların tərkində qonşu kəndlərdən içməli su daşıyardılar.

Əhalinin içməli su tələbatının ödənilməyən bir vaxtında hakim dairələr içməli sudan sənayedə və kənd təsərrüfatında da geniş istifadə etməyə başladılar.

Bu sahədə çətinlikləri aradan qaldırmaq üçün imkanlı fermerlər və icarə rəhbərləri öz vəsaitləri hesabına bir neçə təsərrüfat əhəmiyyətli su kanalı çəkdirdilər.

Şərqi Gürcüstan regionu özünün zəngin daş karxanaları və qara mərmər yataqları ilə də zəngindir. Bu daş karxanalarından lap qədim vaxtlardan tikinti materialı kimi istifadə olunan Başkeçid bölgəsində (Qarabulaq, Qəmərli), Çoruk-Qəmərlidə (İmirhəsən, Qçulu, Arıxlı, Borçalıda), Şüləver, «Qızıl Daş», (Qızılhacılı), Zəlyə bölgəsində olan saysız-hesabsız böyük ehtiyata malik daş karxanaları və sarı rəngli vulkanik gil çöküntüləri, Ağbulaq bölgəsində Kosalar, Dağet-Xaçınlı, Tsintskaro, Dürnük və s.; Qarayazı, Karel, Kaspi, Tetri Skaro (Ağbulaq), Muxran, Saqareco, Laqodexi və Telavi bölgələrindəki yerli tələbatı ödəyən daş karxanalarını da qeyd etmək olar. Bundan başqa, ən qiymətli qara mərmər yataqlarından – Tsop, onun ətraf ərazilərində, Opreet, zəngin əhəng və gəc materiallarına Borçalının Candar, Kirənc Muğanlı, Ağbulaq, Bolnis və s. məntəqələri göstərmək olar.

Evtikmə, yolsalma və kanal-bəndlər çəkmə işlərində Təvədöy (Xram) və Borçalı (Debet) və Xram çaylarının qumundan geniş istifadə olunurdu. Bu tikinti materiallarının icrasında və istehsalında əsas işçi qüvvəsi kimi ətraf bölgələrdə yaşayan Azərbaycan türkəri ilə yanaşı, yunanlılar da çalışardılar.

O dövrdə yeganə şüşə istehsal edən Kuçenbaxın (Başkeçid məntəqəsinin yaxınlığında) Saja kəndindəki şüşə zavodunu qeyd etmək olar. Bu adları çəkilən yeraltı sərvətlərin zənginliyi nəticəsində mahalda sənaye sahələri ildən-ilə inkişaf etməyə başladı.

Müasir dövrdə, yəni 1959–1960-cı illərdən başlayaraq bütün regionboyu qədim sənaye obyektləri və sahələri ilə yanaşı, onlarca yeni sənaye obyektləri və sahələri yaradıldı. Yeni yaradılmış sənaye sahələri bütün regionun mərkəzi şəhər, qəsəbə və geniş iqtisadi imkanı olan iri kənd yaşayış mənqtəqələrində inkişaf etdirilməyə başladı.

Şərqi Gürcüstanın (Borçalı daxil olmaqla) kənd təsərrüfatı digər mahallarda olduğu kimi, əsasən torpaq-iqlim şəraitindən çox asılı olmuşdur. Regionun ərazisinin 2/3 hissəsi dağlıq, dağ ətəyi və xırda təpəlik massivlərindən ibarət olduğu üçün özünəməxsus təsərrüfat sahələrinə malikdir.

Bunlara baxmayaraq, regionun ərazisi ən qədimlərdən belə dadlı meyvələri, keyfiyyətli tərəvəz və bostan bitkiləri, hələ çar hökumətinin süfrəsini bəzəyən yüksək kaloriya malik keyfiyyətli buğdası (çörəyi), pendiri, dadlı meyvəsi və şərabı, zərif yunlu heyvandarlığı və atçılığı ilə məşhur idi. Əlbəttə, kənd təsərrüfatının belə bir zirvəyə qalxmasında ərazidən axan və özü ilə müxtəlif dağ çöküntüləri gətirən Debed (Borçalı), Maşaver, Cağala, Pəmbək, Alget və onlarca xırda çay və arxların rolu böyük olmuşdur. Bir sözlə, regionun kənd təsərrüfatı bu çaylardan çox asılı olmuşdur. Bu baxımdan Borçalı özünün axar-baxarlı təbiəti, çayları, kanalları (arx) ilə çox məşhurdur.

Qida mənbəyini dağların qar və buzlaq sularından, yeraltı gölməçələrdən götürən Xram, Alget, onlara birləşən Maşaver (Cavala), Debed və s. çaylar Borçalının tarixi qədər qədim olmuş və onun varlığında və təsərrüfatının inkişafında əvəzsiz rol oynamışdır.



Borçalı (Debed) uzunluğu təxminən 150 km olub, öz mənbəyini İrəvan quberniyasının dağlıq ərazisinin ətəklərindən götürüb Xram çayının sağ qolunu təşkil etmişdir. Borçalı çayı aşağı aran ərazisində Kür çayının sağ sahili ilə axaraq Qırmızı (Sınıx) körpü ətrafında Kür çayına birləşir. Bu çaya sonradan bir neçə ad verilir, yəni yuxarı axarında Pəmbəy, aşağı axarında Debed (Borçalı) adlanırdı (1600–1880).

Borçalı çayının suları ilə Loru çölünün və nümayəndəliyinin torpaqları suvarılır.

Alget çayı öz mənbəyini Trialeti sıra dağlarının Maissxviri yüksəkliyindən götürüb, Qırmızı Körpü (Borçalı ərazisində) yanında Təvədöylə (Xram) birləşib, Kür çayına qarışır. Bu çay mənbəyindən mənsəbinə qədər qarşısına (yaz, payız vaxtı) çıxan bütün maneələri dəf edərək, torpaqları yuyub (Sarı qaya adlanan ərazi) özü ilə üzüaşağı torpaqlara min tonlarla çöküntü hopturur. Alget, Məngilis məntəqəsindən axaraq Bedən aşırımından keçib, Boqva kəndi yaxınlığında Tiflis yolunu kəsir, Borçalı bölgəsi istiqamətində axaraq Marabda kəndinin alt yanından Sarvan ərazisinə daxil olub, tən yarıya bölür, 25–30 km məsafəni Borçalı düzənliyindən axıb keçir. Alget çayı yaz və payız aylarında sulu və çox coşqun olur. Odur ki, ətraf sahələri suvarmaq məqsədi ilə 24 kanal çəkilmişdir. Düzdür, bu kanallar yalnız suvarmaq üçün yox, eyni zamanda torpaqqoruyucu, yuyulma proseslərinin qarşısını almaq üçün də nəzərdə tutulmuşdur.

Belə kanal və bəndlərdən biri də XX əsrin əvvəllərində tikilmiş, Sarvan məntəqəsindən Zəlyə-Barmaqsız yolu üzərindəki Parçxisi-platinini qeyd etmək olar. Bu platinanın hündürlüyü 171 m-dir.

İcarəçi Veys-Fon-Veysenqofa görə, 24 kanaldan yalnız ikisindən suvarmada istifadə olunurdu. Kanallardan, əsasən, müsəlman (Azərbaycan türkləri) kəndləri istifadə edirdilər. Təxminən 70–80 il bundan öncə Ağbulaqla Məngilis məntəqələrinin 50–55 km-də Parçxisi kəndinin şimal hissəsində çay üzərində tunel-bənd çəkilmişdir. Bəndin cənuba doğru ərazi-

sində forel (qızıl balıq) balığının vətəgəsini tikmişlər. Sonradan bu ərazi dövlət qoruğu elan edilmişdir.

Region üçün ikinci böyük əhəmiyyəti olan çay Təvədöydür (Xram). Xram çayından, bir qayda olaraq əhalinin içməli su ehtiyacı ödənilir, qismən Barmaqsız bölgəsində və Kolagir kəndinin taxtalı körpüsündən sonrakı hissəsində təsərrüfatda istifadə edilir.

Xram çayı öz mənbəyini Borçalı mahalının dağlıq Tsxra-Tskaros-Mta dağının aşağı ətəklərindən götürüb 15–20 km cənub istiqamətdə axaraq mahalın ərazisinə Tav-Koteli yüksəkliyinin şimal hissəsindən daxil olur. Burada çay özünün ikinci tarixi adına (gürcü dilində) – Ktsiyəyə çevrilir. Dağlıq Ərçivan silsiləsindən axan Pepe çayı Ktsiylə birləşib Əvrənli kəndinin ərazisindən keçib, Zəlyə-Barmaqsız düzənliyi ilə axaraq geniş bataqlıq sahələr yaradır.

Yeddikilsə yaxınlığında Ktsiyə çayı soldan Cins, sağdan Nərdivan, Ayazma kimi xırda çayları birləşdirib Zəlyənin Quniya-Qala və ya (Günlü-qala, Günəşli-qala – M.S.) ətrafında Xram adını daşıyır.

Barmaqsız körpüsünə qədər Xramın keçmiş **qərargahı (ştab-kvartira)** ətrafında sağdan, soldan bir sıra xırda çayların bu çaya birləşməsinə baxmayaraq, onun subasar hövzəsi çox dərin dərələrdən keçdiyinə görə lazımi təsərrüfat əhəmiyyətinə malik deyildir. Çayın dərin dərələrdən, sıldırım qayalıq ərazilərdən keçdiyinə görə bu yerlərdə onun suyundan kənd təsərrüfatında, demək olar ki, heç istifadə olunmurdu. Yalnız Barmaqsız körpüsü yanında yerli əhali çayın qarşısına bəndlər çəkərək balıq ovu ilə məşğul olurdular. Xram çayı Nərdivan kəndi ərazisindən Barmaqsız körpüsünə qədər, (30 km) ərazi başdan-başa düzən sahə olmasına baxmayaraq, burada suvarma əkinçiliyi, demək olar ki, inkişaf etməmişdir. Səbəbi ərazinin əkinə yararlı torpaq sahəsinin olmaması, xırda çayların ətrafı daşıb basması, bataqlıq ərazilərin üstünlüyü və iqlimin həddən artıq soyuq olmasıdır. Dərəköy, Cins, Ayazma, Barmaqsız və s. kəndlərin əhalisi həmişə bu subasar sahələrin yararsızlığından şikayət edirdilər.



Beləliklə, Xram təxminən 100 km-ə qədər bir məsafəni qət edib, Borçalı mahalının Kolagir kəndinin taxtalı körpüsünü ötüb keçərək, *Arıxlı düzənliyinə* istiqamət alır. Çayın bu hissəsində su nasosların köməyi ilə sudan qismən də olsa kənd təsərrüfatında istifadə olunur.

Xram çayında suvarma məqsədi ilə az istifadə olunmasına baxmayaraq, onun sularında tutulan balıqlar keyfiyyətinə görə bütün Qafqazda məşhur idi. Bu balıq növünün adı «Xramuli»dir. Xramulinin ovlanması hələ o vaxtları qeyri-qanuni sayılırdı. Bunun dövlət tərəfindən ovu təşkil olunmamışdı. «Xramuli» balığının qeyri-qanuni ovlanması 200 ildən artıqdır ki, davam edir.

Şərqi Gürcüstan regionunun torpaqları təbii-şərait baxımından çox müxtəlifdir. Kənd təsərrüfatının inkişafı axar çaylardan, əkinə yararlı torpaq sahələrinin və meşə sərvətlərinin zənginliyindən çox asılıdır.

Borçalıda (aran) qarlı günlərin sayı 5–6, bəzi illərdə isə 10-a çatır. Qədimdən regionun dağlıq və sıldırım qayalıq hissələrində qeyri-müsəlman xalqları, düzən ərazilərdə isə, bir qayda olaraq Azərbaycan türkləri yaşayıb yaradırlar. Loru düzənliyindən başlayaraq Ağkörpü, Şüləver, Bolnis-kənd və Xatis-sopelidən Çatax zavoduna kimi azəri türkləri kənd təsərrüfatı ilə məşğul olurdular.

Bu ərazinin torpaqları sarımtıl, bozqır və bəzi yerlərdə isə qara torpaqlardan ibarətdir. Əsasən tütünçülük-bağçılıqla məşğul olurdular. Yüksək dağlıq Somxeti qırışıqları şərq küləklərinin qarşısını kəsərək, birbaşa Loru və Zəlyə düzənliyinə daxil olmağa imkan vermir. Bu proses eyni olaraq Başkeçid vadisinə də aiddir. Başkeçid vadisi (dağətəyi sahələr) üzümçülük zolağının keçid mərhələsində olub, ortaq mövqedə yerləşir.

Başkeçid vadisi dedikdə, əsasən, Lök dağının şimal ərazisi və Maşaver, Cociyan çaylarının yuxarı axar hissəsinin torpaq sahələri nəzərdə tutulur. Bu yerlərin torpaqları kənd təsərrüfatına yararlı olub, çaylar boyunca bataqlıq və bəzi yerlərdə isə əhəng qarşılıqlı ağ rəngə çalan münbit qatdan

ibarətdir. Başkeçid vadisinin iqlimi mülayim və yumşaq olması ilə yanaşı, çox sağlam olub, insan orqanizmi üçün əhəmiyyətlidir. Axırıncı iki dağüstü plato-düzənlik özünün torpaq iqlim şəraitinə görə dağüstü düzənlik, bir-birinin davamıdır. Yəni oxşarlıq hər ikisində eynidir.

Belə ki, Loru çölü Zəlyə düzənliyinin davamı olub, ikinci dağüstü düzənlik (plato) birincidən özünün 500 fut (1 fut=30,48 sm) ortaq mütləq yüksəkliyindən yuxarı olması və iqlim şəraitinin kəskin olması ilə fərqlənir.

Zəlyə vulkanik tipli torpaqlar iqlim şəraitinə uyğun olaraq ərazi üzrə paylanmışdır. Belə ki, buranın torpağı əsasən vulkanik tərkibli olub, üst qatı qara torpaqdan ibarətdir. Bu torpaqda əsasən təbii yem bitkiləri və mədəni kartofçuluq inkişaf etmişdir. Son vaxtlar bu torpaqlarda kələm və taxılçılıq xüsusi olaraq inkişaf etdirilir.

Onu qeyd etmək lazımdır ki, bu bölgələrdə əkinə yararlı və əkin altında istifadə olunan torpaq sahələri azlıq təşkil edib, kənd əhalisinin isə həyətyanı torpaq sahəsi, demək olar ki, yox dərəcəsindəydi, yəni adambaşına cəmi 0,19 sot (desyatin) torpaq düşürdü.

Loru çölünün (düzənliyinin) torpaqları vulkanik tipli olub, aqrar təsərrüfatçılıq baxımdan, demək olar ki, yararsızdır. Buranın torpaqlarından ən qədim dövrlərdən bəri mal-qara üçün, örüşlər və biçənək kimi istifadə edilir. Son vaxtlar bu çölün çay yataqlarının yerində və çay ətraflarında meşənin qırılmış hissələrində əkin üçün yararlaşdırılıb, dənli-bitkilər əkilir. Bu bölgədə Zəlyə bölgəsinə nisbətən bir sıra dənli bitkilər vaxtında əkilib, becərilir. Buna ərazinin iqlim şəraiti də yol verir.

Əhalinin və yaşayış məntəqələrinin milli tərkibinə və təsərrüfat fəaliyyətinə görə mahalın strukturu aşağıdakı qaydada sıralanır. Mahalın ən ucqar şimal-qərbində dağarası və dağüstü Zəlyə düzənliyi yerləşmişdir. Burada bütün torpaqlar dövlət tərəfindən idarə olunub, yalnız şimal-şərq hissəsinin kiçik bir ucqar sahəsi şəxsi adamlara mənsubdur. Bura cəmisi beş Azərbaycan ailəsindən ibarət Minasaz-kənd məntəqəsinin sakinləri daxildir. Bunun ətrafında dövlət tabeliyində olan dörd Azərbaycan kəndi məskunlaşmışdır. Düzənliyin qalan hissəsində 22 yunan, 12 erməni, 2 qarışıq; yunan-erməni və 1 qaraçı kəndi məskunlaşmışdır (məlumat 1870-ci ilə aiddir). Bundan cənuba daha bir başqa dağətəyi düzənlik uzanır ki (Qarabulaq), özündə 11 kəndi birləşdirir. Bunlardan 7-si mənşəcə gürcü, 3-ü yunan və 1-i isə Azərbaycan kəndidir. Bu 11 kəndin 10-u dövlət tabeliyində, biri isə şəxsi mülkiyyətçiliyə daxildir.

Nəhayət, Başkeçid vadisi özünün mülayim, yumşaq iqlimi ilə fərqlənən və əkinə yararlı torpağı ilə nəzər-diqqəti cəlb edir. Burada 66 yaşayış məntəqəsi yerləşir. Bu məntəqələrin hamısı Maşaveri çayının hövzəsində qərarlaşır. Kəndlərin 46-da azərbaycanlılar, 3-də ruslar, 3-də ermənilər, 3-də gürcülər, 9-da qarışıq, 1-də yunanlılar və 1-də isə almanlar məskunlaşmışdılar. Torpaqlar, əsasən, şəxsi mülkiyyətlərə, 4-ü isə dövlətə məxsus idi. Ən sıx məskunlaşmış ərazi Borçalı çayının hövzəsidir. Bu hövzədə 87 məntəqə yerləşmişdir. 87 məntəqənin 41-də şəxsi mülkiyyətçilik, 41-i dövlətçiliyin, 5-i isə dağ-mədən zavodunun tabeliyinə daxildir. Əhalinin milli mənsubiyyətinə görə 44-də ermənilər, 31-də azəri türkləri, 7-də ruslar, 5-də isə yunanlar yaşayır. Xram çayının mənbəyində isə 16 məntəqə – bunların 11-də erməni, 3-də azəri türkləri, 1-də gürcü və 1-də isə yunanlar yaşayırlar. Kəndlərin 11-ni şəxsi mülkiyyətçilər, 5-ni isə dövlət idarə edir. Belə şəxsi mülkiyyətçilik Xram çayının aşağı axarının düzənlik ərazilərində hakimdir. «Azərbaycan türkləri yaşayan məntəqələrin yalnız 4-də dövlət» kəndli mülkiyyətçiliyidir. Daha sonra Alget çayının aşağı axarında 5 şəxsi mülkiyyətçilik formalı məntəqələri vardır ki, əhalisinin milli tərkibini Azərbaycan türkləri təşkil edir. Nəhayət, Kür çayının sağ sahili zonasında 6 məntəqə məskunlaşmışdır ki, hamısında azəri türkləri yaşayır və şəxsi mülkiyyətçilikdir.

Qəribə burasıdır ki, bu ərazilərdə yaşayan əhalinin 2/3 hissəsi qeyri-Azərbaycan türkləri olub, 95%-i dağlıq ara-

zilərdə, maldarlıq və kənd təsərrüfatı üçün əlverişli və yararlı dərələrdə pərakəndə məskunlaşmışdılar.

Azərbaycan türkləri isə, bir qayda olaraq bol suyu (suvarmaq üçün), münbit, əkinə yararlı torpaq sahələri olan düzən ərazilərdə məskunlaşmışdır.

Ümumiyyətlə, Borçalı mahalı ilə yanaşı, ətraf ərazilər özünün istər əhalisinin sosial təminatına və istərsə də torpağın məhsuldarlığına görə Tiflis quberniyasında ən qabaqcıl yerlərdən birini tutur. Sürətlə artan əhali (azərbaycanlılar – M.S.) ketdikcə əkinəyararlı torpaq sahələrində məskunlaşaraq əkin altında olan torpaqların sahəsini azaltmış olur. Əhali artdıqca yaşayış məntəqələri də artır. O da özlüyündə kənd təsərrüfatına yararlı torpaqların bir hissəsini əkin dövrüyyəsindən çıxardıb kənar edir.

XX əsrin əvvəllərində 200-ə yaxın Azərbaycan kəndi bir-biri ilə əlaqəni əsasən 5 aylıq yaylağa çıxma mərasimində və ya kənd təsərrüfatı yığımından sonrakı vaxtlar saxlamışlar. Bu da Borçalıdan kənar bölgələr də Azərbaycan icmasının fəaliyyətinin zəif olmasından irəli gəlirdi.

Mahalın bu üstünlüklərini dərk edən erməni, yunan, gürcü, rus-malakan, alman və s. azsaylı xalqlar tədricən Borçalıya və ətraf bölgələrə gəlib, torpaq icarəyə götürüb və yaxud torpaqları nağd pulla varlı sahibkarlardan alıb, özlərinə sığınacaq düzəldirlər.[36] Qeyri-millətdən olan imkanlı və varlı adamlar uzaqgörənlik edərək regionların münbit torpaqlarından icarəyə götürmüş, bir müddətdən sonra isə həmin torpaq sahələrinə sahib olmuşlar. Bunlardan knyaz Orbelianini, general Qabulovu (Axalsix türkləri), Məlikov və Baratovları göstərmək olar.

Azərbaycan türkləri tədricən qonşu xalqların əmək fəaliyyətinə nəzər salıb, ruslardan kələm, kartof becərməyi, alman koloniyalarından ikitəkərli, sonradan isə 4 təkərli fayton-arabalardan istifadə üsulunu, rus-malakanlardan arı saxlanılmasını, İsveç pendirinin hazırlanmasını və s. Məhsulların istehsalını öyrənmişlər. İsveç pendiri əsasən Başkeçid bölgəsində, əla şərabların istehsalı isə Bolnisi kəndində alman koloniyası tərəfindən inkişaf etdirilirdi. Dağlıq Zəlyə, Başkeçid bölgələrində və Ahılkələk regionunda kələm, kartof və yaz-yay aylarında arı saxlamaqla, heyvandarlıqda isə pendir hazırlamaqla məşğul olurdular. Azərbaycan türkləri tərəfindən bölgədə bostançılıq, heyvandarlıq, quşçuluq, bağçılıq qismən tərəvəzçilik və pambıqçılıq-taxılçılıqla da məşğul olmağa başladılar.

[36] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, том. VII, стр. 388.



Ümumiyyətlə, Azərbaycan türklərinin ən qədim təsərrüfat sahələri heyvandarlıq, əkinçilik, bağçılıq və bostançılıq olmuşdur. Nəticə etibarilə onu da qeyd etmək gərəkdir ki, adları çəkilən ərazilərdə istər əhali və yaşayış məntəqələri və istərsə də təsərrüfatın inkişafı və ərazi üzrə yerləşməsi son 150–200 ildə kökündən dəyişmişdir. Belə ki, Loru və Zəlyə vulkanik yaylasında, Başkeçid vulkanik dağlararası və dağüstü düzən, hamar sahələrdə təsərrüfat nəinki, əhalinin yerli tələbatını ödəmək, eyni zamanda ölkə miqyaslı tələbat baxımından da inkişaf etdirilmişdir.

Əhalinin milli tərkibi baxımından isə bu bölgələrdən, bir qayda olaraq rus malakanları, qaraçılar və kürdlər, erməni mənşəli əhali, yunanlar isə tamamilə köçmüşlər. Şübhəsiz, bunların yerlərinə qeyri-qanuni erməni və gürcü mənşəli svanları məskunlaşdırmışlar. Belə məqsədli yerdəyişmələr bu gün də davam edir.

**Torpaq fondu və ondan istifadə.** Bugünkü Qvemo Kartli (Şərqi Gürcüstan) regionunun ərazisi ətraf bölgələri ilə birlikdə, təxmini hesablamalara görə, 6940 kv.km-dir. Məlumat 1862-ci ilin dövlət torpaq dəftərində qeydiyyatdan keçmişdir. Qeyd olunmalıdır ki, digər qəza və mahallarla müqayisədə gec də olsa, Borçalı və digər ərazilərin torpaqlarının da plan-uçotu tərtib edilmişdir. Lakin torpaq və torpaq bölgüsü haqqında ən dəqiq və dolğun rəqəmlər faktiki olaraq 1 yanvar 1885-ci ilə aiddir. Lakin onu da deyək ki, bu rəqəmlər də səhvlərdən xali deyil.

170–200-il bundan öncə, bölgələrdə mülkədar, qolçomaq, xanlıq, bəylik və knyazlıq dövründə bu torpaqlardan istər icarə və istərsə də daimi (alqı-satqı yolu ilə) mənimsəməyə yol verilmiş, qeyri-qanuni, talançılıq və qərəzilik halları bu günə kimi ərazinin torpaqlarının ümumi cəmi haqqında tam və dəqiq rəqəmlər əldə olunmasına imkan vermir.

Hələ 150–200 il bundan öncə imkanlı adamların şəxsi torpaq sahələrini, knyaz ailələrinin bağ sahələrini erməni kilsə xadimləri öz vəsaitləri hesabına alıb xaricdə yaşayan ermənilərə bağışlamaları, əlbəttə, Borçalı və ətraf bölgələrin torpaqlarına nəzarət edilib qorunması, onlara eyni qulluq göstərilməsi kimi qayğılar kənarda qalmış, torpaqların uçotu aparılması sahəsində hərc-mərclik baş alıb getmişdi. Misal üçün: 1885-ci ilin məlumatına görə təkcə Borçalı qəzasının ərazisində istifadə olunan və olunmayan torpaqların quruluşu aşağıdakı kimi olmuşdur:

1. Plan-uçotu təsdiq edilməyən 96 bağ sahəsinin ərazisi ... 130 hektara yaxındır.
2. Plan-uçotu təsdiq edilmiş sənədi olan 74 bağ sahəsinin ərazisi (tam dəqiqləşdirilmiş şəkildə)... 230 hektara yaxındır.
3. Son vaxtlarda plan-uçotu təsdiq edilən 29 bağ sahəsinin ərazisi... 44 hektara yaxındır.
4. Dövlət tərəfindən təsdiq edilmiş 80 bağ sahəsinin ərazisi ... 123 hektar.
5. Qanunsuz istifadə olunan 1 bağ sahəsinin ərazisi ... 78 hektar.

Digər bölgələrdə isə cəmi 5 sahədə 371 hektar olmuşdur. Bundan başqa, 100-ə yaxın dövlət tabeliyində olan kəndlərin əhalisi əkinəyararlı torpaqlardan aşağıdakı qaydada istifadə etmişlər.

1. Suvarılan torpaq sahələri ... 954 hektar.
2. Əkinəyararlı suvarılmayan dəmyə sahələr ... 39 hektar.
3. Bağçılıq və tərəvəzçilik sahələri ... 435 hektar.



4. Malikanə torpaqları ... 648 hektar.
5. Otlaq və əkinəyararsız torpaq sahələri ...51 hektar.
6. Yararlı torpaq sahəsi ... 18,5 hektar.

Bundan başqa, Borçalı ilə yanaşı, sair bölgələrin ərazisinin müəyyən hissəsi şəxsi adamların ixtiyarında olub, onlar da həmin torpaqlardan öz mənafeyləri istiqamətində istifadə etmişlər. Yəni 116 kənd məntəqəsinin əhalisi 138,2 hektar sahədən istifadə etmişlər. Qaraçöp bölgəsi, Aleksadrsqilf, Yekaterinenfeld və Y.Yelizavetpol da (Tiflis qəzası) yerləşən alman koloniyaları tərəfindən meşə və çəmənliklər 80,1 hektar, qış və yay otaracaq (örüşlər) 50,0 hektar, digər sahələr isə cəmisi 2,4 hektar torpaq sahələri istifadə edilirdi. Qəzanın istifadədə olan torpaqlarından başqa (610 min ha), 335 min ha torpaq sahəsi isə hələlik istifadədən kənarda qalıb, heç bir dövlət müəssisələri tərəfindən istifadəyə cəlb edilməmişdir. Ümumiyyətlə, bütün istifadə olunan torpaq sahələrində təsərrüfatların aşağıdakı sahələri cəlb olunmuşdur:

**Taxılçılıq.** Borçalı qəzasında kənd təsərrüfatının quruluşunda, əsasən, qədim dövrlərdən bəri taxılçılıq, yemçilik və heyvandarlıq səmərəli sahə kimi inkişaf etmişdir. Qəzanın relyef şəraitinə uyğun onun düzən və dağətəyi bölgələrində quru subtropik (Borçalı düzənliyi), subtropik, Borçalı nümayəndəliyinin Xram, Borçalı-çay, Maşaver, Bənövşə, Pənbək çaylarının düzən sahələrə birləşən ərazisi ilə Yağılca təpəlik hissəsi və Lələvər dağlıq hissəsinin cənub-qərb ətəkləri arasında atmosfer çöküntülərinin bol düşdüyü sahələri daxildir. İori, Qabırlı çaylarının Azərbaycanla həmsərhəd ərazilərin-də Saqareco bölgəsinin Qaraçöp və Sərtiçala ərazilərində dəmyə biçənək və otlaq sahələrində yemçilik təsərrüfatı inkişaf etmişdir.

Əlverişli torpaq-iqlim şəraiti ərazidə yüksək məhsuldarlığı olan taxıl, arpa, darı və s. dənli bitkilərin becərilməsinə imkan verirdi.

Düzdür, bir müddət keçdikdən sonra Borçalının dağlıq Zəlyə və Başkeçid vulkanik yaylalarında da bu bitkilər becə-

rilməyə başlandı. Lakin istər məhsuldarlıq və istərsə də məhsulun keyfiyyəti Borçalı nahiyəsinə görə təxminən 50–60% aşağı olurdu. Zaqafqaziyada dəmiryolu çəkilənə kimi Borçalı mahalında taxıl bitkisini muzdlu kəndlilər, bir qayda olaraq bəylərdən, ağalardan və knyazlardan icarə götürdükləri torpaq sahələrini əkib-becərirdilər. Bu illərdə Tiflis şəhərinə taxıl və taxıl məhsulları Yelizavetpol və Bakı quberniyasına nisbətən Borçalıdan daha tez daxil olurdu. Ümumiyyətlə, Borçalı buğdasının qiyməti Tiflis bazarlarında digər ölkə və bölgələrdən gətirilən buğdanın qiymətindən 10–20 qəpik baha satılırdı. Borçalı buğdası qiymətdə yalnız Dürnük və Dağet (hər ikisi qonşu Ağbulaq rayonunda) buğdası ilə rəqabət apara bilirdi.

Hələ XVIII–XIX əsrlərdə bir çox mahal və ölkələrdə Borçalı buğdası və ya çörəyinin dadlı və keyfiyyətli olması haqqında çox qiymətli fikirlər söylənilirdi. London, Paris, Moskva, S.Peterburq, Tiflis, Vyana və s. şəhərlərdə keçirilən ümumdünya sərgilərində Borçalı buğdasının yağlı, iri və ətli olması barədə danışılar, yerli ağalar qızıl və gümüş mükafatlarına layiq görülərdi. Mahalda Borçalı buğdasından hazırlanan çörəyin yüksək keyfiyyətə malik olmasını aşağıdakı sözlər sübut edir: «Borçalı düzənliyinin buğda çörəyi çar süfrəsinə layiq çörəkdir: Loru nümayəndəliyinin çörəyi yalnız çobanlara yarayar, Zəlyə torpağının çörəyini isə düşmən başına vurmaq və itləri zəhərləmək olar». Gürcüstanın Saqareco, Laqodexi, Karel, Kaspi, Sərtçala, Telavi, Sığnaq və s. bölgələrinin heyvandarlıq məhsulları, o cümlədən yun, pendir, yağ və gön-dəri məhsulları Borçalının taxılı qədər şöhrət qazanmışdı.

Yuxarıda qeyd etdiyimiz kimi, Borçalı həm də özünün arpa əkini ilə də məşhurlaşmışdır. Əkin sahəsinin miqdarına görə Borçalıda ikinci yerdə arpaçılıq dururdu. Arpa əkininin artırılmasına bütün elat fikir verirdi. Bu məhsul, əsasən, qoşqu üçün istifadə olunan at, eşşək, öküz və s. heyvanların yem mənbəyinin əsasını təşkil edirdi. Arpanın toxumu kənar dövlətlərdən gətirilirdi. Loru və Zəlyə bölgələrində qara rəngli



arpa səpilərdi. Borçalı düzənliyində isə buğda kimi arpa da ağ rəngdə idi. Bu növ toxum yerli suvarma şəraitinə tam yararlıdır. Borçalıda arpa ilə yanaşı kuncut, qarabaşaq da əkilirdi. Bu bitkilərdən, əsasən, quşçuluqda və heyvandarlıqda yem əvəzi kimi istifadə olunurdu. Qarabaşaq Borçalının çay, kanal kənarlarında xırda sahələrdə əkilirdi.

Bu bitkilərdən başqa, Borçalı düzənliyində çəltikçilik (düyü) də yayılmışdır. Çəltik, məlumdur ki, həddindən artıq su sevən bitkidir. Borçalı bölgəsinin Alqet, Xram və Borçalı çaylarının sulu sahələrində əkilirdi. Ən geniş sahələr Alget-Xram arası ovalıqlarda yerləşirdi. Sonralar bu bitkinin əkin sahəsi tədricən azalmış, əvəzində pambıq bitkisinin sahəsi genişlənmişdir.

Mahalda ən qiymətli (taxıldan sonra) və sənaye təyinatlı pambıqla yanaşı, tütünçülük də inkişaf etdirilməyə başlandı. Kənd təsərrüfatının bu sahəsini yayan və inkişaf etdirən knyaz Orbeliani, baron Kuçenbax və iki nəfər azəri türklərinin içərisindən çıxan ağa olmuşdu. Maraqlıdır ki, 1850–1882-ci illərdə Borçalı ilə yanaşı, ətraf bölgələrdə kənd təsərrüfatı məhsullarının şöhrəti bütün Avrasiya materikinə yayılmışdı. 1850-ci ildə Tiflisdə keçirilən kənd təsərrüfatı məhsullarına baxış sərgisində knyaz Orbeliani «Misir» adlı pambıq növündən Borçalıda əkdirmiş və yüksək kağız məhsulu almış, əla keyfiyyətli türk tütün növünə, zərif yun istehsalına, «arnaut» və «muskat» şərab növünə görə bir neçə medal və ordenə layiq görülmüşdü. Elə həmin il knyaz Orbeliani S.Peterburqda keçirilən sərgidə keyfiyyətli pambıq-kağız xammalına görə mükafatlandırılmışdı. 1851-ci ildə ümumdünya London sərgisində yerli ağalardan biri ərazidə əla tütün (türk) növünün yetişdirməsinə görə qızıl mükafata layiq görülmüşdü. Ən maraqlısı isə 1863-cü ildə baron Kuçenbaxa verilən mükafat və medal olmuşdur.

O, bu medala İsveçrə ilə yerli Azərbaycan cinsli inək südündən alınan pendir, kərəyağı və s. məhsulların istehsalına görə layiq görülmüşdü. Qaraçöp zonasının «motal» və «cılğı», Sarvan məntəqəsinin «cılğı», «quda», pendir növləri öz

saxlama və uzunmüddətli istifadəsinə görə heç də Kuçenbaxın məhsullarından geri qalmırdı. Ümumiyyətlə, o, 32 il ərzində Borçalının sənaye və kənt təsərrüfatı məhsullarından 50-yə yaxın dünya əhəmiyyətli məhsul hazırlamış və sərgilərdə mükafatlandırılmışdır. Borçalı məhsullarının dünya şöhrəti yerli knyaz və ağaları həvəsləndirməyə, kənardan yeni texnika, maşın, avadanlıq və s. gətirmələrinə səbəb olmuşdur. Varlanmış Kalinino (Voronsovka), Cəlaloğlu və s. bölgələrin malakanları avropadan 90-a yaxın yer şumlayan kotan gətirmişlər. Bundan başqa, 2 ədəd yol düzəldən, 4 ədəd otçalan maşın-aqreqat, 3 üyüdücü və 3 taxıl biçən maşın kombayın əldə etmişdilər.

Məlumdur ki, bu kənd təsərrüfatı texnikasının istifadəsindən azəri türkləri tam kənarda qalmışdılar. Texniki avadanlıqlardan lazımi dərəcədə istifadə etməyə onlara etibar etmirdilər.

**Heyvandarlıq**. Borçalı mahalının ərazisinin 2/3 hissəsi heyvandarlıq təsərrüfatının inkişafı üçün tam yararlı hesab olunur. Sıldırım qayalıq və dağlığın, alp və subalp çəmənliyinin geniş yayıldığı Zəlyə-Barmaqsız və Qomeret-Başkeçid bölgələri, demək olar ki, təsərrüfatın bu sahəsi üçün tam yararlıdır.

İnzibati dövlət sənədlərinin verdiyi məlumata görə mahalda 1885-ci ildə heyvandarlıq təsərrüfatının vəziyyəti aşağıdakı kimi olmuşdur:

1. İribuynuzlu mal-qara 167 min baş;
2. Xırdabuynuzlu heyvanlar 469 min baş;
3. At 18 min baş;
4. Camış və eşşəklər 3 min baş;
5. Donuz 14 min baş;

Cəmi: 671 min baş

Bu illərdə mahal və ətraf bölgələrdə dövlət qeydiyyatından keçmiş 116 yaşayış məntəqəsində 150 minə yaxın əhali yaşayırdı. Hər bir nəfərə orta hesabla 1,3 baş qaramal,



3,1 baş qoyun-keçi, 1,3 baş at və öküz düşürdü. Əlbəttə, bu göstərici o illər üçün normal hesab olunurdu. Ümumiyyətlə, heyvandarlıq təsərrüfatı mahalın ayrı-ayrı nümayəndəliyində qeyri-bərabər olması ilə yanaşı, həm də əhalinin tələbatını tam ödəmirdi. Lakin Muxran (Qabal), Qaraçöp (Saqareco) və Muğanlı (Sərtçala) bölgələrində qoyun-keçi və qoşqu üçün at, eşşək daha çox olmuşdur. Borçalının ətraf bölgələrində təxminən 700 minə yaxın iri və xırdabuynuzlu heyvan olmuşdur.

*Cədvəl № 3*

| | Nümayəndəliklər | | Əhalisi | İri və xırdabuynuzlu heyvan, baş | | (məşğul olanlar) | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| | | Ailə | Qadın və kişi | Qoşqu üçün istif. hey. | Südlük istiqamətli | Xırda buynuzlular | At və öküz, ulaq | Eşşəklər | Donuz | Cəmi heyvan |
| 1. | Trialeti | 2687 | 22829 | 12356 | 30448 | 71136 | 3184 | 380 | 2276 | 119780 |
| 2. | Loru | 2052 | 17161 | 7470 | 8240 | 26027 | 1784 | 626 | 4803 | 48950 |
| 3. | Borçalı | 588 | 5086 | 1957 | 2423 | 6523 | 332 | 208 | 1105 | 12598 |

Borçalının heyvandarlığı ilə bağlı onu qeyd etmək lazımdır ki, bütün kəndlilərin özlərinin şəxsi mal-qarası və qoyun-keçisi, at və eşşəkləri olmuşdur. Onu da vurğulamaq lazımdır ki, 150–200 il bundan öncə Gürcüstan ərazisində bütün təsərrüfat sahələrinin qeydiyyatı, bir qayda olaraq mahallar, nümayəndəliklər və quberniyalar üzrə aparılırdı. Bəzi statistik rəqəmlərin çıxarışı ayrı-ayrı məntəqələr üzrə çətinlik törədir. Ona görə də Borçalı mahalı istisna idi. Cədvəllər onların sayının çox aydın şəkildə nümayiş etdirir. Borçalı ma-

halının dövlət torpaqlarında məskunlaşan kəndlilərdə hər nəfərə düşən mal-qara qeyri-dövlət torpaqlarında məskunlaşan kəndli təsərrüfatından sayca xeyli aşağı olmuşdur. Bu nisbət əsasən ərazidə yaşayan tərəkəmələr (Azərbaycan türkləri) hesabına olmuşdur. Belə ki, hər bir Azərbaycan türkünün həyətində ən azı 3–4 qoyun və 1–2 qaramal, öküz və atların sayı da o birilərindən çox idi.

Borçalı mahalının iribuynuzlu mal-qarası yüksək məhsuldarlığı ilə məşhurlaşmış «Tərəkəmə» cinsli heyvanlardan ibarətdir. Düzdür, mahalın Loru və dağlıq Trialet bölgələrində də sağlam heyvanlar cins etibarilə yüksək məhsuldarlığa malikdir. Bu yerlərdə Rusiyadan gətirilmiş südlük-ətlik istiqamətli heyvanlar və qoşqu kimi (araba və s.) işlədilən atlar üstünlük təşkil edir.

Ümumiyyətlə, XVIII əsrdən başlayaraq XX əsrin 30-cu illərinə qədər Borçalı nümayəndəliyində imkanlı ağa və bəylərin çoxluq təşkil etməsi ərazidə heyvandarlıq təsərrüfatının inkişafına, iri və xırdabuynuzlu heyvanların sayının artmasına təkan vermişdir.

Ad-san qazanmış ağalardan Hacıxəlil ağanı, Halay bəyi, Səməd ağanı, Emin ağanı, İsrafil ağanı, Alxaz, Məmmədxan, Gülməmməd və bir sıra başqa imkanlı adamları misal göstərmək olar. Adları çəkilən bu ağa və bəylərin hərəsinin on minlərlə baş heyvan və davarları olmuş, özlərinin şəxsi qışlaq və yaylaqları ilə knyazların nəzər-diqqətini cəlb etmişdilər.

Bu baxımdan Qaraçöp nahiyəsinin imkanlı adamları və ağalarının 10 minlərlə, bəzi halda 50 min başa qədər qoyun-keçi sürüləri diqqəti cəlb edirdi. Ona görə də bu bölgələrin əhalisi, bir qayda olaraq yalnız təsərrüfatın heyvandarlıq sahələri üzrə ixtisaslaşmışdı. Əkin-biçin təsərrüfatı, demək olar ki, yox dərəcəsində idi. Onların iki yerdə yaylaqları olmuşdu: Başkeçid və Ahılkələkin Abul dağlıq ətəkləri.

Borçalı və ətraf bölgələrdə XVIII əsrdən XX əsrin əvvəllərinə kimi həyətyanı tərəvəz-bostançılq və bağçılıq təsərrüfatı çox zəif inkişaf etmişdi. 116 yaşayış məntəqəsinin ma-



lik olduğu 106 min ha sahəsindən yalnız 435 ha-da təsərrüfatın bu sahələri inkişaf etdirilirdi. Mahal nümayəndəliklərinin təsərrüfatın bu sahələrindən istifadə göstəriciləri aşağıdakı kimidir:

Trialet .............. 11 ha
Loru .................. 318 ha
Borçalı .............. 106 ha

Ümumiyyətlə, bostan, tərəvəz və bağçılıq kimi təsərrüfatların inkişafı iqlim şəraitindən asılıdır. Bu baxımdan mahalın dağlıq bölgələrindən olan Trialeti nümayəndəliyinin bəxti gətirməyib. Cəmi 11 ha əkin sahəsi vardır.

Borçalıda tütünçülük təsərrüfatı çox qədim sahə olmayıb, onun inkişaf etdirilməsinə də fikir verilməyib. Tütün əvvəllər Loru nümayəndəliyinin Kurtan kəndi və Borçalı çayı sahillərində çox geniş sahəyə malik olmayan ada şəkilli ərazilərdə əkilirdi. Sonradan bu əkin sahəsi daha da azaldıldı. Adamlar şəxsi tələbatlarını ödəmək məqsədilə ancaq öz həyətyanı sahələrində becərməyə başladılar. Tütün çox əməktutumlu və xüsusi qayğı tələb edən bitkidir. Tütünçülüklə daha sonra Laqodexi və Saqareco bölgələrinin azərbaycanlılar yaşayan ərazilərində də məşğul olunmağa başlandı.

Borçalıda, əsasən, Türkiyədən gətirilmiş Trabzon və Samsun növləri əkilirdi. Borçalıda tütün Lorudan başqa, Borçalı nümayəndəliyin 11 kəndində becərilirdi. Borçalıda daha çox «madanska» növü üstünlük təşkil edirdi. Bu tütün yerli növlə türk növünün birləşməsindən əmələ gələn çox əla növdür.

Borçalı mahalında təsərrüfatın bu sahələrindən başqa; quşçuluq, arıçılıq, ipəkçilik və qustar sənaye (ev şəraitində) sahələri də çox geniş inkişaf tapmışdı.

**Borçalıda və ətraf bölgələrdə kustar sənaye sahəsi.** İlin uzun keçən qış və payız aylarında kəndlilərin asudə vaxtı çoxalırdı. Mahalın Zəlyə bölgəsində Tamala kəndinin (qaraçılar) kişiləri, bir qayda olaraq qonşu rayonlara və şəhərlərə

gedib aprel-may aylarına kimi müxtəlif sahələrdə, o cümlədən xırda dəmirçixanalarda hazırlanan məişət avadanlıqları, kənd təsərrüfatı (yaba, bel, xırda kotan, at nalı və s.) alətləri satardılar. Qadınları isə ev şəraitində müxtəlif geyim əşyaları hazırlamaq və fala baxmaqla gündəlik həyatlarını təmin edirdilər. Qaraçıların, demək olar ki, 90%-i at oğurluğu ilə məşğul olmaqda hələ qədimdən ad çıxarmışdılar. Bu bölgələrin yunan və erməni əhalisi, qaraçılardan fərqli olaraq, bu aylarda ev, mal-qara üçün tövlə tikir, hasar (çəpər) və yol çəkir, stol, stul, müxtəlif ölçülü tərəcə və sandıqlar, kənd təsərrüfatı alətləri, mətbəx avadanlığı istehsalı ilə məşğul olurdular. Yunanlar, adətən, Borçalı nümayəndiliyi, 3–4 ay (iyundan avqust ayının axırlarına qədər) taxıl, buğda, qarğıdalı və ot sahələrini çalar, əvəzində büğda, arpa və s. məhsullar alardılar. Bundan başqa, erməni, yunan və qismən də rus malakanları azəri türklərinin yığcam məskunlaşdığı kəndlərdə ev tikmək, qəbir daşları və s. işlərlə məşğul olurdular.

Erməni, yunan qadınları isə, əsasən, ev şəraitində yundan, pambıq və kətandan corab, əlcək, palaz və s. geyim əşyaları toxuyub bazarlarda satardılar. Türk qadınları (əsasən tərəkəmələr) yundan xalça, kilim, xurcun, farmaş və yastıq, kişilər isə cəhrə, nehrə və s. cihaz və avadanlıqlar hazırlayırdılar. Qəzanın Sarvan, Çoruk Qəmərli, Şüləver, Saraçlı və s. məntəqələrində kənd təsərrüfatı alətləri və avadanlıqları hazırlayan dəmirçixanalar fəaliyyət göstərirdi. Qab-qacaq lehimləmək üçün qalayçıxanalar da geniş yayılmışdı. Bu qədim sənətkarlıq ocaqları Borçalıda XX əsrin 60-cı illərinə kimi fəaliyyət göstərdi. Hazırda qədim peşə sahələri qəzanın yalnız ucqar, əlçatmaz məntəqələrində qalıbdır. Şübhəsiz, belə qədim və gərəkli sahələri inkişaf etdirmək çox vacibdir. Çünki bu xırda kustar sənət sahələri xalqımızın ulu keçmişindən xəbər verir, bizləri qədim dövrlərə bağlayan körpü rolunu oynayır.

Ümumiyyətlə, bu bölgələrdə Azərbaycan icması forma və məzmunca zəif olsa da, mahiyyət və ideya baxımından da dar çərçivədə fəaliyyət göstərirdi. Lakin XX əsrin ortalarından etibarən icmalar 89-a yaxın iri və xırda məntəqə arasında fəaliyyətini gücləndirməyə başladı. Onun genişlənməsinə təsir göstərən səbəblərdən biri inkişaf etmiş təsərrüfat sahələrinin genişlənməsi, ölkədə biznesin inkişafı və dədə-baba qışlaq və yaylaqlarıdır.



## § 3. Borçalıda maarifin inkişaf mərhələləri

Borçalıda maarifin inkişafı onun mənsub olduğu türk dünyası və türkçülüyün tarixi, mədəniyyəti ilə üzvi surətdə bağlıdır. Mahalda bu problemi türk dünyasının sivilizasiyasından ayrılıqda öyrənmək qeyri-mümkündür. Tarixi təkamüldə coğrafi ərazi baxımından hansı ictimai-siyasi qurumun, dövlətin tərkibinə daxil olmasından asılı olmayaraq, Borçalı Türkiyə və Azərbaycan dövlətlərinin keçid astanasında yerləşir. Daha dəqiq desək, Borçalı hər iki dövlət üçün hərbi strateji əhəmiyyətə malik bir dəhliz rolunu oynayır. Məhz elə öz təbii-coğrafi mövqe və imkanına görə Borçalı böyük bir xalqın iki dövlətdə yaratmış olduğu mədəni-maarif dünyasının mənəvi incilərini özündə əks etdirmişdir.

Şübhəsiz, Borçalı maarifini təkcə Azərbaycan və Türkiyə maarifinin mexaniki sintezi kimi götürmək düzgün olmaz. Onun özünəməxsus çalarları, əlamətləri vardır. Bunlara məcmu halında baxıldıqda mahalın maarifi haqqında tam təsəvvür yaranmış olur.

Borçalıda maarifin inkişafı, özünəməxsusluğu onun təbii-iqtisadi imkanlarından, əhalinin əmək vərdişlərindən, sosial bazasının əsaslarından, qeyri xalqlarla təmasda olmasından irəli gəlir.

Borçalının vahid bir ərazi kimi Rusiya ilə əlaqədə olması, qədim ipək yolu və Orta Şərq dövlətlərinin ticarət yolu üstündə yerləşməsi, onlarla qarşılıqlı ünsiyyətdə olması, Asiya, Avropa tacir və səyyahlarının mahala daim səfərlər etməsi, yerli əhali üçün çox zəruri elmi-mədəni və maarif-təhsil

mübadiləsi imkanı yaratmışdır. Elə bunun nəticəsidir ki, ulu babalarımız zaman-zaman yaranmış yazılı abidələrini və ulu tariximizi qismən də olsa bu günədək yaşada bilmişlər.

Beləliklə, Borçalı dünya sivilizasiyasından, maarifin inkişafında mütərəqqi sayılan ideyalardan kənarda qalmamışdır. Borçalıda maarif ocaqlarının inkişafını şərti olaraq 5 mərhələyə bölmək olar.

Birinci mərhələ: Miladdan VII əsr öncə və VIII əsrə qədər.

İkinci mərhələ: VIII əsrdən XVIII əsrə qədər.

Üçüncü mərhələ: XVIII əsrdən 1917-ci ilə qədər.

Dördüncü inkişaf mərhələsi: 1917–1920-ci illərdən 1988-ci illərə qədərki dövr.

Beşinci mərhələ: 1988-ci ildən bu günə qədərki dövr.

Göründüyü kimi, bu mərhələlərin hər biri uzun tarixi dövrü əhatə edir. Dövrlərin hər birini, hərəsinin inkişaf xüsusiyyətinə görə bir neçə yarımdövrə ayırmaq olar. Ümumiyyətlə, Borçalı türk tayfaları (bizim əsrə qədər) bu məmləkətin aborigen xalqı olduğu üçün birinci mərhələni aşağıdakı yarımdövrlərə ayıra bilərik:

a) ən qədim heyvandarlıq və əkinçiliyin meydana gəlməsi yarımdövrü;

b) mədəni inkişaf təsərrüfatçılığına qədəm qoyulması və islam dininin yayılmasına qədərki yarımdövr.

Borçalı türklərinin ibtidai icma dövründən tədricən feodalizmə keçməsi prosesi tarixi zəruriyyət idi. İnsanlar təbiəti, ətraf mühütdə baş verən hadisələri, qanunauyğunluqları daha ətraflı öyrənməyə ehtiyac duymuşlar. Bu ehtiyac, bir tərəfdən, daha məhsuldar təsərrüfatçılıq yaratmaq zəruriyyətindən irəli gəlirdisə, digər tərəfdən, daha dözümlü, sağlam, qoçaq övladlar boya-başa çatdırmaq qayğısından doğmuşdur. Bunun bir səbəbi də o idi ki, Borçalıda quldarlıq dövrü olmamışdır. Borçalının türk qövmləri və qolları bir-birini əzmək, qul halına salmaq psixologiyasından uzaq olublar. Bu xalqın əsas meyarı, amalı yaxşı nəsil yetişdirmək, nəsli artırıb inkişaf etdirmək və onları qorumaq olub.



Türk dünyasının digər bölgələrində olduğu kimi, Borçalıda da maarif-təhsilin ilk dövrləri fərdiliyə əsaslanmış, kütləvilik olmamışdır. Təlimin təşkilat forması fərdi və qrup (bir nəslin, tayfanın, məhəllənin və s. uşaqlarının bir yerə toplanması əsasında) halında olmuşdur. Əlbəttə, bu hal sonrakı mərhələlərdə də saxlanmışdır.

Təlim-tərbiyə metodları sırasında nümunə, inandırmaq, əməli iş, təlimat ön planda durub.

Təlim-tərbiyənin məzmunu, əsasən, təbiət nemətlərindən istifadə edərək nəsli yaşatmaq, təbiətin qanunlarına uyğunlaşmaq, davranış qaydalarını öyrətmək olmuşdur. Bu dövrdə xüsusi təhsil müəssisələrinin fəaliyyət göstərməsi barədə əlimizdə əsaslı faktlar yoxdur. Bununla belə, inkar olunmaz həqiqət belədir ki, oğlanların təlim-tərbiyəsi ilə sistematik olaraq ata, baba, böyük qardaş, tayfa və icma başçıları, qızlarla isə ana, nənə, böyük bacı, icma və tayfa ağbirçəkləri məşğul olmuşlar.

Borçalının təbii şəraitinin rəngarəngliyi, müxtəlif landşaft formalarının olması əhalinin tarixən torpağa bağlılığını, bol nemətlər yaratmasını şərtləndirmişdir. Ərazinin çox hissəsinin dağlıq və dağətəyi zonadan ibarət olmasına baxmayaraq, bu yerlərdə tarix boyu oturaq, məhsuldar kəndli təsərrüfatı və fəsli-köçəri (yaylaq və qışlaq) aran-təsərrüfat sahələri yaranmışdır.

Borçalının fauna və florası çox zəngindir. Türklərin ta qədimdən bu eldə, obada daimi yurd-yuva salmasına elə bu zənginlik səbəb olmuşdur. İnsanlar ilboyu təbiətin hazır nemətləri ilə təmin oluna bilmişlər. Onlar ev heyvanları, ev quşları saxlamış, vəhşi heyvanları, çöl quşlarını ovlamış, bu yolla qida əldə etmişlər. Son dərəcə zəngin bitki örtüyündən, onun bar verən meyvə ağaclarından da qida mənbəyi kimi istifadə olunmuşdur. Böyüyən və inkişaf edən gənc nəslin təlim-tərbiyəsinin məzmununu da, əsasən, belə məşğulluq forması təşkil edirdi. Uşaqlara ov alətləri və ov qayda-qanunları öy-

rədilirdi. On iki-on üç yaşına çatmış oğlanlar böyüklərlə birlikdə ova, cıdır meydanlarına aparılır, onlara heyvan və quşların ovlama üsulları əyani surətdə öyrədilirdi. Nəticədə gənclər təcrübəli ata-babalarının, böyük qardaşlarının ustalığını izləyir, onlardan mərdlik, qorxmazlıq, əməyə bağlılıq əxz edirdilər. Bölgənin Sadaqlı (Sadaxlı) kəndi, Ləlvər, Bavakər dağlarının və Yağılca dağlıq massivinin ətəklərindəki meşələrdə ovetməni misal göstərmək olar.

Qızların əmək fəaliyyəti iki istiqamətə yönəldilirdi: meyvə və bitki toplamaq, evdarlıqla məşğul olmaq.

Oğlan və qızların ailə həyatına hazırlanmalarına xüsusi diqqət yetirilirdi. Ailə qurmağa çox ciddi yanaşılırdı. Mümkün qədər bir-birini yaxşı tanıyan ailələrlə qohumluğa üstünlük verilirdi. Evlənmə yalnız hər iki tərəfin ailə, tayfa başçılarının razılığı ilə həyata keçirilirdi. Böyüklərə hörmət, ailə üzvlərinə və qohumlara sədaqət uşaqların və gənclərin tərbiyəsinin əsasını təşkil edirdi.

Təbiətdə baş verən hadisələri müşahidə etmək və əməli fəaliyyətdə təbiət amillərini nəzərə almaq gənc nəslin təhsilində xüsusi yer tuturdu. Adamlar arasında münasibətin təmizliyinə daha çox diqqət yetirilirdi.

Düzlük və doğruçuluq, xeyirxahlıq və paklıq, igidlik və mətinlik tərbiyəsi bütün əsrlər boyu Borçalı türklərinin tərbiyə ənənəsində yaşadılmışdır. Heyvandarlığın və əkinçiliyin inkişafı Borçalı türklərinin həyatında, gənclərin təlim-tərbiyəsində yeni istiqamətlərin yaranmasına səbəb olmuşdur. Bölgə qızlarının təsərrüfatın heyvandarlıq sahəsilə məşğul-luğu, onlara Türkiyədə yaşayıb-yaradan soydaşlarından və bölgələrdə tərəkəmə – qarapapaq türklərin köçəri həyat tərzindən keçmişdi.

Qaramalın, qoyunçuluğun, atçılığın və arıçılığın geniş yayılması Borçalıda gənc nəslin nümayəndələrindən daha məsuliyyətli olmağı tələb edirdi. Odur ki, uşaq və gənclərin bu sahələrdə əmək fəaliyyətinə hazırlanmalarına ehtiyac duyulurdu.



Çovdar, buğda, arpa, qabılca əkini, dəmirçilik, dülgərlik, bənnalıq və nalbəndlik sənətkarlığın inkişafına güclü təkan verirdi. Aran zonalarında bostançılıq və bağçılıq, tütünçülük bir qədər sonra pambıqçılıq, 1930-cu illərdən isə üzümçülük üzrə peşəkar mütəxəssislər yetişdirmək tələbini həyat özü irəli sürdü. Qarğıdalı, kartof, kələm, lobya (paxla), 1950-ci illərdən isə pomidor, xiyar və müxtəlif göyərtilər əkib becərmək əsas məşğuliyyətə çevrildi. Heyvandarlıqda və əkinçilikdə oğlanlarla qızların, ümumiyyətlə, kişi və qadınların arasında ciddi əmək bölgüsü yaradılmışdı. Heyvanları otarmaq, qışda tövlə şəraitində bəsləmək, yun qırxımı, adətən, kişilərin, inək sağmaq, qulluq etmək, südün emalı və s. qadınların üzərinə düşürdü. Yunun yuyulması və daranması, əyrilməsi, xalça-palaz, kilim və s. əşyaların bəzək şeylərinin hazırlanması işlərinə qadınlar baxırdılar.

Sınıqçılıq, təbiblik və nisbətən dulusçuluq Borçalıda xüsusi peşə kimi inkişaf etdirilmişdir. Müalicələr əsasən təbii bitkilər və onların kökləri, çiçəkləri, heyvan piyi, bal və s. Məmulatlarla aparılırdı. Bu sahədə qazanılan təcrübə, ənənə nəsildən-nəslə ötürülürdü.

VIII əsrin ortalarında Borçalı bölgəsində islam dini yayılmağa başladı. Bu işdə ərəblər, Türkiyə türkləri, İran və Azərbaycanın din xadimləri fəal iştirak etmişlər.

İslam dininin borçalılar tərəfindən qəbulu inkişafda olan nəslin təlim-tərbiyə işinin təşkilində əsaslı dəyişiklər yaratdı. Xüsusi istedada malik olan oğlanlar Türkiyə, İraq, İran, Səudiyyə Ərəbistanı, Azərbaycan və digər Şərq ölkələrinə dini təhsil almağa göndərilirdilər. Kənd yaşayış məntəqələrində minarələri məscidlər tikilir, oğlanlar və qızlar dini qayda-qanunu öyrənməyə cəlb olunurdular. Tərbiyədə tamamilə yeni istiqamət meydana gəlirdi. Şəriətlə yanaşı, nucum elmləri, ibtidai riyaziyyat, təbiət elmləri, astronomiya, coğrafiya, tarix, yerli istehsalat sahələri üzrə peşələr öyrədilməyə başlanırdı.

Gürcü xalqı ilə Borçalı türklərinin qədimdən yaranmış işgüzar əlaqələri orta əsrlərdə daha da dərinləşmişdir. Hər iki xalqın iqtisadi əlaqələrilə yanaşı, mədəni və maarif əlaqələrinin inkişafının zəngin tarixi təcrübəsi var. Ayrı-ayrı gürcü və türk ailələri, nəsilləri arasında yaranan dostluq, səmimiyyət o qədər sağlam olub ki, hörmət və sadiqlik əlaməti kimi övladlarına bir-birinin uşaqlarının adlarını qoyublar. Bu əlamətlər indinin özündə də yaşamaqdadır. Elə türk və gürcü nəsilləri olmuş ki, onların həqiqi dostluq əlaqəsinin ən azı 500 illik tarixi vardır.

Bizcə, iki xalqın həqiqi dostluğu o zaman mümkün olar ki, bu xalqları təmsil edən ayrı-ayrı ailələr arasında səmimi mehribançılıq əlaqələri mövcud olsun. Təəssüflə qeyd etməliyik ki, əsrlərlə bir yerdə, bir-birinin içərisində yaşamalarına baxmayaraq, bu gün bu iki xalqın dostluğuna zərbə vuranlar tapılmışdır. Bunun səbəbini ictimai-siyasi qurumların ideologiyasının və milli siyasətin naqisliyində, həmçinin müxtəlif dinlərə mənsubiyyətdə görürük. Bir ərazidə yaşayan xalqlar arasında qarşıdurma yaradanlar heç vaxt bu xalqların özləri olmayıb. Bu fəlakət həmişə siyasətçi və din xadimlərindən gəlib. Borçalının tarixi keçmişində bu fikri sübuta yetirən onlarla faktlar söyləmək olar. Məhəmməd şah Qacarın Gürcüstana yürüşü, gürcü knyaz və xanlıqları ilə Borçalı sultanlığı (1880) arasındakı münasibətlər, eləcə də son 15–20 ilin hadisələri bunu təsdiq edir. Buradan aydın olur ki, son dərəcə zəhmətkeş, səxavət və ağayanalıq mədəniyyətini yüksək tutan borçalı türklərinin öz övladlarına millətlərarası xeyirxah münasibətlər aşılamaq cəhdi də dinc yaşamaq arzusundan yaranmış tərbiyə ənənəsidir. Dinc və mehriban qonşuluq şəraitində yaşayıb-yaratmaq kimi müqəddəs ideya birliyi ənənəsini borçalı türkləri bu gün də əziz tutur, nəsildən-nəslə ötürüb, yaşadırlar.

Rusiya ilə Gürcüstan arasındakı Georgiyevski müqaviləsi, Türkiyəyə qarşı bunların birgə müharibəsi Borçalı türklərinə münasibəti kəskin surətdə pisləşməyə doğru yönəltdi. XIX əsrin əvvəllərindən başlayaraq Borçalıya rusların (duxobor və sektantlar) və Türkiyə ermənilərinin kütləvi miqrasiyası başlandı. Türk kəndlərinə məxsus ən məhsuldar əkin sahələri sorğusuz-sualsız gəlmə ruslara və ermənilərə verildi. Axalsıx, Ahılkələk, Marneuli (Borçalı), Başkeçid, Ço-ruk-Qəmərli (Bolnis) və Qarayazı (Qardabani) inzibati ra-yonlarının ərazilərində verilən torpaqları buna misal göstərə bilərik. Bu ərazilərdə yeni kənd və qəsəbələr salınıb onların ixtiyarına verildi. Əfsuslar olsun ki, belə hallar bu gün də davam edir, gürcü xalqının bəzi nümayəndələri tərəfindən Marneuli, Tetri Skaro (Ağbulaq), Dmanisi (Başkeçid), Bol-nisi və Qardabani (indiki Qarayazı) və s. ərazilərdə sürətlə binalar tikilib svanlara (gürcülərə) verilir. Bunlarla yanaşı, bərəkətli Borçalı və s. torpaqlarında xeyli yunan və almanlar da yerləşdirildi (Zəlyə-Barmaqsız, Ağbulaq, Çoruk-Qəmərli, Baş-keçid və Sarvan bölgələrində). Beləliklə, əhalinin milli tərkibi, eləcə də islam və xristian dininə tapınan insanların say nisbəti xeyli dəyişdi, faiz üstünlüyü ikincilərin xeyrinə oldu. Əgər XIX əsrin əvvəllərinə qədər Borçalı və ətraf bölgələrin əhalisinin 95%-ni türk və türk mənşəli xalqlar təşkil edirdisə, XIX əsrin axırları və XX əsrin əvvəllərində bu, 10–15% aşağı enmişdir. Beləliklə, ruslar, ermənilər və almanlar öz dillərində məktəb açmağa nail oldular. Yunanlar rus dilində, ermənilər isə öz dillərində oxumağa başladılar. Qəribə burasıdır ki, türk balalarının rus və gürcü məktəblərində oxumasına çox böyük yer verilirdi. Bizcə, bu da aydın idi.

Borçalıya sonradan dəvət edilmiş almanlar üçün bu ərazilər ikinci (ermənilər, yunanlar və ruslar üçün isə üçüncü vətən) olmasına baxmayaraq, ərazidə Azərbaycan türklərinin torpaqlarından onlara "pay" verildi, üstəlik, hakim dairələr müsəlmanları sıxışdırmaq üçün gəlmələrə çox böyük dövlət imtiyazları verdilər. Onlar torpaq vergisindən, müxtəlif formalı bac-xəracdan tamamilə azad edildilər. Mahalda onlar knyaz ailəsindən sonra ikinci pillədə dayanırdılar. Əlbəttə, bu imtiyazlar istər aborigen xalqa, istərsə də gəlmə qrupa və onların təlim-tərbiyəsinə təsir etməyə bilməzdi.

Lakin təbii, obyektiv proseslərin qarşısını almaq mümkünsüzdür. Əhalinin milli tərkibinin dəyişməsi, eyni zamanda xalqların bir-birlərinin təsərrüfat fəaliyyəti və mədəniyyəti ilə yaxından tanışlığına şərait yaratdı. Onların hər biri üçün faydalı sayıla bilən qarşılıqlı təsirlər də özünü göstərdi. Bunlarla yanaşı, Borçalıda tarixən yaranmış sağlam milli adət-ənənələrin təbii axarına maneələr də artmağa başladı. O cümlədən ata-oğul, qız-ana, ər-arvad, qardaş-bacı və qohumluq, dostluq münasibətlərində türk dünyasına yad olan ünsürlər tədricən xalqın mənəviyyatına daxil oldu. Milli zəmində vaxtaşırı toqquşmalara da yol verilirdi. Milli ayrı-seçkiliyin yaranmasında xristian din xadimləri, ayağına yer etmiş ermənilər və ruslar bu işdə daha çox fəallıq göstərirdilər. Bu iki millətin təsiri ilə yerli gürcülərdə şovinist ideyalar baş qaldırır, milli ədavət toxumu səpilirdi. Nəticədə, türklərin sıxışdırılmasına meyil güclənirdi.

Göstərilən dövrdə Borçalı və ətraf bölgələrində rus-türk məktəbləri yaradılmışdı. Maraqlıdır ki, 10–15 il ərzində Borçalıya köçürülmüş rusların, ermənilərin, yunanların, almanların, svanların, demək olar ki, hamısı türk dilini öyrənmişdilər. Bu proses millətlərin yerli əhali ilə hərtərəfli əlaqələr yaratmaq cəhdinin nəticəsində baş vermişdi. Bütün kəndlər, çaylar, meşə və dağlar, dərələr, düzənliklər türk adlı olduğundan onları öyrənməklə lüğət fondlarını qısa vaxtda zənginləşdirə bilmişdilər. Təəssüf ki, adların, demək olar ki, hamısı indi dəyişdirilib, tamam özgələşdirilib.

Keçən yüzillikdə və yaşadığımız əsrin ikinci yarısında erməni-rus dueti Borçalı türklərinin təlim-tərbiyə sistemində də mənfi meyillərin güclənməsinə təsir etmişdir. 1910–1920-ci illər arasında ermənilər Borçalı türklərinə, eləcə də gürcülərə qarşı çıxmış, çoxlu günahsız qanlar axıtmışlar. Rus imperiyası qırmızı Sovet imperiyası ilə əvəz olunandan sonra bu ərazilərdə məktəb şəbəkələri genişləndi. Kəndlərdə məktəblər açıldı. Bu ilk baxımdan mütərəqqi hadisə, sivilizasiyaya doğru əsaslı addım sayıla bilərdi.



Bununla yanaşı, qırmızı imperiya Borçalıya böyük bəlalar da gətirdi. Bunların ən acınacaqlısı 1920-22-ci illərdə Borçalının parçalanması oldu. Onun ərazisinin böyük bir (6 rayon) hissəsi sonradan yaradılmış "Ermənistan" deyilən respublikaya verildi. Bir hissəsi Ağbulaq, Ahılkələk və Zəlyə-Barmaqsız rayonlarına birləşdirildi. Ciddi fəlakətlərdən biri də Ahısxa türkləri-Aspinza, Adıgün və s. bölgələrindən sürgün edilərək, Türkiyə ilə Borçalını birləşdirən həmin ərazilərə ermənilərin, rusların və gürcülərin yerləşdirilməsi oldu.

Məktəblərdə xalqımızın tarixinin, coğrafiyasının, dininin və mədəniyyətinin tədrisi yasaq edildi. Bu yasaq indi də qüvvədədir. İkinci Dünya müharibəsi başlayan kimi Borçalı türklərinin Türkiyə respublikası ilə bütün əlaqələrini kəsdilər. Beləliklə də, Borçalı türkləri xristian dənizinin ortasında tənha bir adaya çevrildi. Bu əraziyə milli-mədəni muxtariyyət verilmədi.

1950-ci illərdən başlayaraq bölgələrə köçürülmüş ermənilərin kütləvi surətdə "gürcüləşməsi" prosesi getdi. Qeydiyyatda hamısı gürcü yazıldı. Əlimizdə bu faktı təsdiqləyən geniş material vardır, professor V.L.Veliçko özünün şah əsəri sayılan "Кавказ. Русское дело и междуплеменные вопросы"[37] kitabında yazır: "Ermənilər yeganə millətdir ki, özlərinin xeyri üçün ən alçaq hərəkətlərə meyil göstərir, düşdükləri mühitdən asılı olmayaraq, assimilyasiyaya uğramaq, ana familiyasını, soyadını, soykökünü belə dəyişdirirlər". Müəllifin yazdığına görə, son 50 ildə ermənilər, bir qayda olaraq Gürcüstanda "şvili" gürcü, Yusif bəy, Qara bəy, İbrahim xan kimi Azərbaycan, Rusiyada isə Krasilnikov, Sapoj-nikov, Lisitsin, Serqeeva və Panov kimi qeyri-erməni famili-yalarını götürmüşlər (bax:V.L.Veliçko. Kavkaz, T.1. İzd. M.D.Muretovoi. S.Peterburq, 1904, səh. 83). Beləliklə, V.L.Veliçkonun yazdıqları bu misraları gürcü alim və mütəxəssisləri də təsdiq

[37] В.Л.Величко. Кавказ. Русское дело и междуплеменные вопросы. Изд. М.Д. Муретовой. С. Петербург, 1904, стр.36.

edir. Həmin əsərdə bir ifadəni oxuculara çatdırmağı özümüzə borc bilirik:

Tarix gürcü xalqına sübut etmişdir ki, hər adama inanmaq, bel bağlamaq olmaz; o cümlədən də əgər o adamda satqınlıq, ikiüzlülük, xainlik və nankorluq varsa. Sitatı olduğu kimi veririk: **«Армянские мелики Або и Меджнунъ, облагодьтельствованные Ираклиемъ II, который укрылъ ихъ отъ персидскихъ гонений, в роковую минуту передались персиянамъ и были проводниками полчищ Ага-Магометъ-Хана, разграбившихъ и заливших потоками кро-ви Тифлисъ въ 1795 году. Этотъ фактъ полезно вспоминатъ, когда армянские публицисты слишком настаивают на томъ, что армяне рев-ностные христиане»**. 1989-cu ildə isə, qədim Borçalı türklərinə "gəlmə", "qonaq" damğası vuruldu. 15-20 ildə Borçalıdan məcburi köçkünlərin sayı 200 mini keçmişdir.

Məktəblər dərsliksiz, proqramsız və pedaqoji ədəbiyyatsız qalıb. Orta məktəblərin bir çoxu (Dmanisi) bağlanmışdır. Borçalı həqiqi mənada ağır günlərini yaşayır. Oradakı məktəblər Azərbaycanın qayğılarına möhtacdır.

Bunlara baxmayaraq, yarım milyondan çox Borçalı türkü hər cür məhrumiyyətlərə dözür, məğrurluğunu saxlayır, dədə-baba torpaqlarına sadiq qalırlar.

2003-cü ilin məlumatına görə məktəblərdə şagirdlərin ümumi sayı xeyli azalmışdır. Təkcə Dmanisi rayonunda 23 orta məktəbdən 20-si natamam orta təhsil məktəbinə çevrilmiş, bəziləri isə, ümumiyyətlə, bağlanmışdır. Bolnisdə də eyni vəziyyət mövcuddur. Hər iki rayondan azəri türklərinin qovulması nəticəsində məktəblərin və şagird-müəllim kontingentinin azalması daha böhranlı həddə gəlib çıxmışdır. Bu da öz növbəsində müəllimlər arasında maddi vəziyyəti ağırlaşdırmış, onları maarif sistemindən uzaqlaşmağa məc-bur etmişdir. Yeni iş yerləri axtarmaq üçün ziyalılar Azərbaycan respublikasının rayonlarına pənah gətirirlər. Qeyd etməliyik ki, bu material və statistik rəqəmlər 2003-cü ilin axırlarına qədərki dövrü əhatə edir.



Bu isə Gürcüstanın azərbaycanlılar yaşayan dədə-baba yurdundan tərk olunmasına və ikinci yaşayış yerində isə (Azərbaycan) antropogen vəziyyətini daha ağırlaşdırmış olur. Nəticə etibarilə qəbul olunmuş təzə əlifbaya keçidlə əlaqədar bölgələrdə dərs vəsaitinin çatışmaması (bəzi bölgələrdə olmaması), məktəblərin ümumi təchizatının yarıtmazlığı dərslərin keyfiyyətini aşağı salmış, maarif sisteminə böyük zərbə vurmuşdur.

Müasir dövrdə Borçalı və digər bölgələrdə yerləşən Azərbaycan məktəblərinin vəziyyəti haqqında tərtib olunmuş cədvəl qeyd etdiklərimizi rəqəmlərin dili ilə daha aydın göstərir.

Gürcüstan respublikasında fəaliyyət göstərən Azərbaycan məktəblərinin vəziyyətini əks etdirən cədvəl (1989–2003-cü illər)

*Cədvəl № 4*

| Rayon, şəhər | Cəmi | Məktəblərin sayı | | | Şagirdlərin sayı | Müəllimlərin sayı |
|---|---|---|---|---|---|---|
| | | orta | N-t orta | ibt. | | |
| Marneuli (Borçalı) | 61 | 35 | 18 | 8 | 15763 | 2655 |
| Bolnisi (Çoruk- Qəmərli) | 42 | 18 | 12 | 12 | 10061 | 1420 |
| Dmanisi (Başkeçid) | 36 | 23 | 9 | 4 | 6309 | 1016 |
| Qardabani (Qarayazı) | 17 | 14 | 2 | 1 | 7833 | 1200 |
| Laqodexi | 5 | 2 | 3 | - | 2978 | 185 |
| Telavi | 1 | 1 | - | - | 1149 | 70 |
| Saqareco | 5 | 3 | 1 | 1 | 3266 | 140 |
| Zəlyə (Barmaqsız) | 2 | 2 | - | - | 918 | 75 |
| Tetrisxaro (Ağbulaq) | 3 | 1 | 1 | 1 | 459 | 68 |
| Rustavi | 2 | 2 | - | - | 814 | 172 |
| Tbilisi (Tiflis) | 2 | 2 | - | - | 327 | 194 |
| Cəmi: | 176 | 103 | 46 | 27 | 49805 | 7194 |

Cədvəldən göründüyü kimi, məlum hadisələrlə əlaqədar bütün yaşayış məntəqələrində fəaliyyət göstərən məktəblərin əksəriyyətində istər kəmiyyət, istərsə də keyfiyyət göstəriciləri çox aşağı olmuşdur. Bu göstəricilər 1995-ci tədris ilinin başlanğıcında da get-gedə aşağı enməyə başladı. Nəticə etibarilə bütün məntəqələrdəki Azərbaycan məktəblərində dərslər çox aşağı səviyyədə keçirilir, yaxud da heç keçirilmir. Zənnimizcə, bunun bir sıra səbəbləri vardır. Müəllimlərə əmək haqlarının vaxtlı-vaxtında və lazımi səviyyədə verilməməsi, ölkədə vahid pulun (kuponun) 1990-cı ilə görə çox zəif dövriyyəsi, onun alıcılıq qabiliyyətinin aşağı olması, dərs ləvazimatlarının çatışmaması və milli kadrların yerli hakimiyyət tərəfindən sıxışdırılması və s.

## § 4. Borçalı və ətraf bölgələrdə xalq adət-ənənələri və bayram şənlikləri

Hər millətin özünün əsrlər boyu yaratdığı və başqa, xüsusən də qonşu, dost xalqlardan əxz etdiyi adət və ənənələri yaşatması, inkişaf etdirməsi təbii haldır. Bu istəkdə milli qüruru, hissləri uca tutmaq, qorumaq əvəzsizdir. Düzdür, mühitdən, ictimai-siyasi durumdan, maddi-mənəvi vəziyyətin əlverişli və qeyri-əlverişli olmasından, xüsusən də elm və texnikanın sürətli inkişafından, istehsal proseslərinin təsirindən asılı olaraq adət və ənənələr müəyyən dəyişikliklərə uğrayır, onların inkişafı, zənginləşməsi gah sürətli, gah da ləng gedir. Amma tarix göstərir ki, bu adət və ənənələrin daşıyıcısı olan xalq varsa, bu atributlar da yaşayacaqdır. Bu, Borçalı və ətraf bölgələrə, orada yaşayan Azərbaycan türklərinə də aiddir. Yerli xalqın çox orijinal, ancaq bölgələrin özünəməxsus çalarları, naxışları olan el adətləri, ənənələri var. Onların mayasında bütövlükdə Azərbaycan xalqının nəfəsi, dəst-xətti dursa da, yerli şəraitdən, başqa millətlərin nümayəndələri ilə ünsiyyətdən irəli gələn cəhətlər də yox deyildir. Borçalı və ətraf bölgələrdə ən zəngin, oxşarsız adətlərdən biri də nikah və toy



mərasimləridir, onlarla bağlı ənənələrdir. Məhz bu mənada keçmiş toy adətlərinin və bayram şənliklərinin etnoqrafiyasının tədqiqi, fikrimizcə, aktual problemlərdən biridir.

Qədim dövrlərdən bəri toy mərasiminin vaxtı, ona çəkiləcək xərci, gəlinin atasına veriləcək məbləğ – "başlıq", "yol pulu"nun qədəri barədə danışıq üçün qız evinə gedilir, toyda iştirak edəcək adamların sayı və tərkibi müəyyənləşdirilirdi. Buraya tayfanın ağsaqqalı sayılan bir nəfər ixtiyar, oğlanın atası, atası olmadıqda böyük qardaşı, əmilərindən ən hörmətlisi, dayısı və oğlanın yaşlı qohumlarından biri daxil olurdu.

Gürcüstanın Borçalı ilə yanaşı, başqa bölgələrində yaşayan Azərbaycan türkləri içərisində, əksər hallarda nişanlı qız ilə nişanlı oğlanın rəsmi olaraq evlənmələri kəndlərdə böyük təntənəli hadisə sayılan toy mərasimi ilə başa çatırdı. Nişanlı oğlanın öz toyunun təşkilində bilavasitə iştirakı qəbahət sayıldığından bu işlə onun valideynləri, ya da böyük qardaşları məşğul olurdular.

Başlığın pulla əvəz olunması Şərqdə ilk dəfə Borçalı mahalında adət halını almışdır. Bu adət günümüzə qədər davam edir (M.S.).

Toyun keçirilmə vaxtına xüsusi məhdudiyyət qoyulurdu. Orucluq və məhərrəmlik ayları istisna olmaqla, ilin bütün aylarında toy etmək olardı. Ancaq toyu keçirmək üçün külli miqdarda kənd təsərrüfatı məhsulları və asudə vaxt tələb edildiyindən mərasimlər daha çox ilin payız fəslində və qışın əvvəllərində keçirilirdi. Oğlanın valideynləri toy etmək üçün maddi imkanlarını götür-qoy etdikdən sonra öz fikirlərini yaxın qohumlarına bildirməyi vacib sayırdılar. Bu məqsədlə oğlan evində yığıncaq – məsləhətləşmə keçirilirdi. Adətən, belə yığıncaqlar həftənin istənilən günündə yox, həmin nəsil üçün düşərli sayılan gündə keçirilirdi. Son qərar isə tayfanın və ya nəslin ağsaqqallarının təklifinə, əsasən, qəbul edilirdi.

Qız və oğlan eyni kənddən olduqda əvvəlcədən dəqiqləşdirilmiş gündə oğlan tərəfinin nümayəndələri – piyada, uzaq kənddən gedənlər olduqda isə qız evinə atla gedirdilər.

Qaydaya görə, evdən çıxarkən arxasınca bir qab su atardılar. Görünür, bu suyun aydınlıq və bolluq əlaməti hesab edilməsi ilə əlaqədardır. Əgər qarşılarına və yaxud da pişik "uğursuz", "ayağı ağır" adam çıxardısa, bu, pis əlamət sayılardı. Hətta Sarvan, Hallavar, Baydar, Kürtlər, Korarxı, Faxralı, Arıxlı, Sadaxlı, Təklə, Kolagir, Təkəli və s. kəndlərdə geri qayıtma halları baş vermişdi. "Bədbəxtlikdən" yaxa qurtarmaq üçün müxtəlif ayinlər icra edilərdi.

Danışıq aparmaq üçün adamlar göndəriləcəyi barədə əvvəlcədən məlumat verildiyindən qız evində hazırlıq görülərdi. Oğlan adamları (3–5 nəfər) qız evinə gəldikdən sonra danışıqlar daha çox iki gəncin gələcək ailə qayğıları barədə olardı. Qız üçün veriləcək başlığın tərkibi və miqdarı böyük mübahisələr doğura bilərdi.

Başlığın miqdarı qız evinin ictimai-iqtisadi və sosial vəziyyətindən, onun əxlaq və gözəlliyindən, sağlamlığından, ev işlərini necə görməsindən, gəbə, kilim, palaz toxumağı bacarıb-bacarmamasından, inək, bir sıra kəndlərdə isə camış sağmaq, habelə süddən müxtəlif məmulat hazırlamaq qabiliyyətindən asılı idi. Bu adətlər Borçalının Başkeçid, Çoruk-Qəmərli inzibati rayonlarının və Qaraçöp nahiyəsinin bir para kəndlərində və Laqodexi, Saqareco rayonlarında (Yormuğanlı, Ləmbəli, Keşəli və s. kəndləri) son illərə qədər davam edirdi.

Natural kəndli təsərrüfatının hakim mövqe tutduğu dövrlərdə başlıq natura ilə – iribuynuzlu mal-qara, qoyun, dəvə, at, gəbə, kilim, yun və s. ilə, kapitalist münasibətlərinin kənd şəraitinə daxil olmasından sonra isə pulla ödənilirdi. Qeyd etmək lazımdır ki, başlığın pul ilə ödənilməsi, əsasən, diyarın aran kəndlərinə aiddir və əsrimizin 50-ci illərindən başlayaraq bərqərar olmuşdur. Sovet hakimiyyətinin ilk illərində bəzi valideynlərin qızları üçün 6000 manat məbləğində başlıq tələb etmələri faktları da olmuşdur.[38]

[38] "Molla Nəsrəddin", 1928, № 31.



Nağd puldan əlavə qız sahibləri, həmçinin bahalı bəzək şeyləri – üzük, bilərzik, boyunbağı, gümüş kəmər, qıza toy paltarı tikmək üçün ipək parçalar, bir neçə cüt ayaqqabı, iri ölçülü güzgü və s. tələb edərdilər.

Hər iki tərəf başlıq barəsində razılığa gəldikdən sonra toy xərcini danışmağa başlayardılar. Qızın atası toya çağıracağı adamların sayı və onları yedizdirmək və şənləndirmək üçün lazım olan ərzaq məhsullarının kəmiyyəti barəsində fikrini söyləyərdi. Borçalı elinin Sarvan kəndinin varlılarından olan Fərəməz Məşədi Əlləz oğlu qızı üçün toy xərci olaraq 12 baş qoyun, 2 pud qənd, 3 pud yağ, 10 pud düyü və başqa ərzaq məhsulları tələb etmişdi[39]. Digər valideynlər buraya 15–20 pud un, 2 kisə xına, qurudulmuş meyvə, qızın yaxın qohumları üçün hədiyyələr də daxil edərdilər. Əksər hallarda oğlanın atası çətinliklə də olsa bu tələbləri ödəməli olurdu.

Sonda hər iki tərəf üçün sərfəli olan toy günü seçilirdi. Danışıqlar qarşılıqlı razılıqla həll edildikdən sonra qonaqlara yemək (yağ, bal, motal pendiri, çörək, çay) təklif etdilər və bundan sonra oğlan tərəfinin adamları geri qayıdıb qız tərəfinin şərtləri barədə ətraflı məlumat verərdilər. Tərəflər ümumi razılığa gələ bilmədikdə, din xadimlərinin məsləhətlərinə müvafiq hərəkət edilərdi. Bəzən tərəflər arasında münaqişə də düşürdü. Ona görə də bir sıra kəndlərdə bəzi ailələr gələcək gəlinlərini qohumluq əlaqəsində olduqları tayfa və yaxud nəsildən seçməyə çalışırdılar. Toy üçün oğlan evinin ilk addımı qız üçün toy paltarı və bəzək şeyləri almaqdan başlayardı. Bəzək şeylərinin bəziləri (üzük, bilərzik, boyunbağı, kəmər və s.) xüsusi sifarişlə zərgərlər tərəfindən hazırlanırdı. Paltar tikmək üçün lazım olan parçalar Tiflisdən, Ç.Qəmərlidən (Bolnisi), Şüləver kəndindən, ucqar dağ kəndlərində isə xüsusi varlı şəxslərə məxsus olan dükanlardan alınardı.

Bu hazırlıqlardan sonra "paltar aparmaq", "qayçıkəsdi", "paltarbiçdi" mərasimi icra edilərdi. Mərasimlərin

[39] "Molla Nəsrəddin", 1928, № 36.

əsas mənası oğlan tərəfdən alınmış toyluq parçalar qız evinə aparmaq idi. Mərasimdə ancaq qadınlar iştirak edərdilər. Mərasimə oğlanın anası, bibisi (maması), xalaları, bacıları və dəvət olunmuş başqa qadınlar daxil olardı. Adətən, paltar apararkən özləri ilə birlikdə geyim əşyaları biçib-tikməyi bacaran bir nəfər qadın da aparardılar. Paltar biçərkən həmin qadın qayçını parçaya toxundurar və qayçının kəsmədiyini elan edərdi. Oğlanın anasından "qayçı kəsdi"yə görə xələt aldıqdan sonra geyimləri biçmə prosesi başlanardı. Mərasimin sonunda burada iştirak edənlərə yemək verilir və onlardan isə pul – "nəmər" toplanardı. Və toplanan pullar yeni evlənənlərə çatdırılardı.

"Paltarkəsdi" mərasimindən sonra qızın nişanlısının evinə köçməsinə hazırlıq görülür. Hər ikisi özləri üçün "sağdış" və "soldış" seçir, onlara yengə təyin edilir. Sağdış, soldış və yengənin əsas vəzifəsi toyun gedişində oğlan və qızı müşayiət etməkdən ibarətdir.

Oğlanın mötəbər qohumlarından biri toyu keçirmək üçün musiqiçilər axtarır, zurnaçılar dəstəsinin başçısı ilə görüşür və toyun neçə gün davam edəcəyi haqda ona məlumat verir, bunun üçün nə qədər pul tələb edildiyini öyrənir. Barəsində danışdığımız adət Borçalının bəzi dağ kəndlərinə aiddir. Sarvan, Qızılhacılı, Qacağan, Ağməmmədli, Quşçu, Sadaxlı, Qarayazı, Böyük Muğanlı, Təhlə və bir çox aran və dağətəyi kəndlərdə isə musiqiçilərlə nağd pul danışığı aparılır, danışıqdan asılı olaraq onlar bəzən ancaq toya gələn adamların musiqiçilərə verdiyi pulla (şabaşla) kifayətlənməli olurdular. Danışıq aparıldıqdan sonra toya aşıqlar dəstəsi də dəvət olunurdu. Bu qayda-qanun Hallavar, Baydar, Körarxı, Kürtlər, Saraçlı, Faxralı, Hamamlı, İmir-Həsən, Qara kilsə, Yormuğanlı, Qaçağan, Keşəli, Qızıl Hacılar, Körpülü, Muğanlı, Qoşaisə və s. kəndlərə aiddir.

Varlı və hörmətli şəxslər öz toylarına, adətən, yaşlı və təcrübəli musiqiçiləri, nisbətən kasıb olanlar isə təzə çalmağa başlayan cavanları dəvət edərdilər. Çünki yaşlılara nisbətən cavanlar az pul tələb edirdilər. Eyni musiqi havaları Azər-



baycan, gürcü və erməni toylarında ifa edildiyindən bəzən Azərbaycan toylarını yola salmaq üçün gürcü və erməni (əsasən, Dmanisi rayonunda) musiqiçiləri dəvət edilərdi. Musiqiçilər xalqın böyük hörmətinə malik olduğundan onlar məclisin ən şərəfli yerində əyləşdirilirdilər.

Toyun başlanmasına bir neçə gün qalmış kəndin bütün subay qızları ərə gedən qızın başına toplaşardılar. Qohumları və rəfiqələri qızı tay-tuşu ilə birlikdə qonaq çağırar ("evə çağırma") bəzən də onlar bir gün ərzində bir neçə ailənin qonağı olurdular. Marneuli və Bolnisi rayonlarının bəzi kəndlərində qız evinə çağırılmada bəyin özü ilə birlikdə onun bir neçə dostları da təşrif buyururdu.

Toy ərəfəsində oğlan evindən qız evinə başlıq və toy xərci göndərilərdi. Adətən, bu şeylər araba ilə daşınırdı. Toyda kəsiləcək heyvanlar isə bir nəfər oğlana həvalə olundu. Adətən, qoçlardan birinin boğazına qırmızı kəlağayı bağlanardı. Bu nəmər - kəlağayı qoçları aparan oğlana çatardı.

Toyun başlanmasından bir ay əvvəl kənddə ölü düşmüş olurdusa, toy sahibi onun evinə gedər, toy etməsi üçün razılıq alardı. Marneuli rayonunun bir sıra kəndlərində qız evinə aparılan (5–10) qoçların buynuzlarına qırmızı rəngli lent bağlanar, bel hissələri rənglənər və ya xına çəkilərdi.

Toya dəvət olunacaq adamlara qabaqcadan xəbər verilərdi. Borçalı mahalının hüdudlarından kənarda (Qaraçöp nahiyəsində) yaşayan soydaşlarımızın toy mərasimində dəvətnamələr, bir qayda olaraq oğlan evində toyun başlanmasına 3–4 gün qalmış yazılırdı. Dəvətnamələri oğlanın yengəsi toya qədər paylayıb qurtarırdı. Qız evində yazılmış dəvətnamələri isə qız yengəsi paylayır. Belə mərasim indi Başkeçid bölgəsində hələ də davam etdirilir.

Toyu oğlan evi başlayır, əlində 20–25 metr, ucu haçalı yanar "lopa" havaya qaldırılaraq, kəndin ən axar-baxarlı yerində şölələnməyə başlayır. Lopanın havaya qalxması toyun başlanmasına işarədir. Toya kənd adamlarından əlavə oğlanın başqa kəndlərdə yaşayan qohumları da dəvət olunurlar. Qohumların toya gəlməsi son dərəcə vacib sayılır.

Unudularaq toya çağrılmayan yaxın qohumlar oğlan tərəfindən inciyir, hətta onları dindirmirlər. Toydan bir müddət sonra həmin küsülülər üçün barışıq məclisi qurulardı.

Toyun birinci günü zurnaçılar oğlan evinin həyətində açıq havada çalırlar. Axşamüstü toyçular arabaya əyləşərək atlıların müşayiəti ilə qız evinə yola düşürlər. Bunların arasında oğlanın atası, qardaşları, yaxud qohumları və yengəsi olur. Marneuli, Bolnisi, Saqarejo və Dmanisi rayonlarının bəzi kəndlərində bəyin özü də toy dəstəsini qız evinə aparanların içərisində olur. Onun vəzifəsi musiqiçiləri qız evinə təhvil verib, geri qayıtmaqdır.

Toy dəstəsi oğlan evindən xeyli aralandıqdan sonra cavanlar mərasimin qabağını kəsir, "torpaqbasdı" istəyirlər. Belə hallarda onlara bir baş kök toğlu və bəzən isə müxtəlif hədiyyələr təklif edilirdi. Toyçular qız evinə çatdıqda evin astanası qarşısında qabağını saxlayıb "qapıbasması" deyilən hədiyyə tələb edirdilər. Bunu qızın yengəsi edirdi. Qonaqlara əvvəlcə yağlı fətir (yuxa) təklif edilir və "fətirüstü" deyilən nəmər yığılırdı. Adətən, yığılan pullar fətir bişirən qadınlara çatırdı.

Qaranlıq düşənə qədər zurnaçılar qız evinin həyətində çalır, cavan qız və oğlanlar rəqs edir, yallı, çox vaxt isə əllərində yaylıq "Ağbaba" havasını oynayır, güləşdə öz qüvvələrini sınayır, "Dirədöymə" nümayiş etdirirlər. Qaş qaralanda zurnaçılar sağdış tərəfindən bəzədilmiş şaxı[40] qız evinə gətirməyə gedirlər. Adətən, şaxın forması yolkanı xatırladıb qoz və armud ağacından hazırlanırdı. Şaxa bahalı, rəngarəng konfetlər, meyvələr, qoz, fındıq ləpələri və son vaxtlar isə bir ədəd konyak və bir ədəd iri qırmızı alma asılırdı. Ümumiyyətlə, şax bəzəmək xüsusi təcrübə və hazırlıq tələb etdiyindən bu iş səriştəsi olan adama tapşırılırdı.

[40] Şax – adətən, bir metr qollu-budaqlı ağac parçasından çox sağlam və rəngarəng alma, armud, konfetlər asılır və şaxın baş hissəsinə bir ədəd qırmızı iri alma sancılır – M.S.



Bir nəfər oğlan şaxı evdən çıxarır və şax düzəldən qızgilin həyətində musiqi sədaları ucalır. Sonra qabaqda şax, arxasınca sağdış və soldışın müşayiəti ilə gəlin, onlardan sonra isə zurnaçılar çala-çala qız evinə gedirlər. Bəzi kəndlərdə qızın qabağı ilə əlində güzgü tutmuş qadın və ya cavan qız uşağı gedir. Güzgü xoşbəxtlik, paklıq və aydınlıq rəmzi daşıyır.

Ərə gedən qızın sağdış və soldışları ağızlarını dəsmal ilə tuturdular. Bəzən dəsmal əvəzinə onlar əllərində yanar şam saxlayırdılar. Şax gündüz götürüldüsə, onda əllərində şam tutmurdular. Şax gecə aparılardısa, şənlik iştirakçılarının yolunu işıqlandırmaq üçün «lopadan» istifadə edilərdi. Lopa düzəltmək o qədər də çətin deyildi. Uzun ağac payanın ucuna köhnə paltar, pambıq və ya təzək (kərmə) bərkidib, üstünə neft tökər, alışdırardılar. Lopa təqribən 150–200 kvadratmetrlik sahəni işıqlandırırdı. Şax gündüz aparılırdısa, burada nişanvurma oyunu nümayiş etdirilərdi. Marneuli rayonunun Gorarxı və Sarvan kəndlərində uca bir ağacın başına ipdən asılmış kişmiş qoyurdular. Kim tüfənglə kişmişi vurub sallardısa, müəyyən edilmiş hədiyyəni– "nəməri" o qazanardı. Bir sıra kəndlərdə ipdən kişmiş yox, alma asılırdı. Kəndlərin əksəriyyətində şaxın qabağını kəsib hədiyyə tələb etmək adəti olmuşdu. Son məqamda şax qız evinə çatdırılırdı. Şaxı bəzəyən qız şaxı götürən adama hədiyyə verməli idi. Şaxı gətirdikdən sonra zurnaçılar yemək yeyib toy damına gedirdilər. Toyları keçirmək üçün xüsusi binalar tikilmədiyindən toylar adi qara dam və qazmalarda keçirilirdi. Damın bir tərəfində qadınlar, o biri tərəfində isə kişilər əyləşirdilər. Toyu idarə etmək üçün bir nəfər "toybabası", "toybəyi" seçilirdi. Adam sı rəqs etmək, yallı getmək və güləşmək istəyənlərin arzu və sifarişlərinə uyğun hərəkət edirdi. Bir qayda olaraq, toyun əvvəlində nişanlı qızlar, sonra isə cavan qızlar, gəlinlər və oğlanlar rəqs edirdilər. Bəzi kəndlərdə toyda "qızquyruqlamaq" adəti icra edilirdi. Nişanlı qız rəqs edərkən qohumluq əlaqələrinə görə ona və nişanlısına yaxın olanlar paltarına pul bağlayırdılar. Bu pullar onun kəlağayısına düyünlənirdi. Qeyd edilən tədbir barəsində hər iki tərəfin qohumlarına əv-

vəlcədən məlumat verilirdi. Gecədən xeyli keçəndən sonra qadınların çox hissəsi toyu tərk edir və bundan sonra cavan oğlanların yallı getməsi və güləşməsi başlanırdı. Toyda cavanların zurna və balabanın müşayiəti ilə mahnı oxumaları adəti də olmuşdu. Mahnının sözləri qoşmalardan, sevgi, qəhrəmanlıq dastanlarından və bayatılardan seçilmiş parçalardan ibarət olurdu. Axırda güləş də başlanırdı. Borçalı toylarında güləş Allavar, Qızılhacılı, Bəylər, Quşçu, Faxralı, Darvaz, Saraclı, Kolagir, Hamamlı, B.Muğanlı və s. kəndlərdə çox kəskin şəraitdə keçirdi. Bəzi kəndlərdəki adətə görə, bəy özünün toyunda mütləq güləşməli idi. Ancaq onun uduzması vacib hesab edilirdi.

Xalq arasında mövcud olan inama görə, bəy yıxılsa, bolluq olmalı idi. Toy damındakı şənliklərlə eyni vaxtda qız evində mağar keçirilirdi. Buraya oğlanın yaxın qohumları, qonşuları, dost və tanışları dəvət olunurdu. Mağar iştirakçılarına ət və süd xörəkləri, sac yuxası və ya fırında, təndirdə bişirilmiş çörəklər və çay verilirdi. Gecədən xeyli keçmiş içərisində çeşidli şirniyyatlar olan və üstünə qırmızı kəlağayı salınmış sini qab ortalığa gətirilir, məclis iştirakçıları oraya pul atmağa başlayırdılar. Bəzən onların verdikləri pulun miqdarı məclisi idarə edən şəxs tərəfindən elan edilirdi. Xatırlatmalıyıq ki, toyda pul nəməri yalnız 1950-ci illərdən başlanmışdır. Ona qədər isə istər oğlan tərəfin, istərsə də qız tərəfin adamları bəylə gəlinə paltar, bəzək və ev əşyaları bağışlayırdılar.

Şənlik iştirakçılarının mənəvi-estetik tələbatını ödəmək və onları əyləndirmək üçün məclisə bir və ya iki aşıq dəvət olunurdu. Onlar toy iştirakçılarının sifarişi ilə mahnılar oxuyub dastanlardan parçalar söyləyir və saz havaları ifa edirdilər.

Toy şənlikləri ilə eyni vaxtda həm bəyin, həm də gəlinin yanında "xınayaxdı" mərasimi keçirilirdi. Böyük bir qabda xına hazırlanır. Xına ilə əvvəlcə toyu olan cavanlar, sonra isə mərasimə toplaşanlar əllərini boyayırdılar. Xınaqoyma mərasimi başa çatdıqdan sonra mərasimdə iştirak edənlər həmin qaba pul atırdılar. Yığılan pullar bəylə gəlinə çatırdı. Toy



şənlikləri səhərə bir neçə saat qalana qədər davam edirdi. Səhər tezdən yenə də qız evinin həyətində musiqiçilər çalmağa başlayırdılar.

Nəzərə çatdıraq ki, hazırda Sarvan (Marneuli), Gorarxı, Qızılhacılı, Candar, Qullar və s. kəndlərdə xınayaxdı toya ya 3–5 gün qalmış və ya toydan bir neçə gün sonra olur. Sarvan kəndinin elə məhlələri vardır ki, bu günün özündə də qız toyunu xınayaxdı adı altında keçirirlər.

Qızın ata evini tərk etməsi ərəfəsində toya bir nəfər molla dəvət olunurdu. Molla qız və oğlanın atalarının və vəkillərin iştirakı ilə kəbin kəsir. Burada oğlan və qız şəxsən iştirak etmir. Onları vəkillər əvəz edirdi. Bəy və gəlin vəkillərini özləri seçirdilər. Adətən, qızın vəkili oğlanın atasından "vəkillik" deyilən xüsusi hədiyyə alırdı. Molla əvvəlcə qızın vəkilindən onun ərə getmək istəməsi barədə razı olub-olmamasını soruşardı. Vəkil isə qızın həmin adama ərə getməyə razı olduğunu bildirir və kəbin sənədində öz imzasını atırdı. Sonra isə molla eyni sualla oğlanın vəkilinə müraciət edirdi. O, oğlanın evlənməyə razı olduğunu bildirir və dediklərini şəxsi imzası ilə təsdiqləyirdi. Deyilənlərdən əlavə, kəbin sənədində valideynlərin qızlarına verdikləri cehiz göstərilirdi. Qıza verilən cehizin çox hissəsini onun tərəfindən toxunub hazırlanan əşyalar – gəbə, kilim, farmaş, xurcun, çuval, yorğan-döşək, yastıq, mütəkkə və əl tikmələri təşkil edirdi. Bu əşyaları qız körpə yaşlarından ərə gedənə qədər işləyib hazırlayırdı. Çox vaxt bu əşyaların miqdarı valideynlərin bağışladığı müxtəlif qab-qacaq (şüşə, mis, dulusçuluq məmulatı) hesabına daha da artırdı. Bəzi kəndlərdə cehizin tərkibinə güzgü, gərdək, bir cüt köhnə qadın ayaqqabısı, bəzi kəndlərdə uşaq beşikləri, duz, maya (xaş), xəmir, gül, iynə, bir cüt uşaq ayaqqabısı əlavə edilirdi. Bunlar dini inam və adətlərlə bağlı idi.

Cehizin xeyli hissəsi oğlandan alınan vəsait hesabına hazırlansa da, bu barədə kəbin sənədində heç nə qeyd olunmurdu. Kəbin sənədində, həmçinin "məhrin" – kişinin arvadını boşadığı halda verəcəyi əmlakın miqdarı göstərilirdi.

Məhr pul vahidi ilə ifadə olunurdu. Bu sənəd qızın anasında, anası olmadıqda isə anasını əvəz edən ən yaxın və ona ana qayğısı göstərən qadında saxlanılırdı. Kəbin kəsmək üçün mollaya haqq verilirdi.

Toy prosesində qızın ata evini tərk etməsi mühüm mərhələ sayılırdı. Burada bir çox adətlər icra edilirdi. Qızın ər evinə köçməsi vaxtı gələndə qızın yengəsi onu bəzəməyə başlayırdı. Gəlinə qara, boz və ya göy rəng istisna olmaqla istənilən rəngdə paltar geyindirmək olardı.

Yengə gəlini bəzədikdən sonra qızın vəkili onun belini qurşaqla bağlayırdı. Qurşaq evdə toxunur və 7 rəngdən ibarət olurdu. Qurşaq mərasimi ən çox mahalın dağlıq kəndlərində keçirilirdi. Gəlini bəzədiyinə görə oğlan yengəsi qız yengəsinə "başbəzəməsi" verirdi. Qızın ovcuna metal pul qoyub kəlağayı ilə bağlayırdılar ki, gələcəkdə var-dövləti çox olsun. Əksər kəndlərdə gəlinin başına qırmızı rəngdə ipək örtük – "duvaq" salırdılar.

Qeyd edilən mərasimlərdən sonra musiqiçilərin çaldığı qəmgin "ağlaşdırma"[41] havasının müşayiəti ilə qızın cehizlərini həyətə çıxarırdılar. Qızın vəkili cehizin üstündə oturub onu arabaya yükləməyə qoymurdu. Ona "nəmər"[42] verdikdən sonra cehizləri götürüb arabaya yığırdılar. "Atlandırma"nın müşayiəti ilə qız yengəsi ilə oğlanın atası gəlini evdən çıxarıb arabaya mindirirdilər. Adətən, onun bir tərəfində öz yengəsi, digər tərəfində isə oğlan yengəsi əyləşirdi. Yola düşərkən gəlini aparmağa gəldikləri yolla yox, başqa yolla gedirdilər. Çalışırdılar ki, heç kəs gəlin oturan arabanın təkərləri arasından daş keçirməsin. Hər iki adət bəy və gəlini "təqib" edən şər qüvvələri "qovmaq" məqsədi ilə edilirdi.

Toyun arxasınca qara daş atılması pis adət hesab edildiyi üçün hər iki tərəfin adamları izdiham iştirakçılarının hərəkətlərinə xüsusi diqqət yetirirdilər.

[41] "Molla Nəsrəddin", № 25.
[42] Yenə orada.



Toy köçünün qarşısını kəsib, "torpaqbasması"[43] tələb etmək adəti geniş yayılmışdı. Adətən, "torpaqbasma" qızın ata yurdunu tərk edib, oğlanın ata yurduna qədəm qoyduqda baş verirdi. Toy yolda qoyun sürüsü ilə rastlaşardısa, çoban toyun qabağına bir baş qoç çıxarardı. Əgər gəlin qoçu qaldırıb arabaya qoysa, qoça sahib olurdu, qaldıra bilməsə toy sahibi qoçun qiymətini çobana verməli olurdu. Toyu atlılar müşayiət edirdi. Toyda cıdır təşkil etmək geniş yayılmışdı. Oğlan evinə xeyli qalmış atlıların yarışı başlayardı. Oğlan evinə birinci çatıb toy köçünün gəlməsini xəbər verən atlı bir ədəd qırmızı kəlağayı alırdı. İkinci və üçüncü gələn atlılara isə nəmər kimi corab və cib dəsmalı (yaylığı) verilərdi.

Şindilər kəndində (Dmanisi rayonu) qız, evini tərk edən kimi bəy ata minərək toyun qabağına gedir, arabada oturan nişanlısına alma atır və atını çaparaq qaçırdı. Başqa atlılar isə onu təqib etməyə başlayırdılar. Bəyin atını ötən sürəkçi bəydən nəmər alırdı. Buna bənzər adət Faxralıda, (Bolnisi rayonu), Böyük Muğanlı, Kirəc Muğanlı, Kəpənəkçi, Sadaxlı, Qızılhacılı və s. kəndlərdə də (Marneuli rayonu) adət idi.

Gəlinin oğlan evində qarşılanması məqamında da müxtəlif adətlər icra edilirdi. Toy evinin həyətinə daxil olduqdan sonra bəy sağdış və soldış ilə evin damına çıxır və oradan nişanlısının başı üstündən bir neçə dəfə tüfəng atəşi açırdı. Belə adətə Marneuli rayonunun Gorarxı, Qızılhacılı, Sarvan, Təkəli, Qasımlı, Quşçu, Ulaclı kəndlərində indi də təsadüf edilirdi. Tüfəngdən atəş açmaq ən çox Qaraçöp kəndlərində müşahidə olunurdu. Bəzi kəndlərdə isə bəy nişanlısına alma atır, onun atdığı alma nişanlısına dəymədikdə bunu sağdış və soldış davam etdirirdi (Dmanisi və Bolnisi rayonlarının bəzi kəndlərində). Atılan almalar gəlinə dəyənə qədər onlar bir-birini əvəz edirdilər. Bu mərasim yerinə yetirildikdən sonra qızın başı üstündən metal pullar (varlı xan və bəy ailələrində isə qızıl onluqlar), şirniyyat, bəzi kəndlərdə isə çörək və s. atırdılar. Axırda isə gəlinə arabadan düşmək təklif olunurdu,

[43] "Molla Nəsrəddin" № 26

ancaq o, bu təklifə məhəl qoymurdu. Qayınatası ona yaxınlaşıb hədiyyə boyun olduqdan sonra o, arabadan düşürdü. Gəlinin ayaqları altında ağzı üstə çevrilmiş və üstündə bir ədəd nəlbəki (bölmə) olan iri qazan qoyurdular. O, sağ ayağının zərbəsi ilə nəlbəkini sındırıb yerə düşürdü. Varlı ailələrdə gəlinin ayaqları altında qoç, kasıblar isə toğlu kəsirdilər. Ağtəhlə kəndində (Qardabani rayonu) kəsilən heyvanın ətini qonşulara paylayırdılar. Marneuli bölgəsinin 10-a yaxın kəndində isə kəsilən qoçun ətindən səhərisi gün ən yaxın qohum-əqrəbə üçün süfrə açılırdı. Ağtəhlə kəndində (Qardabani rayonu) kəsilən bu heyvanın ətini qonşulara paylayırdılar.

Evə daxil olan kimi gəlinin ayaqları altına dəmir parçası atırdılar. Bəzi kəndlərdə evin ortasında ocaq çatır və oraya yağ atırdılar. Gəlin içəri girən kimi onun əlinə şiş verirdilər. Gəlin şişi ocağın kənarına sancıb gərdəyin arxasına keçirdi. Bəzi kəndlərdə isə gəlin evə daxil olan kimi qayınanası ona oxlov verib "oğlumu və evimi sənə bağışladım" deyirdi. Qeyd olunanlardan sonra gəlinin qucağına 2–3 yaşlı oğlan uşağı oturdurdular. Bununla gəlinin gələcəkdə nəslin davamçısı və ailənin varisi sayılan oğlan uşağı doğması arzusu bildirilirdi.

Gəlin oğlan evinə köçdükdən sonra hər iki tərəfdə «ağızaçması» deyilən mərasim keçirilirdi. Buraya ancaq qız və qadınlar dəvət olunurdular. Onlara yemək verir, axırda isə yeni evlənənlərin şərəfinə hədiyyələr toplanırdı. Axşam isə oğlan evində "mağar"[44] olur, onun üçün şax qaldırılır və gecə yenə zurnaçılar (aşıqlar) çalırdılar. Qız, oğlan evində onun üçün ayrılmış otaqda yengəsi ilə birlikdə qalırdı. Toy başa çatıb, hamı dağıldıqdan sonra oğlan yengəsinin işarəsi ilə qız yengəsi gəlini tərk edir və yeni evlənənlər vüsala çatırdılar. Əvvəlcə verilən göstərişə əsasən gəlin ayaqlarını tez atıb nişanlısının ayaqlarını tapdalamağa çalışırdı ki, gələcəkdə əri yanında sözü ötkəm olsun. Bu məqamda oğlanı bayırda sağdışı gözləyirdi. Qız bakirə çıxdıqda oğlanın işarəsi ilə onun

[44] "Molla Nəsrəddin" № 22, 23.



sağdışı tüfəng atırdı. Oğlan nişanlısı ilə yatdığı döşəyin altına pul qoyub onu tərk edirdi. Pul qızın yengəsinə çatırdı. Səhər tezdən musiqiçilər oğlanın həyətində bir saata yaxın musiqi çalırdılar. Hallavar, Muğanlı, Saraçlı, Gorarxı, Kürtlər (Qurdlar) və Bəylər, Qızılhacılı kəndlərində buna "Səhər sazı"[45] deyirdilər. Toyun keçirildiyi günlərdə qar, yağış, dolu düşməsi, boran və çovğun olması pis əlamət hesab edilirdi. Bunun oğlan və qızın qazan dibi qazıması ilə əlaqədar olduğu güman edilirdi. Qeyd etməliyik ki, bu əlaməti bütün Borçalı kəndlərinə aid etmək olar. Qız bakirə çıxmasa, onun başını qırxıb eşşəyə mindirir və yengəsi ilə geri, atası evinə göndərirdilər.

Toyun səhəri günü oğlan evində "üzağlığı" deyilən mərasim keçirilirdi. Buraya kəndin ağbirçək, yaşlı qadınları dəvət olunurdu. Əvvəlcə onlara yemək verilir, sonra isə qız ilə oğlanın yatdığı mələfəni nümayiş etdirirdilər. Bəzən oğlanın orqanizmində müəyyən fizioloji və psixoloji proseslər üzündən o, nişanlısı ilə cinsi əlaqəyə girə bilmirdi. Belə hallarda oğlanın qohumları onun düşmənçiliklə bağlandığını güman edib, dua yazdırırdılar. Bu "müalicə" üsulu müsbət nəticə vermədikdə ara həkimlərinə müraciət edirdilər. Onlar isə xəstəni 5–10 gün soyuq su ilə çimizdirməyi məsləhət görürdülər.

Ailə həyatının ilk günlərindən etibarən qız kimlərlə danışıb-danışmamaq barəsində ərindən qəti tapşırıqlar alırdı. Onun yeni ailədəki gələcək taleyi bu tapşırıqları necə yerinə yetirməsindən asılı idi. Sarvan, Candar, Gorarxı, B.Muğanlı, Araplı, Baydar, Kürtlər, Hallavar, Daştəpə, Sadaxlı, Saraçlı, Faxralı, Hamamlı, Qəmərli, Qızılhacılı, Lök Candar, Qaçağan, Ormeşən, İlməzli və s. kəndlərdə gəlin oğlan evində (1–3 ay) müddətində qayınatası ilə danışmazdı. Lakin qayınatası gəlinə "yemşəkatdı" nəmərini verdikdən sonra onunla danışmağa başlayırdı.

Qız ər evinə gəldikdən bir neçə gün sonra kənddə toy olardısa, onu toya aparıb oynadardılar. Toy olmadıqda isə

[45] Yenə orada.

kəndin subay qızlarının müşayiəti ilə gəlin bulaq başına gedirdi. Ona səhəng verir, bir sini və ya qaba isə şirniyyat doldururdular. Şirniyyat bulaq başındakı adamlara paylanırdı. Gəlin səhəngi doldurub evə qayıdırdı. Kosalı, Candar, Bolnis, Kəpənəkçi, Quşçu, Sarvan və başqa kəndlərdə gəlini bulaq başına Novruz bayramı gecəsi zurnaçıların müşayiəti ilə apardılar. Abdallı kəndində (Bolnisi rayonu) toydan bir qədər sonra başqa toy olardısa, toy çalan zurnaçıların müşayiəti ilə gəlini suya aparardılar. Həmçinin burada da bulaq başında şirniyyat paylanırdı.

Bütün bu mərasimlərdən sonra gəlinə suya getməyə və həyətdə işləməyə icazə verilirdi.

Toydan bir qədər sonra qızın yaxın qohumları, əsasən, qadınlar gəlinə baş çəkməyə ("görməyə") gəlirdilər. Bundan sonra gəlinin valideynləri onu ata evinə qonaq dəvət edirdilər ("evə çağırmaq"). Oğlanın ailəsində təsərrüfat işləri ilə məşğul olan başqa qadın olardısa, o, bir neçə ay burada qalırdı. Əri evində həddindən çox incidilib əziyyət verilən gəlinə ata-ana bir daha geri, öz evlərinə qayıtmağa razılıq vermirdilər. İki ailə arasındakı mülki mübahisələr isə adət və ya şəriət qaydalarına müvafiq olaraq həll edilirdi.

Gürcüstanda yaşayan Azərbaycan türklərinin toy adət-ənənələri zəngin və çoxcəhətli olub, ayrı-ayrı türk tayfalarında yaranmış milli adət və ənənələr toplusunun tərkib hissəsidir. Əlbəttə, Borçalı və ətraf bölgə türklərinin (eramızdan əvvəl) toy mərasimləri və şənlikləri qeyd etdiklərimizlə bitmir, onun özünəməxsus yas mərasimləri, ailədə uşaq tərbiyəsi və əhaliyə aid olan müxtəlif biçimli və ölçülü etnoqrafiyası vardır. Bu mərasimlər xalq tərəfindən bu günə kimi qorunub saxlanılır və gələcəkdə də inkişaf etdiriləcəyi heç kəsdə şübhə doğurmur. Borçalı və ətraf bölgələrin rayonlarında 200-ə yaxın kənd yaşayış məntəqəsi var. Sözsüz ki, bütün kəndlərin adət-ənənələri haqqında söhbət açıb və onu tam təfsilatı ilə tədqiq etmək bir tədqiqatçı tərəfindən fiziki baxımdan qeyri-mümkündür. Biz əldə olan materiallara əsaslanaraq bu fəsli yazdıq.



Qədim Borçalı özünəməxsus bayram şənlikləri və onların keçirilməsi mərasimi ilə də diqqəti cəlb edir.

Əsrlərin istisindən-soyuğundan, sınağından keçərək bu günə kimi yaşayan qədim türk, Azərbaycan bayram və şənlikləri haqqında ayrı-ayrı elm və peşə sahibləri çox yazmışlar, onların məzmunu, keçirilmə qaydaları dövri mətbuat və kitablarda öz əksini tapmışdır. Borçalı və onun ətraf bölgələrində orta əsrlərdən başlayaraq bu günümüzə gəlib çatmış bir sıra bayram və şənliklərin inkişaf yolları və keçirilmə qaydaları haqqında oxucularımıza ötəri də olsa məlumat verməyi özümüzə borc bilirik.

Məlumat üçün qeyd etməliyik ki, yaşları 100 və daha artıq olan soydaşlarımızın söyləmələrinə görə, XX əsrdən üzü bəri istər Borçalı çökəkliyində və istərsə də qədim Tiflisdə Azərbaycan türklərinin bayram şənlikləri özünəməxsus özəlliklə keçirilərdi. XIX əsrin ortalarından başlayaraq Tiflisdə çıxan bir sıra qəzet və jurnallarda Gürcüstan türklərinin bayram şənlikləri haqqında hərdən yazılar da dərc olunurdu. Bu yazıların müəllifləri Tiflislə sıx əlaqəsi olan, bu gözəl şəhərin ab-havası ilə nəfəs alan, tez-tez Borçalı və qonşu bölgələrdə yaşayan soydaşları ilə təmasda olan Azərbaycan ziyalıları, publisistləri və jurnalistləridir. Bu baxımdan M.S.Ordubadi, M.Ə.Sabir, M.F.Axundov, N.Nərimanov və başqalarının əməyi xüsusilə qeyd olunmalıdır.

İnqilaba qədər çıxan qəzet və jurnalların əksəriyyətində tez-tez folklor materialları çap olunurdu. «Novoe obozrenie»nin səhifələrində Azərbaycan və Gürcüstanda yaşayan türklərin qədim tarixə və zəngin ənənələrə malik folklor nümunələrinə dair xeyli material üzə çıxarmışıq.

Cəlal Unsizadənin[46] «Novruzun mənası haqqında bir neçə söz» adlı məqaləsi bu mənada diqqəti cəlb edir. Məqalədə göstərilir ki, hər bir xalqın özünün ənənəsi, tarixi keçmişi haqqında söhbət açan milli bayramları və mərasimləri vardır.

[46] Новое обозрение. 1885. № 515, 1890-cı ildə Tiflisdə çapdan çıxan «Qafqaz xadimləri lüğəti» («Словарь кавказских деятелей»)

Lakin onların heç biri keçmişi əks etdirmək baxımından türklərin bahar (Novruz) bayramına çata bilməz.

Baharın ilk gününün bayram edilməsi yalnız türk xalqı, türk dünyası arasında geniş yayılmasına baxmayaraq, bu günləri qədim Romada da bayram etmək üçün qabaqcadan hazırlıq görürmüşlər.

Bölgələrdə türklər bu bayrama ilin birinci ayından sonra evdə-eşikdə, təsərrüfat və sahələrdə özlərinə məxsus istək-arzu ilə hazırlaşırdılar.

Borçalı türklərinin (aran Borçalı) ayrı-ayrı hissəsində bu bayramın axırıncı çərşənbə günü duzlu «kömbə» bişirər, axşam saat $10^{00}$-dan sonra cavan (ərgən) qız və oğlanlar onu yeyib yuxuya gedirdilər. Belə yazırlar ki, əgər onların istəklisi varsa, yuxuda öz sevgililərini görəcəklər. Bayram axşamı mütləq axar su ətrafına seyrə çıxır, gecə isə gənclər evlərdə «iynə-iynə» salma mərasimi keçirirlər. Gecə saat $12^{00}$-dan sonra qapı-baca pusqusunda dururlar. Borçalının bəzi aran və dağətəyi bölgələrində türklər qədimdən sınaqdan keçirilmiş, müqəddəs sayılan bir çinar ağacının ətrafına toplaşıb, musiqi çaldırıb şənlik edirlər.

Bəzi mömin adamlar ağacın qol-budağına əsgi parçası bağlayıb gələn il üçün nəzir deyirlər. Bu cür şənliklərə Borçalı mahalında «Çinar bayramı» günü də deyirlər. Belə şənliklər Sarvan, Candar, Qızılhacılı, Korarxı, Hallavar, Kürtlər (Marneuli), Kolakir, Təhlə, Soğanlıq (Qarayazı), Qaraçöp, Kəpənəkçi, Saraclı, Arıxlı, Darbaz (Bolnisi), Hamamlı (Başkeçid) və s. kəndlərin əhalisi arasında daha geniş yayılmışdı. Qeyd etməliyik ki, Cəlal Unsizadənin məqaləsində Novruz bayramı bütün təfərrüatı ilə təsvir edilir, bu bayramın mənşəyindən və tarixindən söz açılır. Bir çox Azərbaycan alimləri, o cümlədən professor M.H.Təhmasib, yazıçı M.S.Ordubadi Novruz bayramının mənşəyini təbiət haqqındakı animinist təsəvvürlərlə əlaqələndirirlər.[47]

[47] M.S.Ordubadi. Bahar bayramı // Ədəbiyyat və incəsənət, 25 mart 1967-ci il. M.H.Təhmasib. Adətlər, ənənələr, bayramlar... Yenə orada, 12 mart 1966-cı il.



Cəlal Unsizadənin məqaləsi, müəllifin özünün yazdığına görə, onun fars ədəbiyyatı tarixinə dair tədqiqat əsərindən bir parçadır. Fikrimizcə, müəllifin məqaləsinin birinci hissəsi nisbətən düzgün və inandırıcıdır, ikinci hissəsini isə xalq əfsanələri nümunəsi kimi qiymətləndirmək olar. Həqiqətə uyğun və tam inandırıcı faktlardan biri isə budur ki, əsərdə Novruz bayramının meydana çıxması mifik-əfsanəvi İran şahı Cəmşidin adı ilə bağlanır (Borçalıda yurd-yuva salmış türk və türkdilli tayfaların miladdan əvvəl VII əsrdə bu bayrama olan münasibəti və təmtəraqlı keçirilməsi yolları – M.S.).

Qədim türklərin təsəvvüründə torpaq müqəddəsdir və onlar Novruz bayramına torpağa nəfəs verilməsi və təbiətin oyanması kimi baxırlar.

Hələ fransız etnoqrafı Jerando və din tənqidçisi Spenser bahar bayramlarının iqtisadi və ictimai əhəmiyyətinə xüsusi diqqət yetirmişlər. Onların fikrincə, məhsul və bolluq bayramı olan mərasimin dini düşüncə ilə heç bir əlaqəsi yoxdur. Bahar bayramı bir çox dinlərin, o cümlədən də zərdüştiliyin və islamın müasir ardıcılları tərəfindən hələ dinlərin mövcud olmadığı vaxtlardan qeyd edilirdi.[48] Bayramın keçirilməsi zamanı ən maraqlı və mübahisəli an bayram günü adamların tonqal üstündən tullanmaları və bu zaman, guya ki, özlərinin bütün dərdlərini, qayğılarını oda atıb getmələridir. Bu, onu göstərir ki, mərasimin islamla heç bir əlaqəsi yoxdur; eyni zamanda o, zərdüştiliyin əsas prinsipləri ilə də uyğun gəlmir. Qeyd etməliyik ki, Azərbaycandan fərqli olaraq, Borçalıda tonqalın üstündən, əsasən, yeniyetmə uşaqlar tullanırlar. Məlumdur ki, 12–15 yaşlı uşaqlarda paklıq, təmizlik, düzgünlük və çeviklik üstünlük təşkil edir. Bu yaşda uşaqlarda, şübhəsiz ki, natəmizlik və s. hallar ola bilməz. Zərdüştilikdən od müqəddəs sayılırdı, atəşpərəstlər müqəddəs varlıq kimi oda sitayiş edirdilər. Bu baxımdan atəşpərəstlər öz dərdlərini, qəm-

[48] Yenə orada s. 47.

lərini oda atıb getməzdilər. Bu hal oda təhqir sayılırdı. Belə qənaətə gəlmək olar ki, bayram günlərində tonqal üstündən tullanmq xalq arasında hələ zərdüştilikdən çox-çox öncə, od insanların sitayiş obyektinə çevrilmədiyi dövrlərdən qabaq meydana gəlmişdir.

Bütün bunlar göstərir ki, bu bayram günlərində allah yolunda paylanan bayram xörəkləri, şirniyyat, hədiyyə paylamaq, tonqaldan atılmaq, gecəyarısı axar suda çimmək, bayram gecəsi «dinə» çıxmaq kimi adət-ənənələr özlüyündə çeviklik, paklıq və sadiqlik rəmzi daşıyır. Bu faktların hamısı türkçülükdə özünü sübuta yetirir.

Borçalı türklərinin özlərinə məxsus bayram şənliklərindən biri də yay aylarında (bəzi bölgələrdə) təsərrüfatdan məhsul yığımı başa çatdıqdan sonra (yaylaq) yaxşı dincəlmək üçün ailəvi «aran köçləri» mərasimləri keçirməkdir. Bu mərasim zamanı dağlıq ərazidəki yaylaqlara getməyə hazırlıq görülür və köç yaylağa gedir. Payız ayının əvvəllərində isə köçlərin arana qayıtması mərasimi olur. Bunlar, sözün əsl mənasında, kütlə tərəfindən toy-bayram kimi qarşılanır. Borçalının bəzi kəndlərində adamlar dağdan qayıdanda «arançılar» onların evlərinə bağ-bostan sovqatı aparır, «dağçılar», yəni dağdan gələnlər isə dağ sovqatı (pendir, qurut,[49] yağ, bal, motal, süzmə-qatıq, qurudulmuş dağ çiçəkləri, yaşıl əvəlik və s.) verirlər. (M.S.)

[49] Qurut – inək və qoyun qatığından süzülüb, yumurta şəklində gün altında qurudulur. Qurutun hazırlanmasına 25-30 gün vaxt sərf olunur. Ən keyfiyyətli qurut məhsulları yaylaqda hazırlanır. Bu baxımdan Borçalı yaylaqları əvəzsizdir.
Borçalı yaylaqlarını uşaq vaxtlarından gəzib-dolanmış unudulmaz şairimiz Osman Sarıvəllinin şeirlərində dədə-baba yurd yerlərimizin tərənnümü xüsusi yer tutur. Eyni sözləri klassik uşaq ədəbiyyatımızın banilərindən sayılan, əslən Borçalının Sarvan kəndindən olan, Abdulla Şaiq də demişdir.
«Qurutlu xəngəli» adlarını çəkdiyimiz şairlərlə bərabər, S.Vurğun da çox xoşlayırmış...



Ümumiyyətlə, istər Azərbaycanda, istərsə də Borçalıda və Gürcüstanın digər bölgələrində türklərin keçirtdikləri bu bayramlara Azərbaycan ədəbiyyatının klassiklərindən M.Füzuli, M.F.Axundov, M.S.Ordubadi, M.Ə.Sabir, N.Nərimanov, A.Şaiq və başqaları ümumxalq şənliyi kimi yüksək əhəmiyyət vermiş, Novruzu birlik və həmrəylik bayramı hesab etmişlər. Şəxsən N.Nərimanovun fikrincə, bu cür el bayramları əhali arasında mədəni-kütləvi tədbirlər keçirmək işini asanlaşdırır. Belə bayram günlərində insanlar özlərinin fikir və düşüncələrini, gələcəklə bağlı diləklərini bir-biri ilə bölüşürlər.

Klassiklərimizin Novruz bayramı barədə dedikləri bu ibrətamiz fikirləri eynilə Borçalı və digər Gürcüstan türklərinin şənliklərinə də aid etmək lazımdır.

## III FƏSİL

# GÜRCÜSTANIN AZƏRBAYCANLILAR YAŞAYAN BÖLGƏLƏRİNDƏ İCTİMAİ-SİYASİ VƏZİYYƏT VƏ ONLARIN TƏNZİMLƏNMƏSİ YOLLARI

### §1. Borçalının ictimai-siyasi həyatı

Əsrlər boyu Gürcüstanın Borçalı və digər bölgələrində yaşayan soydaşlarımızın düçar olunduqları müsibətlərin kökləri və səbəbləri hərtərəfli öyrənilib araşdırılmadığından hadisələrə münasibətlər də tarixən çox fərqli olmuşdur.

80-ci ilin axırları, 90-cı ilin əvvəllərində mütəxəssis və siyasi-icmalçıların bir qrupu məsələni rus-sovet imperiyasının dağılma prossesi ilə, başqa qrupu kommunist rejiminin nəticəsi kimi, üçüncü qrup respublikadakı vəziyyətin gərginliyi və vətəndaş müharibəsi başlana biləcəyi ilə əlaqələndirir. Bəziləri isə bunu azəri türklərinin qətiyyətsizliyi, mübariz olmamaları ilə əsaslandırmağa çalışırlar. Hadisələrin mahiyyətinə varmayanların bir çoxu da hesab edir ki, guya, borçalılar Azərbaycana, xüsusilə Bakıya köçməyə meyilli olduqlarından baş verən hadisələri şişirdirlər.

Azərbaycanlıların yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmalarına, şübhəsiz ki, bu amillərin bu və digər dərəcədə təsiri olmuş və hələ də qalmaqdadır. Lakin bunların heç biri həlledici amil deyil və ola da bilməz. Fikrimizcə, hadisələrin bir neçə əsas səbəbi var. Bunun üçün son iki yüz ildə baş verən tarixi hadisələrin mahiyyətinə və qısa xronologiyasına nəzər salmaq yerinə düşərdi.

Bugünkü Gürcüstan Borçalısı qədim və klassik Borçalının yarısıdır. 1918-ci il Ermənistan–Gürcüstan müharibəsi nəticəsində Borçalının bir hissəsini – Gümrü, Cəlaloğlu, Pəmbək və Lorunu ermənilər işğal etmiş, beləliklə, vahid ərazi və orada məskunlaşan soydaşlarımız parçalanmaya məruz qalmışlar. 1989-cu ildə ermənilər Azərbaycan türklərini tarixi



vətənlərindən son nəfərinə kimi qovdular. Bu olaylar gürcü millətçilərini də iştaha gətirdi.

Qeyd edək ki, ermənilər türklərin Borçalıdan tam çıxarılmasını istədikləri halda, gürcülər onların qismən çıxarılmasına çalışırlar. Gürcüstanın Ermənistanla sərhədboyu ərazilərində türklərin yerləşməsi erməniləri tarixboyu narahat edib. Digər tərəfdən Azərbaycanla Türkiyə arasında dəhliz olan Borçalı, eyni zamanda Ahısxa, Ahılkələk, Baqdanovkada, Adıgündə məskunlaşan ermənilərlə Ermənistan arasında bir manedir. Borçalının boşalması ilə Ermənistan Ahılkələk, Adıgün və Aspinza bölgəsinə dəhliz əldə etmiş olar, əvəzində Azərbaycan–Türkiyə dəhlizi bağlanardı. Erməni tərəfi məhz bu məqsədlə bölgədə gürcü–türk konfliktini daim qızışdırır, öz ad və soyadlarını dəyişmiş, «gürcüləşmiş» təxminən 185 mindən çox erməni bu konfliktdə xüsusi rol oynayırdı.[50]

Gürcülərin soydaşlarımızın ancaq bir qismini qovmaqda məqsədləri nədir? Tarixi təcrübə göstərir ki, gürcülər Gürcüstanın hansı ərazisindən türkləri çıxarıblarsa, ora dərhal ermənilər yiyələnib (Ahısxa, Aspinza, Adıgün, Ahılkələk, Baqdanovka, Borjom, Borçalıda isə 1940–1950-ci illərdə boşalan kəndlər və s.). İndi bu təcrübəni nəzərə alaraq, gürcülər türklərin boşaltdığı yerlərdə dərhal özləri məskunlaşırlar. Əgər boşalan evlərə müştəri yoxdursa, prosesi müvəqqəti dayandırırlar. Bolnisi, Dmanisi rayonlarında, Qazreti qəsəbəsində, Dmanisi rayonunun Muğanlı, Saatlı, Salamməlik kəndlərində gürcülər bu yolla məskunlaşıblar. Başqa bir məsələ isə gürcülərin demoqrafik vəziyyətlərinin ağır olmasıdır. Onlar «tatarların» (türkləri belə adlandırırlar) say artımından ciddi narahatdırlar. Bu səbəbdən də Qafqazda çaxnaşma düşən kimi gürcülər fürsəti əldən verməyib «seyrəltmə» əməliyyatı aparırlar. Bəs «seyrəldilən» hansı təbəqədir? Aydın məsələdir ki, gürcü mətbuatı emosiyaları qızışdırmaqla şovinist dalğaların baş alıb getməsinə rəvac verdi. Açıq-aşkar

[50] Yerli cəmiyyətlərin verdiyi məlumata əsasən. Təqribi hesablamalar baxımından.

bəyan etdilər ki, bizə tatarların (azərbaycanlıların – M.S.) 20–25 faiz işçi qüvvəsi – «qul əməyi» lazımdır. Bu səbəbdən gürcülər soydaşlarımızın tam qovulmasının tərəfdarı deyillər. Məkrli-hiyləgər və ermənilərə nisbətən, təbiətən mülayim olan gürcülərə sakit və zəhmətkeş, yaxşı əkinçi və maldar olan türklərin bölgələrdə qalması daha faydalıdır.

Ayrı-seçkiliyin öz ənənəvi tarixi kökü var. Bu sahədə gürcülər kifayət qədər təcrübəyə malikdirlər. Gürcüstan Rusiyaya birləşdirildikdən sonra Ahısxa, Adıgün türkləri sıxışdırılıb qovulmağa məruz qaldılar. Boşalan ərazilərə yüz mindən çox erməni köçürüldü. Beləliklə, Borçalının arxası qismən boşaldı, onun Türkiyə ilə əlaqələri zəiflədi. On-on beş ildən sonra, yəni XIX əsrin II yarısında Borçalının özündə türklərin sıxışdırılması başladı. Təqiblər nəticəsində əhalinin bir qismi Türkiyəyə qaçıb Ərzurum, Anadolu və Qars nahiyəsində məskunlaşdı. 1918-ci ildə Borçalı xain əllərlə parçalandı, onun ərazisi kiçildildi. 1937-ci ildə başlanan repressiya bölgənin ziyalılarına baha başa gəldi, onların sırasını seyrəltdi, intellektual potensialına öldürücü zərbə vurdu. 1944-cü ildə Ahısxa, Adıgün, Aspinza, Borjom, Axalsix, Ahılkələk türklərinin dəhşətli deportasiyasından gözü doymayan Stalin 1947-ci ildə Borçalı türklərinin tam deportasiyasını planlaşdırdı. Bu zorakılıq aktı qismən həyata keçirilirdi. 1952-ci ilə qədər Borçalı türklərinin bir qismi Türkiyəyə qaçdı, bir qismi isə «İran azərbaycanlıları» adı altında bölgədən sürgün edildi. Stalinin ölümü bu prosesi yarımçıq qoydu.

Gizli şəkildə gedən diskriminasiya 1988-ci ildə yenidən baş qaldırdı. Əvvəlcə gürcü mətbuatı «qonaq», «gəlmə» kampaniyası ilə soydaşlarımıza ideoloji və psixoloji hücuma başladı. Mətbuat səhifələrində türklər «qonaq» adlandırılır, gürcü mədəniyyətinə ziyan vuran, eyib gətirən tayfa birliyi kimi qələmə verilirdi. Açıq-aşkar bəyan edilirdi ki, «tatarlar» bu torpaqlara gəlmədilər, onlar ən münbit torpaqlara yiyələnib, sürətlə artaraq gürcü millətinin demoqrafik nisbətini dəyişdirir.



Mətbuatda yazılar və məsuliyyətsiz bəyanatlar gürcülərin millətçilik hislərini qızışdırır, onlarda düşmənçilik əhvali-ruhiyyəsini gücləndirirdi.

Antitürk, antiazərbaycan təbliğat kampaniyası öz işini gördükdən sonra, 1989-cu ilin iyun ayında Borçalıda qəsdən əhali arasında toqquşma təşkil edildi. Əslində, bölgəyə yeridilən qoşun əhalini dədə-baba yurdundan didərgin salmaq üçün bir bəhanə idi. Gürcülər yaxşı bilirdilər ki, bölgədəki soydaşlarımızı Ermənistan türklərinin qovulması sarsıtmış, onlarda qorxu yaratmışdı. Bu vəziyyətdən istifadə edən gürcü rəsmi dairələri DİN-in sabiq müavini general Şadurinin başçılığı altında bölgəyə xüsusi təyinatlı qoşun yeritdilər. Beləliklə, əhalinin kütləvi qovulması prosesi başlandı. Nəticədə Bolnis rayonunun mərkəzi tam boşaldı. Bu rayonun əhalisinin 70 faizini türklər təşkil edirdi. 1990–1991-ci illərdə rayon mərkəzində cəmi 15 ailə qaldı. Burada 80-dən artıq ev partladılıb yandırılmış, kütləvi həbslər aparılmışdı. Şəhərtipli Qazreti qəsəbəsində yaşayan 450 türk ailəsinin çoxu qovuldu. Beləliklə, Marneuli və Dmanisi arasında yerləşən Bolnisi və Qazreti «təmizləndi». Növbəti hədəf Dmanisi idi. Bu rayon mərkəzinin də əhalisinin 65 faizi türklərdən ibarət idi. 80-ci illərin axırında isə iki faizə endi. Əlavə şərhə ehtiyac yoxdur. Rayonun 43 türk kəndindən üçü – Muğanlı, Saatlı, Salamməlik tamamilə boşaldıldı, digər kəndlərin isə hər birindən iyirmi-otuz ailə Bakıya qaçmağa məcbur oldu.

1990-cı ildə Muğanlı və Saatlı kəndləri milliyətcə erməni, gürcü və svanlara ucuz qiymətə satıldı.

Marneuli və Qardabani rayonlarında yuxarıda göstərdiyimiz sahədə oxşar proses təkrarlanmaqdadır. Bu rayonlar böyük olduğundan hadisələr özünü qabarıq biruzə vermir. Sadəcə olaraq, bölgədə vəzifədə olan yerli Azərbaycan kadrları işdən qovuldu...

Gürcülər Qabal bölgəsində fəallaşdılar. Burada da əsas məqsəd Kaxetiya ərazilərini türklərdən «təmizləməkdir». Digər bir məkrli niyyət Qabalın 15 minlik əhalisini qorxuzub

Azərbaycana qovmaqdır. Gürcü dairələrinin fikrincə, qovulan qaballılar qəzəblənərək Qax, Zaqatala, Balakən rayonlarında məskunlaşan ingiloyları sıxışdırıb Gürcüstana qovmalı, nəticədə gürcülər Marneuli və Qardabanidən soydaşlarımızı qovmaq üçün arqument əldə etməlidirlər.

Artıq, demək olar ki, bu gün (1990-1995) Gürcüstan terrorizmin eksperiment meydanına çevrilib. Burada terrorçular, oğrular, hərbçilər soydaşlarımızın üzərində yeni-yeni praktiki metodları sınaqdan keçirirlər. Fikrimizi təsdiq və dəqiq ifadə etmək üçün konkret faktlara və hadisələrə müraciət edək.

Azərbaycan türkləri kütləvi şəkildə işdən qovulur, bölgədə işsizlik və səfalət baş alıb gedir. Belə şəraitdə ziyalılar respublikanı tərk etməyə məcbur olurlar. Nəticədə bölgənin intellektual potensialı zəifləyir, bu da gürcülərin ancaq işçi qüvvəsi saxlamaq istəyini reallığa çevirir.

Yerli əhalinin iradəsinə əks olaraq türk kəndlərində rəhbər vəzifələrə (yerli təsərrüfat sahələrində) gürcülər və svanlar təyin olunur, əhali narazılıq etdikdə müxtəlif təzyiq üsullarına (hədə-qorxuya, şantaja) əl atılır. İş o yerə gəlib çatır ki, türklərin təhsil aldığı ümumtəhsil məktəblərinə də direktorlar artıq gürcülərdən təyin edilir (Dmanisi rayonu).

Nəqliyyat işləmir, rayonlararası avtobuslar yığışdırılıb. Kəndlərlə şəhər, rayon mərkəzləri arasında əlaqələr kəsilib.

Əhalini daim qorxu və təşviş içərisində saxlamaq üçün vətəndaşların şəxsi mənzillərində tez-tez axtarışlar aparılır, şantajdan, şərdən istifadə edərək evdəki qiymətli əşyaları, pulları mənimsəyirlər. Əhalini kasıb salmaq üçün hörmətli adamları oğurlayıb aparır, sonra külli-miqdarda pul (3–15 milyon rub.) alıb qaytarırlar. Ən qorxulusu da odur ki, qadınların da artıq bu məqsədlə oğurlanmasına başlanılıb. Özü də hadisələr rəsmi dövlət orqanlarının gözü qarşısında baş verir. Azərbaycanlıların yaşadığı mənzillərdə, kəndlərdə silahlı basqınlar adi hal alıb. Yaraqlı dəstələr günün günorta çağı azərbaycanlılar yaşayan kəndlərdə silah işlədir, qəsdən münaqişə törədir və etiraz edənləri güllələyirlər. Rəsmi dairələr cinayətkarları tanısalar da, heç bir tədbir görmür, əksinə, faktları ört-basdır edirlər.



Gürcüstan Respublikasından müvəqqəti olaraq kənara işləməyə, oxumağa gedən gənclər öz doğma evlərinə qayıdanda pasport qeydiyyatına götürülmürlər.

Ev tikmək istəyən soydaşlarımıza torpaq sahəsi verilmir, özəlləşdirmə siyasəti ilə bağlı ciddi ayrı-seçkilik salınır. Azərbaycan kəndlərinə məxsus torpaqlar icarə adı ilə gürcülərə (şəhər hakimiyyətinə) verilir. Azərbaycan türklərinin isə həmin torpaqlarda muzdlu fəhlə kimi işləməkdən savayı, başqa əlacları qalmır. Beləliklə də, yerli sakinlərin əməyi qul əməyinə çevrilir.

Gürcüstan Azərbaycan türklərinin yaratdıqları icmalar, birliklər və cəmiyyətlər rəsmi orqanlar tərəfindən çox pis qarşılanır.

Heç bir tarixi əsası olmadan əski türk kəndlərinin adları qondarma gürcü adları ilə əvəz edilir. Bu kampaniya hazırda kütləvi şəkildə davam etməkdədir.

Azərbaycan tarixinin və coğrafiyasının uzun illərdən bəri tədrisinə imkan verilməməsi azmış kimi, indi də Azərbaycan türklərinin oxuduğu orta ümumtəhsil məktəbləri səkkizillik təhsil sisteminə çevrilir. Uşaq bağçaları bağlanılır.

Azərbaycan dilində rayon qəzetləri bağlanmış, «Gürcüstan» qəzetinin isə formatı kiçildilmiş, dövriliyi azaldılmışdır (90-cı illərin ortalarından başlayaraq azərbaycanlılara qarşı münasibət nisbətən mülayimləşmək üzrədir).

Əhali süni yollarla ciddi ərzaq çətinliyi qarşısında qoyulur, xüsusilə dağ kəndlərinə heç bir ərzaq göndərilmirdi (1995). Xalq çörəkdən, yanacaqdan korluq çəkirdi. Bəzi əliəyrilər, qanıqarışıqlar da bundan varlanmaq məqsədi ilə istifadə edir. Təəssüf ki, Azərbaycanın bir çox işbazları da onlarla əlaqəyə girib, möhtəkirlik edirdilər.

90-cı illərdə soydaşlarımızı Abxaziyaya göndərmək adı altında hərbi xidmətə çağırırdılar. Əslində, dövlətin belə qə-

ları, rəsmi göstərişi yox idi. Sadəcə olaraq, yerlərdə bir qrup adamlar hərbi çağırış vərəqələri paylayır, müəyyən məbləğdə pul aldıqdan sonra onların müharibəyə cəlb olunmayacağını bildirirdilər. Bu vəziyyət qorxu yaradaraq azərbaycanlıların kənara axınına yeni təkan vermişdi.

Terrorçular, oğrular və quldurlar yerli ermənilər və Ermənistandakı məsləkdaşları ilə əlaqəyə girib, mal-qaranı, qoyun sürülərini oğurlayıb Ermənistana keçirirlər. Rayon xəstəxanalarında (Dmanisi, Bolnisi) həkimlər yerli soydaşlarımızın müalicəsi ilə məşğul olmur, bu səbəbdən də onlar xəstələrini ya Marneuli şəhər xəstəxanasına, ya da Azərbaycanın müxtəlif xəstəxanalarına gətirmək məcburiyyətində qalırlar.

Bunları nəzərə alaraq, onu qeyd etmək lazımdır ki, bu gün Gürcüstanda legitim dövlət qurumu yoxdur (1993–1995), elə vəziyyəti mürəkkəbləşdirən də məhz bu amildir. Əslində, rəsmi Gürcüstan kənar dövlətlərin onunla əlaqəsini bu bəhanə ilə məhdudlaşdırır, diplomatik qapıları özlərinə sərfəli dövlətlərin üzünə açırlar.

Respublikadakı keçmiş silahlı birləşmələrin rəhbərləri – T.Kitovani və C.İoseliani Dövlət Şurasında məsul vəzifədədirlər və tabeliklərində olan qoşun birləşmələrinin fəaliyyəti üçün hüquqi və siyasi cəhətdən cavabdeh idilər (1990–1995). Belə olan tərzdə Gürcüstandakı soydaşlarımızın terrora məruz qalmasında (əsasən hərbçilər tərəfindən) siyasi durumun sabit olmaması, dövlətin qeyri-legitimliyi, sadəcə olaraq, bəhanə və yaxud da gözə kül üfürməkdir. Əslində, respublikada xaotik vəziyyətin ömrünün uzanmasında marağı olan dairələr var idi. Çünki belə şəraitdə bir qrup adam külli miqdarda sərvət toplayır, millətçilər isə «Gürcüstanın təmizlənməsi» missiyasının başa çatması yolunda əlverişli imkan əldə edirdilər.

Abxaziya ilə münasibətlərdə qəti imkan tədbiri kimi hərbi yolun seçilməsi də dediklərimizi sübut edir.

Bəzi siyasətçilərin də etiraf etdiyi kimi, E.Şevarnadze, Kitovani və İoseliani milli məsələdə eyni mövqedən çıxış



edirlər. Əslində, vəziyyət başqa cürdür, yəni əksinədir. Belə olmasaydı, Şevarnadze hərbi birləşmələrin bu iki nüfuzlu rəhbərlərini Osetiya ilə mənasız münaqişədən yayındırıb, Abxaziyaya istiqamətləndirə bilməzdi (1990–1995). Bu addımla Şevarnadze Gürcüstanla Şimali Qafqaz xalqlarının münaqişəsini gücləndirərək Ümumqafqaz evinə güclü zərbə vurdu, Rusiyaya sədaqətini bir daha nümayiş etdirdi. Çünki Ümumqafqaz evi Rusiyanın əl-ayağının Qafqazdan yığışdırılması deməkdir. Şevarnadzenin Gürcüstanda islam fundamentalizminin dirçəlməsi barədəki əsassız müddəası da Rusiya ilə Qamsaxurdiyanın qırdığı bağları bərpa etmək üçün psixoloji zəmin hazırladı. Belə ziyanlı fikirlər, eyni zamanda gürcülərin dağlıq ərazidə məskunlaşan müsəlmanlara qarşı səfərbər olunmasına, onlarda dini hislərin qızışdırılmasına xidmət edir. Məhz bu amil soydaşlarımızla gürcülərin subordinasiyasını daha da qəlizləşdirə bilər. Digər tərəfdən, Şevarnadze Abxaziyada Türkiyənin mövqeyinə işarə edərək Rusiyanın rəsmi dairələrini ayıldır. Təsadüfi deyil ki, o, Moskvadan qayıdan kimi Abxaziyanı açıq şəkildə hədələməyə başladı (1991–1993). Çünki Osetiya – Gürcüstan münaqişəsində Rusiya Osetiyanı açıq-aşkar müdafiə edirdisə, Gürcüstan–Abxaziya münaqişəsində o, gizli şəkildə Gürcüstanı müdafiəyə meyilli idi. Çünki Rusiya həm Türkiyənin bölgədə nüfuzunun və təsir dairəsinin artmasından, həm də Abxaziyanın müstəqilliyi ilə Dağlıq Qafqazda müstəqillik uğrunda mübarizənin güclənməsindən ehtiyat edir. Artıq belə proses başlayıb (1991–1995).

Gürcüstanda «islam fundamentalizmi»nin əsassız olmasını sübut etmək üçün 500 minə qədər soydaşımızın fəaliyyət göstərən cəmi iki məscidinin olması kifayət edər. Bir də axı, sovet imperiyası nə vaxt imkan vermişdir ki, onun tabeliyində olan müsəlmanlar öz dinlərini tədqiq edib öyrənsinlər. Bu gün adamların 90 faizdən çoxu kəlmeyi-şəhadətini belə bilmir; Gürcüstan müsəlmanlarını islam fundamentalistləri kimi qələmə vermək, sadəcə, ara qızışdırmaqdır. Vaxtilə Azərbay-

candakı azadlıq hərəkatına da beləcə don geydirilirdi. İndi isə Şevarnadze soydaşlarımızın insan hüquqları uğrunda mübarizəsinə, qanuni tələblərinə hadisələri qabaqlayaraq «islamçılıq» donu biçir. Bu dəlil ilə sabah soydaşlarımız bölgədən qovulsa, biz dünyanı çətin inandıra bilərik ki, onlar «islam fundamentalistləri» deyil, əzilən, adi insan hüquqları tapdanan vətəndaşlardır (Məlumat 1995–1998-ci illərə aiddir).

Abxaziya müharibəsinə Gürcüstan türklərinin cəlb edilməsi də siyasi gedişdir. Bu addımla gürcülər həm dağlıq ərazidə yaşayan müsəlmanları yumşaltmaq, həm də Türkiyə və Azərbaycanı öz tərəfinə çəkmək istəyir. Bu isə dağlıq ərazilərdə yaşayan əhali ilə isti münasibətlərimizin soyuması demək olardı. Gürcüstandakı Azərbaycan türklərinin Osetiya ilə de-yil, məhz Abxaziya ilə müharibəyə cəlb edilməsi məsələsi də belə ideyaya xidmət edir.

Bu günləri çox «düzgün» olaraq erməni millətçiləri, Gürcüstanın dağlıq – Cavaxeti bölgəsindəki, Ahılkələk, Baqdanovka və s. inzibati əraziləri özlərinə çıxmış və bura Ermənistan torpağıdır deyirlər (2000–2006). Bu səbəbin başlanğıcı Gürcü-Azərbaycan-Axıska problemi olmuşdur...

Bu baxımdan Borçalıda və onun ətraf bölgələrində məskunlaşmış azəri türklərinin ictimai-siyasi problemlərinin tənzim edilməsi fonunda əsas səbəblərin həlli üçün xalqımız çox böyük tələbkarlıqla qeyd olunan səbəbləri saf-çürük etməlidir.

Fikrimizcə, birinci səbəb – Gürcüstan dövlətinin bütün hakimiyyətləri dövründə milli ayrı-seçkilik siyasəti; ikinci səbəb – Azərbaycan dövlətinin soydaşlarımızın Gürcüstan ərazisində yaşadığı rayonlarda hərbi-strateji və iqtisadi-coğrafi baxımdan vaxtilə lazımi dərəcədə qiymətləndirməməsi, onların aqibətinə keçmiş hakimiyyət dövründə qeyri-ciddi yanaşması və hadisələrin vaxtında qarşısını almaq üçün dövlətlərarası münasibətlər fonundan səmərəli istifadə etməməsi; üçüncü səbəb isə genetik yaddaşın unutqanlığı və bu səbəbdən geniş xalq kütləsinin ehtiyatsızlığının və arxayınçılığının meydana gəlməsidir.

Bunları yaxşı dərk etmək üçün bir neçə faktı nəzərdən keçirək.



1988-ci ildə «Gürcüstan gürcülər üçündür» kampaniyası geniş vüsət tapdı. Respublikanın bütün kütləvi informasiya vasitələri tam gücü ilə bu kampaniyanın təbliğinə və həyata keçirilməsinə qoşuldu.

Azərbaycan türkləri «tatrebi» adı ilə gəlmələr siyahısına daxil edildi. Milliyyətcə gürcü tayfalarının bir qolu olan meqrel-Qamsaxurdiya və Kostava 600 nəfərə qədər «gürcü ciqiti» ndən ibarət silahlı dəstələr yaratdı. Bunlara bəzən silahlı «ayaqyalınlar» (yerli hakimiyyətin ifadəsidir) da deyirlər. Bu dəstələr Azərbaycan türklərinin yığcam yaşadıqları bölgələrdə açıq-açığına münaqişə yaratmaqla məşğul oldular. Bunun acı nəticələri belədir. Dmanisi şəhərindən 700-ə yaxın, Bolnisi şəhərindən 2000-dən çox, Marneuli şəhərindən 300-ə yaxın, Qardabani şəhərindən 200-dən yuxarı, Tbilisi, Rustavi şəhərlərindən isə müvafiq olaraq 30 min, 13 min azərbaycanlı türkü isə işdən çıxarılırdı. 200 mindən artıq soydaşımız qaçmağa məcbur oldu. Əlbəttə, bunların arasında keçmiş rayon katibindən tutmuş, sıravi makinaçıya kimi vəzifə sahibləri var idi. Beləliklə, Gürcüstan dövlətində heç kəs bunların insan hüquqlarının bu cür vəhşicəsinə tapdanmasına məhəl qoymadı, şikayətlər qəbul edilmədi.

«Soyqırımın» ikinci mərhələsi azəri türklərinin ev-eşiklərindən didərgin salınması oldu. Bolnisidə 800-ə yaxın ev dağıdılıb viran edildi. Bir günün ərzində Bolnisi (Qazreti) qəsəbəsindən 500 azərbaycanlı ailəsi yurd-yuvasından qovalandı, mənzilləri isə gürcü və svanlara verildi. Dmanisidə azərbaycanlı evlərini satmaq üçün xüsusi hökumət komissiyası yaradıldı. Bir neçə ay ərzində 2700-ə qədər ev, o cümlədən Muğanlı, Saatlı, Salamməlik, Hüseynkənd və s. kəndlər tamam boşaldıldı. Evlər və mənzillər, bir qayda olaraq, dəyərindən dəfələrlə aşağı qiymətə alınırdı. Pullar dövlət tərəfindən ödənilirdi. Bu proses sonralar da davam etdi (1993–1995).

Qamsaxurdiya və onun quldur dəstəsi respublikada hakimiyyəti ələ keçirəndən sonra milli ayrı-seçkilik siyasəti yeni konstitusiyasının birinci maddəsində «qanunlaşdırıldı».

Ona əsaslanaraq, soydaşlarımıza qarşı hər cür zorakılığa, insan hüquqlarının ayaq altına atılmasına, milli ləyaqətin alçaldılmasına yol verilirdi. Xalq, faktiki olaraq, siyasi-iqtisadi, sosial-psixoloji və maddi-mənəvi təzyiq altında qaldı. Özü də dövlət səviyyəsində. Köçkünlərin sayı 250 min nəfəri keçmişdi (1994). Bu proses indinin özündə də davam edir.

Milli ayrı-seçkilikdə gürcü millətçiləri ilə ermənilərin mövqeyi eynidir. Ermənilər də 1988-ci ildə «Ermənistan ermənilər üçündür» şüarını irəli sürdülər və öz məkrli niyyətlərinə nail oldular.

Gürcü millətçiləri də 90-cı illərin əvvəllərindən başladıqları əməllərini bu gün də davam etdirirlər.

Onların əməlləri ilə Ermənistanda tətbiq olunan gedişlərdə eyniliklər çoxdur. Bunu görməmək və ya qəbul etməmək maymaqlıqdır və uduzmaq üçün əla şansdır. Keçmiş hakimiyyət (Ə.Vəzirov və A.Mütəllibov) belə səhv mövqe tutdular və nəticə etibarilə uduzdular. Ağır vəziyyətdə qalan isə xalq oldu.

1993-cü ilin noyabrından müstəqil Azərbaycan dövlətinin rəhbərliyi, başda H.Əliyev olmaq şərti ilə bölgələrdə baş vermiş problemlərə daha dolğun və real müstəvidə yanaşmağa başladı. Müxtəlif səviyyəli danışıqlar aparılmış, iki dövlət arasında əlaqələrin genişləndirilməsi baxımından güzəştli variantlar seçilməsinə başlanılmışdır.

1993-cü il noyabr ayının 15-də isə 9 nəfərdən ibarət dövlət nümayəndə heyətinin Tbilis şəhərinə, Dmanisi və Marneuli rayonlarına səfərə çıxması, yerlərdə azəri türklərinə qarşı yönəldilmiş ögey münasibət və kriminogen vəziyyətdən çıxış yollarının araşdırılması baxımından faydalı olmuşdur. Bu səfərin müsbət nəticələri artıq öz bəhrəsini verməkdədir (1994–1995). Gürcüstanda Azərbaycan türklərinin bugünkü gü-nə düşməsinə səbəb olan gürcü knyazları, dövlət qrumları və məmurları tərəfindən təcavüzə məruz qaldığını, genefonda zərbələr vurduğunu böyüyən nəsillərdən gizlətmək, genetik



yaddaşı kütləşdirmək, ziyalılarımızın və siyasətçilərimizin bağışlanılmaz səhvidir.

Əgər bunu milli qarşıdurmanın yaranmaması xatirinə ediriksə, nəsillərin sayıqlığını itiririk. Millət ona haradan daş dəyə biləcəyini görməli və bilməlidir. Özünü müdafiyəyə həmişə hazır etməlidir. Genefondun toxunulmazlığı kimi müqəddəsliyi hər doğulan övlad, millət balası dərindən dərk etməlidir. Bizdə isə uzun illərdir ki, buna əhəmiyyət verilmir.

«Dədə Qorqud»u, Nizami Gəncəvini, Əmir Teymuru, Nəsirəddin Tusini, Şah İsmayıl Xətaini, Ağa Məhəmməd şah Qacarı, Nadir şahı və digər böyük türk müdriklərini və sərkərdələrini dərindən öyrənənlər bilirlər ki, Ermənistanın indiki ərazisində olduğu kimi, ətraf bölgələrdəki torpaqlarda yaşayan soydaşlarımıza qarşı soyqırım, genefonda xəyanət dəfələrlə açıq nümayiş etdirilib. Yalnız qeyrətli sərkərdələr işə qarışandan sonra vəziyyət normallaşıb. Ona görə də biz son illərin hadisələrini, təsadüfi deyil, qonşu xaçpərəstlərin xalqımıza qarşı tarixən yeritdiyi soyqırım siyasətinin davamı kimi qiymətləndiririk. Bu irtica qüvvələri xalqımıza qarşı törətdikləri cinayətləri daim gizlədib, böyütdükləri nəsillərə yalnız bizimkilərin tədbir cavablarını öyrədiblər, bizi vəhşi kimi təqdim ediblər. Biz isə nə onların vəhşiliklərini, nə də verilən cavabları balalarımıza öyrətməmişik. Bu gün də öyrətməkdən ehtiyat edirik. Bununla da nəsillərimizin özünü müdafiəsinə zərbələr endiririk.

İndiki vəziyyətdən çıxış yolunu yenicə müstəqillik qazanmış, tarixən qonşu olmuş və bəşər qaldıqca qonşuluqda yaşayacaq iki dövlətin: Azərbaycan və Gürcüstan respublikalarının, həmçinin bir-birinin daxilində yaşayan iki xalqın arasında hərtərəfli əlaqələrin genişləndirilməsində görmək olar. Bu əlaqələr özlüyündə iqtisadi, sosial və mədəni sahələrin hamısını əhatə etməlidir. Və sağlam niyyətlər, saf əməllər zəminində qurulub yüksəlməlidir. Əlaqələr bütün səviyyələrdə: dövlətlər, hökumətlər, partiyalar, ictimai hərəkatlar,

xeyriyyə cəmiyyətləri, gənclər birlikləri, insan hüquqlarını müdafiə komitələri, elmi idarələr, tədris müəssisələri, mədəniyyət mərkəzləri, kütləvi informasiya vasitələri, assosiasiyalar, xalq diplomatiyası, ailələr səviyyəsində ardıcıl olaraq aparılmalıdır. Ona görə də dövlətlərarası kompleks tədbirlər proqramı və bu proqramın konsepsiyası hazırlanıb imzalanmalıdır. Bütün qurumların fəaliyyəti də həmin proqramda nəzərdə tutulan məqsədlərin həyata keçirilməsinə yönəldilməlidir. Proqramda yaxın və uzaq məqsədlər nəzərdə tutulmalıdır. Yaxın məqsəd soydaşlarımızın Azərbaycana olan axınının qarşısını almaq olmalıdır artıq bu, 1995-ci ildən etibarən həyata keçirilmişdir. Məcburi köçkünlərin yurdlarına qayıtmasını tənzim etmək və bu məqsədə nail olmaq üçün aşağıdakı tədbirləri həyata keçirmək gərəkdir:

1. Gürcüstan dövləti azərbaycanlılara qarşı milli ayrıseçkilik siyasətini dəyişməli, beynəlxalq insan hüquqlarını bərpa etməli və onun bir daha pozulmayacağına rəsmi zəmanət verməlidir.
2. Yalnız milli qarşıdurmaya görə qanunsuz – işdən qovulub çıxarılanların hamısı əvvəlki və ya ona bərabər tutulan iş yerlərinə bərpa edilsinlər.
3. Zor gücünə və ya aldatma yolu ilə evləri (Dmanisi, Bolnisi, Kazireti, Tbilisi, Rustavi), həyətyanı sahələri, əmlak və s. əllərindən alınmışların hamısına sahib olduqları halal malları qaytarılsın.
4. 1988-ci ildən bəri respublikanı məcburi tərk etmiş Azərbaycan türklərinin öz yurdlarına qaytarılması üçün Gürcüstan hökuməti xalqa rəsmi müraciət etsin. Bu zaman heç bir aldatmaya, siyasi oyuna yol verilməməsini Azərbaycan və Gürcüstan hökumətlərinin komissiyaları rəsmən nəzarət altına alsınlar.
5. Bağlanmış və fəaliyyətini dayandırmış Azərbaycan məktəbləri, mədəniyyət evləri, mətbuat və s. təşkilatlar yenidən fəaliyyətə başlasınlar.



6. Hər iki xalq arasında əmin-amanlıq yaradıldıqdan sonra mədəniyyətin və incəsənətin inkişafına dövlət qayğısı göstərilsin.
7. Azərbaycan kəndlərində (əhalisinin milli tərkibi 60%-dən yuxarı) yerli orqanların vəzifələri müstəsnasız olaraq xalqın nümayəndələrinə verilsin. Rayon, kənd, qəsəbə və şəhərlərdə rəhbər vəzifələr əhalinin faiz nisbəti əsasında seçilsin və təyin edilsin. Onların hakim dairələrdə işləməsinə şərait yaradılsın.
8. Azərbaycanlılar yaşayan bütün bölgələrdə Azərbaycan və gürcü televiziyasına baxmağa texniki imkanlar yaradılsın. Özəl telekanallarda Azərbaycan türkləri haqqında verlişlər təşkil edildikdə, buna dövlət tərəfindən nəzarət olunsun.
9. Son illərdə xalqa vurulmuş mənəvi və psixoloji zərbəni, qorxu və kriminogen prosesləri aradan qaldırmaq üçün hər iki dövlət əməli tədbirlər həyata keçirsin. Milli barışıq üçün regionda yaşayan gürcü və svanlara müraciət edilsin.
10. Heç bir əsası olmadan dəyişdirilmiş – «gürcüləşdirilmiş» qədim tarixi-coğrafi (küçə, kənd, qəsəbə və şəhər) adlar yenidən əvvəlki vəziyyətə qaytarılıb bərpa olunsun.
11. Uzun illərdən bəri unudulmuş və yaddan çıxarılmış din və dini əlaqələr, dini idarələrin açılması və bərpası kimi problemlərin həlli tezləşdirilməli və onun təbliğinin təşkil olunması dövlət səviyyəsində aparılmalıdır.
12. Bölgələrdə olan bir sıra tarixi və mədəniyyət abidələri dövlət komissiyası tərəfindən yoxlanılıb, qeydiyyata alınmalıdır.
13. Bölgələrdə gürcü-Azərbaycan dostluq və qardaşlıq münasibətlərini yaşadıb tərənnüm etdirən sənədli tarixi filmlərin çəkilişinə başlanılmalıdır.

14. Gürcüstan Respublikası Nazirlər Kabinetinin göstərişinə əsasən əkinəyararlı və örüş sahələri milliyyətindən asılı olmayaraq, vətəndaşlara qanun çərçivəsi daxilində proporsional şəkildə verilsin.

Bunları Azərbaycan–Gürcüstan münasibətlərinin sağlam əsasda qurulmasının ilkin şərtləri kimi qəbul etmək olar.

Nəticə etibarilə onu demək yerinə düşər ki, Gürcüstan hökuməti *milli ayrı-seçkilik siyasətini respublikanın ümumi* problemləri ilə pərdələnməyə, xalqın deportasiyasını da onun öz ayağına yazmağı bacarır. «Azərbaycanlılar Gürcüstanı niyə tərk edirlər?» sualına Gürcüstanın siyasi dairələrindəki rəsmi şəxslərin cavabı belədir: «Azərbaycan varlı respublikadır və onların vətənidir. Ürəkləri istəyir, öz vətənlərinə qayıdırlar. Gürcüstan hökuməti humanistlik göstərir, onların istəyinə mane olmur». Buradan aydın olur ki, özlə-rini «demokratik», «humanist» adlandıran «gürcü-erməni» millətpərəstləri soydaşlarımıza hansı «qayğı ilə yanaşırlar». Unutmamalıyıq ki, soydaşlarımız artıq Gürcüstanın hakim dairələri tərəfindən müdafiə olunan «gürcü-erməni-svan» quldur birləşmələrinin təzyiqinə dözə bilmirlər. Onları köçkünlüyə vadar edən də budur. Xalqın *diqqətini həqiqətdən* yayındırmağın özü də bir cinayətdir. Bütün bunları nəzərə alıb, onu qeyd etməliyik ki, artıq son bir neçə ildir ki, Borçalı və ətraf bölgələrdə vəziyyət Azərbaycan türklərinə qarşı sabitləşib, öz əvvəlki axarına düşməkdədir. Gürcüstan televiziyası və radiosu ilə didərgin soydaşlarımıza öz doğma yurdlarına qayıtmaq müraciəti olunmuşdur. Dediklərimiz 2004-cü ildə demokratik seçki yolu ilə ölkənin prezidenti seçilən cənab Mixail Saakaşvili vəzifəyə gəldiyi elə ilk gündən soydaşlarımıza göstərdiyi qayğı və mərhəmət yuxarıda qeyd etdiklərimizi bir daha sübuta yetirir.

Cənab M.Saakaşvili öz çıxışlarında təkrar-təkrar vurğulayıb ki, müstəqil Gürcüstan dövlətində yaşayıb-yaradan bütün millətlər üçün bu ərazi yaşamaq üçün vətəndir... Kimsə, başqa mənada yaşayıb-yaratmaq istəyirsə (əsasən erməniləri nəzərdə tutur) onlar ölkəni istədiyi vaxt tərk edə bilərlər. Bu məhəbbət, bu hörmət 2005-ci ilin mayına qədər davam etdi. Hazırda bu proses dəyişərək əvvəlki qaydasına düşdü, ətraf bölgələrdə yenidən çaxnaşmalar baş qaldırıb...



### § 2. Gürcüstanın azərbaycanlılar yaşayan digər bölgələrində ictimai-siyasi durum

Bu məsələyə əsərin III fəslinin 1-ci paraqrafında ötəri də olsa toxunulmuşdur. Lakin bu paraqrafda biz çalışmışıq ki, tədqiqat obyektini ictimaiyyətin nəzərinə daha ətraflı, daha məntiqli və daha real faktlar əsasında təqdim edək.

XI–XIII əsrlərdən başlayaraq Azərbaycan və Gürcüstana səlcuq və qıpçaqların yürüşü zamanı ölkənin adları çəkilən (Karel, Qaspi-Kaspi, Caqareco, Telavi, Laqodexi, Muxran, Qori və s) bölgələrində bu tayfaların bir qismi özlərinə sığınacaq tapdılar. Elə indiki Siqnaxi sözü də, çox güman ki, «sığınmaq» sözündən götürülmüşdür (M.S.). Odur ki, bu ərazilərdə o illərdən qalma türk tayfaları daim öz yaşayış areallarını ildən-ilə genişləndirmişlər. Orta əsrlərdə çox da dərinliyinə varmayan gürcülər və qeyri millətlər bu türk və müsəlman tayfalarının, demək olar ki, fərqinə varmamışlar. Yəni mehribancasına, çiyin-çiyinə bir bölgədə yaşayıb yaratmışlar. Sonradan, yəni XVIII əsrdən başlayaraq (ermənilərin Şərqi, Qərbi Gürcüstan və Kaxet bölgəsində yerləşməsindən sonra) Azərbaycan türklərinə və ümumiyyətlə, müsəlman əhalisinə laqeyd yanaşılmış onlara «yuxarıdan aşağı baxılmış, milli varlığı, dini və dili alçaldılmış, təşəkkülünə mane olunmuşdur».

Bu qeyri-insani baxışlar və münasibətlər bir xalqın digər xalqa verdiyi qeyri-obyektiv, sitəmlər illərlə üst-üstə qalanıb talanaraq, XX əsrin ortalarından başlayaraq bu günədək isə (1994–1995-ci illərdə) öz məziyyətlərini daha bariz şəkildə

büruzə verməyə başladı. Bir qrup gürcü və gürcülibaslı ermənilərin təzyiqi nəticəsində Karel, Kaspi, Qabal, Qori, Muxran və s. məntəqələrdə türkdilli Azərbaycan məktəbləri yox dərəcəsinə endirildi. Bu bölgələrdə yaşayan Azərbaycan türklərinin əsrlərlə doğma dili və dini yasaq olmuş, yeniyetmələr isə gürcü məktəblərində oxumuşlar. Buna görə də həmin ərazilərdə Azərbaycan xalqının maariflənməsi, adət-ənənə mərasimləri və s. gürcülərin «ixtiyar sahibliyi altında icra olunur...» Bunların davamı olaraq qeyd etməliyik ki, 80-ci illərin ortalarına kimi bəzi bölgələrdə xalq təsərrüfatının bir sıra sahələrində azərbaycanlıları da məsul və rəhbər vəzifədə görmək olurdu. Bütün SSRİ-də ara qarışan zaman bu bölgələrdə də «seyrəkləşmə», «kənarlaşma», «yadlaşma» kimi mənfi məfhumlar meydana atıldı.

Azərbaycan türkləri, bir qayda olaraq, bütün bölgələrin təsərrüfat və idarə rəhbərliyindən xaric edildi. Bölgələrdə oğurluq, əliəyrilik, ölüm hadisələri, uşaq və qadın oğurlanması, evlərin (azərbaycanlıların) yandırılması, sui-qəsdlər və s. kriminogen proseslər baş qaldırdı.

Qabal kəndində, bir gün ərzində iki qardaş təsərrüfat rəhbərliyindən azad edilib, aqibəti isə ölümlə nəticələnmişdir. Belə xəbərlər respublikanın Saqareco (Qaraçöp–Yormuğanlı kəndi), Laqodexi, Dağlıq Zəlyə–Ahılkələk bölgələrində və eyni olaraq Tbilisi, Rustavi şəhərlərindən də gəlirdi.

Qəribə burasıdır ki, belə hadisələr Azərbaycan türklərinin ən sıx və yığcam yaşadığı bölgələrdə baş verirdi.

1988–1989-cu illərdən başlayaraq 1995-ci ilin sentyabr ayına qədər adları qeyd olunan bölgələrdə azərbaycan türkləri yavan çörək üçün öz dədə-baba yurdlarından 200–250 km məsafə yol qət edərək Marneuli şəhərinin bazarlarına üz çevirdilər. Borçalı mahalının bu mərkəzi bölgəsində bütün gün ərzində fəaliyyət göstərən bazarlarda Karel, Kaspi, Saqareco, Laqodex, Muxran, Sərticala sakinlərinə və 1860-cı illərdə qorxu nəticəsində Borçalını tərk edib, Xoşuridə, Sığnaxda,



Zestafonda, Kutaisidə məskən salmış Azərbaycan türklərinə də rast gəlinirdi. Əlbəttə, bu hadisələrə biganə qalmaq olmaz. Ona görə həmişə, hər yerdə gözüaçıq, mübariz və tələbkar olmalıyıq. Zərbənin haradan və necə dəydiyini qısa vaxtda öyrənib əks-tədbirlər seçmək lazımdır.

Borçalıdan kənar bölgələrdə də ictimai-siyasi vəziyyətin forma və məzmun etibarilə yaxınlığı rus imperiyasından qalmış, bir qrup gürcü şovinistləri və erməni daşnaklarının siyasi oyunbazlığı nəticəsində yaranmışdır.

Müdrik siyasətçilərin apardığı son illərin təcrübəsi nəticəsində Gürcüstanın Azərbaycan türkləri yaşayan bölgələrində vəziyyət sabitləşmiş, yerlərdə əmin-amanlıq yaradılmış, dostluq və qardaşlıq körpüsü nisbətən sahmana salınmışdır. Borçalıda olduğu kimi, digər bölgələrdə də həyat öz axarına, öz məcrasına düşməkdədir.

## § 3. Avqust – 2008-ci il gürcü–rus müharibəsinin acı sonluğu

Tarixdən məlum olur ki, Gürcüstanda avqust hadisələrinin baş vermə səbəbləri çox qarışıq və mürəkkəb problemlər ucbatından yaranmışdır. Bu qarşıdurmanın ssenarisi ikiyüz bir il bundan öncə Rusiyada hazırlanmışdır. Bu faktın təsdiqlənməsi 1783-cü ildə İran–Osmanlı müharibəsinin təcavüzündən özünü qorumaq məqsədilə gürcülərin mepesi II İrakli ilə Rusiya imperatoru II Yekaterina arasında bağlanmış müqavilədə öz əksini tapmışdır. Bu müqavilədə qeyd olunur ki, Gürcüstan özünün tam suverenliyini itirməmək şərti ilə rus imperatorunun qayda və qanunlarına əməl edib, onun düşməninə düşmən kimi baxmalıdır.

Lakin tarixdən məlum olduğu kimi, bütün bu qeyd olunanlara məhəl qoymayan Rusiya imperatoru I Aleksandr, 17 il keçdikdən sonra müqavilənin şərtlərini pozaraq gürcü

mepesini ailəsi ilə birlikdə həbs edib, Rusiyaya sürgün edir və Gürcüstan torpağını əhalisi ilə birlikdə Rusiyanın kaloniyasına çevirir. Ölkənin düşdüyü bu vəziyyət 75 il davam etmiş və yalnız 1876-cı ildə tabeçilikdən azad olmuşdur. Tabeçilik dövründə Gürcüstanda Rusiyanın iki quberniyası – Tiflis və Kutais olmaqla, bir mahal (Qars) da yaradıldı.

Bu dövrdə çətinliklə də olsa gürcü xalqı öz torpağında bir yumruq kimi birləşib, düşdüyü qul vəziyyəti ilə barışmaz mövqe tutub və XIX əsrin əvvəllərində ölkədə milli-azadlıq hərəkatının fəaliyyətini kuliminasiya nöqtəsinə çatdırırlar.

1917-ci il oktyabr inqilabı–Polşa, Finlandiya, Latviya, Litva və Estoniyada olduğu kimi, Gürcüstana da «müstəqilliyə» doğru «uğurlu» yol açdı. Tezliklə Gürcüstanda da Milli Demokratik Respublika elan olundu.

Gürcüstanda dünyada misli görünməyən ən demokratik konstitusiyalardan biri qəbul olundu. Əvəzində vətəndaş müharibəsinin alovuna tuş gələn sovet Rusiyasının qonşuluğunda yaranmış siyasi çətinliklərə qarşı Gürcüstan azad, demokratik inkişaf yoluna üz qoydu. Qərbin bütün ölkələri ilə yanaşı, Rusiya da Gürcüstanın suverenliyini tanımalı oldu. Beləliklə, Gürcüstan 1920-ci ilin 7 mayında Rusiya ilə dostluq müqaviləsi bağladı. Bu müqaviləni Lenin imzaladı.

1917-ci il Oktyabr çevrilişi nəticəsində Rusiyada hakimiyyətə gələn bolşeviklər, Gürcüstan Respublikasının suverenliyinə barmaqarası baxırdılar. Bununla əlaqədar olaraq, 1918-ci ilin mart ayında Şimali Qafqazdan Gürcüstan ərazisinə gizli şəkildə bir neçə qrup xüsusi təyinatlı hərbi hissə dəstələri daxil oldu. Və nəticədə osetinlər arasında antigürcü təbliğatı öz işinə başladı. Beləliklə, regionda antigürcü üsyanın inspirasiyası baş verdi. Bu üsyanın yatırılmasında gürcülərlə çiyin-çiyinə borçalılar və digər azsaylı xalqların nümayəndələri də yaxından iştirak etdilər. Rusların gürcülər üzərinə 3-cü dəfə hücumu 1920-ci ilin baharında olmuşdur. Bu dəfə rusların hücumu sovet Azərbaycanı ərazisindən keçmişdir. Qeyd etmək lazımdır ki, bu hücumun da qarşısı gürcülər tərəfindən ləyaqətlə dəf edildi.



1921-ci ilin fevralında Rusiyanın XI Qızıl Ordusu Ermənistan ərazisindən Gürcüstan sərhədlərinə soxuldu. Sonra isə Abxaziyaya daxil oldu. Qüvvələrin bərabər olmadığı bu döyüşdə gürcü ordusu məğlub oldu. Gürcülər böyük dəstələrlə xarici ölkələrə mühacir olundular. Əsasən də Fransa ərazisinə. Beləliklə, Gürcüstan ərazisi bolşevik Rusiyası tərəfindən işğal olundu. Əvəzində Gürcüstan bolşevik diktaturası yarandı. Qələbəni əldə edən Rusiya dövləti onun tərəfindən iştirak edən hər bir kəsi, Gürcüstanın hesabına mükafatlandırdı. Bundan sonra Gürcüstanın mərkəzi hissəsində Cənubi Osetiya Muxtar vilayəti, ardınca Abxaziya Muxtar respublikası yaradıldı. Daha sonra isə Acarıstan Muxtar respublikası da yarandı. Beləliklə, buradan aydın olur ki, Gürcüstan ərazisi zaman-zaman parçalanmağa məruz qaldı. Daha sonra Rusiya totalitar rejimi Gürcüstan tarixində daha bir qanlı iz buraxdı. 1922–1924-cü illərdə gürcü aristokratiyasına qarşı hücumlar başladı.

Rəsmi məlumata görə, əhalinin 6,0 %-ni təşkil edən ziyalı ordusu və dövlət adamları fiziki təzyiqlərə məruz qaldı. Bəzi ziyalı və dövlət məmurları ailəsi ilə birlikdə 1937-ci ilin qurbanlarına çevrildi.

1941–1945-ci illər müharibəsində 380 min gürcüstanlı həlak oldu. 1943–1944-cü illərdə Gürcüstanın cənub-qərbində yaşayan Axısxa türkləri öz dədə-baba yurdlarından Qazaxıstanın və Qırğızıstanın gedər-gəlməz qumlu səhralarına sürgün edildi. Onların sayı yüz mindən artıq idi. Bu axısxalılar bütün çətinliklərə sinə gərərək, uzun illər vətənə qayıtmaq ümidi ilə yaşamalı oldular. Nəhayət, o gün gəlib çatdı. Stalinin (1956) ölümündən sonra məzlum axısxalılar dövlət tərəfindən bəraət qazandılar. O müddətdən 52 il keçməyinə baxmayaraq, axısxalıların gözü hələ də dədə-baba yurdu olan Adgün, Aspinza və Azğurdadır. Bunların ardınca rus imperi-

yasının əli ilə 1956-ci ildə Tbilisidə nümayiş vaxtı tələbələrlə rus əsgərləri arasında baş vermiş toqquşmanın acı nəticələrini qeyd etmək olar. Bu qarşıdurmada yüzlərlə mülki adam və tələbələr məhv edildi.

Bundan 33 il sonra, yəni 1989-cu ilin 9 aprel hadisələrini heç cür qeyd etməmək olmaz. Bu qanlı gündə 22 gənc tələbə öz həyatını vətən yolunda qurban verdi. Keçən illər ərzində bu ölkə milyona yaxın insan itirməyinə baxmayaraq, qan içən rus imperiyasının qoşunları 2008-ci ilin avqust ayının ortalarında müasir texnikanın gücündən istifadə edib, sülhsevər gürcü xalqına qarşı havadan və qurudan qırğına başladı. Müəyyən məlumatlara görə, bu 5 günlük müharibədə 3 mindən çox insan həlak oldu. Ölənlərin təxminən 70–80 %-ni mülki əhali təşkil edir. Qeyd etmək lazımdır ki, rusların gürcü xalqına qarşı olan nifrəti və onların genofonduna vurulmuş zərbə XVII–XVIII əsrlərdən (təxminən 1650–1750-ci illər) başlamışdır.

Ən dəhşətli zərbə bu illərdə genofonda dəymişdir. Təbii artımı elə də yuxarı olmayan gürcü və gürcü mənşəli xalqların içərisindən yeniyetmə və yaşı 25-ə qədər olan sağlam əhvallı qız və oğlanlar qrup halında gəmi vasitəsilə Yaxın və Uzaq Şərqə, Misir və Krıma göndərilirdi. Bu illərdə qəddar düşmənlər öz ordularının tərkibini yeniçər və məmlüklərlə əvəz edirdilər. Bütün bu sadalanan məsələlərdən aydın olur ki, gürcü genofondunun dağılıb, parçalanmasında rus və bir qrup gürcü çinovniklərinin rolu az olmamışdır.

Sual olunur! Doğrudanmı 2008-ci ilin avqust hadisələrinin ssenarisi orta əsrlərin sonunda yazılmışdır?.. Şübhəsiz ki, bunları təsdiq edən arxiv sənədləri və tarixi materiallar vardır. 1802-ci ildə Tiflisə daxil olmuş rus alayı, əvvəlcədən xəbər verildiyi kimi İran sərhədinə yeridilməliydi. Lakin bunun əksi baş verdi. Sioni kafedral monastrında toplanmış bir qrup gürcü ali təbəqəsinin nümayəndələrinin sığınacaq yerləri və süngülər, toplarla əhatəyə alınıb, rus generalı Lazaryevin, imperator Böyük Aleksandrın o vaxtı, *məxfi* saxlanan «Kartli – Kaxetiya»nın Rusiyaya «könüllü» birləşməsi haqqındakı qərarı oxundu. Bir il keçməmiş kürsüyə çıxmaq iddiası ilə Baqrotionilər sülaləsindən olan bir qrup zadəganları Rusiya ərazisinə köçürdülər. Beləliklə, təqiblərə məruz qalan Gürcüstan, onilliklər ərzində onun ərazisi – İmeretiya, Quriya, Odisi daha sonralar isə Svanetiya və Abxaziyaya parçalandı.



Nəticədə, bir müstəqil dövlət kimi Gürcüstanın ərazisi parçalanmağa məruz qalaraq öz dövlət statusunu itirdi.

Tarix boyu ruslar gürcülərə qarşı çox fitnələrə əl atmışlar. Xatırladaq ki, onlar Qafqazda öz nümayəndəliyini saxlamaq üçün çox hiylələrə əl atmışlar... Misal üçün, Rusiya imperatorunun canişini üçün iqamətgah yeri Qroznı, Vladikavkaz yox, Tiflis şəhəri seçilir. Gürcüstan «müsəlmanlıqdan» uzaqlaşdırılır, ruslaşma və ermənidəşmə 140 min nəfər önə keçir. Elə həmin dövrdən də şəhərdə erməni və rus əhalisindən olanların sayı həndəsi silsilə ilə artmağa başlayır. Bu neqativ hallar azmış kimi Rusiya silahlı qüvvələri 2008-ci ilin avqustunda bəyan etmədən Gürcüstanın – Marneuli, Bolnisi, Tetrisxaro, Qori, Borjom, Poti şəhərlərinin ərazilərini havadan bomba atəşinə tutdular, bu azmış kimi ardınca tank və beterlərlə də qurudan qırğına başladılar. Qeyd etmək lazımdır ki, Gürcüstanda yaşayan qeyri-gürcülər arasında abxazların xüsusi yeri vardır. Onlar gürcülərlə yanaşı Gürcüstanın qədim yerli aborigen əhalisidir...

Onların bir dövlətdə yaşamaları və çalışmaları gürcü mənbələrində öz təsdiqini tapmışdır. Lakin o da qeyd edilir ki, gürcü və abxaz xalqları arasında bəzi ayrı-seçkilik məhz Gürcüstanın Rusiya tərəfindən işğalından və ərazidə olan gürcü kilsələrinin ləğvindən sonra baş vermişdir. Bütün bu neqativ proseslər Rusiya hökuməti tərəfindən Abxaz xalqına qarşı aparılmış genosiddən irəli gəlmişdir. Abxaziyanın ovalıq ərazilərində yaşayan əhalinin çox faizi Türkiyəyə sürgün

edilmiş (70 minə yaxın), bununla da, mədəni inkişafın qarşısı alınmışdır. Gürcüstan Demokratik Respublikasının liderləri Abxaziyanın muxtariyyətini tanımağa məcbur oldular. Bunun ardınca Cənubi və Şimali Osetiya problemləri meydana gəldi. Abxazlara nisbətən osetinlər Gürcüstanın aborigen əhalisi sayılmırdı. Onların vətənləri Cənubi Osetiya yox, Şimali Qafqazda yerləşən Şimali Osetiya Muxtar respublikasıdır. Osetinlərin Gürcüstan ərazisində məskunlaşması XVII–XVIII əsrlərdən sonra intensiv şəkildə həyata keçirilməyə başladı.

Qafqazın yerli əhalisi olan ubixlər ruslar tərəfindən faktiki olaraq, tam məhv edildilər. Onlar, əsasən, Türkiyəyə sürgün olundular. Osetinləri isə sıxışdırdılar. Rusiya ilə Gürcüstan arasındakı dəmir və şosse yolları məhz Abxaziya və Osetiyanın ərazisindən keçirildi və Rusiya bu yol boyunda ona tabe olmayan əhalidən əraziləri təmizlədi.

Osetinlər Gürcüstana pənah gətirmiş xalqların yeganə nümayəndəsidir. Gürcüstan torpağında onlara muxtariyyəti məhz ruslar yaratdılar.

Buradan aydın olur ki, osetinlərin doğma yurdları olduğu halda, onların Gürcüstan torpağında yerləşdirilməsi və ikinci ərazi hesabına dövlət yaratmaq məsələsi, rusların bugünkü mənafeləri naminə təşkil olunmuşdur.

Bir qrup gürcü müəllifləri belə zənn edirdilər ki, türklərin alman torpaqlarına meyilliyi vardır. Merib Memardaşvilinin dili ilə desək «tatarların» (azərbaycanlıların) Gürcüstanda yarım milyondan artıq olmasını belə bir anlığa unudur. Bu yerdə möhtərəm tarix elmləri doktoru İ.Qaqaşidze – tatarlar məsələsinə çox ehtiyatla yanaşmış, onların bir sıra məsələlərə iddia edəcəklərini nəzərə alıb heç yada da salmır. Lakin Sangilionun, guya, əsgi gürcü əzəlli və yaşadığı ərazilər əbədi torpaqları olduğu barədə bütün dünya ölkələrinə car çəkmişlər. Əvəzində Borçalı kimi qüdrətli bir mahalın olması gündəmə də gətirilmir. Qeyd olunmalıdır ki, keçmiş Osetiya



Muxtar vilayətində 65 min, bütün Gürcüstan üzrə isə cəmisi 100 min nəfər osetin olduğu, doğma dillərində məktəb, universitet, Elmi Tədqiqat İnstitutları, teatr, 4 qəzet və s. göstərildiyi halda, yarım milyonluq əhalisi olan Borçalıda isə o mədəni məişət və s. obyektlərin heç 20-30 % belə fəaliyyət göstərmir. Ümumiyyətlə, bu ərazidə ruslaşma intensiv surətdə gedir. Bu günləri Gürcüstanda gürcülər qaçqın, köçkün vəziyyətindədir. Onlar Cavaxetiyaya, Abxaziya və Cənubi Osetiyaya belə ayaq basa bilmirlər. Budur rusların 2008-ci il avqust hadisələrinin acı sonluğu.

# NƏTİCƏ

Borçalı qədim yaşayış məskəni olaraq ərazisinin coğrafi baxımdan əhəmiyyətli olması və əhalisinin tarixi məskunlaşması bizim günlərədək tam dolğunluğu ilə tədqiq edilməmişdir. Bu gərəkli, son dərəcə vacib, milli təəssüb baxımından gələcək nəsillər üçün ibrətamiz ola biləcək «Borçalı və onun ətraf bölgələrindəki problemlər uzun illər boyu öz tutarlı həllini, hərtərəfli tədqiqini gözləmiş, indi də gözləməkdədir...» Biz isə hələ də problemin cözülməsinə gecikir, ləng tərpənirik.

Yalnız XX əsrin axırlarında gənc alim Ş.Məmmədli arxiv sənədləri əsasında Borçalının əsrin əvvəllərində düçar olduğu bəlalar, «yersiz gəldim, yerli qaç!» havalı acgöz, məkrli, bədniyyət erməni daşnakları tərəfindən onun ərazisinin paralanıb-parçalanması haqqında kitab yazıb nəşr etdirmişdir (Bax: Şurəddin Məmmədli. Paralanmış Borçalı. Azərnəşr. Bakı-1991). Bu kitab oxucular tərəfindən rəğbətlə qarşılandı. Lakin Borçalı və ətraf bölgələrin tarixi, qədimliyi onun ərazisində türk mənşəli qövmlərin məskunlaşması, etnoqrafiya və etimologiyası, tarixi-arxeologiyası, təsərrüfatı və iqtisadiyyatı, maarifi və təhsili, adət-ənənələri, saz-söz örnəkləri barədə bu günə kimi elmi əsaslarla təhlil edilib, araşdırılmayıb. Bizim «Gürcüstanda azərbaycanlıların sosial-iqtisadi vəziyyəti və mədəni əlaqələri» adlı monoqrafiyamız öz forma və məzmununa görə bu sahədə ilk elmi-tədqiqat təşəbbüsü sayıla bilər. Əsərə kompleks tədqiqatçılıq baxımından üstünlük verilmişdir.

Eramızın on səkkizinci yüzilliyinin ortalarında və on doqquzuncu yüzilliyin əvvəllərində Borçalı qəzasında olduqca əsaslı dəyişikliklər baş vermişdir. Şübhəsiz, bu dəyişikliklər Borçalının xeyrinə deyildi. Daha doğrusu, bu haqsız parçalanma qəza ərazisinin 2/3 hissəsinin əldən getməsi və əhalisinin (Azərbaycan türkləri) isə 1/3 hissəsinin qaçqın, köçkün və didərgin vəziyyətinə düşməsi deməkdir. Əgər biz bu ağrılı-acılı hərəkətləri, xalqımıza qarşa təcavüzü dövlət səviyyəsinə



səviyyəsinə qaldırıb, rəqəmlərin dili ilə danışdırsaq, belə bir acınacaqlı nəticənin şahidi olarıq: İstifadə olunan bir sıra mötəbər mənbələrin verdiyi məlumata görə, təşkil olunduğu dövrdə Borçalı qəzasının ərazisi təxminən 6 min kv. km , 1878–1880-ci illərdə 5,7 min kv. km olmuşdur (Borçalının, Şəmşəddinin və Ayrımın idarə olunmasını Nadir şah Kartli-Kaxet çarlığının tabeliyinə vermişdir). XX əsrin əvvəllərində (1918–1921) isə Borçalıya ağır zərbə vuruldu. Belə ki, onun ərazisi 1918–1921-ci illərdə 4,3 min kv. km, idisə, 1923–1929-cu illərdə bu rəqəm 2,6 min kv. km təşkil etdi.

Tarixin də öz qəribəlikləri varmış. Borçalı, Şəmşəddin, Ayrım və Pəmbək kimi ta qədimdən Azərbaycan türklərinin məskunlaşdığı ərazilər zaman-zaman xəritədən «küt» qayçı ilə kəsilib doğranmış, sahəsi kiçildilmiş, qan üstə bərqərar olan Şura hökumətinin gəlişi ilə də yarıya bölünüb, yarısı Gürcüstanda qalıb, yarısı da heçdən dövlət yaradan bədnam Ermənistan SSR-yə verilmişdir. Əslində, Borçalını, onun ətraf bölgələrini zor, hiylə gücünə parçalayıb ələ keçirmək nankor ermənilərin çoxdankı arzusu idi. Onlar əlverişli fürsət ələ düşən kimi öz xəbis planını reallaşdıra bildilər. Gözləri yenə də doymur.

Yerində deyilmişdir: «Öz xoşbəxtliyini türk xalqlarının bədbəxtliyi üstündə qurmaq-daşnak ünsürlü ermənilərin siyasi xəttinin əsas devizi olmuşdur». Məlumdur ki, Borçalı ərazisindəki Azərbaycan türkləri digər ətraf bölgələrdə yaşayıb fəaliyyət göstərən azərbaycanlılara nisbətən daha yığcam, daha kompakt yerləşməsinə baxmayaraq, əhali bu ərazidə daha çox məhrumiyyətlərlə üzləşmişdir. Şübhəsiz ki, Borçalıdan kənar, yəni onun ətraf bölgələrində Qabal, Qaraçöp, Karel, Kaspi, Muxran, Sığnağ və s. bölgələrin əhalisi dağınıq, lakin gürcü və s. millətlərlə çiyin-çiyinə yaşamışlar. Qeyd etməliyik ki, buna baxmayaraq, bu ərazilərdə diaspora zəif olmuşdur (1940). Lakin soydaşlarımızın diaspora və icma baxımdan fəaliyyəti nisbətən güclü olmuşdur. Belə ki, II Dünya müharibəsinin başlanması, Gürcüstanda milli qarşıdurma, azsaylı xalqların son illərin siyasi durumunda fəallığı və s.

ucbatından daha yetkin, daha sağlam qüvvələrlə təmasda olub, doğma torpaqların ətrafında birləşmişlər.

Bu proseslər hələ də davam edir. Şübhəsiz ki, Borçalının tarixində belə xoşagəlməz anlarla yanaşı, uğurlu çağları da az olmayıb. Ən ümdə və başlıca müvəffəqiyyət–Borçalı qəzasının Azərbaycan-türkdilli əhalisinin torpaq, vətən, ana və namus kimi toxunulmaz əxlaqi məziyyətlərinin bu günə gətirib çatdırmaq və onları hər şeydən üstün tutmaqdır. Daha sonra istək və arzular baxımından, qədim türk adət-ənənələrini, saz-söz sənətini qoruyub saxlamaq və nəsildən-nəslə tövsiyə etmək yolu – Borçalı və ətraf bölgələrin əsas amalı olmalıdır. Bu ərazilərdə qədim türk tayfalarının təkamül qələbələrindən biri də – «qarapapaq»ların «tərəkəmə»lərin milli şüurunun formalaşması, həyat-məişət tərzinin, özünüdərketmə təkamülünün müasir sivil səviyyəsinə yüksəlməsidir.

Maraqlı məlumatlar monoqrafiyanın birinci fəslinin üçüncü paraqrafında daha aydın şərh olunmuşdur. Tədqiqat işində mövcud ədəbiyyatlardan, mötəbər arxiv sənədlərindən istifadə olunub, yeri gəldikcə onlara istinad edən müəllif öz fikir və mülahizələrini açıqlamağa çalışmışdır. XX əsrin 20-ci illərinə qədər erməni və ermənipərəst tədqiqatçılar Borçalıda yerli əhalinin əksəriyyətinin Azərbaycan türkləri olduğunu inkar edərək, əvəzində sayca erməni gəlmələrinə üstünlük vermişlər.

Buradan aydın olur ki, həmin ərazilərin tarixi etnoqrafiyasının və əhalisinin məskunlaşmasının doğru-dürüst öyrənilməsində tədqiqatçılar üçün çətinliklər ortaya çıxır. Əlbəttə, bu xoşagəlməz məsələlərə antik və orta əsr mənbələrində rast gəlinmir. Nə yaxşı ki, xeyirxah insanlar bu qədim mənbələri qayğı və fədakarlıqla zəmanəmizə kimi qoruyub saxlamışlar.

XIX əsrin axırlarında Arqutinski-Dolqoruki kimi üzdəniraq, rus libasına girmiş daşnak erməni (belələrinin sayı həddindən artıq çoxdur) «ziyalı-tədqiqatçıları» Tiflisdə gürcülərin səmimiyyətindən və etibarından sui-istifadə edib, özü



də utanıb-çəkinmədən, yeni gürcü Arqutalivali-Mxaqrdzeli familiyasını, bunun da tam hərfi mənası Arqutov-Pleçistıy, sonradan isə «fantastik» olaraq qədim rus familiyası olan «Arqutinski-Dolqoruki»yə çevrilmişdir.[51] Belə misalları satqınlıq, ikiüzlülük nümunəsi kimi çəkmək olar.

Nəticə olaraq qeyd etməliyik ki, bu monoqrafiya, sadəcə olaraq, hesabat kimi yazılmamışdır. Əvvəla, bu monoqrafiyanın materiallarının bir hissəsi son 45 ildə ərazinin tədqiqat obyektlərində elmi axtarışlar aparmış, elmi təhlillər vermiş, müəllif tərəfindən qədim tarixi mənbələrdən və anket, sorğu metodlardan istifadə edilməklə yazılıb çap olunmuş dördcildlik əsərdə ümumiləşdirilmişdir. Bu monoqrafiyanın yazılmasında da müəllif həmin mənbələrdən bəhrələnmişdir.

Müəllif çalışmışdır ki, icmanı, diaspor məsələsini isə Borçalıdan kənarda, ətraf bölgələrdə tədqiq edib öyrənsin. Lakin ətraf bölgələrdə diasporun lazımi səviyyədə formalaşması ləng getdiyindən və bu problemin doğma Borçalıdan kənar öyrənilməsi çətinlik törətdiyi üçün əsərdə bütün problemlər Borçalı ilə əlaqəli öyrənilib tədqiq edilmişdir.

---

[51] В.Л.Величко, Кавказ, русское дело и междуплеменные вопросы. Т. первый, изд. М.Д. Муретовой. С.–Петербург, 1904., стр. 78.

# ƏDƏBİYYAT


1. Аргутинский-Долгоруков. Борчалинский уезд. Тифлис, 1893.
2. Bakıxanov A. «Gülüstani-İrəm» Bakı, 1951.
3. Bünyadov Z.M. «Borçalı Qarapapaqlıları», Borçalı jurnalı № 1, 1993, səh. 14.
4. В.А. Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы. I том. С. –Петербургъ, 1904.
5. Vəliyev H. Gürcü mənbələrində Azərbaycan ədəbiyyatı.
6. Ган К.Ф. Опыт объяснения кавказских географических названий. СМОМПК, ЧО, Тифлис, 1909, стр.146.
7. Гурко В.- Кряжин. Армянский вопрос. Б.,1990.
8. Gürcüstanın tarixi oçerkləri, IV c. «Sobcota sakartvelo». Tbilisi 1973.
9. Кавказский календарь. III т. Тифлис, 1893.
10. Кавaказский календарь. IX т. Тифлис, 1907.
11. Караулов Н.А. Сведения арабских географов IX и X вв. о Кавказе, Армении и Азербайджане. Картлис Сховреба, С. Кханхчишвили II «Сабсота Сакартвело»1959. СМОМПК, 29, 31, 32, 38 Тифлис, 1901, 1902, 1903, 1909.
12. «Kitabi-Dədə Qorqud». Bakı, 1988.
13. Дилара Алиева. Из истории азербайджано-грузинской литературы (док. диссертация).
14. Əliyeva Dilarə. Ürək bir–dilək bir. Bakı «Yazıçı», 1991.
15. История Грузии, II том. Тбилиси, 1956.
16. Məmmədli Ş. Paralanmış Borçalı. Bakı, 1992.
17. Статистический сборник Грузии. Тбилиси, 1926.
18. Статистический сб. по населению Кавказа. Баку, 1990.
19. Ordubadi M.S. Bahar bayramı «Ədəbiyyat və İncəsənət» 1967, mart.
20. Sorğu və anket metodları vasitəsilə aparılan çöl-tədqiqat materialları.
21. Təhmasib M.H. «Adətlər, ənənələr, bayramlar», «Ədəbiyyat və İncəsənət», 1966, may.
22. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. М-Л., 1959.
23. Газета «Новое обозрение». Тифлис, 1885, 1890.
24. Telefon bilgi kitabı. Borçalı maarif və mədəniyyət cəmiyyəti. Bakı, 1992.
25. Сумбатзаде А.С. Азербайджанцы. Этногенез и формирование народа. Баку, «Элм», 1990.
26. Hacıyev V. Folklorumuzun üfuqləri (dissertasiya).
27. Hacıyev A.M. Tiflis ədəbi mühiti. B., 1990.
28. Feyzullayev A.H. Maarif carçıları. «Maarif» nəşriyyatı. B., 1988.
29. Лор Меликова Сайер. Кероглы, от легенды к опере. Б., 1957.
30. Məmməd Sarvanlı «Ulu Borçalı» Tarixi etnoqrafik oçerk toplusu. B., 1998.
31. Məmməd Sarvan, Musa Çobanlı Borçalı. Tarixi-coğrafi və etnoqrafik əsər. B. 2003.


## QƏZETLƏR


1. «Azərbaycan» № 23, 1992.
2. «Azərbaycan» № 3, 1990. «Köçürmələr siyasəti».
3. «Sabah» № 3, № 7, Bakı, 1991, 1992. «Gürcüstanda yaşayan Azərbaycan adət-ənənələri».
4. «Yurddaş», 19 may, 1993.

## XARİCİ ƏDƏBİYYAT


1. Türkiye Tarihi. I. AETİNTEN Osmanlılara kadar. (1018-1300). ANKARA –1990.
2. Fransız ədəbiyyatı tarixi, T.M. 1956 (R).


## MÜNDƏRİCAT


GİRİŞ ........................................ 3

FƏSİL I. GÜRCÜSTAN RESPUBLİKASINDA AZƏRBAYCANLILARIN SOSİAL-İCTİMAİ VƏZİYYƏTİ VƏ İQTİSADİ DURUMU HAQQINDA

§ 1. Azərbaycanlılar yaşayan bölgələrin təbii-coğrafi şəraiti ........ 8

§ 2. Gürcüstanda azərbaycanlıların məskunlaşma tarixinə dair ........ 11

§ 3. İnzibati rayonlar üzrə əhalinin demoqrafik quruluşu ........ 22

§ 4. Bölgələr üzrə diasporun sosial-ictimai vəziyyəti və tarixi fəaliyyəti ........ 50

§ 5. Bölgələrdə azərbaycanlıların məskunlaşması baxımından məntəqələrin sosial vəziyyətinin iqtisadi cəhətdən qiymətləndirilməsi ........ 58

FƏSİL II. AZƏRBAYCANLILARIN SOSİAL-MƏDƏNİ HƏYAT TƏRZİ VƏ ONLARIN ADƏT-ƏNƏNƏLƏRİ

§ 1. Bölgələrin sosial-mədəni həyatı ........ 70

§ 2. İctimai fəaliyyət dairəsinin təsərrüfat sistemindəki rolu ........ 80

§ 3. Borçalıda maarifin inkişaf mərhələləri ........ 103

§ 4. Borçalı və ətraf bölgələrdə xalq adət-ənənələri və bayram şənlikləri ........ 114

FƏSİL III. GÜRCÜSTANIN AZƏRBAYCANLILAR YAŞAYAN BÖLGƏLƏRİNDƏ İCTİMAİ-SİYASİ VƏZİYYƏT VƏ ONLARIN TƏNZİMLƏNMƏSİ YOLLARI
§ 1. Borçalının ictimai-siyasi həyatı ........ 134
§ 2. Gürcüstanın azərbaycanlılar yaşayan digər bölgələrində ictimai-siyasi durum ........ 149
§ 3. Avqust 2008-ci il gürcü-rus müharibəsinin acı sonluğu ........ 151
NƏTİCƏ ........ 158
ƏDƏBİYYAT ........ 162



**Bədii və texniki redaktoru:** Abdulla Ələkbərov
**Kompyuter tərtibatçısı:** Mələk Cəlilova
**Korrektorları:** Ülkər Şahmuradova, Nigar İnqilab qızı, Natəvan Məmmədova
**Kompyuter yığımı:** Ramilə Şixəliyeva, Elmira Qasımova, Nuranə Əhədova

Çapa imzalanmışdır 22.11.2010. Kağız formatı 60x90 1/16.
Ofset çapı. Fiziki çap vərəqi 10,5. Sifariş 70, Tiraj 700.

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC
müəssisəsinin mətbəəsində çap olunmuşdur.
Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121A
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: info@tahsilnp.com

*SADIQOV MƏMMƏD ORUC OĞLU*
**GÜRCÜSTAN RESPUBLİKASINDA AZƏRBAYCANLILARIN SOSİAL-İQTİSADİ VƏ İCTİMAİ-SİYASİ VƏZİYYƏTİ.**
Bakı, «Təhsil», 2010.